# TANRI BÖYÜKDÜR



İlahiyyatçı
CAMİR AĞAYEV

# TANRI
# BÖYÜKDÜR

*Ateistlərə cavablar*

**Müəllif:**
**İlahiyyatçı CAMİR AĞAYEV**

**Redaktor:**
**İlahiyatçı SƏYAVUŞ YƏHYAYEV**

**Bakı - 2022**

**Bismillahir-rəhmanir-rəhim**

أَفِي اللّهِ شَكٌّ فَاطِرِ السَّمَاوَاتِ وَالأَرْضِ

***“Məgər göyləri və yeri yaradan Allaha da şübhə etmək olarmı?!”***

***“İbrahim” surəsi, ayə 10.***

***Bütün Gürcüstan Müsəlmanları İdarəsi 2022***

# Ön söz

Müqəddəs İslam dini dinlərin sonuncusu və ən kamilidir. İnsanlara bütün əxlaqi dəyərləri və keyfiyyətləri bəyan edərək, bütün gözəl əməllərə sahib olmağı, bu əməlləri cəmiyyətdə icra etməklə yanaşı, başqalarına da tövsiyə etməyi əmr etmişdir bu din. Bundan başqa, İslam ictimai bir din olduğunu sübut etməkdədir.

İctimai birliyi qorumağı və vəhdət halında yaşamağı, insanların bir-birinə qayğı və məhəbbət göstərməsini zəruri əməllərdən hesab edir. Həmçinin, İslam dini qeyriənənəvi dinləri və təriqətləri özündən dəf edərək, əsas prinsiplərinə zərər yetirilməsinin qarşısını almaqdadır.

Buna baxmayaraq, tarix boyu ictimai birliyi və vəhdəti zəiflətmək üçün müxtəlif vasitələrlə milli və dini dəyərlərimizə zərbə vuraraq ictimai birliyimizi pozmağa çalışıblar. Bu məqsədlə dini dəyərlərdən istifadə etmişlər. Xüsusilə son zamanlar gənclərin inancına təsir edən kitabların satışı geniş vüsət almışdır. Bu cür zərərli ədəbiyyat sırasında ateizmi təbliğ edən "Tanrı böyük deyildir" adlı kitab da yer almaqdadır.

Bu növ zərərli ədəbiyyat əhalinin, xüsusilə, gənclərin inancına böyük zərbə vurur. Buna görə də cavan nəsil ayıq-sayıq olmalı, bu cür fitnə yaradan, ictimai birliyimizi pozan oyunları sezməli və yaranan bütün şübhəli sualları məntiqlə cavablandırmalıdırlar.

Ümid edirik ki, "Tanrı Böyükdür" kitabı yaranan bütün sualları çox gözəl və məntiqli şəkildə cavablandırıb dəyərli oxucularımızı qane edəcək. Bunun üçün bu kitabın müəllifi ilahiyyatçı Camir Ağayevə öz dərin təşəkkürümü bildirir və ona bu yolda müvəffəqiyyətlər arzu edirəm.

*İlahiyyatçı Mahmud Əsgərov*
*QMİ-nin Cəlilabad şəhəri üzrə səlahiyyətli nümayəndəsi.*

## MÜQƏDDİMƏ

Bəşər yaradılışın əvvəlindən dərinliyini başa düşə bilmədiyi bir çox sirlərlə qarşılaşmışdır. İnsan bəzən özünü böyütməsi, bəzən elm və agahlıqdan uzaq düşməsi, bəzən də zəhərli fikirlərin hücumu nəticəsində Allah-taalanın varlığını inkar edir və bu yolda uğur qazanmağa çalışır. Tarix boyu belə insanlar mövcud olmuş və bu gün də belələrinə rast gəlməkdəyik.

Ateistlik yolu tarixdə dəfələrlə məğlubiyyətə uğramış və uğursuz bir yol olmuşdur. Çünki bu, insanın fitrəti və vicdanı ilə təzadda olan bir yoldur. Hər bir sağlam ağıl və düşüncə sahibi ateistlik fikirlərinin yanlış olduğunu anlayır, lakin müxtəlif səbəblərdən öz mövqeyindən əl çəkmir.

İnsanlar gec-tez öz sağlam fitrətinə qayıdır və haqq yolunu seçirlər. Əlbəttə, öz inadkarlığında qalanlar da olur. Öz inadkarlığında qalıb ateistlik yolunu davam etdirən və hətta bu yolu təbliğ edən, özü üçün ardıcıllar toplayan və **TANRI BÖYÜK DEYİLDİR** adlı bir əsəri ərsəyə gətirənlərdən biri də Kristofer Hitçensdir.

O, 13 Aprel, 1949-cu ildə İngiltərədə dünyaya göz açmışdır. Hitçensin anası yəhudi idi. O, 1973-cü ildə intihar etmişdir, atası isə ikinci dünya müharibəsində hərbi dəniz donanmasının tərkibində qulluq etmişdir.

Oksford Universitetini bitirən Hitçens jurnalist, yazıçı, ədəbi tənqidçi və s. kimi fəaliyyət göstərmişdir. Bir müddət "Beynəlxalq Sosializm" (İnternational Socialism) adlı jurnalının yazarı olmuşdur. Hitçens iki dəfə ailəli olub, onun hər iki nikahdan övladları var. "Tanrı böyük deyildir" kitabında yazıldığı kimi, uşaqlıq dövründən fiziki və psixoloji hücumlara

məruz qalan Hitçensin həyatı haqsızlıqlarla dolu olub. Erkən yaşlarından zülmə məruz qaldığı üçün onun fikirləri qarışır.

"Kristofer Hitçensin qardaşları" adlı kitabda yazıldığına əsasən, Hitçensin öz qardaşı ilə də gözəl münasibətləri olmayıb və onun eqoist bir insan olduğu ortaya çıxmış olur.

Kristofer Hitçens bir çox ölkələri səfər edir və müxtəlif batil cərəyanlarla tanış olur. Ona görə də Allaha etiqad məsələsi onun həyatından silinir. O, qarşılaşdığı batil inancları gördükdə, artıq həqiqi dini axtarmaq fikrinə belə düşmür.

Hitçens sonralar öz söhbətlərində, məruzələrində Allah-taalanı inkar etmək zəminində əlindən gələni edir və əsasən **TANRI BÖYÜK DEYİLDİR** kitabını yazdıqdan sonra məşhurlaşır.

"Tanrı böyük deyildir" kitabını oxuyan hər kəs açıq şəkildə başa düşür ki, Hitçens öz iddialarında heç bir dəlil irəli sürməmiş və kiçik hadisələrdən böyük qənaət əldə edərək özü üçün bir etiqad düzəltmişdir. Bəzən batil bir cərəyanın hər hansı bir işini görüb bunu bütün ibadət əhlinə aid edir, həqiqi İslam deyil, maskalanmış və həqiqi İslamı aradan aparmaq üçün xüsusi təşkilatçılıqla hazırlanmış Əl-Qaidə kimi qruplarla tanış olur və bunu İslam kimi tanıyır. Bəzən də İslam deyil, məhz təhrif edilmiş yəhudilik və xristianlıqda baş verənləri bütün dinlərə aid edib onları bütövlüklə məhkum edib pisləyir. Hətta elə hallar da olur ki, İslamda hər hansı bir məsələni düzgün başa düşmədiyi üçün bu dini və onun ardıcıllarını tənqid atəşinə tutur və çox vaxt da qəlbinə gələn hər bir şübhəni həqiqət kimi qəbul edir və digərlərinə də həqiqət kimi qəbul etdirməyə çalışır.

"Tanrı böyük deyildir" kitabında Hitçens bir həqiqəti etiraf edir. Klinton administrasiyasının üzvləri və tərəfdarları ilə nahar zamanı Hitçensə bir sual ünvanlanır və o, verdiyi

cavaba görə az qala fiziki zorakılığa məruz qalır. Hitçens özü bu barədə belə yazır:

**"İyirmi beş il sürən müzakirələr ərzində Vaşinqtonda sadəcə bir dəfə fiziki zorakılığa məruz qalmağıma təhlükə yarandı. Bu, Klinton administrasıyasının üzvləri ilə nahar zamanı baş vermişdi. Onların arasında ictimai rəy və seçki kampaniyalarının maliyyələşdirilməsi üzrə məşhur ekspert var idi. O, Yaxın Şərqə son səfərim barədə məni sorğu-suala tutdu və müsəlmanların niyə "şüursuz fundamentalistlər" olduqları sualına cavabımı öyrənmək istədi. Mən standart izahat üsulumu seçdim, lakin əlavə etdim ki, İslamın nisbətən gənc din olduğunu və öz doğruluğunu "gənclik coşğusuyla" sübut etdiyini çoxları unudur. Qərb xristianlığını bürüyən böhran və şübhə İslam dininə aid deyil. Həmçinin dedim ki, haqqında, demək olar ki, heç bir tarixi dəlil olmayan İsadan fərqli olaraq, Məhəmməd tam tarixi bir fiqurdur. Həmsöhbətimin siması bir anda dəyişdi. O, yüksək səslə bağırdı ki, İsa Məsih bəşəriyyət üçün təsəvvür edə biləcəyimdən daha çox şeylər edib və mənim çərənləməyim son dərəcə çirkindir. Sonra ayağı ilə mənə zərbə vurmağa cəhd etdi...".**

Bəli, həqiqət acı olsa da, bunu etiraf etmək insanın fitrətindən qaynaqlanır.

Kristofer Hitçens 15 Sentyabr, 2011-ci ildə, 62 yaşında xərçəng xəstəliyindən dünyasını dəyişib.

Hitçensin "**God is not great**" kitabı azərbaycan dilinə tərcümə edilərək "**Tanrı böyük deyildir**" adı ilə ölkəmizdə nəşr edilib. Biz də ilahiyyatçı və elm əhli olaraq bu kitabı oxuyub oradakı iradlara aydınlıq gətirmək fikrinə düşdük.

Bu əsər, ilk növbədə, Hitçensin yazdığı kitaba cavabımızdır. Ona görə kitabı belə adlandırdıq - **TANRI**

**BÖYÜKDÜR**. Kitabın əvvəlində Hitçensin fikirlərinə, sonunda isə ateistlərin digər iradlarına da cavablar vermişik. Allahın yardımı ilə, bundan sonrakı cildlər də TANRI BÖYÜKDÜR adı ilə çap olunacaq. Faydalı olacağına ümid edirik...

İlahiyyatçı Camir Ağayev.

## 1. İRAD

"Tanrı böyük deyildir" kitabında dini inanc haqqında belə qeyd olunub: **"Nə üçün bu inanc ona (dinə) inananlara xoşbəxtlik gətirmir? Məgər onlar özlərini, ən çətin anda belə, yardıma gələ biləcək möhtəşəm bir sirrin sahibi hesab etmirlərmi?" Yəni möminlərin əqidəsinə görə, çətinliyə düşdükləri zaman Allah onların imdadına çatır. Əgər belədirsə, onda nə üçün onlar xoşbəxt deyillər? Ümumiyyətlə, nə üçün din insanlara xoşbəxtlik gətirmir?**

**Cavab**

Bu ideologiyanın daşıyıcısı olan ateistlərə belə bir sual vermək istərdik: Gördüyünüz və tanıdığınız mömin təbəqənin və dinə bağlı olan kəslərin neçə faizindən belə bir şeyi eşitmisiz? Bu insanlar dinin onları bədbəxt etdiyini deyirlərmi?

Digər tərəfdən, deyə bilərsinizmi, sizlərdən neçə faizi ateist olmaqla xoşbəxtlik əldə etmişdir?

Ümumiyyətlə, siz xoşbəxtlik məfhumunu necə anlayırsınız və sizin nəzərinizdə atezmin xoşbəxtliklə bağlı irəli sürdüyü hansısa bir proqramı varmı? Bir sözlə, ateizmin göstəricisi nədir? Bütün dinlərin özünəməxsus göstəricisi və təqdim etdiyi proqramları var. Din xoşbəxtlikdən söhbət açır, səadətə nail olmaq üçün müəyyən proqramlar təqdim edir. Xülasə, din müəyyən proqramlara malikdir, bəs atestlikdə belə bir proqram varmı?

Əgər ateistlər dindar insanların maddi, iqtisadi, ictimai və s. problemlərini nəzərə alıb bu məsələni (yəni dindarların xoşbəxtsizliyi) iddia edirlərsə, onda **ƏSLA** xoşbəxtlikdən danışmaq olmaz! Çünki qeyri-müsəlman və dini rədd edən

ölkələrdə də, belə problem və narazılıqlar var. Bir sözlə, bu məsələ insanın fərdi, ictimai, siyasi və iqtisadi sahədəki çətinliklərini nəzərə alaraq iddia olunursa, onda ateistlərin özləri də xoşbəxtlikdən əl çəkməli və bu məsələdən danışmamalıdır. Ona görə ki, dünya həyatı bu cür problemlərdən kənarda deyil.

Əslində, din insanlar üçün əxlaqi fəzilətlərdən ibarət müəyyən proqramlar nəzərdə tutmuş və onu kamal və səadətə istiqamətləndirmişdir. Məsələn, din insan üçün tövhid, qüdrət mənbəyi olan Allaha arxalanmaq, gələcəyə ümidvar olmaq, Axirət həyatına inanclı olmaq və özünü ona hazırlamaq kimi ümdə məsələləri önə çəkmişdir.

Dinin həyatın fərdi, ictimai, iqtisadi və s. kimi bütün sahələrilə bağlı etiqadi proqramları vardır.

Din insanın özünü heyvandan fərqləndirməsi üçün onu sağlam və normal bir həyata təşviq edir. Din insana əhəmiyyət verərək onu kamala səsləyir. Əgər ateistlər də bunu iddia edirlərsə, bu ona görədir ki, onlardan öncə din bunu təqdim etmiş və bildirmişdir. Belə çıxır ki, ateistlər sadəcə söz oyunu ilə məşğuldur və praktiki olaraq heç nəyə sahib deyillər. Ateizmin əksinə olaraq, din və Qurani-Kərim tamamilə fərqli məsələlərə toxunur.

"Hud" surəsinin 108-ci ayəsində buyrulur:

وَأَمَّا الَّذِينَ سُعِدُواْ فَفِي الْجَنَّةِ خَالِدِينَ فِيهَا مَا دَامَتِ السَّمَاوَاتُ وَالأَرْضُ إِلاَّ مَا شَاء رَبُّكَ عَطَاء غَيْرَ مَجْذُوذٍ

**"Xoşbəxt olanlara gəldikdə isə, onlar Cənnətdə əbədi qalacaqlar. Onlar - Rəbbinin istədiyi istisna olmaqla - göylər və yer durduqca orada əbədi qalacaqlar. (Bu,) tükənməz bir bəxşişdir".**

Dinin nəzərində Cənnətə nail olan xoşbəxt insanlar dinə və onun qayda-qanunlarına əməl edən kəslərdir. Hətta biz əminlik və cəsarətlə iddia edə bilərik ki, dindən başqa insanı səadətə kamil bir proqramla dəvət edən heç bir şey yoxdur və bu proqramı irəli sürən yalnız dindir. Xoşbəxt insanlar dinə əməl edən, ictimai və fərdi həyatla bağlı dini göstərişlərə itaət edən kəslərdir. İnanın ki, sözügedən "Tanrı böyük deyildir" kitabını oxuduqda belə, insan sıxıntı keçirir və müəllifin həddən artıq psixoloji problemlərinin və iztirablı həyatının olduğu məlum olur.

Əgər ateistlik budursa, onda bu elə bizim başa düşdüyümüz divanəlikdən ibarətdir. Əvvəldə də qeyd etdiyimiz kimi, kitabda yazılır: **"Məgər onlar ən çətin anda belə yardıma gələ bilən möhtəşəm bir sirrə sahib olduqlarını hesab etmirlər?"** Cavab veririk: Bəli, hesab edirik! Bizim Allah-taalaya etiqadımız var və son anda deyil, hər anda və daima Ona arxalanır və dualarımızda Ondan kömək istəyirik. Allaha olan inancımız və imanımızı gizlətmir və aşkarcasına bunu etiraf edirik. Allahın varlığının isbata ehtiyacı yoxdur və aləmdəki nizam-intizam və elmi sistemlilik Onun varlığına bir dəlildir. Dəlillər sadəcə kafirlər və ateistlər üçün gətirilir və bəyan edilir.

## 2. İRAD

> **K.Hitçens yazır:**
> **"Əgər bir şəhərdə, qaranlıqda qabağıma dini ayinlərdən qayıdan şəxslər çıxsaydı, çox qorxardım... Bir sözlə, ibadətdən qayıdan şəxsləri gördükdə, mən adətən yolumu dəyişirəm".**

**Cavab**

Siz İŞİD, Əl-Qaidə kimi Amerika və İngiltərənin hazırladığı, məqsədyönlü və qərəzli şəkildə təlimatlandırılan və özlərini İslama mənsub hesab edən radikal islamçı qrupları gördüyünüzdən və həqiqi möminlərdən xəbərsiz olduğunuzdan belə danışırsız. Siz həqiqi möminləri harada görmüsünüz? Siz həmişə təhlükəli insanları görmüsünüzsə, bu sizin probleminiz olub və onlar həqiqi islamçılar deyil. Ümumiyyətlə elə insanları ***dindar*** hesab etmək özü yanlış bir işdir.

Ümumiyyətlə, mömində, müsəlmanda ifrat və təfrit olmaz. Həzrət Əli (ə) buyurur:

قَالَ علی (ع): لَا ﴿يُرَى الْجَاهِلُ﴾ تَرَى الْجَاهِلَ إِلَّا مُفْرِطاً أَوْ مُفَرِّطا

“Cahil və nadan insan, həmişə ya ifrata varar, ya da təfritə uğrayar”.[1]

Cahil insan ya radikal olar, ya da ifrat və təfritə yol verər. Bu baxımdan aydın olur ki, sizin rastlaşdığınız insanlar əsla həqiqi islami təlim və əxlaqla tərbiyələnməmişlər. Həqiqətdə İslam dini sülh və əmin-amanlıq, məhəbbət və dostluq dinidir. İslamda ifrat və təfrit yoxdur. İfrat və təfritə varan insanlar da həqiqi islamdan uzaq düşmüşlər. Nəticədə, rastlaşdığınız nə şəxslərin və də, ayinlərin həqiqi islamla heç bir əlaqəsi yoxdur. Hansısa bir müsəlman və ya mömində sərt rəftar və ya radikallıq görmüsünüzsə, bunun İslama və dinə nə aidiyyatı var?

Həqiqi möminlərdə də hər hansı əxlaqi problemlər olsa belə, əvvəla onu ümumiləşdirmək olmaz. Digər bir tərəfdən bu, heç də dinin də bu cür olması demək deyil! Dindən söhbət gedirsə, burada şəxslərdən deyil, dinin özündən danışmaq

---

[1] “Nəhcül-bəlağə”, hikmətli sözlər, 70

lazımdır. Dindarlarda olan fərdi problemləri ümumiləşdirib dinlə bağlamaq olmaz. Həqiqətdə dinin məntiqinin nədən ibarət omlasını anlamaq lazımdır.

Siz özlərini İslama mənsub edən, həqiqətdə isə dindən xəbəri olmayan kəslərlə rastlaşmısınızsa, bunun da həqiqi dindarlarla əlaqəsi yoxdur.

Əsl müsəlman, İslamın əsl qayda-qanunlarına riayət edən kəs təhlükəsiz və qorxusuz bir şəxsdir və ondan insana əsla zərər gəlməz!

**3. İRAD**

**Din - sağlamlığınız üçün təhlükədir.**

**Cavab**

Sağlamlıq dedikdə, cismani sağlamlığı nəzərdə tutursunuz, yoxsa ruhi sağlamlığı?

Əgər cismani sağlamlığa - ürəyə, hansısa bir bədən üzvünə, din zərər vurursa, onda İslamın bədən üzvləri ilə bağlı göstərişlərini nəzərdən keçirək. Məsələn, İslam göstəriş verir ki, yeməkdən əvvəl və sonra əllərinizi yuyun, yemək əsnasında su içməyin, dişlərinizi fırçalayın və s. Gəlin bunları araşdıraq; əgər iddianız doğrudursa, nə üçün bu qədər müddətdə elm adamları bu göstərişlərin sağlamlığa zərər vurduğunu bildirməyiblər?

Əgər oruc tutmaq və bir sıra digər göstərişlərin bəzi hallarda insan orqanizminə, misal üçün mədəyə zərər verdiyini nəzərdə tutursunuzsa, bəli, xəstə kəslər, qoca və yaşlılar, uşaqlar üçün bu göstərişlər vacib deyil və Allah-taala onların öhdəsindən mükəlləfiyyəti (halal-haram məsələlərinə görə məsuliyyəti) qaldırmışdır.

Ümumilikdə, dinin insan bədəni ilə əlaqədar göstərişlərinin heç biri zərərli deyil, əksinə, faydalıdır. İddianız doğrudursa, nə üçün tibb alimləri "Din" adlı bir virusun olduğunu və sağlamlığa zərər vurduğunu bəyan etməmişdir? Nə qədər dindar həkimlər var, belə çıxır ki, din onları zəhərlənmişdir və özləri də xəbərsizdirlər.

Əgər desəniz, din insan ruhuna zərərdir, onda cavab verin: Dünyadakı dindarların neçə faizi dəli olub, psixologiyası pozulub? Yaxud da qeyd edilən dindar alimlərin hansının psixologiyası pozulub?

İnsanı düzgünlük, paklıq və mənəviyyata səsləyən qanunları zərərli hesab edirsiniz?

Dini göstərişlərdən heç biri insanın sağlamlığına zərər yetirməmişdir. Dində buyurulur ki, zülm etmək olmaz, ədalətli olmaq lazımdır, çətinliklə qarşılaşdıqda səbir göstərmək, elmli olmaq, özünə dəyər verdiyin qədər başqalarına da dəyər vermək, istirahətinə fikir vermək lazımdır və s. Bu göstərişlər insanın həm cismani, həm ruhu sağlamlığına faydalıdır. Bunu ağlımız da qəbul edir, buna təkid edir. Bu qədər faydaları olan qanunları, din adı verildiyindən zərərli sayırsınızsa, bu necə sağlam düşüncə ola bilər?!

## 4. İRAD

**Din - irqçiliyə bənzəyir.**

**Cavab**

İslam dini müsəlmanlar arasında hətta qohumluq əlaqələri olmadan belə, onların arasında qardaşlıq məfhumunu irəli sürərək, bütün müsəlmanların, möminlərin bir-biri ilə qardaş olduğunu elan etdi. Quranda "Hucurat" surəsinin 10-cu ayəsində buyrulur:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ.

**"Həqiqətən, möminlər bir-biri ilə qardaşdırlar".**

Allahın Rəsulu (s) da buyurur:

**"Mömin mömininin qardaşıdır və onlar bir bədən kimidir".**

Başqa bir hədisdə buyurur:

قَالَ رَسُولُ اللهِّ (ص): أَيُّهَا النَّاسُ إِنَّ رَبَّكُمْ وَاحِدٌ وَ إِنَّ أَبَاكُمْ وَاحِدٌ لَا فَضْلَ لِعَرَبِيٍّ عَلَى عَجَمِيٍّ وَ لَا لِعَجَمِيٍّ عَلَى عَرَبِيٍّ وَ لَا لِأَحْمَرَ عَلَى أَسْوَدَ وَ لَا لِأَسْوَدَ عَلَى أَحْمَرَ إِلَّا بِالتَّقْوَى

**"Ey insanlar! Həqiqətən sizin Rəbbiniz birdir. Sizin atanız da (Adəm) birdir. Heç bir ərəbin əcəmdən (qeyri-ərəbdən), əcəmin ərəbdən, ağ dərili insanların qara dərililərdən və qara dərililərin ağ dərililərdən üstünlüyü yoxdur, üstünlük yalnız təqva ilədir".**[1]

Öz ardıcıllarını bir-biri ilə qardaş hesab edən bir din, irqlçiliyə necə bənzəyə bilər?

Din özünü bəyənməni, təkəbbürlüyü pisləyir. Hətta Quranın digər dinlərin ardıcılları ilə də sülh və vəhdətlə davranmağa əmr etdiyini görürük. Onları birliyə dəvət edir və ixtilaflı fikirləri kənara qoymağı əmr edir. Yəni onlarla belə irqçiliklə rəftar etmir.

"Ali İmran" surəsinin 64-cü ayəsində buyrulur:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللهَّ وَلاَ نُشْرِكَ بِهِ شَيْئاً وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَاباً مِّن دُونِ اللهِّ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ.

**"De: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan "Allahdan başqasına ibadət etməyək, heç nəyi ona tay tutmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul**

[1] "Mədənul-cəvahir və riyazətul-xəvatir", s.21.

**etməyək!" kəlməsinə tərəf gəlin! Əgər onlar (bu çağırışdan da) üz döndərsələr, o zaman deyin: "Şahid olun ki, biz müsəlmanıq!"**

Allah-taala burada qeyri-müsəlmanlara xitab edir və onları vəhdətə və irqçilikdən çəkinməyə dəvət edir.

"Bəqərə" surəsinin 194-cü ayəsində buyrulur:

وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبِّ الْمُعْتَدِينَ

**"Sizə qarşı həddi aşanlara qarşı siz də həmin ölçüdə həddi aşın. Allahdan çəkinin (təqvalı olun, ifrata varmayın) və bilin ki, Allah təqvalılarladır".**

"Maidə" surəsinin 87-ci ayəsində buyrulur:

إِنَّ اللّهَ لاَ يُحِبُّ الْمُعْتَدِينَ

**"Həqiqətən, Allah həddi aşanları sevməz!"**

Həzrət Muhəmməd (s) buyurur:

قَالَ رَسُولُ اللّهِ ص مَنْ كَانَ فِي قَلْبِهِ حَبَّةٌ مِنْ خَرْدَلٍ مِنْ عَصَبِيَّةٍ بَعَثَهُ اللّهُ يَوْمَ الْقِيَامَةِ مَعَ أَعْرَابِ الْجَاهِلِيَّةِ.

"Hər kəsin qəlbində xardal dənəsi qədər təəssübkeşlik və irqçilik olsa, Allah onu Qiyamətdə cahiliyyətdəki ərəblərlə məşhur edər".[1]

Dində əsla irqçiliyə yer yoxdur. Dinin göstərişləri irqçilik və ayrı-seçkiliyi tənqid edir. Dində, irqçilikdən fərqli olaraq, ədalət və əmin-amanlıq var, yerli-yersiz ayrı-seçkilik yoxdur. Təbii ki, başqa dinlərlə ziddiyyətli məsələlər var, lakin bu o demək deyil ki, İslam irqçiliyə yol verir. İslam dini səhv yollardan çəkindirir və bu kimi məsələlərdə fərqli yanaşmağa əmr edir. Əgər bir yol səhvdirsə, ona fərqli yanaşma heç də

[1] "Kafi", c. 2, s. 308.

irqçilik deyildir və o demək deyil ki, biz kor-koranə olsa belə, o yolu getməliyik. İslam da həmin məsələlərə aydınlıq gətirir və düz yola yönəldir. Bu fərqləndirmə irqçilik demək deyil. Dinin özünəməxsus məntiqi var və bu məntiq bəşəri deyil, İlahi məntiqdir.

## 5. İRAD

**Kristofer Hitçens "Tanrı böyük deyildir" kitabında yazır: "Dinə qarşı dörd əsas etiraz var. Birincisi, insan və kainatın mənşəyini yanlış təqdim edir. İkincisi, bu yanılma səbəbilə köləliyin üst həddini narsissizmin[1] üst həddiylə birləşdirir. Üçüncüsü, din, eyni zamanda, cinsi azadlığın təhlükəli məhdudlaşdırılmasının həm nəticəsi, həm də səbəbidir. Nəhayət, dördüncüsü, dini inancın kökündə arzu olunanı həqiqət kimi qələmə vermək istəyi durur".**

### Cavab

Ateist Hitçens dinə qarşı dörd əsas etirazdan danışır. Hansı dindən söhbət gedir? Məsihilik və yəhudilikdən? Əgər bunları nəzərdə tutursa, onlar təhrif olunmuş dinlərdir və insan və kainatın mənşəyi haqda verdikləri məlumatlar yanlışdır, çünki təhrif olunmuşdurlar. Əgər İslam haqqında danışırsa, axı onların İslam dini haqda məlumatları yoxdur və ya əldə etdikləri məlumatlar batil və yanlış cərəyanlar haqqındadır.

---

[1] *Narsissizm* - insanın özünə heyran olması, sitayiş etməsi.

İslam kainat və insanın mənşəyi barədə dəqiq məlumatlar və hətta hələ tərqqi etmiş elmin kəşf etmədiklərini də, bir neçə əsr öncə xəbər vermişdir və bunun üçün Quranda çoxlu nümunələr vardır. Peyğəmbər (s) və Əhli-beytin (ə) buyurduğu sözlərdə də bunun şahidiyik.

Digər tərəfdən, ateizm insan və kainatın mənşəyi haqda hansı nəzəriyyəni irəli sürür? Ateizmin nəzərində insanla heyvan arasında hansı fərqlər var? İnsanı necə bir varlıq olaraq təsvir edirsiniz? İnsanı heyvandan ayıran onun mənəviyyatı deyilmi və siz bunu necə dəyərləndirir və təhlil edirsiniz? İslam dinində insanın mənəvi həyatı var və o, kamilliyə doğru seyr etməkdədir. Siz bunları necə izah edirsiniz? İslam öz tutarlı və mətin dəlilləri və vəhylə insan və kainatın mənşəyini izah edir və insan üçün müəyyən bir proqramın olduğunu irəli sürür.

Əksinə, siz "Big Banq" nəzəriyyəsini, yəni Böyük Partlayış nəzəriyyəsini irəli sürür və iddia edirsiniz ki, insan və aləm gözlənilməz partlayış nəticəsində yaranmışdır. Elə isə, nə üçün baş vermiş partlayış kimi digər bir partlaşıy baş vermir? Digər bir partlayış da baş versin və biz də görə ki, həqiqətən partlayış nəticəsində, nizam-intizamlı aləm və insanlar kimi digər şüurlu varlıqlar yarandı. Nə üçün baş vermir? Mümkünsüzdür? Bəs əvvəlki necə mümkün oldu? Ehtiyac yoxdur? Partlayışa ehtiyacın olub olmamasını kim tənzim edir? Birinci partlayış öz-özünə baş vermişdirsə, deməli ikincisinin də öz-özünə baş verməsi mümkündür. Şüurlu varlıq olan insanı şüursuz bir partlayış və ya təbiət yarada bilərmi?! Təbii ki, yox! Bu nəzəriyyəni qəbul etmək ağılsızlıq və məntiqsiz bir işdir. Şüursuz bir şey süurlu varlığı yarada bilməz!

**Ateistlər köləliyi narsissizmlə birləşdirir və bunu İslama nisbət verir.**

Cavab:

Birincisi, İslamda köləlik yoxdur. Bəli, tarixdə köləlik və quldarlıq olmuşdur, amma onu İslama nisbət vermək olmaz. İslamdan əvvəlki tarixdə quldarlıq dövrü olsa da, İslam onunla mübarizə apardı və hətta qız uşaqlarının öldürülməsini qadağan etdi. Qurani-Kərim bu yolla insanları əsarət və köləlikdən çıxartdı və onlar üçün azadlığı təqdim etdi, hüquqlar təyin etdi.

"Ənam" surəsinin 151-ci ayəsində buyrulur:

قُلْ تَعَالَوْاْ أَتْلُ مَا حَرَّمَ رَبُّكُمْ عَلَيْكُمْ أَلاَّ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَلاَ تَقْتُلُواْ أَوْلاَدَكُم مِّنْ إمْلاَقٍ نَّحْنُ نَرْزُقُكُمْ وَإِيَّاهُمْ وَلاَ تَقْرَبُواْ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَلاَ تَقْتُلُواْ النَّفْسَ الَّتِي حَرَّمَ اللّهُ إِلاَّ بِالْحَقِّ ذَلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ.

**"De: "Gəlin Rəbbinizin sizə haram etdiyini oxuyum (və o budur ki): "Heç bir şeyi Ona şərik qoşmayın, valideynlərə yaxşılıq edin, övladlarınızı yoxsulluq qorxusundan öldürməyin! Sizə və onlara ruzini Biz veririk və pis işlərə – istər aşkar olsun, istərsə də gizlin (əməli və etiqadi günahlara, yaxud camaatın gördüyü və görmədiyi günahlara) – yaxınlaşmayın! Həmçinin, Allahın möhtərəm saydığı və öldürülməsini haram buyurduğu canı – (qisas, şəriətin müəyyənləşdirdiyi cəza hədlərinin icrası və ya müdafiə məqsədli) haqq (öldürmələr) istisna olmaqla – öldürməyin! Bəlkə, düşünəsiniz deyə Allahın sizə tapşırdıqları bunlardır".**

Bu yolla Quran insanların öldürülməsinə və kölə edilməsinə qarşı çıxdı və kölələrin azadlığı üçün qanunlar təqdim etdi. Məsələn, bəzi böyük günahların kəffarəsi üçün kölə azad

edilməsini irəli sürdü. Kölələri azad etməyə çalışdı və insanları da buna təşviq etdi.

"Əraf" surəsinin 157-ci ayəsində buyrulur:

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِندَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ يَأْمُرُهُم بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلاَلَ الَّتِي كَانَتْ عَلَيْهِمْ فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ.

**"Onlar Allahın elçisinə, ümmi (təhsil almamış) peyğəmbərə tabedirlər, onun hansı xüsusiyyətlərə malik olduğunu əllərindəki Tövrat və İncildən bilirlər. Onlara yaxşı işlər görməyi əmr edər, pis işləri qadağan edər, təmiz nemətləri halal, təmiz olmayanları haram edər, onların ağır yükünü götürər və üzərlərindəki buxovları açar. Ona iman gətirən, yardım göstərən və onunla nazil olan nura tabe olanlar, məhz onlar nicat tapanlardır!"**

"Ali İmran" surəsinin 64-cü ayəsində buyrulur:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ

**"De: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan "Allahdan başqasına ibadət etməyək, heç nəyi Ona tay tutmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" kəlməsinə tərəf gəlin! Əgər onlar (bu çağırışdan da) üz döndərsələr, o zaman deyin: "Şahid olun ki, biz müsəlmanıq!"**

Ayədə bildirilir ki, biriniz digərini kölə seçməsin. Sual verilə bilər: Allaha bəndəlik etmək necə, bu köləlik deyilmi? Cavabında deyirik ki, xeyr! Bu, Allahın verdiyi nemətlərə təşəkkür etmək deməkdir. Ağıl da qəbul edir ki, nemət sahibinə təşəkkür etmək lazımdır. Məsələn, iki nəfərdən biri digərinə yaxşılıq etdikdə, digəri ona təşəkkür edir. Bu köləlikdir? Aydın məsələdir ki, yox! Allaha bəndəlik də eynilə belədir. Bütün aləmdəki ağıl sahibləri də bunu qəbul edir və yaxşılıq müqabilində təşəkkürü önəmli sayır, bunu pisləmir. Biri sizə yaxşlıq edərsə, siz onunla üç cür rəftar etmək olar; Birincisi, yaxşılıq müqabilində susmaqdır. Bu ağıl baxımından psilənilmişdir. İkincisi, yaxşılıq müqabilində yaxşılıq edəni təhqir etməkdir. Bu da pislənilmişdir. Üçüncüsü, yaxşılıq müqabilində təşəkkür etməkdir. Ateistdən soruşmaq lazımdır ki, siz yaxşılıq edənin müqabilində qeyd edilənlərin hansını seçirsiniz? Birincin, ikincini ya üçüncünü. Bununla da aydın olur ki, təşəkkür etmək heç də köləlik sayılmır. Təşəkkür etmək ağılın tələb etdiyi bir işdir. Ateist Hitçens dinin köləliyin üstünlüyünü narsissizmin üstünlüyü ilə birləşdirdiyini söyləyir. Narsissizm, yəni insanın özünə dəyər verməsi deməkdir. İslamda insanın öz şəxsiyyətini bəyənməsi və dəyər verməsi, əlbəttə ki, həddini aşmamaq şərtilə məqbul və bəyənilləndir. Bütün insanlar özünə və şəxsiyyətinə dəyər verməlidir. Dinimizdə bu məsələ “ücb” (özünü bəyənmə) və eqoistlik səviyyəsinə gəlib çıxmayana qədər məqbul hesab olunur. Qeyd etdik ki, İslam əsla köləliyi qəbul etməmişdir. Hitçens də din deyəndə, hansı dini nəzərdə tutduğunu bildirmir. Bu da onun həmişəki yanlış və batil iddialarından biridir.

Əgər köləlik dedikdə Allah qarşısında bəndəçiliyi nəzərdə tutursa, bu köləlik deyil. Bu sadəcə Allah istəyən kimi təşəkkür etməkdir.

Ateistlər yazır ki, bu, cinsi repressiyanın həm səbəbi, həm də nəticəsidir. Bir daha nəzərinizə çatdırırıq ki, onlar iddialarında hansı dini nəzərdə tutduqlarını dəqiq bildirmir, köləlik dedikdə onu düzgün şəkildə başa düşmür və yalnız dəlilsiz iddialar irəli sürürlər.

Digər iddiaları isə arzu olunan şeylərin həqiqət kimi göstərilməyə çalışdığından ibarətdir. Hitçens demək istəyir ki, bəzi şeylər yalnız arzu oluna bilər və həqiqəti yoxdur. Məsələn, Cənnətdə məskunlaşmaq, əbədi həyat sürmək və s. arzu hesab edir. Biz də, öz növbəmizdə, deyirik ki, bu təkcə arzu yox, bir həqiqətdir və dəlillər bunu isbat edir. Hitçens bunun həqiqi olmadığını sübuta yetirə bilməz, çünki onun heç bir dəlili yoxdur. Həmişə olduğu kimi, dəlil-sübutsuz iddialar etməyə davam etmiş və belə bir iradı ortaya qoymuşdur.

“Tanrı böyük deyildir” kitabını başdan sona kimi incələdik, lakin burada tutarlı və mətin bir dəlil və ya şübhə görmədik. Əksinə, əvvəldə də xatırlatdığımız kimi, bu kitabın psixoloji sarsıntı və təzyiqlərə məruz qalmış və bir sıra dini həqiqətləri dərk etməkdə aciz qalmış və onları həzm edə bilməyən Kristofer adlı ateist tərəfindən yazıldığını başa düşdük.

Möhtərəm oxuculara bu kitabı oxumamağı tövsiyə edir və tamamilə əminlik və mətinliklə bildiririk ki, həqiqətən də Allah böyükdür və əqllər Onun əzəmətini və zatını dərk etməkdə acizdir!

## 6. İRAD

> **"Tanrı böyük deyildir" kitabında belə qeyd edilib: "Din toxunduğu hər bir şeyi zəhərləyir, din öldürür, din insanları necə də böyük vəhşiliklərə sürükləyir. Hesab edirəm ki, din səbəb olduğu əzablara görə məsuliyyət daşımalıdır".**

**Cavab**

Siz bütün dinləri nəzərdə tutursunuz, yoxsa məqsəd yalnız bir dindir? Əgər bütün dinləri deyirsinizsə, belə sualımız olacaq: Bütün dinlərin maarifi, bəyan və izahlarından xəbərdarsınızmı? Bütün dinlərin hər qanunundan xəbəriniz varmı? Ümumiyyətlə, din nə qədər insanı zəhərləmişdir? Əgər bir nəfər bunu mütaliə etdikdən sonra belə bir nəticəyə gəlibsə, bu, yalnız bir şəxsin iddiasıdır və bir şəxsin sözü hamı üçün höccət və dəlil ola bilməz. Əgər ateistlər iddianı bütün dinlərə aid edirlərsə, bu, yalnız bir iddiadır və məqbul sayılmaz. Çünki siz bütün dinləri mütaliə etməmisiniz və onların çoxundan xəbəriniz yoxdur, sadəcə bunu hardansa eşidib iddia edirsiniz. Məlumatlı olmadan belə bir məsələni necə iddia etmək olar?! Əgər məqsədiniz, məsihilik və ya yəhudilikdirsə, onlar təhrif olunub və onlara doğru bir din kimi baxmaq da olmaz. Məqsədiniz İslam dinidirsə, onda İslam dininin insanları zəhərlədiyini, öldürdüyünü iddia edirsinizsə, bunu İslamın prinsiplərinə əsasən cavablandırırıq:

İslam dinində üç əsas məsələ var: 1. Etiqadlar. 2. Əməllər. 3. Əxlaq

Etiqadlar bölməsində Allahın varlığı, təkliyi, peyğəmbər və onun gətirdiyi kitaba iman gətirilir. Yəni, bu və digər vacib

məsələlər Allahın göndərdiyi peyğəmbər vasitəsilə insanlara çatdırılır.

Əməl bölməsində dində vacib olan və qadağan edilən əməllərdən söhbət açılır. Məsələn, vacibatlara namaz, oruc, xüms, zəkat və s. məsələlər şamildir.

Haramla bağlı qan, murdar şeyləri yemək, insanın ağlına zərər verən şərab və s. şeyləri içmək qadağan olunur. Allah-taala bu sahədə insanın dəyərini əksildən şeyləri qadağan etmişdir.

Əxlaq bölməsində əxlaqi fəzilətlər və əxlaqi çirkin-liklərdən bəhs edilir. Əxlaqi fəzilət və üstünlüklərə ədəb, yaxşılıq, əmanətdarlıq, ümidvarlıq və s. daxildir. Əxlaqi çirkin-liklərə isə təkəbbür, eqoizm, riyakarlıq, pis sözlər danışmaq, yalan, yersiz qəzəb, qeybət, acıdillik və s. xüsusiyyətlər şamil-dir.

Deyirsiz ki, din insanları zəhərləyir və öldürür. Əgər söhbət İslam dinindən gedirsə, qeyd edilən bölmələrin hansı zəhərləyicidir? Bunun üçün dəlillər ortaya qoyun. Biz bu iddiaları qəbul etmirik. 21-ci əsrdə, elm əsrində yaşayırıq, iddialarınızla bağlı ortaya elmi və əqli dəlillər qoyun. Dində, Əxlaq bölməsində hüquq məsələləri də var. Məsələn, müəllim-şagird, bacı-qardaş, ana-ata hüquqları və s. məsələlər qeyd olunub. İndi deyin görək, bu qeyd edilən məsələlərlı bağlı insanların neçə faizi zəhərlənib və öldürülüb? Əgər bu sırf bir iddiadırsa və təkcə idia etməklə hər şey həl olursa, onda biz də iddia edə bilərik ki, ateizm insanları öldürür, məhv edir və azğınlığa, əbədi həlakətə aparır. Əlbəttə bizim buna dəlil-sübutlarımız da var.

Digər bir tərəfdən, sizin zəhərləməkdəki iddianız mənəvi məsələlərlə bağlıdır, yoxsa cismani? Yəni onlar zəhər içir ölür? Həyatına son qoyur? Bunu deyirsinizsə, bu yalandır və biz

görürük ki, möminlər öz işlərilə məşğul və həyatdadırlar, heç kəs din adlı zəhərlə həyatını itirməmişdir. Mənəvi məsələləri nəzərdə tutursunuzsa, deyin görək, qeyd edilən dinin üç bölməsinən hansı zəhərləyicidir?

Digər bir tərəfdən, siz ateist olaraq, hansı nailiyyətlər əldə etmisiniz ki, möminlər dindar olduğu üçün zəhərlənib, həmin uğurdan məhrum olublar?

Əgər zəhərləməkdə məqsədiniz mənəviyyatdırsa, sizin heç bir mənəvi üstünlüyünüz yoxdur, çünki ateizm baxışı əsasən maddi baxışdır və mənəviyyatın kökü dindir. Dinsiz, mənəviyyat mümkünsüzdür. Bir sıra mənəvi məfhumlar vardır ki, insanların daxilindən qaynaqlanır, misal üçün ədalətli olmaq və zülm etməmək, eyni zamanda, həm də dinin qayda-qanunlarından sayılır.

Ona görə də əgər mənəvi zəhərlənməni nəzərdə tutur-sunuzsa, məhz həmin bir sıra mənəvi məfhumlara görə siz də zəhərlənmiş sayılırsınız.

Həzrət Peyğəmbər (s) buyurur ki, elmi beşikdən qəbrə qədər öyrənin. İndi deyin görək, dinin tövsiyə etdiyi bu və bu kimi əxlaqi üstünlüklər pisdir? Əgər desəniz yaxşıdır, onda nə üçün dini pisləyirsiniz?! Əxlaqi gözəlliklərin hamısı Qurani-Kərimdə bildirilən əxlaqi xüsusiyyətlərdir. İslam dini də bu məsələlərə dəvət edir. Qeybət, yalan, riyakarlıq, zülm kimi əxlaqi çirkinlikləri sizin nəzərinizdə necədir? Əgər desəniz, yaxşıdır, onda ağlınıza şübhə edərik. Ateist olaraq yaxşıya pis, pisə də yaxşı deyirsinizsə, fikirlərinizdə dəyişiklik etmək məsləhətdir. Çünki yaxşını yaxşı və pisi də pis hesab etmək sağlam düşüncənin nəticəsidir. Əgər cəmiyyət bütövlüklə haqq dinin ardıcılı olsa və onun əmrlərini yerinə yetirsə, heç bir sahədə problem və çatışmazlıq olmayacaq. Sizin yanaşmanız sürücülərin rəftarına baxıb yol hərəkət qaydalarını pisləməyə

bənzəyir. Yəni insanlar qaydalara əməl etmirsə, bu, qanundakı problem deyil, insanlardakı çatışmazlıqdır.

### 7.İRAD

**Din - insanları vəhşiliklərə sürükləyir.**

**Cavab**

Əvvəlki iradın cavabında qeyd edilən izahlarla yanaşı dinin harasında vəhşilik var? Dinin insanı haram qidalardan, ağılı aradan aparan içkilərdən çəkindirməsi vəhşilikdir?! İnsan xəyanətdən, pisliklərdən uzaq olanda bu, vəhşilik sayılır?! Dinin tövsiyələri məgər vəhşilikdir?

Əvvəlki iradın cavabında qeyd etdiyimiz kimi, dinin üç bölməsindən hansı vəhşilikdir? Ateistlərə Allahın olmamasını necə sübut edə biləcəklərini deyəndə, onlar maddə və materiyadan danışır. Halbuki söhbət, maddə və materiyadan, dünyanın varlığından deyil, Allahın varlığından gedir. Ateistlər indiyədək Allahın olmaması haqqında bir dənə də dəlil-sübut gətirə bilməmişlər; elə ki bu məsələ ortaya çıxır, aidiyyətsiz mövzulardan yapışırlar.

Yenə də xatırladaq ki, ateistlər xarici qüvvələrin formalaşdırdığı İslamdan danışırlarsa, bunun həqiqi İslamla heç bir əlaqəsi yoxdur. Onların təsvir etdiyi - terrorçu bir dindir, İslam dini isə sülh, əmin-amanlıq dinidir. K.Hitçensin qeyd etdiyi məsələlər dəlilsiz iddialara əsaslanır, dəlil-sübutsuz iddiaların da heç bir önəm və dəyəri yoxdur. Hər bir ateist də buna diqqət etməlidir.

## 8. İRAD

**Din, səbəb olduğu əzablara görə, məsuliyyət daşıyır.**

**Cavab**

Yuxarıdakı iradlarla bağlı qeyd etdiyimiz cavablarda bu məsələ aydınlaşdığına görə, bunu qısa şəkildə cavablandıracağıq. Əvvəla, din hansı əzablara səbəb olub? Dinimizin bütün qayda-qanunlarının müəyyən xeyri və məsləhəti vardır. Axı siz nə üçün zorla nəyisə isbat etməyə çalışırsınız? Dinin hansı əmr və qadağasında əzab var? Əgər dinin çəkindirdiyi şeyləri əzab sayırsınızsa, bu məsələlər ateizmdə də var və siz də insanları dini qəbul etməkdən çəkindirirsiniz. Ona görə də, hər hansı bir işdən çəkindirmək əzab sayılmır.

## 9. İRAD

**"Tanrı böyük deyildir" kitabında başqa bir irad da qeyd edilir: "Biz əminliklə deyə bilərik ki, mənəvi həyat, din olmadan da mümkündür. Amma bunun əksinin də doğru olduğunu bilirik".**

**Cavab**

Dediyiniz bu mənəviyyatdan məqsəd kamil bir mənəvi həyatdır, yoxsa naqis? Bu mənəvi həyatın necə olduğunu izah edin. Dinsiz mənəvi həyat necədir və dediyiniz mənəvi həyat proqramı nədən ibarətdir? Əgər yaşamaq, yemək-içmək kimi məsələləri nəzərdə tutursunuzsa, bunun hamısı maddiyyatdır və mənəviyyatdan onda əsər-əlamət yoxdur. Əgər naqis mənəvi həyatı nəzərdə tutursunuzsa, o nədən ibarətdir? Onun proqramı nədir? Yəni dinsiz mənəvi həyat deyiləndə əsas nə nəzərdə tutulur? Siz deyirsiniz ki, bunun əksinin də (dinin də)

doğru olduğunu bilirik, yəni din vasitəsilə də mənəvi həyat mümkündür. Bəli, bu bir həqiqətdir və dinin əsas məsələsi mənəvi həyatdır ki, onda maddi məsələlər də nəzərdə tutulmuşdur.

## 10. İRAD

**Hitçens sonra qeyd edir: "Dünyanın heç bir nöqtəsi bizə digərindən daha müqəddəs deyil. Zəvvarlıq cəfəngiyatı və bəzi müqəddəs divar, mağara, məzar və ya daş uğruna qan tökülməsi kimi dəhşətin yerinə kitabxana zallarında, qalereyalarda tələsmədən gəzməyi, dostumuzla nahar edərkən gözəllik və həqiqət axtarışları barədə düşünməyi daha üstün tuturuq".**

**Cavab**

Ateistlərə belə bir sualla müraciət edirik: Sizin ölkəniz, torpağınız, millətiniz və şəxsiyyətinizə aid olan bayraq, Vətən sizin üçün müqəddəs deyilmi? Siz Azərbaycanın bayrağını, torpaq və millətini onun düşməni olan Ermənistanla, erməni milləti və erməni bayrağı ilə müqayisə etdikdə heç bir fərq qoymasanız, onda anlaşılır ki, siz insan kimi yaşayırsınız, amma insanlığınız ölüb. Əgər cavabınız müsbət olsa və bizim bayraq, torpaq və milləti müqəddəs hesab etsəniz, onda bu, kitabda qeyd etdiklərinizlə ziddiyyət təşkil edəcək.

Fərz edək, yaxın dostunuz Vətən uğrunda fədakarlıq göstərib canından keçib; indi bu xalq gedib dostunuzun məzarını ziyarət edir, belə olduqda, millətin dostunuzun fədakarlığını yad etməsini müsbət hal kimi qiymətləndirirsiniz, yoxsa mənfi? Əgər desəniz pisdir, onda belə çıxır ki, siz elə düşmənin ikinci simasısız. Möminlər üçün də bəzi yerlər

müqəddəsdir və orada qurban kəsilir, həzrət Muhəmməd Peyğəmbər (s) və İmamların (ə) məzarı ziyarət olunur və onlar yad edilir, Məkkədə qurban kəsilir və s. Bu təfəkkürə sahib ateistlər elə danışır ki, sanki müsəlmanların ümumiyyətlə kitabxanaları yoxdur və ya onlar kitab oxumağı bilmirlər. Halbuki, məsələ tamamilə əksinədir. Ateistlər iddia edir ki, onlar üçün heç bir yer müqəddəs deyil, halbuki onların kitabxanaları daha üstün və müqəddəs saydıqları anlaşılır və sözlərindəki ziddiyyət meydana çıxmış olur.

## 11. İRAD

> **"Tanrı böyük deyildir" kitabında qeyd olunur: "Din heç vaxt mükəmməl dəlilləri və vədləri ilə kifayətlənməyib və kifayətlənə bilməz... Axirətdəki əbədi rahatlıq və həzz barədə boşboğazlıq etsə də, bu dünyada ona güc lazımdır və burada təəccüblü bir şey yoxdur".**

**Cavab**

Ateistlər iddia edir ki, din heç vaxt özünün mükəmməl dəlilləri ilə kifayətlənə bilməyib. Bu, bir iddiadır və bununla bağlı dəlil tələb edirik. Əgər məsələ sırf iddia etməkdirsə, onda biz də iddia edirik ki, ateistlik əsla öz dəlilləri ilə kifayətlənməmiş və kifayətlənə bilməz və insan həyatı üçün heç zaman bir məktəb və səadət yolu ola bilməz.

Digər tərəfdən, ateist olduqdan sonra onlar dini dəlillərə ateistcəsinə yanaşır və dini dəlilləri yetərli hesab etmirlər. Dinin daxilində olan maariflə dini dəlilləri isbat etmək lazımdır. Əks təqdirdə, ateistlər bunu yetərli saymayacaq, yəni bir şəxs ateist

olduqdan sonra təbii ki dini təriflməyəcəkdir. Əgər onlar irad tuta bilirsə, onlar dinin əməl və əxlaq bölməsi olan əsas dini prinsiplərə irad tutsunlar. Onların məqsədi, dinin başqa sahələrdə yetərli olmamasıdırsa, bu məsələ təbii məsələdir, yəni dinin öz sahəsi var və hər sahənin də öz arqument və ixtisası vardır. Məsələn, tarixə aid olan məsələləri riyaziyyatda axtrmaq olmaz. Ona görə də, din öz mükəmməl dəlilləri ilə, əsasən öz maarifi üçün kifayətlənir. Digər sahələr onun ixtisasından kənardır.

Ateistlər iddia edir ki, **“din mükəmməl dəlillərə malik olmayıb”**, belə isə, onlara sual veririk: Hansı zaman və əsri göstərə bilərsiniz ki, din digər sahələrə müraciət etsin və nöqsanı varsa, onu aradan qaldırsın? Söhbət İslamdan gedirsə, bu din buna yol verməmişdir. Digər dinlərə gəldikdə isə, deməliyik ki bəli, təhrif olunduqları üçün belə məsələlər vardır və bunun İslama heç bir aidiyyəti yoxdur. Belə ki, “Bəqərə” surəsinin 185-ci ayəsində Allah-taala buyurur:

شَهْرُ رَمَضَانَ الَّذِيَ أُنزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِّلنَّاسِ وَبَيِّنَاتٍ مِّنَ الْهُدَى وَالْفُرْقَانِ

**“(Oruc tutmaq üçün nəzərdə tutulan bir neçə gün) Ramazan ayıdır. O, Quranın insanları doğru yola yönəldən, hidayət nişanələri və haqqı batildən ayıran olaraq nazil edildiyi aydır”.**

Allah-taala bildirir ki, Qurani-Kərimin əsas prinsipi bütün bəşəriyyətə doğru yol göstərməkdir və müqəddəs kitabımız bu sahədə yol göstərə bilər. Burada, saavadı və kimliyindən, böyük və kiçikliyindən, kişi və qadın olmasından asılı olmayaraq, hamı nəzərdə tutulmuşdur.

Əlbəttə, dəlil-sübutla bunu qeyd edir. Hətta Quranda Allah-taalanın varlığı ilə bağlı həm sadə insanlar, həm elm əhli üçün də fəlsəfi və məntiqli dəlillər çoxdur.

“Səbə” surəsinin 28-ci ayəsində buyrulur:

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِّلنَّاسِ بَشِيراً وَنَذِيراً وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ.

**"Biz səni bütün insanlara yalnız müjdə vermək və qorxutmaq üçün göndərdik. Lakin insanların çoxu bilmir".**

Ayədə qeyd edilən كَافَّةً لِّلنَّاسِ "kaffətən linnasi" ifadəsi "bütün insanlara yetərli olmaq" mənasını ifadə edir, yəni sən bütün insanlara yetərlisən. Sənin elmin, gətirdiyin şəriət bütün insanlara yetərlidir və onun dəlilləri mükəmməldir.

"Bəqərə" surəsinin 159-cu ayəsində buyrulur:

إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلْنَا مِنَ الْبَيِّنَاتِ وَالْهُدَى مِن بَعْدِ مَا بَيَّنَّاهُ لِلنَّاسِ فِي الْكِتَابِ أُولَـئِكَ يَلعَنُهُمُ اللهُ وَيَلْعَنُهُمُ اللَّاعِنُونَ.

**"Kitabda bütün insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və hidayət vasitələrini gizlədən kimsələr Allahın lənətinə gəlirlər və bütün lənət edənlər də onlara lənət oxuyurlar".**

"Bəqərə" surəsinin 187-ci ayəsində buyrulur:

كَذَلِكَ يُبَيِّنُ اللهُ آيَاتِهِ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَّقُونَ.

**"Allah bütün insanlara ayələrini bu cür açıqlayır ki, bəlkə, təqvalı olsunlar".**

Ayədə Allah-taala bildirir ki, bu kitab bütün insanlar üçün nəzərdə tutulmuş və ayələr onlar üçün açıqlanmışdır; kim Qurana müraciət etsə, orada öz bilik səviyyəsi və tutumuna uyğun şəkildə dəlil-sübutlar əldə edə bilər. Beləliklə, ateistlərin söylədiyi cəfəngiyyət və dinin mükəmməl olmadığı iddiası dəlilsiz və dəyərsiz sözlərdir.

**"Axirətdəki əbədi rahatlıq və həzz barədə boşboğazlıq etsə də, bu dünyada ona güc lazımdır və burada təəccüblü bir şey yoxdur"** ifadəsinə gəldikdə, onu deməliyik ki, dinin bütün sahələrdə deməyə sözü var. Ateistlərin nəzərincə, guya, Axirət və s. məsələlər boşboğazlıqdır, yəni dinin Cənnət, Cəhənnəm,

Cənnət nemətləri və s. məsələlər haqqındakı vədləri yalandır və bunların heç biri həyata keçməyəcək.

Ateistlərin nəzərinin (nəuzu billah) doğru olduğunu fərz etsək (əlbəttə, dinin bütün vədləri bir reallıqdır və gerçəkləşəcək!), onda bu suala cavab versinlər: Dinin, məsələn, fərdi-ictimai yaşayışda təmizlik və digər məsələlərilə bağlı bütün bu proqramlarının nə zərəri var və burada bir nöqsan tapa bilərsinizmi? Heç bir ağıllı və elmli insanın dinin həyatın bütün sahələrilə bağlı nəzərdə tutduğu və bütün bəşəriyyətə təqdim etdiyi bu proqramlarla əlaqədar heç bir iradı ola bilməz. Ona görə ki, bütün bunlar elm və hikmət sahibi olan Uca Yaradan Allah tərəfindən göndərilmişdir.

**"bu dünyada ona güc lazımdır və burada təəccüblü bir şey yoxdur"** ifadəsinə gəldikdə, onu deməliyik ki, din kimdənsə qüvvət toplamır, əksinə, insanlara qüvvət və təskinlik verən elə dinin özüdür. Din qanunlardan ibarətdir. İnsanların qanunlara ehtiyacı var, qanunlarla işlərini tənzimləyirlər. Din isanların xilaskarıdır və onların xoşbəxtliyini təmin edir. İnsanların qüvvəsindən asılı olan bir din, onlara qüvvət verə bilməz.

"Ali İmran" surəsinin 103-cü ayəsində buyrulur:

وَاعْتَصِمُواْ بِحَبْلِ اللّهِ جَمِيعاً وَلاَ تَفَرَّقُواْ وَاذْكُرُواْ نِعْمَتَ اللّهِ عَلَيْكُمْ إِذْ كُنتُمْ أَعْدَاء فَأَلَّفَ بَيْنَ قُلُوبِكُمْ فَأَصْبَحْتُم بِنِعْمَتِهِ إِخْوَاناً وَكُنتُمْ عَلَىَ شَفَا حُفْرَةٍ مِّنَ النَّارِ فَأَنقَذَكُم مِّنْهَا كَذَلِكَ يُبَيِّنُ اللّهُ لَكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَهْتَدُونَ.

**"Hamılıqla Allahın ipinə (Quran, İslam və vəhdətə səbəb olan istənilən vasitə) möhkəm sarılın və parçalanmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən, O, sizin qəlbləriniz arasında ülfət yaratdı və Onun neməti sayəsində qardaş oldunuz. Siz oddan**

**olan bir quyunun kənarında ikən, O, sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, bəlkə, haqq yola yönəlmiş olasınız!"**

Bu ayədə Allah-taala insanları vəhdətə səbəb olan şeylərdən möhkəm yapışmağa dəvət edir.

"Ali İmran" surəsinin 139-cu ayəsində buyrulur:

وَلاَ تَهِنُوا وَلاَ تَحْزَنُوا وَأَنتُمُ الأَعْلَوْنَ إِن كُنتُم مُّؤْمِنِينَ.

**"Məyus və qəmgin olmayın. Əgər imanınız olsa, siz üstün və qalibsiniz!"**

Buyrulur ki, əgər iman əhlisinizsə, qəmgin olmayın və bilin ki, siz üstünsünüz! Qeyd edilən ayələrdən məlum olur ki, din insana qüvvət verir, digər şeylərdən güc toplamır. Din insanlara psixoloji dəstək verir. Dinin öz ardıcıllarının və ya qeyrilərinin dəstəyinə heç bir ehtiyacı yoxdur. Onların olub-olmaması dinə heç bir zərər yetirməz və din özü-özlüyündə mükəmməldir.

**12. İRAD**

**"Tanrı böyük deyildir" kitabında yazılıb: "Allah nə üçün dönuz ətinə nifrət edir? İndi gəl maraq içində qal ki, niyə Allah bu cür müxtəlif məxluqlar yaratmış, sonra da yaratdıqlarının içində ən ağıllısına, yəni insana, əbədi cəzanın qorxusu altında onlardan uzaq durmağı əmr etmişdir? Bundan daha darıxdırıcı və axmaq məşğuliyyət ağlıma gəlmir".**

**Cavab**

Birincisi, Allah-taala Quranın hansı ayəsində bu heyvana nifrət etdiyini bildirib? "Bəqərə" surəsinin 173-cü ayəsində buyrulur:

إِنَّمَا حَرَّمَ عَلَيْكُمُ الْمَيْتَةَ وَالدَّمَ وَلَحْمَ الْخِنْزِيرِ وَمَا أُهِلَّ بِهِ لِغَيْرِ اللّهِ

**"Allah sizə yalnız ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqasının adı ilə kəsilənləri haram etmişdir".**

"Maidə" surəsinin 3-cü ayəsində buyrulur:

حُرِّمَتْ عَلَيْكُمُ الْمَيْتَةُ وَالْدَّمُ وَلَحْمُ الْخِنْزِيرِ وَمَا أُهِلَّ لِغَيْرِ اللّهِ بِهِ وَالْمُنْخَنِقَةُ وَالْمَوْقُوذَةُ وَالْمُتَرَدِّيَةُ وَالنَّطِيحَةُ وَمَا أَكَلَ السَّبُعُ إِلاَّ مَا ذَكَّيْتُمْ وَمَا ذُبِحَ عَلَى النُّصُبِ وَأَن تَسْتَقْسِمُواْ بِالأَزْلاَمِ ذَلِكُمْ فِسْقٌ

**"Ölü (kəsilmədən ölüb murdar olmuş) heyvanın əti, qan, donuz əti, Allahdan başqasının adı söylənərək kəsilmiş, boğulmuş, işgəncə ilə öldürülmüş, yüksəklikdən düşərək ölmüş, başqa bir heyvanın buynuzu ilə vurulub öldürülmüş, yırtıcı heyvanların ovunun qalan hissəsi - canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır - bütlər üzərində (və ya onların qarşısında) kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi. Bütün bu əməllər günahdır!"**

"Nəhl" surəsinin 115-ci ayəsində buyrulur:

إِنَّمَا حَرَّمَ عَلَيْكُمُ الْمَيْتَةَ وَالْدَّمَ وَلَحْمَ الْخِنْزِيرِ وَمَا أُهِلَّ لِغَيْرِ اللّهِ بِهِ

**"O, sizə ancaq ölü heyvanı, qanı, donuz ətini və Allahdan qeyrisinin adı ilə kəsilən heyvanı haram etmişdir!"**

"Səcdə" surəsinin 7-ci ayəsində buyrulur:

الَّذِي أَحْسَنَ كُلَّ شَيْءٍ خَلَقَهُ

**"O, (Allah) həmin varlıqdır ki, yaratdığı hər şeyi gözəl biçimdə yaratmışdır".**

"Sad" surəsinin 27-ci ayəsində buyrulur:

وَمَا خَلَقْنَا السَّمَاء وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا بَاطِلاً ذَلِكَ ظَنُّ الَّذِينَ كَفَرُوا فَوَيْلٌ لِّلَّذِينَ كَفَرُوا مِنَ النَّارِ.

**“Biz göyü, yeri və onların arasındakıları əbəs yerə xəlq etməmişik. Bu, kafirlərin gümanıdır. Vay o kafirlərin oddakı halına!”**

Allah-taala məxluqatın, hətta heyvanların belə boş yerə yaradılmadığını, əksinə, gözəl yaradıldığını bildirir. Sadəcə bəzi şeylər bir sıra hikmət səbəbilə insanlar üçün qadağan edilmişdir. Bir şeyin qadağan edilməsi, ona nifrət etmək sayılmır. Nəqliyyat Nazirliyi nə üçün yol çəkir və yollarda müxtəlif yol hərəkət qaydalarını bildirən işarələr qoyur? Yollarda müəyyən işlər qadağandırsa, ona nifrət edilirmi və ya nifrət edildiyi üçün qadağan edilir? Bunlar nə üçün həyata keçirilir, yaxud bıçaq istehsal olunur və onlardan müxtəlif sahələrdə istifadə edilir, insanların öldürülməsi isə qadağan olunur?

Bütün bu qayda-qanunlar ağıllı məxluq olan insanın xeyrinədir və əql sahibləri də bunun belə olduğunu qəbul edir. Ateistlərin dediyi kimi, bütün bunlar axmaqlıq deyil. Sadəcə burada qeyd olunanları anlamaq üçün düşünən ağıla və oyaq vicdana ehtiyac vardır.

## 13. İRAD

**“Tanrı böyük deyildir” kitabındakı iradlardan biri də budur: “Ümumiyyətlə, hələ tam aydın deyil ki, İslamı ayrıca bir din kimi hesab etmək , yoxsa yox. Bu dini dəqiqliklə nəzərdən keçirdikdə, İslamın daha öncəki kitab və ənənələrə aid müvafiq fraqmentlərdən toplanmış gözəçarpan təqlidlərdən başqa bir şey olmadığını anlamaq olur. İslamın mənşəyi, yararlandığı mənbələr kimi, qeyri-sabit və şərtidir. O, qul**

**itaətini sadəcə öz davamçılarından tələb etmir, qeyrilərindən də özünə qarşı hörmət gözləyir. İslam təlimində bu iddiaları və təkəbbürlüyü haqlı çıxara biləcək bircə şey yoxdur.**

**Cavab**

Bu irad sadəcə bir iddiadır. İslamın bir din olaraq peyğəmbəri, kitabı və gözəl məzmunlu maarifi var. O, ayrıca bir dindir və onun etiqad, ilahi hökmlər, iqtisadiyyat, əxlaq qanunu və həyatın bütün sahələrində deməyə sözü var.

Bununla yanaşı, İslamın qəddar düşmənləri olmuş və onunla mübarizə aparmışlar. O düşmənlər İslam maarifinin nə qədər zəngin olduğunu da yaxşı bilirlər.

İslamın əsas mənbəyi olan Qurani-Kərimin möhtəvasına nəzər salsaq, onun Tövrat və İncil kimi səmavi kitabların məzmunu ilə müəyyən dərəcədə üst-üstə düşdüyünü görərik, lakin məzmun tam üst-üstə düşsəydi, onda nə üçün yəhudi və məsihilər İslamla mübarizə aparmışlar? Onlar heç zaman iddia etməmişlər ki, İslam peyğəmbəri (s) onların kitabındakılarını eynilə qeyd etmişdir. Tarixdə heç zaman belə bir iddiaya rast gəlinməyib. İslamın Tövrat və İncildən fərqli bir din olduğunu və müştərək cəhətlərə malik olduğunu demişlər.

Quranın hətta Tövrat və İncilin tamamilə ziddinə olduğunu desək belə, yenə də İslam fərqli bir din sayılmalıdır. Belə isə ateistlərin iddiası batil sayılır. Ateist Hitçens deyir ki, İslamın fraqmentləri öncəki dinlərdən əxz olunub. Bir daha qeyd edirik ki, İslamn bütün fraqmentləri deyil, bəzi fraqmentləri ola bilər ki, bu da öncəki dinlərdən əxz etmək yox məhz dinlər arasında olan müştərək məfhum və cəhətlərdən irəli gəlir. Yəni bütün dinlər arasında müştərək və oxşar məfhumlar mövcuddur və bu təbiidir. Digər bir tərəfdən biz də

soruşuruq: Ateistlərin fikirləri haradan əxz olunub? Mənşəyi nədir?..

Nəyə əsasən İslamın mənşə və mənbəyinin qeyri-müəyyən olduğunu iddia edirsiniz? Halbuki İslamın mənşə və mənbəyi vəhydən qaynaqlanır, Peyğəmbərə (s) vəhy vasitəsilə nazil edilmiş və insan fitrətilə də uyğunluq təşkil edir. Bu, tamamilə məlum məsələdir.

Ateistlərin iddiaları dəlilə əsaslanmır, əgər bunu inkar etsələr, belə isə o dəlillər haradandır? Əgər bunu İslamın özündən götürdüklərini bildirsələr, bu düzgün deyil, çünki İslamı bir din olaraq qəbul etmirlər. Əgər digər mənbədən arqument gətirdiklərini iddia edirlərsə, onda bunun da İslama heç bir aidiyyəti yoxdur. Bu məsələ eynilə riyaziyyat barədə tarixdən dəlil gətirməyə bənzəyir ki, bu, məntiqsiz və qeyri-məqbuldur.

İslamın hər kəsdən ehtiram gözlədiyini və onu bu sahədə haqlı çıxaracaq heç bir şeyin olmadığını qeyd edirlər. Bu iddianın cavabında ilk öncə onu qeyd edək ki, hər bir ideologiya, etiqad və düşüncə öz tərəfdarlarına üç cür məsləhət verə bilər:

1. Bu ideologiyanı təhqir etmək. Bu, qəbul olunmazdır və heç bir ideologiyada belə bir şey yoxdur.

2. Həmin ideologiyaya qarşı bitərəf olmaq. Bu da düşüncənin tutarlı olmadığını göstərər, ona görə bu da qəbul olunmaz və qeyri-məntiqlidir.

3. Bu ideologiyaya ehtiram etmək və onun barəsində sağlam təfəkkürə malik olmaq, ona dəyər vermək. Özünə ehtiram tələb etmək bir növ özünə dəyər verməkdir və təkəbbürlük hesab olunmur.

İslam dini də bunu tövsiyə edir və İslamın hər kəsdən ehtiram gözləməsi sayılmır. Ona görə də burada anlaşılmazlıq yoxdur. Hətta ateistlər də ateizmə ehtiramla yanaşırlar.

**14. İRAD**

> **K.Hitçens "Tanrı böyük deyil" kitabında yazır: "Tərcümə olunmuş heç bir Quran əsl deyil. Əsl Quran öz unikal simfoniyası ilə kişi və qadınları göz yaşına boğur. Hər tərcümə yalnız Qurandakı sözlərin mənası haqqında ümumi fikir söyləmək cəhdidir. Ona görə də bütün müsəlmanlar, doğma dilləri ərəb dili olmayanlar belə, Quranı həmişə ərəbcə oxuyur".**

**Cavab**

K.Hitçens demək istəyir ki, tərcümə olunmuş heç bir Quran əsl deyil. Görəsən elə bir tərcümə olunmuş kitab varmı ki, eynilə orijinaldakı kimi olsun?! Belə bir kitab yoxdur. Burada mütləq fərq olmalıdır. Heç bir kitabı olduğu kimi başqa bir dilə tərcümə etmək mümkün deyil. Qeyd edilən irada əsasən, tərcümə edilən Quranların orijinal Quranla fərqini neçə cür təsəvvür etmək mümkündür: birincisi budur ki, ərəbcədəki Quranda qeyd olunan hökmlər tərcümədəki hökmlərlə fərqli olsun. Bu qeyri-mümkündür və heç bir tərcümədə belə şey ola bilməz. Yəni fiqhi hökmlər baxımından tərcümələr orijinalla eynidir.

İkincisi, fərq fiqhi məsələlərdə deyil, möhtəva baxımından olsun. Bu da mümkün deyil, ərəbcədə necədirsə, tərcümədə də möhtəva saxlanılır. Şübhəsiz, tarixi, əqidəvi hadisələr olduğu kimi tərcümədə nəql edilir. Əlavə şərhlər

verilə bilər lakin qeyd edilənlərin əksinin yazılması mümkünsüzdür.

Üçüncüsü, müqəddəslik və ehtiram baxımından fərqli olsun. Məsələn, Quranda qeyd edilən Allahın adları və ümumi sözlər. "Allah dedi" cümləsində "Allah" sözü bütün dillərdə müqəddəsliyini qoruyub saxlayır, amma digər sözlər belə deyil. Ehtiram baxımından desək, tərcümə edilən Quranlara da hörmət qoyulmalı və onlara ehtiramsızlıq edilməməlidir. Yəni ərəbcə Qurana dəstəmazsız toxunulmadığı kimi, tərcümə edilmiş Qurandakı müqəddəs sözlərə də dəstəmazsız toxunulmamalıdır. Müqəddəs sözlərdən başqa sözlərə fərqli yanaşma, misal üçün dəstəmazsız toxunmaq, problemsizdir. Bu cəhətdən də orjinal Quranın tərcümə olunmuşla fərqlənməsinin bir problemi yoxdur.

Dördüncüsü, fərq dil və sözlərin quruluşu baxımından olsun. Şübhəsiz, ərəbcə Qurandakı sözlər tərcümə olunduqda, tərcümə dilindəki kəlmə və cümlələrlə ifadə olunmalıdır və bu, qaçılmazdır. İndi ateistlər hansı fərqi nəzərdə tutur? Birinci, ikinci fərq mümkünsüzdür. Üçüncü və dördncü də təbiidir.

**Ateistlər bütün müsəlmanların Quranı ancaq ərəbcə oxuduğunu qeyd edirlər.** Əslində, həm ərəbcə, həm də ana dillərində oxuyurlar. Ərəb dili fəsahət və bəlağət baxımından zəngin olduğundan onu ərəbcə oxumaq daha üstündür.

## 15. İRAD

> **K.Hitçens yazır: “Dini komadan çıxan insanlar tibbə, elmə, hüquqa, siyasətə, sənətə böyük töhfələr verdilər. Məsələn: Karl Marks, Freyd, Enşteyn və s.”**

**Cavab**

Hitçensin iddiasına görə, dini komadan çıxan və dini öz həyatından uzaqlaşdıran insanlar bəşəriyyətə və müxtəlif elm sahələrinə böyük töhfələr vermişlər. Bunları qeyd etməklə dinin bəşəriyyətə faydasız və lazımsız olduğuna dəlil gətirmək istəyir. Əslində isə bu cür insanlar İslam dininin deyil, yəhudilik və məsihilik kimi təhrif edilmiş dinlərin komasından çıxmışlar. Əgər İslam dini ilə qarşılaşsaydılar, onlar İslamın elm və inkişafın əleyhinə olmadığını görərdilər. Həqiqətdə, məsihilik və yəhudilik kimi təhrif edilən dinlərdən kənarlaşmışlar. Onlar əsla dinə daxil olmamışdılar ki, ondan da çıxmış olsunlar. Yəni İslamı nəzərdə tutursunuzsa, onlar İslama daxil olmamışlar ki, onun komasından da çıxmış olsunlar! **Əgər dinsizliyi nailiyyətlərin mənşəyi hesab edirsinizsə, onda ateistlərin hamısı dinsiz olduqlarına görə alim və ixtiraçılar olmalıdır.** Çünki Hitçens dindən çıxan şəxslərin böyük alimlər olduğunu iddia edir. Adlarını çəkdiyi şəxslərin elmi nailiyyətlərini dindən çıxmaqla əlaqələndirmək əsla düzgün deyil. İddianız yersiz və məntiqsizdir. Xatırladaq ki, dünyada yeni-yeni icadlar edən, elmə nailiyyət gətirən müsəlman alimlərin sayı həddən artıq çoxdur, dindar insanlardan da elmə töhfələr verən kəslər meydana çıxmışdır. Dindən çıxmağın alimliklə heç bir rabitəsi yoxdur. Bu, fəlsəfi dəlillərlə də isbat edilir. Yəni səbəblə nəticə arasında uyğunluq olmalıdır. Məsələn, odun yandırıcı qabiliyyət varsa, onun bir şeyə toxunmasının nəticəsi, həmin şeyin yanması olmalıdır. Əgər

alim olmağın səbəbi dindən çıxmaqdırsa, səbəb və nəticə qanununa əsasən, dinsiz olan bütün insanlar alim olmalıdır, halbuki bunun əksi müşahidə olunmaqdadır və hər bir dinsiz alim və ixtiraçı deyildir. Səbəb və nəticə qanununa əsasən isə, səbəblə nəticə arasında uyğunsuzluq mümkün deyildir. Bütün dinsizlərin alim olmaması bir daha onu göstərir ki, dinsizliyin alim olmaqla bir əlaqəsi yoxdur. Bəzən insan dinsiz və alim ola bilər. Bəzən həm dindar və həm də alim ola bilər. Deməli, K.Hitçensin "Dini komadan çıxan insanlar tibbə, elmə, hüquqa, siyasətə, sənətə böyük töhfələr verdilər" ifadəsinin yalnışlığı aydın oldu.

### 16. İRAD

**Etika və əxlaqın Allaha imanla əlaqəsi yoxdur və buna əsaslana bilməz.**

**Cavab**

Demək istəyirlər ki, əxlaqın Allaha imanla heç bir rabitəsi yoxdur, insanın Allaha iman gətirib-gətirməməsinin əxlaqa heç bir dəxaləti yoxdur və bunsuz da əxlaqlı ola bilər. Biz, "mənəviyyatlı həyat din olmadan da mümkündür" iradını cavablandırarkən də bu məsələyə toxunmuşduq, hazırda qısa şəkildə bir daha nəzərinizə çatdırmaq istərdik.

İlk öncə ateistlərin "əxlaq" dedikdə nəyi nəzərdə tutduğunu anlamaq lazımdır. "Əxlaq" məfhumu əslində maddi yox, mənəvi məfhumdur. Onlar nəyi nəzərdə tutur və hansı mənbəyə əsaslanır? Dinin əxlaq bölməsindəki məfhumların adlarını dəyişməklə onu başqa cür təfsir etmək və mahiyyətini dəyişmək mümkün deyil. Biz öncəki bəhslərimizdə də qeyd etdik ki, məsələn, zülmün pislənməsi, ədalətli olmaq və s. - bəyənilən işlərdir və ən üstün əxlaqi və insani dəyərlərdir. Bunların hamısı Allahın göndərdiyi qanunlar çərçivəsində daha

kamil şəkildə formalaşa və düzgün şəkildə icra oluna bilər. Adətən insan Allaha iman gətirməklə bu məsələləri daha yaxşı formada həyata keçirə bilər. Bəli, bəzən Allaha iman gətirən insanların əxlaqa riayət etmədiyi də müşahidə oluna bilər. Amma bu kimi məsələlər mövzunun əsli və həqiqətində dəyişikliyə səbəb olmur.

Ümumiyyətlə, insanlar əxlaqlı olaraq dünyaya gəlmirlər və əxlaqın bütün prinsipləri onların zatı və fitrətində yoxdur, sonradan tərbiyə olunmaqla insanlar bu üstün keyfiyyətlərə nail ola bilir. Həmin məsələləri də Allah-taala insana əmr etmiş və ona öyrətmişdir. Əgər ateistlərin iddiası düzdürsə, onda onların nəzərdə tutduğu əxlaqın mənşəyi nədir və bu əxlaqı haradan əldə ediblər. Ateistlər etika və əxlaqın Allahla rabitəsinin olmadığını deyirlər. Biz isə deyirik ki, əgər insanın Allaha imanı olmasa, onda ümumiyyətlə, etika və əxlaq formalaşmır və insanlar tərbiyəsiz və mənəviyyatsız şəxslər kimi yetişirlər. Əgər Allaha etiqad etməyən insanlarda hər hansı əxlaqi səciyyələr müşahidə edilirsə, onlar dində olan əxlaqi səciyyələri götürüb adını dəyişərək bəhrələnmişlər. Ona görə də əxlaqlı bir insan kimi tanınırlar.

### 17. İRAD

**Hitçens: "Muhəmməd deyirdi: "Elmin dalınca Çinə belə gedin!" O, bunu deyərkən, özü də bilmədən, ən böyük sivilizasiyanın onun şüurunun ən uzaq nöqtəsində olduğunu qəbul edirdi".**

**Cavab**

Hitçens iddia edir ki, həzrət Peyğəmbər (s) özü də bilmədən belə deyirmiş. Halbuki məsələ heç də belə deyil.

Əvvəla, qeyd edək ki,  qeyd edilən hədisin doğruuğu şübhəlidir.

Digər bir tərəfdən, Allah Rəsulundan (s) elm haqqında çoxlu sayda hədislər vardır və biz onların hamısına baxış keçirib nəticə almalıyıq. Həzrət Peyğəmbər (s) buyurur:

اطلبوا العلم ولو بالسين

***"Elmin Çində belə olsa, onun dalınca gedin".***

Elm, alim və alimin məqamı, əhəmiyyəti haqqında nəql edilən hədislər çoxdur.

Digər hədisdə buyrulur:

طلب العلم فريضة على كل مسلم و مسلمة

***"Elm öyrənmək hər bir müsəlman kişi və müsəlman qadına vacibdir".***

Əgər biz şərtləri nəzərə alsaq, Peyğəmbər (s) buyurur ki, bütün insanlara elm öyrənmək vacibdir.

اطلبوا العلم من المهد الى اللهد

***"Beşikdən qəbrə qədər elm öyrənin".***

Qeyd edilən hədislərdə fərd baxımından bütün insanlar, zaman baxımından beşikdən qəbrə qədər, məkan baxımından isə istənilən yer nəzərdə tutulmuşdur. Bir sözlə, İslamda elmə və elm öyrənməyə təşviq edilmişdir.

Peyğəmbərin (s) buyurduğu "Elm Çində belə olsa, onun dalınca gedin" hədisində məqsəd heç də bu elmin Çində olması anlamına gəlmir. Qeyd olunan hədislərə nəzər saldıqda, aydın oldu ki, həzrət bütün insanlara elm öyrənməyi tövsiyə etmiş, məkan və zaman olaraq da bunun hər zaman mümkün olduğunu və elm öyrənməyin əsla gec olmadığını diqqətə çatdırmışdır. Bu hədisdə də məqsəd budur ki, elm Çin kimi

uzaq bir yerdə olsa belə, onun dalınca gedin. Əlbəttə, burada hazırda Çinin elm və texnologiya baxımından inkişafı nəzərdə tutulmamışdır. Ateistlər digər iddialarında olduqları kimi, bu iddialarında da yanlışlığa yol vermişlər.

Eyni zamanda, hədisdə incə bir məqam var. Hədisin ərəbcəsində "və ləv" ifadəsi vardır, buna ərəb qrammatikasında "ləvi- imtinaiyyə" deyilir. Bu ifadə özündən sonranı inkar edir, yəni ərəblər bir işin mümkünsüzlüyünü, öz məsəllərində ifadıə etmək istəsələr, "və ləv" sözü ilə ifadə edirlər. Yəni bu iş mümkün deyildir. Quranın "Ənbiya" surəsinin 22-ci ayəsini nəzərinizə çatdırırıq:

لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللهُ لَفَسَدَتَا

**"Əgər göydə və yerdə Allahdan başqa, tanrılar olsaydı, dağılıb məhv olardılar!"**

Ayədə qeyd olunur ki, Allahdan başqa məbudların olması mümkünsüzdür. Məbudların olmadığı üçün göylər və yerlər dağılmamışdır. "Ləv" ifadəsi inkarı bildirmiş və səbəb olmadığından nəticə də baş verməmişdir. Bu, eynilə, Peyğəmbərin (s) sözügedən hədisindəki kimidir. Yəni İslami elmlərin Çində olması qeyri-mümkündür, əgər orda belə olsa, onun ardınca gedin. Həqiqətdə, məsafənin uzaqlığının belə elmin öyrənilməsinə maneə olmadığı vurğulanmışdır.

Buradan da aydın olur ki, Hitçensin bu iddiası, ərəb dilini bilmədikləri üçün irəli sürülmüşdür.

## 18. İRAD

> **"Tanrı böyük deyildir" kitabının başqa bir yerində belə yazılır: "İslam rəsmi olaraq intiharı qadağan edir. Amma cəsarətli şəhidlərlə nə edəcəyini bilmir: qınamalı, yoxsa nümunə kimi göstərməlidir?"**

**Cavab**

Hitçens deyir ki, İslam dini intihar etməyi qadağan etmişdir. Amma şəhidlərə gəldikdə, onlarla nə edəcəyini bilmir. Yəni İslam dini bilmir ki, bunu da intihar hesab etsin ya öz mənafeyinə görə buna dəstək olsun.

Əvvəla, biz intiharla şəhadət məsələsinə aydınlıq gətirməliyik. İntihar dedikdə nə başa düşülür? İntiharda həyatdan bezmək, Allaha ümidsizlik, maddi sıxıntılar, yersiz ölüm vardır. Guya, intihar etməklə insanlar çıxış yolu əldə edir. Dünyanın bütün ağıl sahibləri bu əməli pisləyir və intihar edənləri qınayır. Amma şəhidlik bunun əksinədir. Şəhadətdə son ana qədər müdafiə var. Şəhid olan şəxs özünü çətinliklərə və digər şeylərə qurban vermir. Əksinə, öz canını başqaları, Vətəni və digər dəyərli məsələlər üçün fəda edir. Şəhadət bu baxımdan bir növ gələcəyə baxmaq və ümidvar olmaqdır. Onlar müqəddəs sayılan şeylər uğrunda canından keçirlər.

Bir anlıq İslamı nəzərə almadan məsələyə diqqət edək. Ateistlərə belə sual veririk: İki şəxs biri problemlərə və digər dünyəvi məsələlərə görə intihar etmişdir. Bu şəxs ağıl sahibləri tərəfindən necə qarşılanacaq? İkinci şəxs isə öz Vətəni və s. dəyərli şeylər üçün canını qurban verir. Siz bunu necə qiymətləndirəcəksiniz? Əgər onların hər ikisinə eyni gözlə baxsanız, onda bu, ağılsızlıqdır və bütün əql sahiblərinin verdiyi hökmün əksinə hökm vermisiniz.

Əgər desəniz xeyr, şəhidlik yaxşıdır, intihar isə pis, onda elə siz İslamın buyurduğunu deyirsiniz. Qurani-Kərimdə şəhidlər yad edilmiş və ruhlarının bədənlərindən ayrılmasına baxmayaraq diri hesab edilmişlər. Həmçinin, bu haqda çox sayda hədislər də var. İslam dini şəhidlər barəsində öz nəzərini bildirmişdir və bu, aydın məsələdir. Ona görə də, İslamın həm intihar və həm də şəhidlik barədə mövqeyi tam məntiqli və ağıla uyğundur.

**19. İRAD**

> **Növbəti iradlardan biri budur: "Bizim sadəcə özünü vəhy qoruyucusu hesab edənlərə inanmamaqda haqqımız var. Bizim onları özlərini aldatdıqlarını və başqalarını aldatmağa çalışdıqlarını deməyə haqqımız var. Şübhə və maraq yolunu seçmək, şübhəsiz, çox faydalıdır. Çünki biz bu qabiliyyətlərin daimi gərginliyi ilə nəyəsə nail ola bilərik. Şübhənin, təcrübənin əvəzinə, imanı seçərək ağzınıza zəhərli saqqız qoymaq üçün yeməkdən imtina edirsiniz".**

**Cavab**

Qeyd etdiyimiz kimi, "Tanrı böyük deyildir" kitabını başdan sona qədər oxuduq və orada məntiqli bir şey görmədik. Ancaq diqqəti cəlb edən məsələ bu oldu ki, K.Hitçens qarşılaşdığı hər bir məsələ və şübhədə ağlının onları həzm və həll edə bilməyəcəyini görür və bu baxımdan şübhələri irəli sürür. O deyir ki, Peyğəmbərlər, mələklər və digərləri olmasından asılı olmayaraq, vəhy qoruyucularını qəbul etməməyə haqqımız var. Buna dair onların nə dəlili var? Varsa, açıqlamalıdırlar. Əgər dəlilləri yoxdursa, onların bu düşüncə və

iradı əsassızdır. Həmçinin, bu qoruyucuların özləri və ardıcıllarını aldatdıqlarını iddia edirlər, bunu da dəlil-sübutsuz. Vəhyi çatdıranlar öz əxlaqları, sağlam düşüncə və dəlil-sübutları ilə ilahi maarifi insanlara çatdırmışlar. Onlar, ən azından, dəlillərlə söylədiklərini isbat etmişlər. Amma ateistlərdə bu da yoxdur; iddia edirlər ki, insanın şübhə ilə hərəkət etməsi daha yaxşıdır. Bəli, bu o zaman məqbul hesab olunardı ki, insanın əlində bir dəlil olmasın və bu zaman buna şübhə ilə yanaşsın, nəticədə də dəlil əldə etmiş olsun. Amma dəlil olduqda şübhə etmək ağıllı hərəkət deyil. Bundan başqa, ateistlərin bu qaydası nəyə əsaslanır? Onlar deyir ki, biz yalnız şübhənin qabiliyyətilə nəyəsə nail ola bilərik. Maraqlıdır ki, bütün elmi nailiyyətlər yalnız dəlil-sübutlarla həyata keçmişdir, ateistlər isə, gördüyünüz kimi, bunun əksini iddia edir.

Sual veririk: Siz, ateistlər, şübhə yolu ilə nəyi əldə etmisiniz? İdeoloji sarsıntıdan başqa nəyə nail olmusunuz? Deyirsiz ki, şübhə və təcrübə metodunu seçmək iman metodunu seçməkdən daha üstündür.

Ümumiyyətlə, iman nə deməkdir? İman - dəlillərlə nəyisə qəbul etməkdir. Şübhə nədir? İnsanın heç bir nəticə əldə edə bilmədiyi bir metod. Görünür ki, imanla şübhənin fərqində də Hitçens səhvə yol vermişdir. Sizcə bunlardan hansı yaxşıdır? Təcrübi elmlərdə eksperimentlər dəlil-sübut əldə etmək üçündür, iman metodunda isə sübut var və bu, təcrübə və şübhədən üstündür. İman metodunda dəlillər və nəticə bəllidir, amma təcrübi metodda nə dəlil, nə də nəticə aydın deyil. Bu, təbabətlə digər sahələri müqayisə etməyə bənzəyir. Belə ki, bir şəxsin tibbə nəzər salmaqla tarix, riyaziyyat və s. elmlərə ehtiyacın olmadığını deməsinə bənzəyir. Onların hər birisi bir ixtisasdır və hər birisinin öz yeri vardır.

## 20. İRAD

> **K.Hitçens yazır: "İslamda kişilərin sünnət edilməsi cinsiyyət orqanına əzab verməkdən ibarətdir. Sünnətin əsl mahiyyəti cinsiyyət orqanına əzab verməkdir. Müdafiəsiz körpələrin gələcək cinsi həyatını məhv etmək üçün uşaqları əlil edirlər".**

**Cavab**

Günümüzdə sünnətin ağrısız-acısız həyata keçirildiyi məlumdur və tibb elmi də onun faydalarını bildirmişdir. Bu baxımdan ateistlərin bu iddiası həqiqətə uyğun deyil. Çünki ortada heç bir əzab yoxdur. Sünnət İslamda müəyyən hikmət və məsləhət baxımından tövsiyə olunmuşdur. Eynilə insanın dırnağı, saçı uzandıqda onu kəsdiyi kimi, kişilərin də sünnət edilməsinin müəyyən səbəb və faydaları vardır. Onun sayəsində xərçəng, iltihab, sidik kanalındakı digər xəstəliklərin qarşısı alınır və onun faydaları danılmazdır. Hətta qeyri-müsəlmanlardan da, indi sünnət edilənlər var və onun faydalarından yararlanırlar.

Dünyada nə qədər körpə sünnət olunarkən əlil olmuşdur? Bu haqda hansısa bir statistik məlumat varmı? Məsələni araşdırdıqda, bu iddianın da nə tibbə əsaslandığı, nə də hansısa bir dəlilə malik olduğu anlaşılır.

## 21. İRAD

> **Hitçens: "Bu din, Allahın oxumaq əmrini cahil bir şəxsə verməsini həqiqət hesab etməyən milyonlarla insan kimi, mənə də yaddır".**

**Cavab**

Bu iradda həzrət Peyğəmbərə (s) nazil olan ilk Quran ayəsindəki "Oxu!" əmrinə işarə olunmuşdur. Allah tərəfindən Peyğəmbərə (s) "Oxu!" deyilirsə, deməli peyğəmbər qeyri-adi bir qüdrətə amlikdir ki, mələyin "Oxu!" səsini eşidir. Bu vəhydir və ona oxumaq qüdrəti də verilmişdir. Digər bir tərəfdən, əgər oxumağı bacaran bir kəsə bu əmr verilsəydi, onda onu qəbul edəcəkdinizmi? Əlbəttə ki, xeyr!

Digər tərəfdən, siz həmin dövrdə yaşamamısınız, Peyğəmbərin (s) oxuya bilmədiyini nəyə əsaslanaraq iddia edirsiniz? Bəlkə Qurandakı "ümmi" sözünə əsaslanır və bunu "oxuya bilməmək" mənasına yozursunuz.

Həqiqətdə, qeyb elminə malik olan və peyğəmbərlik verilən bir şəxsin oxuya bilməməsini ağıl qəbul edə bilməz. Hətta Quranda bildirilməmişdir ki, Peyğəmbər (s) heç nəyi yazıb oxuya bilmir. Allahın Peyğəmbəri (s) qeyb elminə malik olduğundan yazıb oxuya bilirdi, lakin müəyyən səbəblərdən bunu etməmişdir. Həmin səbəblərdən biri də gələcəkdə irad tutanların ona Quranı başqa bir insandan öyrəndiyini deyə bilməməsi ilə bağlıdır. Quranın bəzi ayələrində həzrətə "Sən Quranı qeyri-ərəb olanlardan öyrənmisən" deyənlərin olduğu bildirilmişdir. Halbuki Quran bir vəhy və ərəbcə olması ilə yanaşı Allah-taala tərəfindən Peyğəmbərə (s) nazil edilmişdir.

"Ənkəbut" surəsinin 48-ci ayəsində buyrulur:

وَمَا كُنتَ تَتْلُو مِن قَبْلِهِ مِن كِتَابٍ وَلَا تَخُطُّهُ بِيَمِينِكَ إِذاً لَّارْتَابَ الْمُبْطِلُونَ.

**"Sən bundan əvvəl nə bir kitab oxuyurdun, nə də əlinlə bir şey yazırdın. Yoxsa sözlərini inkar etmək istəyənlər şübhəyə düşərdilər".**

Qeyd etdiyimiz kimi, sonradan başqalarının Quranı inkar etməməsi və həzrətə irad tutmaması üçün Peyğəmbər (s) nə oxuyur, nə də yazırdı. Bu isə oxumağı bacarmamaq deyildir.

Digər bir tərəfdən, oxumaq və yazmağı bilməmək bir cahillik (savadsızlıqdır) və bu, pislənən bir xüsusiyyətdir, Peyğəmbər (s) isə cahillik və nadanlıqdan uzaqdır.

**22. İRAD**

> **K.Hitçens "Tanrı böyük deyildir" kitabında yazır: "Babası müqəddəs Qum şəhərində ayətullah və müfti olan Seyid Hüseyn Xomeynini öz şəxsi evimdə qonaq edərkən ona mənə aid olan bir Quran surətini təqdim etdim. O, kitabı öpdü, uzun-uzadı barəsində söhbətlər etdi və sonda kitabın arxa qabığında babasının teokratiya iddialarını təkzib edən və Salman Rüşdünün ölüm hökmünü ləğv edən Quran ayələrini yazdı. Bu mübahisədə kimin haqlı olduğunu hökm etmək mənim işim deyil, ancaq mən fərqli insanların bir mətndən fərqli hökmlər çıxartdıqlarının şahidi olmuşam. İslami həqiqətlərin xəyali dərinliyini yüksək qiymətləndirmək lazım deyil".**

**Cavab**

Biz bu görüşün baş verib-vermədiyini dəqiq bilmirik. Bunu fərz etsək belə, xatırladaq ki, Seyid Hüseyn Xomeyni heç müctəhid də deyil, onun ictihad dərəcəsi yoxdur. Mərcəyi-təqlid olmadığı halda, onun İmam Xomeyninin hökmünü ləğv etməsi mümkün deyil, çünki özü alim və müctəhid deyil. Bu, qeyri-mümkündür. İmam Xomeyni ictihad dərəcəsinə çatmış

bir şəxsdir. Təsəvvür edin ki, orta məktəbi yenicə qurtaran bir şəxs elmi dərəcəsi akademik səviyyədə olan Universitet müəlliminə irad tutur. Bu, nə dərəcədə qəbul olunar?

Müctəhidlə qeyri-müctəhidi bir-birindən ayırd edə bilməmək də, Hitçensin elmi səviyyəsinin azlığını göstərir. Onlar elə bilir ki, müctəhidlik nəyisə əzbərləməklə tez bir zamanda nail olunan bir pillədir.

Hitçens bu iddianı irəli sürdükdə, ən azından, bu iki şəxsiyyətin məqam və elmi dərəcəsini bilməli idi. Bunu yazan bir şəxsin İslami həqiqətlərdən kifayət qədər məlumatlı olmadığı anlaşılır. Əgər müctəhidlə qeyri-müctəhidi bir-birindən ayırd etmək bu qədər çətindirsə, görəsən İslami həqiqətlərin xəyali dərinliyini necə anlayırmış? Ümumiyyətlə, İslami həqiqətin nə olduğunu başa düşürsünüzmü?

Bundan başqa, bu iddianızda hansı dəlillərə əsaslanırsınız?

### 23. İRAD

> **Hitçensin qənaətinə görə, din açıq şəkildə əxlaqsızdır. Şüur, həsəd, xəsislik - iqtisadi inkişafın mühərrikidir. Din isə bunları qadağan edir.**

**Cavab**

Din ateistlərin qeyd etdiyi bu əxlaqi rəzilə sifətləri qadağan edir. Həsəd, paxıllıq, xəsislik, əslində, insani xislətlərin ən pisidir və əxlaqi baxımdan bəyənilməzdir. Bu xüsusiyyətləri iqtisadi inkişaf hesab edən ateistlər, görəsən, əxlaqı necə dəyərləndirirlər? Ümumiyyətlə, onların nəzərində əxlaq nədir? İslam dini əsla düşüncəyə qarşı çıxmır! Axı insanı heyvandan fərqləndirən cəhət onun şüurlu olmasıdır. Deyirlər ki, düşüncə iqtisadi inkişafın mühərrikidir. Bəyəm İslam dini şüurlu olmağı

pisləyir? Xeyr, əksinə, insanı ağıla, düşüncəyə səsləyir və bütün işlərdə təfəkkür etməsini bildirir. Hədis və ayələr də bu məsələni təsdiqləyir və insanı təfəkkür və düşüncəyə çağırır. Həzrət Əli (ə) buyurur:

التدبر قبل العمل يأمنک من الندم.

"Əməldən öncə tədbir görmək sonrakı peşmançılıqdan amanda saxlayar".[1]

Yəni insan ağıl və şüurla hərəkət etsə, işlərini düşünüb həyata keçirsə, müvəffəqiyyət əldə edər və peşmançılıq çəkməz.

"Nisa" surəsinin 5-ci ayəsində buyrulur:

وَلاَ تُؤْتُواْ السُّفَهَاء أَمْوَالَكُمُ الَّتِي جَعَلَ اللّهُ لَكُمْ قِيَاماً وَارْزُقُوهُمْ فِيهَا وَاكْسُوهُمْ وَقُولُواْ لَهُمْ قَوْلاً مَّعْرُوفًا.

**"Allahın sizə dolanmaq üçün bəxş etdiyi malları səfehlərə verməyin. Həmin maldan onlara verin, onları geyindirin və onlara xoş sözlər deyin!"**

Ayədəki "səfeh" sözü "ruhi xəstələr" və ya "dəlilər" mənasında deyil. Burada iqtisadi baxımdan yetərli düşüncə və əqlə sahib olmayan, düzgün qərar verə bilməyən kəslər nəzərdə tutulur. Bir sözlə, mal və sərvəti boş yerə sərf edən və bitirən kəslərin ixtiyarında qoymayın.

"Bəqərə" surəsinin 13-cü ayəsində buyrulur:

وَإِذَا قِيلَ لَهُمْ آمِنُواْ كَمَا آمَنَ النَّاسُ قَالُواْ أَنُؤْمِنُ كَمَا آمَنَ السُّفَهَاء أَلا إِنَّهُمْ هُمُ السُّفَهَاء وَلَـكِن لاَّ يَعْلَمُونَ.

**"Onlara: "(Digər) insanlar kimi iman gətirin!" - deyildiyi zaman: "Biz də səfehlər kimi iman gətirək?" - deyə**

[1] "Vəsailuş-şiə", c. 15, s. 281.

**cavab verirlər. Agah olun ki, səfeh onların özləridir, lakin (bunu) bilmirlər".**

"Bəqərə" surəsinin 188-ci ayəsində buyrulur:

وَلاَ تَأْكُلُواْ أَمْوَالَكُم بَيْنَكُم بِالْبَاطِلِ وَتُدْلُواْ بِهَا إِلَى الْحُكَّامِ لِتَأْكُلُواْ فَرِيقاً مِّنْ أَمْوَالِ النَّاسِ بِالإِثْمِ وَأَنتُمْ تَعْلَمُونَ

**"Mallarınızı öz aranızda haqsız olaraq yeməyin. Xalqın malının bir qismini (onun sizə haram olduğunu) bilə-bilə günah yolu ilə yeməyiniz üçün onu (malınızı) hakimlərə (rüşvət olaraq) verməyin".**

Allah-taala bildirir ki, haqsızlıq və batil yolla başqalarının mal və sərvətini yeməyin, onu qoruyub-saxlayın ki, iqtisadi baxımdan asayiş və əmin-amanlıq formalaşsın.

"Nəcm" surəsinin 39-cu ayəsində buyrulur:

وَأَن لَّيْسَ لِلْإِنسَانِ إِلَّا مَا سَعَى.

**"İnsana yalnız çalışıb səy göstərdiyi aiddir".**

Yəni insan çalışdığı qədər nəyisə əldə edir.

"Yusif" surəsinin 55-ci ayəsində buyrulur:

قَالَ اجْعَلْنِي عَلَى خَزَآئِنِ الأَرْضِ إِنِّي حَفِيظٌ عَلِيمٌ.

**"(Yusif) dedi: "Bu məmləkətin xəzinələrini mənə tapşır. Çünki mən qoruyanam, bilənəm".**

Qurani-Kərimdə bəyan edilir ki, iqtisadiyyat sahəsində düzgün idarəçiliyin olması zəruridir, Həzrət Yusif (ə) də iqtisadi elmə malik olduğunu və sərvəti qoruyub-saxlaya biləcəyini bildirir.

"Maidə" surəsinin 8-ci ayəsində buyrulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ للهِّ شُهَدَاء بِالْقِسْطِ وَلاَ يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ عَلَى أَلاَّ تَعْدِلُواْ اعْدِلُواْ هُوَ أَقْرَبُ لِلتَّقْوَى وَاتَّقُواْ اللهَّ إِنَّ اللهَّ خَبِيرٌ بِمَا تَعْمَلُونَ.

**“Ey iman gətirənlər! Həmişə Allah üçün ayağa qalxın, ədalətli şahidlər olun. Hansısa bir toplumla olan düşmənçiliyiniz sizi günaha və ədalətsizliyə sövq etməsin. Ədalətli olun ki, o, təqvaya daha yaxındır. Allahdan qorxun (ona qarşı günah etməkdən çəkinin). Allah etdiklərinizdən xəbərdardır!”**

Allah-taala bir daha bildirir ki, ədalətli olun. Sağlam və düzgün iqtisadiyyatda ədalətli olmaq əsas prinsip və şərtlərdən biridir. Bu da, öz növbəsində, düzgün idarəçilik və müdiriyyət tələb edir.

İslam ağıl və şüurdan faydalanmağa dəvət edir və bunu təsdiqləyir.

Ateistlər iddia edir ki, həsəd və paxıllıq iqtisadi inkişafın mühərrikidir. Biz həsədin nə olmasına diqqət yetirək və onun mənasını anlayaq. Həsəd bir şəxsin digər şəxsdə olan hansısa bir şeyin əldən getməsini və onun ixtiyarına keçməsini istəməkdən ibarətdir. Belə olduğu halda, həsəd iqtisadiyyatın necə mühərriki ola bilər. Bunun özü əslində bir təhlükədir. İslam dini həsədi gerilik amillərindən biri hesab edir. Həsəd, paxıllıq və xəsislik, digərlərinin sərvətini mənimsəmək kimi sifətləri pis xüsusiyyətlərdəndir.

Digər bir tərəfdən, kitabın orjinalına baxsaq görəcəyik ki, bu iddia ateistlərin ikinci bir iddiasıdır. Çünki kitabın orjinalında Hitçensin ifadəsi belədir: “**Xoşbəxtlikdən, hərislik və acgözlük - iqtisadi inkişafın mühərrikidir.**” Yəni kitabı tərcümə edərkən, tərcüməçi ateist, Hitçensin ifadəsini dəyişərək başqa bir iddia etmişdir. Ya da savadsızlıqdan bir mətni düzgün tərcümə edə bilməmişdir.

## 24. İRAD

> **K.Hitçens "Tanrı böyük deyildir" kitabının digər yerində belə yazır: "Dinin artıq bəhanəsi qalmayıb. Teleskop və mikroskopun sayəsində onun şərhləri artıq işə yaramır".**

**Cavab**

Demək istəyir ki, elm artıq inkişaf edib, teleskop və mikroskop meydana çıxdıqdan sonra artıq dinin nəyəsə şərh verməsinə ehtiyac qalmayıb.

Sual veririk: Teleskop, mikroskop, inkişaf etmiş elm dinin qadağan etdiyi həsəd, paxıllıq, haram və insanın zərərinə olan məsələləri və yaxud namazın qaydalarını, ictimai asayiş, azadlıq və s. bu kimi məsələləri izah edə bilirmi? Əlbəttə ki, izah edə bilmir. 21-ci əsrdə yaşadığımıza baxmayaraq, hələ də baş verən hadisələr inkişaf etmiş elmin bunu izah edə bilmədiyini təsdiqləyir. Yəni 19 əsrdə baş verən haqsızlıqlar, 21-ci əsrdə baş verən zülmlərin yanında bir zərrədir. Əxlaqsızlıq və dinsizlik baş verdiyindən bu gün müasir dünya belə acınacaqlı vəziyyətdədir. Elm inkişaf etdiyi üçün qeyri-müsəlman qüvvələr, müsəlman ölkələrini, tükənməz sərvətlərini talamaz və onların sərvətlərini haqsızlıqla mənimsəməzdilər. Onlar müsəlman ölkələrinin sərvətini talamaqla həyatlarını davam etdirirlər. Əgər Şərqdəki müsəlman ölkələrində olan bu nemət və bərəkətlər olmasaydı, onda Hitçens kimilər belə ateizm əqidəli kitabları deyil, başqa kitabları qələmə alardılar.

Digər tərəfdən, **"Dinin artıq bəhanəsi qalmayıb"** ifadəsi o qədər məntiqsiz və gülüncdür ki, buna təəccüblənməmək mümkün deyil. Sanki riyaziyyat müəllimi gəlib deyir ki, riyaziyyat hər şeyi kompüterlə hesablayır və texnologiya bu

hesablamara cavab verir deyə, artıq təbabətə ehtiyac qalmayıb. Bir halda ki, hər bir elmin öz yeri vardır. Texnologiya nə qədər inkişaf etsə də, misal üçün riyaziyyat təbabəti əvəz edə bilməz və bunlar bir-birini təkmilləşdirə bilər.

Din texnologiya və elmi inkişafı qadağan etmir, hər bir elmi nailiyyəti bəyənir və təsdiqləyir. Din teleskop və mikroskop və ümumiyyətlə texnologiyanın üzərində nəzarətin olmasını istəyir. Çünki bu gün din və əxlaqın nəzarətindən çıxan texnologiyanın, bəşərin başına gətirdiyi bəlalarla hamımız tanışıq.

### 25. İRAD

> **Növbəti irad: "İslam Peyğəmbəri miladi təqvimlə təqribən 632-ci ildə dünyasını dəyişib. Düz yüz iyirmi il sonra İbn İshaq ilk dəfə onun həyat hekayəsini yazmışdır. Lakin bu yazının originalı itib və sadəcə işlənmiş variantı mövcuddur... Bu şayiələr və qeyri-müəyyənliklərə onu əlavə edə bilərik ki, Peyğəmbərin davamçılarının Quranı necə tərtib etmələri və Məhəmmədin kəlamları əsasında qanunun necə yarandığı haqda etibarlı məlumatımız yoxdu".**

**Cavab**

Hitçensin iddiasına ilk cavabımız budur: Həzrət Peyğəmbərin (s) vəfat etməsi hər bir şeyin, hidayət qapısının bağlanması mənasına gəlmir. Allah Rəsulunun (s) canişinləri olan imamlar var, onlar Peyğəmbərin (s) mirasına sahibdirlər.

**Bu cavaba ateistlər belə irad bildirə bilərlər: Heç Peyğəmbəri qəbul etmədiyimiz halda, siz imamları dəlil gətirirsiniz...**

Gəlin bu məsələyə aydınlıq gətirək. Problem qəbul məsələsi olsa, onda hər şeyi bir kənara qoyub Allahdan danışmalı və Onun varlığını sizə sübut etməliyik. Siz Onu qəbul etmədən Peyğəmbərdən (s) söhbət açırsınız. Halbuki bütün məsələlər Allahdan başlayır.

Bundan başqa, biz peyğəmbərlik və imamət məsələsini qəbul edirik, bu bizim üçün çox önəmlidir.

İkincisi, Peyğəmbərin (s) sözləri, həyatı, əxlaqı və Quranın necə tərtib edilməsinə dair tarixi faktlar mövcuddur.

Digər tərəfdən, bütün bunları öz gözləri ilə görən şahidlər olmuşdur. Əlbəttə, hadisələri öz gözləri ilə görən və sonrakı nəslə nəql edən şahidlər mötəbərlik baxımından daha üstündür. Məsələn, Cabir ibn Abdullah Ənsari (607-697), Salman Farsi (v. 657), Əbu Əyyub Ənsari (v.674) kimi şəxsiyyətlər Peyğəmbərdən (s) sonra yaşayıblar.

Bundan başqa, Peyğəmbərin (s) canişin və nümayəndələri olan İmamlar məsələsi var ki, onlar həzrətin sözlərinə şahidlik etmiş və Quranın həqiqi olmasına dəlildirlər. Əgər bunu da qəbul etməsələr, bu şahidləri də qəbul etməsələr, onda biz onlara deyirik: Teleskop və mikroskop zamanıdır, elm və texnologiya inkişaf edib, arxeoloji qazıntılar aparılır, yerin altından şəhərlər, qəbirlər çıxır. Bu qazıntılardan əldə olunan tapıntılar əsasında hansısa bir qövmün, şəhərin mədəniyyəti, yaşayış tərzi haqqında məlumat verilir. Arxeoloqların əsaslandığı daş və digər şeylər, görəsən, canlı şahidlərdən üstündürmü? Tarixdə Peyğəmbərin (s) mədəniyyəti, əxlaqı, xüsusiyyətlərinə şahidlik etdiyi halda, onların dəyəri yoxdurmu? Halbuki bu, daş-kəsək deyil, canlı şahidlərdir, tarixi faktlardır və onları danmaq olmaz. İbn İshaqın qələmə aldığı məlumatlar elə canlı şahid hesab olunur, həzrət Peyğəmbərə (s) və Quranın toplanmasına da bir dəlildir".

Qurani-Kərimdə Allah-taala Peyğəmbərə (s) bildirir ki, Biz sənə bu kitabı nazil etmişik.

ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ.

**"Bu, heç bir şəkk-şübhə olmayan, təqvalılara doğru yol göstərən əzəmətli bir kitabdır".**[1]

وَلَمَّا جَاءهُمْ كِتَابٌ مِّنْ عِندِ اللّهِ مُصَدِّقٌ لِّمَا مَعَهُمْ وَكَانُواْ مِن قَبْلُ يَسْتَفْتِحُونَ عَلَى الَّذِينَ كَفَرُواْ فَلَمَّا جَاءهُم مَّا عَرَفُواْ كَفَرُواْ بِهِ فَلَعْنَةُ اللَّه عَلَى الْكَافِرِينَ.

**"Onlara Allah tərəfindən əllərindəkini (Tövratı) təsdiq edən bir kitab (Quran) göndərildiyi zaman (onu qəbul etmədilər). Halbuki əvvəlcə (Muhəmməddən qabaq) kafirlərə (ərəb müşriklərinə) qələbə çalmaq üçün ("Tövratda adı çəkilən axirüzzəman peyğəmbər gəlib bizə yardım edəydi!" - deyə Allaha) yalvarırdılar. Bildikləri (peyğəmbər) gəldikdə isə, (paxıllıq edib) ona inanmadılar. Allah kafirlərə lənət eləsin!"**[2]

وَهَـذَا كِتَابٌ أَنزَلْنَاهُ مُبَارَكٌ مُّصَدِّقُ الَّذِي بَيْنَ يَدَيْهِ وَلِتُنذِرَ أُمَّ الْقُرَى وَمَنْ حَوْلَهَا وَالَّذِينَ يُؤْمِنُونَ بِالآخِرَةِ يُؤْمِنُونَ بِهِ وَهُمْ عَلَى صَلاَتِهِمْ يُحَافِظُونَ.

**"Bu, xeyir-bərəkəti özündən əvvəlkiləri təsdiq edən bir kitabdır ki, onu sənə "Ümmül-qura" (Məkkə) əhalisini və ətrafındakı insanları qorxutmaq üçün nazil etmişik. Axirətə iman gətirənlər ona iman gətirər, namazlarını da qoruyub saxlayarlar".**[3]

وَهَـذَا كِتَابٌ أَنزَلْنَاهُ مُبَارَكٌ فَاتَّبِعُوهُ وَاتَّقُواْ لَعَلَّكُمْ تُرْحَمُونَ.

---

[1] "Bəqərə" surəsi, 2-ci ayə.
[2] "Bəqərə" surəsi, 89-cu ayə.
[3] "Ənam" surəsi, 92-ci ayə.

**"Bizim nazil etdiyimiz bu kitab bərəkətlidir. Ona tabe olun və Allahdan qorxun ki, bəlkə, sizə rəhm edilsin!"**[1]

كِتَابٌ أُنزِلَ إِلَيْكَ فَلاَ يَكُن فِي صَدْرِكَ حَرَجٌ مِّنْهُ لِتُنذِرَ بِهِ وَذِكْرَى لِلْمُؤْمِنِينَ

**"Bu, (insanları doğru olmayan inancları və davranışlarının acı aqibətindən) qorxutmaq və möminlərə xatırlatmaq üçün sənə nazil edilən bir kitabdır. Ondan ötrü ürəyində bir sıxıntı və narahatlıq olmasın!"**[2]

الَر كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِ رَبِّهِمْ إِلَى صِرَاطِ الْعَزِيزِ الْحَمِيدِ.

**"Əlif, Lam, Ra. (Bu,) insanları öz Rəblərinin izni ilə qaranlıqdan nura – qüdrətli, tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir kitabdır".**[3]

كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ مُبَارَكٌ لِّيَدَّبَّرُوا آيَاتِهِ وَلِيَتَذَكَّرَ أُوْلُوا الْأَلْبَابِ.

**"Bu bərəkətli kitabı, (insanların) onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də xatırlaması üçün sənə nazil etdik".**[4]

Allah-taala pərakəndə, hissə-hissə olan surələrdən deyil, bütöv və kamil şəkildə nazil olan bir kitabdan danışır. Səhabələr və digər şəxsiyyətlər canlı şəkildə Peyğəmbərə (s) və Quranın tərtib olunmasına şahid olmuşlar. Necə ola bilir ki, arxeoloqlar min illər öncə var olmuş sivilizasiyalardan xəbər verir, ateist Hitçens də bunu inkar etmir, ancaq Quran və Peyğəmbəri (s) inkar edir? Əgər bu gun bu haqda o dövrə məxsus hər hansı bir kitab olsaydı və bu günə qədər qorunub

---

[1] "Ənam" surəsi, 155-ci ayə.
[2] "Əraf" surəsi, 2-ci ayə.
[3] "İbrahim" surəsi, 1-ci ayə.
[4] "Sad" surəsi, 29-cu ayə.

saxlanılsaydı, ateistlər yenə də onu inkar edəcək, qəbul etməyəcəklərdi.

Allah-taala Quranın "Tövbə" surəsinin 93-cü ayəsində buyurur:

وَطَبَعَ اللهُ عَلَى قُلُوبِهِمْ فَهُمْ لاَ يَعْلَمُونَ.

**"Allah onların ürəklərini möhürləmişdir. Buna görə də onlar heç nə bilməzlər!"**

**26. İRAD**

**"Tanrı böyük deyildir" kitabında bu fikir də yer alır: "Dinin bütün faydasının keçmişdə qaldığını, əsas mətnlərinin ağ iplərlə toxunan nağıllar olduğunu, insan tərəfindən icad edildiyini, həmişə elmin, azad düşüncənin düşməni olduğunu, əksər hallarda yalana, qorxuya arxalandığını, cahilliyə, həmçinin köləliyə, irqçiliyə, genosid və zülmə göz yumduğunu qəti şəkildə sübuta yetirə bilməsəm də, əminliklə bəyan edirəm ki, müasir din bu ittihamlarla çox gözəl tanışdır".**

**Cavab**

Özləri də etiraf edir ki, əllərində bu iddiaları sübut etməyə tutarlı bir dəlil, arqument yoxdur. Belə isə bu iddialar yalandan başqa bir şey deyil. Nəyə əsasən dinin faydalarının keçmişdə qaldığını iddia edirsiniz? Bu - yalandır.

Əgər İslamın dəyişdiyini iddia etsəz, bu, belə deyil, dində dəyişiklik baş verməyib. Əgər əksini söyləsəz, deməli bu, faydalı və dəyişməz bir dindir. Necə ola bilər, od olsun, amma yandırıcı xüsusiyyəti olmasın? Keçmişdə faydası olan bir din

bu gün də varsa, onun faydalılığı davam etməli və bunun aradan getməsi özü-özlüyündə qeyri-mümkündür. Faydaların aradan qalxması üçün həmin dinin özünün aradan getməsi lazımdır. Əgər ateist Hitçensin məqsədi dinin bir zamanlar faydasının olması, amma bu gün elm inkişaf etdiyindən ona ehtiyacın qalmamasıdırsa, onda bunu açıq-aşkar öz sözündə bildirməli və onu ifadə etməli idi. Halbuki, o, bunu demir.

Sual veririk: Onda həmin elm hansı elmdir: dini elm, yoxsa dünyəvi elmdir? Əgər dini elmi nəzərdə tutursa, dini elm elə həmin dinin bir faydasıdır. Bunu inkar etmək mümkün deyil. Əgər dinlə heç bir əlaqəsi olamayan bir elmin insanı dindən ehtiyacsız etdiyini deyirsə, bu da qeyri-məqbul bir məsələdir. Ona görə ki, din və qeyri-dini elmlər iki ayrıca predmetə malikdir. Onların biri digərini əvəz edə bilməz. Yəni texnologiyanın inkişafı digər elmləri aradan qaldırmır. Məsələn, riyaziyyat, kompüter elmi və digər elmlərin özünəməxsus yeri, mövqeyi var və biri digərini əvəz edə bilmir.

Ateistlər iddia edir ki, dini insanlar yaradıb. Əgər dinin bütün mətnlərini insanlar yaratmış olsaydı, onda bütün insanların mənafeyini qoruyar və onların tam xeyrinə olan bir din olardı və beləliklə, Hər kəs tərəfindən qəbul edilərdi. Əgər onu bəşər övladı yaradıbsa, onda nə üçün insanlar dinin əleyhinə çıxır?  Əksinə, din insan nəfsinin və şəxsi mənafelərinin əksinə hökm verdiyi üçün insanların çoxu dinin əleyhinə çıxmışdır. Çünki əksər halda din insanın nəfsi istəklərinin əleyhinə hökm verir. Yəni din insanlar tərəfindən iycad edilsəydi, insan öz istəyinin əleyhinə hökm verməz və bütün hökmlərdə öz xeyrini düşünərdi. Bu da onun Allah tərəfindən yaradıldığını göstərir. Din insanlar tərəfindən yaradılsaydı, onların bütün istəklərinə uyğun qanunlar yaradardı.

Digər bir tərəfdən, dinin insanın fərdi, ictimai və iqtisadi həyatındakı qanunları ya yaxşıdır, ya da tamamilə pisdir. Əgər desək ki, hamısı pisdir, onda biz insanların yaratdığı qayda-qanunların da pis olduğunu iddia etməliyik, çünki insanların yaratdığı qayda-qanunların da bəziləri insanın istəklərinin əksinə və ziddinədir. Yaxud da insanların yaratdığı qayda-qanunların bir qismi dini qayda-qanunlarla tamamilə üst-üstə düşür, belə olan halda biz onları da pisləməliyik. Çünki o qayda-qanunlar dində olduğu üçün biz dini rədd etdik.

Beləliklə dini qayda-qanunları insanlar yaratmışdır deyərək, rədd etsək gərək insanların öz dünyvəi qanunlarını da rədd edək.

Bunlardan əlavə, əgər insanlar bu dini qayda-qanunları icad etsəydi, onda müəyyən bir dövrdə fəxrlə dini icad etdiklərini bəyan etməliydilər. Halbuki belə bir iddiayla ortaya çıxan hər hansı bir miləlt və ya xalq olmamışdır. Heç bir zamanda insanlar hansısa bir dini yaratdıqlarını iddia etməmişdir. Hətta dindar olmayan insanlar belə, dinin bəşər tərəfindən yaradılmadığını bilir və bunu təsdiqləyirlər.

## 27. İRAD

**"Tanrı böyük deyildir" kitabında dinin elmi düşüncə və azad fikrin düşməni olduğu iddia olunur.**

**Cavab**

Bu iddia da digərləri kimi heç bir dəlil və məntiqə söykənmir. Din heç vaxt düşüncə və təfəkkürün, elmin düşməni olmamış, əksinə, buna təşviq etmişdir. Öncəki cavablarımızda bu mövzuya toxunduğumuz üçün burada qısaca məlumat verəcəyik. Quran və hədislərdə bu haqda kifayət qədər dəlillər

mövcuddur ki, onlardan bir qismini nəzərinizə çatdırmaq istərdik:

Allah-taala "Zumər" surəsinin 9-cu ayəsində buyurmuşdur:

أَمَّنْ هُوَ قَانِتٌ آنَاء اللَّيْلِ سَاجِداً وَقَائِماً يَحْذَرُ الْآخِرَةَ وَيَرْجُو رَحْمَةَ رَبِّهِ قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ إِنَّمَا يَتَذَكَّرُ أُوْلُوا الْأَلْبَابِ.

**"(Bu cür adam dəyərlidir, yoxsa) gecə saatlarını qiyam və səcdə halında ibadət edərək keçirən, axirət əzabından qorxan və Rəbbinin rəhmətinə ümid bəsləyən adam? De: "Bilənlərlə bilməyənlər eynidirmi? Təkcə ağıl sahibləri xatırlayar".**

"Mucadələ" surəsinin 11-ci ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا قِيلَ لَكُمْ تَفَسَّحُوا فِي الْمَجَالِسِ فَافْسَحُوا يَفْسَحِ اللَّهُ لَكُمْ وَإِذَا قِيلَ انشُزُوا فَانشُزُوا يَرْفَعِ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَالَّذِينَ أُوتُوا الْعِلْمَ دَرَجَاتٍ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ.

**"Ey iman gətirənlər! Sizə: "Məclislərdə yer verin!" – deyildikdə, yer verin ki, Allah da sizə geniş yer versin. Habelə sizə: "Qalxın!" – deyildikdə, qalxın ki, Allah da sizdən iman gətirənlərin və elm verilmiş şəxslərin dərəcələrini ucaltsın. Allah nə etdiklərinizdən xəbərdardır".**

Allah-taala elm əhlinə dəyər verir və onların məqamlarının üstün olduğunu insanlara bildirir. Hətta alimlərin yuxusu belə dəyərlidir. İslam dini insanlara müstəqil düşüncəni aşılayır və onlara korkoranə təqlid etməyi qadağan etdiyini bildirir və bu məsələni pisləyərək tənqid edir. Allah-taala "Bəqərə" surəsinin 170-ci ayəsində buyurur:

وَإِذَا قِيلَ لَهُمُ اتَّبِعُوا مَا أَنزَلَ اللّهُ قَالُواْ بَلْ نَتَّبِعُ مَا أَلْفَيْنَا عَلَيْهِ آبَاءنَا أَوَلَوْ كَانَ آبَاؤُهُمْ لاَ يَعْقِلُونَ شَيْئاً وَلاَ يَهْتَدُونَ.

**"Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyildiyi zaman, onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik", – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyildilərsə, necə? (Yenədəmi onlara tabe olacaqlar?)"**

"Maidə" surəsinin 104-cü ayəsində buyrulur:

وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ إِلَى مَا أَنزَلَ اللّهُ وَإِلَى الرَّسُولِ قَالُواْ حَسْبُنَا مَا وَجَدْنَا عَلَيْهِ آبَاءنَا أَوَلَوْ كَانَ آبَاؤُهُمْ لاَ يَعْلَمُونَ شَيْئاً وَلاَ يَهْتَدُونَ.

**"Onlara: "Allahın nazil etdiyinə və Peyğəmbərə tərəf gəlin!" – deyildiyi zaman: "Atalarımızdan mənimsədiyimiz bizə yetər", - deyə cavab verərlər. Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə, necə?!"**

Allah-taala qeyd olunan ayələrdə insanları azad düşüncə və təfəkkürə dəvət edir və onları nadanlıqdan və korkoranə təqliddən çəkindirir.

"Əraf" surəsinin 157-ci ayəsində buyrulur:

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِندَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ يَأْمُرُهُم بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلاَلَ الَّتِي كَانَتْ عَلَيْهِمْ فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ.

**"Onlar Allahın elçisinə, ümmi (təhsil almamış) peyğəmbərə tabedirlər, onun hansı xüsusiyyətlərə malik olduğunu əllərindəki Tövrat və İncildən bilirlər. Onlara yaxşı işlər görməyi əmr edər, pis işləri qadağan edər, təmiz nemətləri halal, təmiz olmayanları haram edər, onların ağır yükünü götürər və üzərlərindəki buxovları açar. Ona iman**

**gətirən, yardım göstərən və onunla nazil olan nura tabe olanlar, məhz onlar nicat tapanlardır!"**

"Nəhl" surəsinin 36-cı ayəsində buyrulur:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ فَمِنْهُم مَّنْ هَدَى اللهُ وَمِنْهُم مَّنْ حَقَّتْ عَلَيْهِ الضَّلالَةُ فَسِيرُواْ فِي الأَرْضِ فَانظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ.

**"Biz hər ümmətə: "Tək olan Allaha ibadət edin, həddi aşanlardan uzaq durun"– deyə, elçi göndərdik. Allah kimisini doğru yola yönəltdi, kimisinə də azmaq nəsib etdi. Yer üzündə gəzib dolaşın və görün yalan sayanların aqibəti necə oldu!"**

"Bəqərə" surəsinin 44-cü ayəsində buyrulur:

أَتَأْمُرُونَ النَّاسَ بِالْبِرِّ وَتَنسَوْنَ أَنفُسَكُمْ وَأَنتُمْ تَتْلُونَ الْكِتَابَ أَفَلاَ تَعْقِلُونَ.

**"İnsanları yaxşı işlərə (nişanələri Tövratda aydın şəkildə verilən peyğəmbərə iman gətirməyə) dəvət etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki (səmavi) kitabı oxuyursunuz. Məgər düşünmürsünüz?"**

"Bəqərə" surəsinin 73-cü ayəsində buyrulur:

فَقُلْنَا اضْرِبُوهُ بِبَعْضِهَا كَذَلِكَ يُحْيِي اللهُ الْمَوْتَى وَيُرِيكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ.

**"(Belə olduqda) dedik: "(Kəsilmiş inəyin) bir parçasını ölüyə vurun (ki, dirilib qatilinin kim olduğunu bildirsin)". Allah ölüləri belə dirildər və sizə Öz nişanələrini göstərər ki, bəlkə düşünəsiniz".**

"Bəqərə" surəsinin 242-ci ayəsində buyrulur:

كَذَلِكَ يُبَيِّنُ اللهُ لَكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ.

**"Allah Öz ayələrini sizə belə açıqlayır ki, bəlkə düşünəsiniz".**

"Ali İmran" surəsinin 65-ci ayəsində buyrulur:

يَا أَهْلَ الْكِتَابِ لِمَ تُحَآجُّونَ فِي إِبْرَاهِيمَ وَمَا أُنزِلَتِ التَّورَاةُ وَالإنجِيلُ إِلاَّ مِن بَعْدِهِ أَفَلاَ تَعْقِلُونَ.

**"Ey kitab əhli, nə üçün İbrahim barəsində mübahisə edir və inadkarlıq göstərirsiniz? (Hər biriniz onu öz dininin davamçısı kimi təqdim edirsiniz?) Halbuki Tövrat da, İncil də ondan sonra nazil edilmişdir, məgər düşünmürsünüz?"**

"Ali İmran" surəsinin 118-ci ayəsində buyrulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ بِطَانَةً مِّن دُونِكُمْ لاَ يَأْلُونَكُمْ خَبَالاً وَدُّواْ مَا عَنِتُّمْ قَدْ بَدَتِ الْبَغْضَاء مِنْ أَفْوَاهِهِمْ وَمَا تُخْفِي صُدُورُهُمْ أَكْبَرُ قَدْ بَيَّنَّا لَكُمُ الآيَاتِ إِن كُنتُمْ تَعْقِلُونَ.

**"Ey iman gətirənlər! Özünüzdən başqasını özünüzə sirdaş etməyin. Onlar sizin barənizdə fitnə-fəsad törətməkdən əl çəkməzlər, sizin zəhmətə, əzab-əziyyətə düşməyinizi istəyərlər. Onların ədavət və düşmənçilikləri ağızlarından (çıxan sözlərdən) aşkar olar. Qəlblərində gizlətdikləri isə daha böyükdür. Əgər fikirləşsəniz, (onların pisiliklərinin qarşısını almaq üçün yollar və) əlamətləri artıq sizə izah etdik".**

"Ənam" surəsinin 32-ci ayəsində buyrulur:

وَمَا الْحَيَاةُ الدُّنْيَا إِلاَّ لَعِبٌ وَلَهْوٌ وَلَلدَّارُ الآخِرَةُ خَيْرٌ لِّلَّذِينَ يَتَّقُونَ أَفَلاَ تَعْقِلُونَ.

**"Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Axirət evi müttəqilər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?"**

"Ənam" surəsinin 151-ci ayəsində buyrulur:

قُلْ تَعَالَوْاْ أَتْلُ مَا حَرَّمَ رَبُّكُمْ عَلَيْكُمْ أَلاَّ تُشْرِكُواْ بِهِ شَيْئاً وَبِالْوَالِدَيْنِ إِحْسَاناً وَلاَ تَقْتُلُواْ أَوْلاَدَكُم مِّنْ إمْلاَقٍ نَّحْنُ نَرْزُقُكُمْ وَإِيَّاهُمْ وَلاَ تَقْرَبُواْ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَلاَ تَقْتُلُواْ النَّفْسَ الَّتِي حَرَّمَ اللّهُ إِلاَّ بِالْحَقِّ ذَلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ.

**"De: "Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Nə aşkarda, nə də gizlində pis işlərə yaxın durmayın. Allahın toxunulmaz etdiyi insanı haqsız yerə qətlə yetirməyin. (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız!"**

"Əraf" surəsinin 169-cu ayəsində buyrulur:

فَخَلَفَ مِن بَعْدِهِمْ خَلْفٌ وَرِثُواْ الْكِتَابَ يَأْخُذُونَ عَرَضَ هَـذَا الأدْنَى وَيَقُولُونَ سَيُغْفَرُ لَنَا وَإِن يَأْتِهِمْ عَرَضٌ مِّثْلُهُ يَأْخُذُوهُ أَلَمْ يُؤْخَذْ عَلَيْهِم مِّيثَاقُ الْكِتَابِ أَن لاَّ يِقُولُواْ عَلَى اللّهِ إِلاَّ الْحَقَّ وَدَرَسُواْ مَا فِيهِ وَالدَّارُ الآخِرَةُ خَيْرٌ لِّلَّذِينَ يَتَّقُونَ أَفَلاَ تَعْقِلُونَ.

**"Onlardan sonra yerlərini kitaba (Tövrata) sahib olan övladlar tutdu. (Ancaq bununla belə,) onlar bu dəyərsiz dünya malını götürüb deyirlər: "Biz (günahkarıqsa, tövbə edib) bağışlanacağıq!" Əgər əllərinə bunun misli qədər daha bir dünya malı gəlsə, onu da alarlar. Məgər Allah barəsində haqdan başqa bir şey söyləməyəcəklərinə dair onlardan kitabda yazılmış əhd alınmamışdımı?! Onlar onu dəfələrlə oxuyublar. Axirət evi Allahdan qorxanlar üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?"**

"Yunis" surəsinin 16-cı ayəsində buyrulur:

قُل لَّوْ شَاء اللّهُ مَا تَلَوْتُهُ عَلَيْكُمْ وَلاَ أَدْرَاكُم بِهِ فَقَدْ لَبِثْتُ فِيكُمْ عُمُراً مِّن قَبْلِهِ أَفَلاَ تَعْقِلُونَ.

**"De: "Əgər Allah istəsəydi, mən bu ayələri sizə oxumazdım və (Allah) onu sizə bildirməzdi. Bundan əvvəl mən uzun illər sizin aranızda yaşadım (heç bir ayə gətirmədim). Məgər başa düşmürsünüz?"**

"Hud" surəsinin 51-ci ayəsində buyrulur:

يَا قَوْمِ لا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْراً إِنْ أَجْرِيَ إِلاَّ عَلَى الَّذِي فَطَرَنِي أَفَلاَ تَعْقِلُونَ.

**"Ey qövmüm! Mən buna (peyğəmbərliyə) görə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım yalnız məni yaradana aiddir. Başa düşmürsünüz?"**

"Yusif" surəsinin 2-ci ayəsində buyrulur:

إِنَّا أَنزَلْنَاهُ قُرْآناً عَرَبِيّاً لَّعَلَّكُمْ تَعْقِلُونَ.

**"Biz onu ərəbcə bir Quran olaraq nazil etdik ki, bəlkə dərk edəsiniz".**

"Yusif" surəsinin 109-cu ayəsində buyrulur:

وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِم مِّنْ أَهْلِ الْقُرَى أَفَلَمْ يَسِيرُواْ فِي الأَرْضِ فَيَنظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الَّذِينَ مِن قَبْلِهِمْ وَلَدَارُ الآخِرَةِ خَيْرٌ لِّلَّذِينَ اتَّقَواْ أَفَلاَ تَعْقِلُونَ.

**"Biz səndən əvvəl məmləkətlərin sakinlərindən yalnız vəhy etdiyimiz kişiləri elçi göndərdik. (Sənin çağırışına qarşı çıxanlar) özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmək üçün yer üzünü gəzmədilərmi? Axirət yurdu təqvalılar üçün daha xeyirlidir. Məgər düşünmürsünüz?"**

"Ənbiya" surəsinin 10-cu ayəsində buyrulur:

لَقَدْ أَنزَلْنَا إِلَيْكُمْ كِتَاباً فِيهِ ذِكْرُكُمْ أَفَلَا تَعْقِلُونَ.

**"Biz sizə xatırladan (və ayıldan) bir kitab nazil etdik. Məgər başa düşmürsünüz?"**

"Ənbiya" surəsinin 67-ci ayəsində buyrulur:

أُفٍّ لَّكُمْ وَلِمَا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ أَفَلَا تَعْقِلُونَ.

**"Ar olsun sizə də, Allahdan başqa tapındıqlarınıza da! Düşünmürsünüzmü?"**

"Muminun" surəsinin 80-cı ayəsində buyrulur:

وَهُوَ الَّذِي يُحْيِي وَيُمِيتُ وَلَهُ اخْتِلَافُ اللَّيْلِ وَالنَّهَارِ أَفَلَا تَعْقِلُونَ.

**“Dirildən də, öldürən də Odur. Gecə ilə gündüzün bir-birini əvəz etməsi Ona aiddir (Onun işidir). Məgər düşünmürsünüz?”**

“Nur” surəsinin 61-ci ayəsində buyrulur:

لَيْسَ عَلَى الْأَعْمَى حَرَجٌ وَلَا عَلَى الْأَعْرَجِ حَرَجٌ وَلَا عَلَى الْمَرِيضِ حَرَجٌ وَلَا عَلَى أَنفُسِكُمْ أَن تَأْكُلُوا مِن بُيُوتِكُمْ أَوْ بُيُوتِ آبَائِكُمْ أَوْ بُيُوتِ أُمَّهَاتِكُمْ أَوْ بُيُوتِ إِخْوَانِكُمْ أَوْ بُيُوتِ أَخَوَاتِكُمْ أَوْ بُيُوتِ أَعْمَامِكُمْ أَوْ بُيُوتِ عَمَّاتِكُمْ أَوْ بُيُوتِ أَخْوَالِكُمْ أَوْ بُيُوتِ خَالَاتِكُمْ أَوْ مَا مَلَكْتُم مَّفَاتِحَهُ أَوْ صَدِيقِكُمْ لَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَأْكُلُوا جَمِيعاً أَوْ أَشْتَاتاً فَإِذَا دَخَلْتُم بُيُوتاً فَسَلِّمُوا عَلَى أَنفُسِكُمْ تَحِيَّةً مِّنْ عِندِ اللَّهِ مُبَارَكَةً طَيِّبَةً كَذَلِكَ يُبَيِّنُ اللَّهُ لَكُمُ الْآيَاتِ لَعَلَّكُمْ تَعْقِلُونَ.

**“Kor, çolaq, bir də xəstəyə (sizinlə oturub çörək yedikləri üçün) günah yazılmaz. Sizin özünüzə də (xüsusi bir icazə olmadan) öz evlərinizdə (övladlarınız və həyat yoldaşlarınızın evləri də sizin eviniz sayılır), yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları ixtiyarınızda olan evlərdə, yaxud dostlarınızın evlərində bir yerdə və ya ayrı-ayrılıqda yemək yeməkdə heç bir günah yoxdur. Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və pak bir salamla salamlayın. Allah ayələrini sizə belə izah edir ki, başa düşəsiniz”.**

“Şuəra” surəsinin 28-ci ayəsində buyrulur:

قَالَ رَبُّ الْمَشْرِقِ وَالْمَغْرِبِ وَمَا بَيْنَهُمَا إِن كُنتُمْ تَعْقِلُونَ.

**“(Musa) dedi: “Əgər ağlınızı işə salsanız, (bilərsniz ki,) O, şərqin, qərbin və bunların arasında olanların Rəbbidir!”**

“Qəsəs” surəsinin 60-cı ayəsində buyrulur:

وَمَا أُوتِيتُم مِّن شَيْءٍ فَمَتَاعُ الْحَيَاةِ الدُّنْيَا وَزِينَتُهَا وَمَا عِندَ اللَّهِ خَيْرٌ وَأَبْقَى أَفَلَا تَعْقِلُونَ.

**“Sizə verilən ancaq dünya malı və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha davamlıdır. Məgər başa düşmürsünüz?”**

“Yasin” surəsinin 62-ci ayəsində buyrulur:

وَلَقَدْ أَضَلَّ مِنكُمْ جِبِلّاً كَثِيراً أَفَلَمْ تَكُونُوا تَعْقِلُونَ.

**“(Şeytan) çoxunuzu yoldan çıxarmışdır. Məgər düşünmürdünüz?”**

“Saffat” surəsinin 138-ci ayəsində buyrulur:

أَفَلَا تَعْقِلُونَ.

**“Düşünmürsünüzmü?”**

“Ğafir” surəsinin 67-ci ayəsində buyrulur:

هُوَ الَّذِي خَلَقَكُم مِّن تُرَابٍ ثُمَّ مِن نُّطْفَةٍ ثُمَّ مِنْ عَلَقَةٍ ثُمَّ يُخْرِجُكُمْ طِفْلاً ثُمَّ لِتَبْلُغُوا أَشُدَّكُمْ ثُمَّ لِتَكُونُوا شُيُوخاً وَمِنكُم مَّن يُتَوَفَّى مِن قَبْلُ وَلِتَبْلُغُوا أَجَلاً مُّسَمًّى وَلَعَلَّكُمْ تَعْقِلُونَ.

**“Sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan yaradan, körpə surətində dünyaya gətirən Odur. Sonra siz böyüyüb yetkinlik yaşına çatır, daha sonra da qocalırsınız. Bir dəstəniz bu mərhələyə yetişməzdən əvvəl ölür, nəhayət, ömrünüzün sonuna gəlirsiniz. Bəlkə, düşünəsiniz”.**

“Zuxruf” surəsinin 3-cü ayəsində buyrulur:

إِنَّا جَعَلْنَاهُ قُرْآناً عَرَبِيّاً لَّعَلَّكُمْ تَعْقِلُونَ.

**“Biz onu ərəbcə və fəsih bir Quran etdik ki, bəlkə siz dərk edəsiniz”.**

“Hədid” surəsinin 17-ci ayəsində buyrulur:

اعْلَمُوا أَنَّ اللَّهَ يُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا قَدْ بَيَّنَّا لَكُمُ الْآيَاتِ لَعَلَّكُمْ تَعْقِلُونَ.

**“Bilin ki, Allah, torpağı öldükdən sonra dirildir. Biz ayələri sizə izah etdik ki, bəlkə, düşünəsiniz”.**

“Bəqərə” surəsinin 219-cu ayəsində buyrulur:

يَسْأَلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ وَمَنَافِعُ لِلنَّاسِ وَإِثْمُهُمَا أَكْبَرُ مِن نَّفْعِهِمَا وَيَسْأَلُونَكَ مَاذَا يُنفِقُونَ قُلِ الْعَفْوَ كَذَلِكَ يُبيِّنُ اللهُ لَكُمُ الآيَاتِ لَعَلَّكُمْ تَتَفَكَّرُونَ.

**“Səndən şərab və qumar haqqında soruşurlar. De: “Onlarda böyük günah və insanlar üçün (maddi) mənfəət vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür”. Səndən (Allah yolunda) nə xərcləyəcəklərini soruşurlar. De: “Ehtiyacınızdan artıq qalanını!” Allah sizə ayələri bu cür açıqlayır ki, bəlkə, düşünəsiniz”.**

Qeyd edək ki, 60-dan çox olan digər ayələrdə Allah-taala insanı azad düşüncə və ağılı işə salmağa dəvət edir və din heç zaman ağıl və azad düşüncə ilə düşmən olmayıb.

## 28. İRAD

**Qeyd etyimiz kimi, K.Hitçensin qənaətinə görə, din əksər hallarda yalana, qorxuya arxalanır, cahilliyə, həmçinin köləliyə, irqçiliyə, genosid və zülmə göz yumur.**

**Cavab**

Hitçens dinin yalana arxalandığını söyləyir, halbuki din, əslində, iddiada qeyd edilənləri pisləyir və insanları sözügedən məsələlərdən çəkindirir və onları doğruluğa, ədalətə, insani dəyərlərə önəm verməyə səsləyir. İslam dini qeyd edilən məsələlərin qəti surədə əleyhinədir. Dünyada yeganə amil elə dinin özüdür ki, insanları yalandan və zülmdən çəkindirir.

“Ənam” surəsinin 157-ci ayəsində buyrulur:

أَوْ تَقُولُواْ لَوْ أَنَّا أُنزِلَ عَلَيْنَا الْكِتَابُ لَكُنَّا أَهْدَى مِنْهُمْ فَقَدْ جَاءكُم بَيِّنَةٌ مِّن رَّبِّكُمْ وَهُدًى وَرَحْمَةٌ فَمَنْ أَظْلَمُ مِمَّن كَذَّبَ بِآيَاتِ اللّهِ وَصَدَفَ عَنْهَا سَنَجْزِي الَّذِينَ يَصْدِفُونَ عَنْ آيَاتِنَا سُوءَ الْعَذَابِ بِمَا كَانُواْ يَصْدِفُونَ.

**"(Biz onu sizin: "Bizdən əvvəl kitab ancaq iki tayfaya (yəhudilərə və xaçpərəstlərə) nazil edilmişdir. Biz onların araşdırmasından xəbərsizik", - deməməyiniz) və ya: "Əgər bizə də kitab nazil edilsəydi, onlardan daha artıq düz yolda olardıq", - söyləməməyiniz üçün (göndərdik). Artıq Rəbbinizdən sizə açıq-aşkar bir dəlil, hidayət və mərhəmət gəlmişdir. Allahın ayələrini yalan hesab edib onlardan üz çevirəndən daha zalım kim ola bilər?! Ayələrimizdən üz çevirənləri əsassız yerə üz çevirdiklərinə görə ən pis cəza ilə cazalandıracağıq!"**

"Bəqərə" surəsinin 10-cu ayəsində buyrulur:

فِي قُلُوبِهِم مَّرَضٌ فَزَادَهُمُ اللّهُ مَرَضاً وَلَهُم عَذَابٌ أَلِيمٌ بِمَا كَانُوا يَكْذِبُونَ.

**"Onların ürəyində bir növ xəstəlik var. Allah onların xəstəliyini daha da artırmışdır. Yalan dedikləri üçün onları şiddətli bir əzab gözləyir".**

Allah-taalanın Özü yalan danışanlara əzab vədəsi verir. Allahın Rəsulu (s) buyurur ki, mömin yalan danışmaz. Bu qədər ayə və hədislər yalanı pislədiyi və ondan çəkindirdiyi halda, İslam dininin yalana əsaslandığını iddia etmək düzgündürmü? Əlbəttə ki, xeyr! Əgər belə bir iddianız varsa, bizə nümunələr göstərin, ayələr gətirin, səhih hədisləri misal göstərin, görək orada hansısa bir yalandan istifadə edilmişdirmi və insanlar yalanlarla nəyəsə dəvət olunmuşdurmu?

İqrçilik və təəssübkeşliyin tənqidi ilə bağlı da ayələr var. "Maidə" surəsinin 50-ci ayəsində buyurur:

أَفَحُكْمَ الْجَاهِلِيَّةِ يَبْغُونَ وَمَنْ أَحْسَنُ مِنَ اللّهِ حُكْماً لِّقَوْمٍ يُوقِنُونَ.

**“Onlar (səndən) Cahiliyyət dövrünün hökmünümü istəyirlər? Yəqin sahibi olan bir cəmiyyət üçün Allahdan daha yaxşı kim hökm verə bilər?!”**

Yəni onlar irqçilik və təəssübkeşlik etməyini istəyirlərmi? İslamda irqçilik və yersiz təəssübkeşliyə yer yoxdur.

Allah-taala “Fəth” surəsinin 26-cı ayəsində buyurur:

إِذْ جَعَلَ الَّذِينَ كَفَرُوا فِي قُلُوبِهِمُ الْحَمِيَّةَ حَمِيَّةَ الْجَاهِلِيَّةِ فَأَنزَلَ اللهُ سَكِينَتَهُ عَلَى رَسُولِهِ وَعَلَى الْمُؤْمِنِينَ وَأَلْزَمَهُمْ كَلِمَةَ التَّقْوَى وَكَانُوا أَحَقَّ بِهَا وَأَهْلَهَا وَكَانَ اللهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا.

**“Kafirlər qəlblərində Cahiliyyət qəzəbi və lovğalığına qapıldıqları zaman Allah Öz elçisinə və möminlərə rahatlıq və təskinlik nazil etdi, onlara təqva ruhunu bəxş etdi. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir”.**

Yuxarıda artıq qeyd etdiyimiz kimi, Hitçens bu iddiasının ardınca belə bildirir: **“...Qəti şəkildə sübuta yetirə bilməsəm də, əminliklə bəyan edirəm ki, müasir din bu ittihamlarla çox gözəl tanışdır”.**

İndi soruşuruq: Nə üçün sübut edə bilmirsiz? Dəliliniz ola-ola sübut edə bilmirsiz, yoxsa dəliliniz yoxdur? Əgər dəlil ola-ola sübut edə bilmirsinizsə, bu, ağlasığmazdı və həmin dəlil də dəlil deyil. Əgər dəliliniz yoxdursa, onda nə üçün bunu iddia edirsiz? Əslində qeyd etdiklərinizdən asanlıqla anlaşılır ki, bu məsələlərlə bağlı çətinlikləriniz var və iddialarınızı sübut edə bilmirsiniz.

## 29.İRAD

**“Tanrı böyük deyildir” kitabında belə qeyd edilir: “İbrahimin qorxunc hekayəsi qətiyyən mərhəmət işığında təsəvvür edilə bilməz. Onun başlanğıcı bir sıra nağıllar və**

> **iyrəncliklərdən ibarətdir; burada atalarını yoldan çıxaran Lutun qızları da var, İbrahimin ögey bacısı ilə nikahı da... Bəlkə İbrahim vicdan əzabı çəkirdi, amma Allaha qarşı çıxa bilməzdi və buna görə oğlunu öldürməyə razı olmuşdu..."**

**Cavab**

Əvvəla, İbrahim peyğəmbərin (ə) hansı qorxunc hekayəsi var? Bu həzrətin başına gələn hadisələr Qurani-Kərimdə bildirilmişdir, onun hikmətli və məntiqli hekayəsi nəql edilmişdir. Həzrət İbrahim (ə) bütpərəstlərlə mübarizə aparmış və oda atıldıqdan sonra da Allah tərəfindən möcüzəvi şəkildə oddan xilas edilmiş və od onu yandırmamışdır. Peyğəmbərin (ə) həyatına nəzər saldıqda, onun müxaliflərə qarşı apardığı mübarizələrdə qələbə çaldığı aydın olur. Həzrət İbrahim (ə) Quranda tövhid qəhrəmanı kimi təqdim edilmişdir. O, düşmənləri acizliyə uğradan bir şəxsdir. Bəli, tarixdə hansısa təhrif edilmiş kitablar, məqalələr yazıla bilər, lakin bu, qəbul oluna bilməz. Quranın "Ali İmran" surəsinin 33-cü ayəsində buyrulur:

إِنَّ اللهَّ اصْطَفَى آدَمَ وَنُوحًا وَآلَ إِبْرَاهِيمَ وَآلَ عِمْرَانَ عَلَى الْعَالَمِينَ.

**"Həqiqətən, Allah Adəmi, Nuhu, İbrahimin ailəsini və İmranın ailəsini (öz zamanlarındakı) bütün aləmdəkilərdən üstün etdi".**

Həzrət İbrahim (ə) və onun ailəsi, ayədə qeyd olunduğu kimi, seçilmiş kəslərdən idi və üstün insani səciyyələrə malik idi. Allah-taala onu öz zəmanəsindəki digər insanlardan üstün tutmuşdur. "Bəqərə" surəsinin 124-cü ayəsində buyrulur:

وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَاماً قَالَ وَمِن ذُرِّيَّتِي قَالَ لاَ يَنَالُ عَهْدِي الظَّالِمِينَ.

**“(Yadınıza salın ki,) Rəbbi İbrahimi müxtəlif vasitələrlə sınağa çəkdiyi zaman o, bu sınaqlardan yaxşı çıxdı. (Bu zaman Allah ona:) “Səni insanlara imam (rəhbər, başçı) təyin edirəm” - dedi. (İbrahim isə:) “Nəslimdən də (imamlar təyin et)” – dedi. (Allah:) “Mənim əhdim zalımlara çatmır (və sənin övladlarından bu məqama yaınız pak və qüsursuz olanlar layiqdirlər)” – buyurdu”.**

Həzrət İbrahimin (ə) imtahan olunması onun şəxsiyyətinin möhkəmlənməsi üçün idi və imtahandan başı uca çıxan bu peyğəmbərə (ə) imamət və insanlara rəhbərlik məqamı verildi.

Ateistlər burada diqqəti həzrət İbrahimin, oğlu İsmayılı (ə) qurban kəsməsi məsələsinə çəkirlər. Əslində bu hadisə baş vermədi və imtahan məqamında həzrət öz vəzifəsini yerinə yetirdi. Əlbəttə, həzrət İbrahim (ə) uzun müddət övlad sahibi olmamış və ovlad sahibi olduqdan sonra da imtahan olunmuşdu. Onun oğluna qarşı hədsiz məhəbbəti vardı. Burada qorxulu bir hadisə yoxdur və heç bir acınacaqlı hadisə də baş vermədi. Peyğəmbər (ə) Allaha məhəbbətindən övladını belə qurban verməyə hazır olduğunu göstərdi. Bu, vətənini, torpağını qorumaq üçün, öz oğlunu döyüş meydanına göndərən atanın işinə bənzəyir ki, qurban vermək üçün oğlunu meydana göndərir və oğlu şəhid olur.

Yuxarıdakı iradda **“atalarını yoldan çıxaran Lutun qızları”** ifadəsi yer alır. Əvvəla, həzrət Lut (ə) bir peyğəmbər idi və Quranda, digər səhih və mötəbər kitablarda onun haqqında belə pis bir şey qeyd olunmamışdır. Bu cəfəngiyyatları haradan əldə edir və nə üçün ismət sahibi olan peyğəmbərlərə iftira atırsınız? Biz belə insanlara ancaq təəssüflənə bilərik, çünki onlar həqiqətdən bixəbər və acizliklərindən nə dediklərini bilmirlər. İslamdan da nə qədər uzaqdırlar! Əslində

həzrət Lutun (ə) fəsad əhli olan qövmü evinə gələn kişi qonaqlara təcavüz etmək istəyəndə, Peyğəmbər (ə) onlara qızlarının olduğunu, onların pak olduğunu, qızlarıyla ailə qurmalarını və evlənmələrini, bu çirkin əməllərdən əl çəkmələrini söyləyir. Allah-taala Quranın "Hud" surəsinin 78-ci ayəsində buyurur:

وَجَاءهُ قَوْمُهُ يُهْرَعُونَ إِلَيْهِ وَمِن قَبْلُ كَانُواْ يَعْمَلُونَ السَّيِّئَاتِ قَالَ يَا قَوْمِ هَـؤُلاء بَنَاتِي هُنَّ أَطْهَرُ لَكُمْ فَاتَّقُواْ اللّهَ وَلاَ تُخْزُونِ فِي ضَيْفِي أَلَيْسَ مِنكُمْ رَجُلٌ رَّشِيدٌ.

**"Tayfası tələsik (Lutun) yanına gəldi. Onlar əvvəl də pis işlər görürdülər. (Lut onlara) dedi: "Ey qövmüm! Bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha təmizdirlər. (Onlarla ailə qurun və çirkinlikdən uzaq olun). Allahdan qorxun və məni qonaqların yanında rüsvay etməyin. Məgər aranızda ağılı başında, başa düşən bir adam yoxdur?"**

Bu ayədə həzrət Lutun (ə) özü deyir ki, "qızlarım evlənmək baxımından sizin üçün daha pakdırlar. Onlarla evlənin!" Belə olduğu halda, onun qızlarının atalarını yoldan çıxarması mümkündürmü?

Digər iddialarına görə isə, güya, həzrət İbrahim (ə) öz bacısı ilə evlənmişdir. Bu haqda nə Quranda, nə də digər mötəbər kitablarda qeyd olunmamış və yalnız Əhli-sünnənin qeyri-mötəbər kitablarında qələmə alınmışdır. Bu məsələ qətiyyən həqiqətə uyğun deyil. Ateistlər İslam və həqiqi, mötəbər islami kitablarla yaxından tanış olsaydılar, bu cür cəfəngiyyatlara düçar olmaz və öz səhvlərini başa düşərdilər.

Digər tərəfdən, həzrət İbrahim (ə) övladını qurban vermək məsələsində heç də vicdan əzabı çəkməyib və heç bir mötəbər yerdə də yazılmamışdır.

**30. İRAD**

> **K.Hitçens öz kitabında yazır: "Din, müqəddəs kitablarının nəsildən-nəsilə insanlığın ən primitiv illuziyalarından birini: qəbilə, sülalə və irqi fərqllilikləri şişirtdiyi üçün məsuliyyət daşıyır. Dinin nifrət və münaqişə yaratdığını, cahillik və xurafata söykəndiyini başa düşmək çətin olmayıb".**

**Cavab**

Bu, ateist Hitçensin nəzəriyyəsidir. İlk olaraq onu qeyd edək ki, müqəddəs İslam dini sonuncu və kamil bir din olaraq sülh və ya düşmənlə müharibə məsələsi, qəbilə və ya digər münasibətlərlə bağlı mötədil bir mövqe tutub bu məsələdə ifrat və təfritə yol verməmişdir. Ola bilsin, Hitçensin vurğuladığı məsələlər məsihilik və yəhudilikdə olmuş olsun, amma Peyğəmbər (s) sünnəsi və İlahi vəhyə əsaslanan, əsas mənbəyi Qurani-Kərim olan İslam dinində heç bir dəyişiklik baş verməmiş, təhriflər baş verməmiş, hansısa dövrlərdəki şəxsiyyətlərin, cəmiyyətin rəftarı Quranda təsir qoymamış və o, sabit olaraq qalmışdır. Yəni insanların, müsəlmanların rəftarı dəyişsə belə, Quranda dəyişiklik olmamışdır. Onun qorunması heç də nəsildən-nəsilə ötürülmə sayəsində olmamışdır. Quran İslamın əsas mənbəyidir və insanlara dəyər verməkdə təqvalı olmağı əsas sayır. İslam dinində irqçilik və təəssübkeşliyə istinad edən heç bir şey yoxdur və bunlar Kristoferin əsassız və məntiqsiz iddiasıdır. Əvvəldə də qeyd etdiyimiz kimi, uşaqlıqda fiziki və psixoloji təzyiqlərə məruz qalmış, qapalı şəraitdə yaşayan müəllif sadəcə həqiqətləri əldə edə bilməmiş və məsələlər ona aydın olmadığından bu cür iddialar irəli sürmüşdür. Kitabını əvvəldən sona qədər oxumağımıza

baxmayaraq, onda tutarlı bir dəlil-sübutla qarşılaşmamışıq. Onun dediklərinin İslam dininə heç bir aidiyyatı yoxdur. Əlbəttə, məsihilik və yəhudiliklə bağlı bunları qeyd edirsə, bu mümkündür və həmin dinlər təhrif edilmiş və insanlar onların mətnində dəyişikliklər etmişlər. Oradakı qanunlar bəşəriyyətin yazdığı qanunlar toplusundan ibarətdir. Bunun isə həqiqi dinə və İslama heç bir aidiyyatı yoxdur.

Hitçens iddiasının ardınca yazır: **"Dinin nifrət və münaqişə yaratdığını, cahillik və xurafata söykəndiyini başa düşmək çətin olmayıb"**. Ondan soruşmaq lazımdır ki, vəhdət və birliyə dəvət edən din nə zaman münaqişə yaratmışdır? İslam tarixinə nəzər saldıqda, görürük ki, Ərəbistanda daim bir-birilə müharibə aparan Ovs və Xəzrəc qəbilələri arasında Peyğəmbər (s) gəldikdən sonra sülh və barışıq yarandı. Qan tökülməsinin qarşısını Peyğəmbər (s) almışdır. Bunlar tarixi sübutdur. İslamdan öncə cahiliyyət dövründəki ərəblər qız uşaqlarını diri-diri basdırırdılar, İslam dini isə bu kimi məsələləri qadağan etmişdir. Belə məsələlər İslamdan öncə vardı və dinlə heç bir əlaqəsi yox idi. Belə isə İslamda münaqişə və dini qarşıdurmaya nə zaman yol verilmişdir? Əslində, insanlar bu kimi işlərə düçar olur və qan tökülməsinə səbəb olur. Əsas məsələ odur ki, ateistlərin bununla bağlı bir iradı varsa, gərək iradları dinin mənbəyinə yönəltsin və desinlər ki, həmin məsələlər İslamda və ya Quranda vardır. Halbuki əsla Quran və İslamda belə bir şey, yəni təəssübkeşlik və irqçilik yoxdur. Mümkündür Hitçensin nəzərində cahillik məfhumu fərqli məna daşıyır. Müqəddəs İslam dini bütün tərəfdar və ardıcıllarına qardaşlıq münasibətində olmağı əmr edir.

"Hucurat" surəsinin 10-cu ayəsində buyrulur:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ.

**“Həqiqətən, möminlər qardaşdırlar. Buna görə də iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, rəhm olunasınız!”**

Hətta ardıcılları olmayanları da iki qismə bölür. Onların bir qismi Əhli-kitabdan olan məsihi və yəhudilər kimi müsəlmanlarla asayişdə olanlardır (əlbəttə, onlarla bağlı müəyyən qayda-qanunlar da nəzərdə tutulmuşdur), ikinci qismə isə müsəlmanlarla müharibə aparanlar daxildir. Allah-taala belə şəxslərlə də həddi aşmadan mübarizə aparmağı əmr edir. Ona görə ki, O, həddi aşanları sevmir.

Bir daha vurğulayırıq ki, İslam və Quranın mətnində heç bir irad yoxdur. Bu, eynilə, yol hərəkət qaydalarına riayət edilməməsi və nəticədə müəyyən problemlərin meydana çıxmasına oxşayır. Burada əsas məsələ yol hərəkət qaydalarının olmasında deyil, əksinə, insanların buna riayət etməmək nəticəsində problemlərlə üzləşməsidir.

Beləliklə, problem və çatışmazlıqlar İslam dini və Quranda deyil, həqiqətdə bu da qayda-qanunlar toplusudur və insanlar buna riayət etməmək səbəbilə müxtəlif çətinliklərlə qarşılaşırlar.

## 31. İRAD

**Hitçens, Həzrət Məhəmməd Peyğəmbərlə (s) bağlı bir iradı bəyan edərək belə yazır: “Ancaq o, hakimiyyətini kimə miras qoyacağı haqda heç bir göstəriş verməyib. Miras üstündə mübarizə onun ölümündən dərhal sonra başladı. Nəticədə İslam tam hüquqlu bir dini sistemə çevrilməmişdən öncə özünün ilk böyük bölünməsini yaşadı – sünnilik və şiəlik”.**

**Cavab**

Peyğəmbərin (s) işi təkcə hakimiyyətlə bağlı deyildi. Həzrət öhdəsində həm dini, həm də dünyəvi rəhbərliyi daşıyırdı. Bu da İlahi bir vəzifə idi və belə bir hakimiyyət ona Allah tərəfindən verilmişdir. Hitçensin bu ifadəsi bir daha onun və onun timsalındakı digər ateistlərin hələ də İslamı dərindən tanımadıqlarını göstərir. Peyğəmbər (s) İlahi vəzifəsini kənara qoya bilməz, dünyəvi hakimiyyəti özbaşına tərk edə və onun haqqında düşünməyə bilməzdi. Ağıl da bunu qəbul etmir ki, 23 il peyğəmbərlik edən bir şəxs hər şeyi başlı-başına buraxsın və dünyadan getsin. Bu məsələ, yəni Peyğəmbərdən (s) sonra rəhbərin təyin olunması da Allah tərəfindən həyata keçirilmiş və sonrakı canişin və rəhbər təyin edilmişdi. İslam tarixində "Qədir-Xum" kimi çox məşhur və önəmli bir hadisə baş vermiş və Peyğəmbər (s) İslam ümmətinə özündən sonra həzrət Əlini (ə) canişin və rəhbər olaraq təyin etmişdir. Bu məsələ danılmaz hadisələrdən və faktlardandır. Həzrət Əli (ə) insanların həm dini, həm də dünyəvi rəhbəri olaraq təyin edilmişdir. Peyğəmbər (s) bu məsələni məqsədyönlü şəkildə həyata keçirir və insanlar da onu rəhbər olaraq qəbul edir.

Hitçens yazır ki, Peyğəmbərin (s) mirası üstündə müharibə onun ölümündən sonra başlamışdır. Əvvəla, nəzərinizə çatdırırıq ki, Peyğəmbərdən (s) sonra başlayan bu təfriqə və müharibə, miras üstündə deyil, ədalət üstündə idi. Əsl mübarizə ədalət uğrunda idi. Peyğəmbər (s) özündən sonra Əhli-beyti (ə) hakimiyyətə təyin etdi və bəziləri hakimiyyəti ələ keçirmək istədi və müsəlmanlar arasında təfriqə yarandı. Həmin təfriqə və ixtilaf İslam dinində deyil, müsəlmanlar arasında idi. Çünki Quran iki yerə parçalanmamışdı, müsəlmanlar parçalanmışdılar.

Yazır ki, İslam özünün ən böyük parçalanmasını, şiəlik və sünnilik bölgüsünü yaşadı. Qeyd edək ki, İslam heç də parçalanmayıb və necə varsa, elə də qalmaqdadır. Quranda və Peyğəmbər (s) sünnəsində iki yol deyil, yalnız bir yol və bir qayda göstərilmişdir. Parçalanma və ayrılıq müsəlmanlar arasındadır. İslam dini Peyğəmbərdən (s) sonra həzrət Əlinin (s) canişin və rəhbər təyin edilməsi ilə kamilləşmiş və nemətlər də insanlara tamamlanmışdır. Quran vəhdət və birlik üzərində formalaşan və buna təkid edən bir kitabdır. Dinin kamilləşməsi məsələsi də "Qədir-Xum" hadisəsi ilə baş vermişdir.

"Maidə" surəsinin 3-cü ayəsində buyrulur:

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِيناً.

**"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün (əbədi) din olaraq İslamı qəbul etdim".**

Hitçens İslamın tam hüquqlu bir dini sitemə çevrilməmişdən öncə parçalandığını iddia edir. Şübhəsiz, bu, yalandır. İslam dini elə Peyğəmbərin (s) zamanında "Qədir-Xum" hadisəsilə öz kamilliyinin zirvə nöqtəsinə yüksəldi və bütün İslam düşmənləri məyus olaraq naümidliyə düçar oldu. Onlar elə güman edirdilər ki, Peyğəmbərdən (s) sonra heç kəs hakimiyyətdə olmayacaq və İslam dininin kökündən məhv edəcəklər. Amma hər şey əksinə oldu və düşmənlər məyus oldular.

Xatırladırıq ki, Quran Peyğəmbər (s) zamanında nazil olmuşdu, ondan sonra nazil olmamışdı ki, Hitçensin irəli sürdüyü əsassız iddialar doğru olsun. Allah Rəsulu (s) bütün insanları yalnız bir yola – haqq yoluna dəvət edir. Quran və Peyğəmbər (s) sünnəsində birdən artıq yol yoxdur və haqq yolu da birdir.

"Rəd" surəsinin 7-ci ayəsində buyrulur:

وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَوْلاَ أُنزِلَ عَلَيْهِ آيَةٌ مِّن رَّبِّهِ إِنَّمَا أَنتَ مُنذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ.

**"Kafir olanlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" Sən ancaq qorxudansan. Hər qövmün bir yolgöstərəni vardır".**

Peyğəmbərdən (s) sonrakı zamanlarda insanları haqq və doğru yola hidayət edən Məsum İmamlar (ə) və o həzrətin canişinləri olmuşdur.

Peyğəmbər (s) "Səqəleyn" hədisində buyurur:

إِنِّي قَدْ تَرَكْتُ فِيكُمُ الثَّقْلَيْنِ ما إنْ تَمَسَّكْتُمْ بِهِما لَنْ تَضِلُّوا بَعْدِي... كِتابَ الله... وَعِتْرَتِي أَهْلَ بَيْتِي.

"Mən sizi tərk edərək aranızda iki ağır əmanət qoyuram. Kim onlardan yapışsa, məndən sonra heç vaxt doğru yoldan azmaz. Allahın kitabı və itrətim (Əhli-beytim)".[1]

Hədisin mənası Quranın səhv və xətadan qorunmuş olması, onun sayəsində hərəkət edənlərin də səhv və günahlardan amanda qalacağıdır. Bu baxımdan, Əhli-beyt (ə) də məsum olmalıdır ki, onlardan yapışanlar da səhv və xətadan amanda qalsınlar. Yoxsa məsum olmadığı halda onlara təvəssül edənlərin səhv və günahlardan amanda qala bilməsi mümkün deyil. Deməli, həmin rəvayətə uyğun olaraq, Əhli-beyt (ə) ismət və təharətə malik və məsumdur, eyni zamanda, Allah tərəfindən seçilmiş məsum bir fərd olmalıdır. Beləliklə, onların bir-birinin ardınca məsum imamlar olduğu aydın olur.

"Səqəleyn" hədisi "imamət" və "vilayət" mövzusu baxımından həddən artıq əhəmiyyətə malikdir, onun tayı-bərabəri yoxdur. Bu hədis dəlil baxımından tutarlı və güclü sübutlara malikdir, sənəd cəhətdən isə Əhli-sünnə və şiə mənbələrində mütəvatir və geniş şəkildə nəql edilmişdir. Həmin hədis

---

[1] "'l-Kafi", c.2, s.415.

barədəki mənbə və sənədlərə nəzər saldıqda, Peyğəmbərin (s) onu bir dəfə deyil, dəfələrlə söylədiyi məlum olur. Qeyd edilən hədis həm şiənin mötəbər mənbələrində ("Təhzibul-əxbar", "Əl-İstibsar", "Əl-Kafi" və "Mən la yəhzurul-fəqih") [1], həm də Əhli-sünnənin "Sihahe sittə" kitablarında gəlmişdir".

"Maidə" surəsinin 55-ci ayəsində buyrulur:

إِنَّمَا وَلِيُّكُمُ اللهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ.

**"Həqiqətən, sizin başçınız və işlərinizin ixtiyar sahibi yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlər – namaz qılıb rüku halında zəkat verən kəslərdir".**

(Hər iki məzhəb tərəfindən nəql edilmiş rəvayətlərə əsasən, cəm şəkildə buyrulan bu ayənin yeganə nümunəsi Əli (ə) və onun rüku halında üzük bağışlamasıdır).

Quran da, Peyğəmbər (s) və onun məsum Əhli-beyti (ə) də yalnız bir olan hidayət yoluna dəvət edir. Nəticədə nə Quranın, nə də Peyğəmbər (s) sünnəsinin yarımçıq qalmadığı və Hitçens kimi ateistlərin dəlil-sübutsuz iddialar irəli sürməsi məlum olur.

**32. İRAD**

**"Tanrı böyük deyildir" kitabının müəllifi, bir sıra islam ölkələrində baş vermiş hadisələri və haqsızlıqları qeyd edərək yazır: "İslam ruhaniliyi müqayisədə daha yaxşı**

[1] "Təhzibul-əxbar", "Əl-İstibsar" Şeyx Tusinin, "Əl-Kafi" mərhum Kuleyninin və "Mən la yəhzurul-fəqih" Şeyx Səduqun əsərlərindəndir və hər üç əsər şiənin ən dəyərli və mötəbər mənbələrindən hesab edilir. Xatırladaq ki, həmin kitabların şiənin ən mötəbər kitabları olduğunu dedikdə oradakı hədislərin tədqiqə ehtiyacı olmadığı anlamına gəlmir. Belə ki, həmin kitablardakı hədislərin sənədləri araşdırıldıqda mötəbərliyi aydın olur.

> **davranmır, hətta bəzi hallarda daha pis hərəkətlərə yol verir.”**

**Cavab**

İslam dinin iki əsas mənbəyi var: Qurani-Kərim və Peyğəmbər (s) sünnəsi. Həmins sünnəyə də Peyğəmbərin (s) Əhli-beyti (ə) olan məsum imamların kəlam və rəftarları daxildir. Hitçens insanların və alimlərin nöqsanlarını İslama nisbət verir. Ola bilər ki, hansısa bir şəxs özünü müsəlman hesab etsin və gördüyü yanlış işləri Qurana və Peyğəmbərə (s) nisbət versin. Əlbəttə, bununla da demək olmaz ki, həmin məsələlər İslama və onun mənbəyinə şamildir. Əgər iradınız varsa, bunu İslam və ya Quranla bağlı söyləməlisiniz, nəinki hansısa şəxslərin əməllərini ona nisbət verməlisiniz. Yəni hansısa üləma şurasının gördüyü işləri İslama nisbət vermək olmaz.

## 33. İRAD

> **Dinin tibbə münasibəti elmə münasibəti kimidir. Hər zaman qanunauyğun ədavət və bir çox hallarda düşmənçiliklə xarakterizə olunur. Müasir mömin dinin elm və tibblə uyğun olduğunu deyə və hətta inana bilər, lakin narahatedici həqiqət ondadır ki, həm elm, həm də tibb tez-tez din inhisarını pozaraq şiddətli müqavimətlə qarşılaşır.**

**Cavab**

Sual veririk: Din harada elm və tibblə ziddiyyətə malikdir və düşmən xarakteri daşıyır? Dinin elm və elm öyrənənlərə verdiyi dəyər haqqında ötən iradlara verdiyimiz cavablarda qeyd etmişik. İndi isə xülasə şəkildə bir daha nəzərinizə çatdırırıq.

“Zumər” surəsinin 9-cu ayəsində buyrulur:

أَمَّنْ هُوَ قَانِتٌ آنَاء اللَّيْلِ سَاجِداً وَقَائِماً يَحْذَرُ الْآخِرَةَ وَيَرْجُو رَحْمَةَ رَبِّهِ قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ إِنَّمَا يَتَذَكَّرُ أُوْلُوا الْأَلْبَابِ.

**“(Bu cür adam dəyərlidir, yoxsa) gecə saatlarını qiyam və səcdə halında ibadət edərək keçirən, axirət əzabından qorxan və Rəbbinin rəhmətinə ümid bəsləyən adam? De: “Bilənlərlə bilməyənlər eynidirmi? Təkcə ağıl sahibləri xatırlayar”.**

“Taha” surəsinin 114-cü ayəsində buyrulur:

فَتَعَالَى اللَّهُ الْمَلِكُ الْحَقُّ وَلَا تَعْجَلْ بِالْقُرْآنِ مِن قَبْلِ أَن يُقْضَى إِلَيْكَ وَحْيُهُ وَقُل رَّبِّ زِدْنِي عِلْماً.

**“Haqq hökmdar olan Allah ucadır! Onun vəhyi sənə tamamlanmayınca Quranı oxumağa tələsmə və: “Ey Rəbbim! Elmimi artır!”– de”.**

İmam Sadiq (ə) buyurur:

اطلبوا العلم.

“Elmi ciddiyyətlə öyrənin”.[1]

İmam Əli (ə) buyurur:

اطلبوا العلم ولو بالسين.

“Elm Çində belə olsa, onun dalınca gedin”.[2]

Qeyd edilən hədis Allah Rəsulundan (s) da nəql edilmişdir.

Peyğəmbər (s) buyurur:

طلب العلم فريضة على كل مسلم ألا ان الله يحب بغات العلم.

“Elm öyrənmək hər bir müsəlmana vacibdir. Bilin ki, Allah çox elmə sahib olanları sevir”.[1]

---

[1] “Əl-Kafi”, c. 1, s. 36.

[2] “Misbahuş-şəriə”, s. 13.

وارزقنی علما نافعا.

"(İlahi!) Bizə xeyirli elm nəsib et!"[2]

نعوذ بالله من علم لاينفع

"İlahi faydasız elmdən sənə sığınırıq."[3]

Qeyd olunanlardan aydın olur ki, din elmə əsla zidd deyil və din elm, inkişaf və tərəqqiyə dəvət edir. Din faydasız elmi inkar edir və onun ziddinədir. Belə ki, müəyyən silahların icad edilməsinə və onlarla bəşəriyyət və dünyanın aradan getməsinə qarşıdır. Burada din elmə qarşı çıxmır, əslində, onun mənfi şəkildə istifadəsi qadağan olunur. Din tibbə də qarşı çıxmır. İmam Rzanın (ə) təbabətlə bağlı bir kitabı var və o, "Tibbur-Rza" adlanır.

Ateistlər iddia edir ki, **"müasir mömin dinin elm və tibblə uyğun olduğunu deyə və hətta inana bilər, lakin narahatedici həqiqət ondadır ki, həm elm, həm də tibb tez-tez din inhisarını pozaraq şiddətli müqavimətlə qarşılaşır".**

Cavabında, əvvəla, onu deyək ki, elm və tibb ayrı-ayrı sahələrdir. Elmin müxtəlif sahələri var, dinin də bir hissəsi elmdir və din də elmə dəvət edir. Din təbabət və tibbi inkar etmir. Elmlə tibbin oxşar cəhətləri olsa da, fərqli cəhətləri də vardır. Dinin bir hissəsi həmin elmdir və insanları elmə dəvət edir. Onların oxşar və fərqli cəhətləri olduğu halda, necə ola bilər ki, din elm və təbabətlə ziddiyyətə malik osun?

Tibbin din inhisarını pozmasını söyləmək sırf bir iddia və arqumentsiz bir iraddır.

---

1 "Əl-Kafi", c. 1, s. 30.
2 "Əl-Kafi", c. 4, s. 557.
3 "Biharul-ənvar", c. 2, s. 32.

**34. İRAD**

> **K.Hitçens: "...Din uşaqların qorunması və tərbiyəsində xüsusi yer tutur, lakin nəzəriyyə və təcrübədə din günahsız və müdafiəsiz uşaqları bir təcrübə dovşanı kimi istifadə edir".**

**Cavab**

Həqiqətən, uşaqların qorunması ilə bağlı din ən yaxşı tərbiyə vasitəsidir və din onlar üçün xüsusi hüquqlar nəzərdə tutmuş və onları müdafiə etmişdir. Amma Hitçensin dediyi kimi, din onları, heç də təcrübə dovşanı kimi istifadə etmir. Dini mənbələrdə bizim din rəhbərlərimiz kimsəsiz uşaqları himayə etməyi əmr etmişdi və bununla bağlı Quranda da ayələr vardır.

Onlara zərər yetirmək, haqlarını yemək böyük günahlardan hesab olunmuşdur.

Allah-taala "Nisa" surəsinin 10-cu ayəsində buyurur:

إِنَّ الَّذِينَ يَأْكُلُونَ أَمْوَالَ الْيَتَامَى ظُلْماً إِنَّمَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ نَاراً وَسَيَصْلَوْنَ سَعِيراً.

**"Yetimlərin mallarını zülm və haqsızlıqla yeyənlər, əslində, od yeyirlər və tezliklə cəhənnəm odunda yanacaqlar".**

"Bəqərə" surəsinin 83-cü ayəsində buyrulur:

وَإِذْ أَخَذْنَا مِيثَاقَ بَنِي إِسْرَائِيلَ لاَ تَعْبُدُونَ إِلاَّ اللّهَ وَبِالْوَالِدَيْنِ إِحْسَاناً وَذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَقُولُواْ لِلنَّاسِ حُسْناً وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ ثُمَّ تَوَلَّيْتُمْ إِلاَّ قَلِيلاً مِّنكُمْ وَأَنتُم مِّعْرِضُونَ.

**"(Yadınıza salın ki,) bir zaman İsrail oğullarından: "Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara yaxşılıq edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!" – deyə əhd-peyman**

**aldıq. Sonra (əhdinizə rəğmən) az bir qisminiz istisna olmaqla üz döndərdiniz və (əhdinizə vəfa etməkdən) boyun qaçırdınız".**

"Bəqərə" surəsinin 177-ci ayəsində buyrulur:

لَّيْسَ الْبِرَّ أَن تُوَلُّواْ وُجُوهَكُمْ قِبَلَ الْمَشْرِقِ وَالْمَغْرِبِ وَلَـكِنَّ الْبِرَّ مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَالْمَلآئِكَةِ وَالْكِتَابِ وَالنَّبِيِّينَ وَآتَى الْمَالَ عَلَى حُبِّهِ ذَوِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينَ وَابْنَ السَّبِيلِ وَالسَّآئِلِينَ وَفِي الرِّقَابِ وَأَقَامَ الصَّلاةَ وَآتَى الزَّكَاةَ وَالْمُوفُونَ بِعَهْدِهِمْ إِذَا عَاهَدُواْ وَالصَّابِرِينَ فِي الْبَأْسَاء والضَّرَّاء وَحِينَ الْبَأْسِ أُولَـئِكَ الَّذِينَ صَدَقُوا وَأُولَـئِكَ هُمُ الْمُتَّقُونَ.

**"Yaxşı əməl (yalnız namaz vaxtı) üzünü şərqə və (ya) qərbə tərəf çevirməyiniz deyil (və yaxşı əməl ancaq qiblənin dəyişilməsi haqqında danışmağınız və bütün vaxtınızı ona sərf etməyiniz deyil). Yaxşı əməl (sahibi) əslində Allaha, axirət gününə, mələklərə, (səmavi) kitaba və peyğəmbərlərə inanan, mal-dövlətini çox sevməsinə baxmayaraq, onu qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yolda qalan müsafirə, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılan, zəkat verən, (eləcə də) əhd bağladıqda əhdinə vəfa edən, dar ayaqda, xəstəlikdə və cihad zamanı səbir edənlərdir (mətin olanlardır). Onlar doğru danışanlardır (sözləri etiqadlarına uyğundur). Təqvalı olanlar da məhz onlardır".**

"Bəqərə" surəsinin 215-ci ayəsində buyrulur:

يَسْأَلُونَكَ مَاذَا يُنفِقُونَ قُلْ مَا أَنفَقْتُم مِّنْ خَيْرٍ فَلِلْوَالِدَيْنِ وَالأَقْرَبِينَ وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ وَمَا تَفْعَلُواْ مِنْ خَيْرٍ فَإِنَّ اللّهَ بِهِ عَلِيمٌ.

**"Səndən (Allah yolunda) nə verəcəklərini soruşurlar. De: "Verəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və yolda qalan müsafirlərə məxsusdur. Şübhəsiz, Allah etdiyiniz hər bir xeyir işdən xəbərdardır. (Təzahür etməyə ehtiyac yoxdur, O bilir)".**

“Bəqərə” surəsinin 220-ci ayəsində buyrulur:

فِي الدُّنْيَا وَالآخِرَةِ وَيَسْأَلُونَكَ عَنِ الْيَتَامَى قُلْ إِصْلاَحٌ لَّهُمْ خَيْرٌ وَإِنْ تُخَالِطُوهُمْ فَإِخْوَانُكُمْ
وَاللّهُ يَعْلَمُ الْمُفْسِدَ مِنَ الْمُصْلِحِ وَلَوْ شَاء اللّهُ لأعْنَتَكُمْ إِنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ.

**“(Bəlkə) dünya və axirət barəsində (düşünəsiniz). Səndən yetimlər haqqında soruşurlar. De: “Onların işlərini yoluna qoymaq yaxşıdır. Əgər öz həyatınızı onların həyatına qatırsınızsa, (eybi yoxdur), onlar sizin (din) qardaşlarınızdır (onlarla bir qardaş kimi davranın)”. Allah islah (yaxşılıq) edənləri fəsad törədənlərdən ayırd edir. Əgər Allah istəsəydi, sizi əziyyətə salardı (və yetimlərə qəyyumluq etdiyiniz halda, onların mallarını bütünlüklə öz malınızdan ayırmağı əmr edərdi. Amma Allah belə etmir. Çünki) O, qüdrətli və hikmətlidir”.**

“Nisa” surəsinin 2-ci ayəsində buyrulur:

وَآتُواْ الْيَتَامَى أَمْوَالَهُمْ وَلاَ تَتَبَدَّلُواْ الْخَبِيثَ بِالطَّيِّبِ وَلاَ تَأْكُلُواْ أَمْوَالَهُمْ إِلَى أَمْوَالِكُمْ إِنَّهُ كَانَ
حُوباً كَبِيراً.

**“Yetimlərin mallarını  (həddi-büluğ yaşına çatdıqda) özlərinə verin və (özünüzün) pis mallarınızı (onların) yaxşı malları ilə dəyişdirməyin! Onların mallarını öz mallarınıza qatıb yeməyin! Çünki bu, böyük günahdır”.**

“Nisa” surəsinin 3-cü ayəsində buyrulur:

وَإِنْ خِفْتُمْ أَلاَّ تُقْسِطُواْ فِي الْيَتَامَى فَانكِحُواْ مَا طَابَ لَكُم مِّنَ النِّسَاء مَثْنَى وَثُلاَثَ وَرُبَاعَ فَإِنْ
خِفْتُمْ أَلاَّ تَعْدِلُواْ فَوَاحِدَةً أَوْ مَا مَلَكَتْ أَيْمَانُكُمْ ذَلِكَ أَدْنَى أَلاَّ تَعُولُواْ.

**“Əgər yetim qızlarla (evlənəcəyiniz təqdirdə) ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxarsınızsa, o zaman sizə halal olan başqa qadınlardan iki, üç və dörd nəfərlə izdivac edin! Əgər (onlarla) ədalətlə davranacağınızdan əmin deyilsinizsə, o zaman təkcə bir qadınla evlənin və ya sahib**

**olduğunuz qadınlardan biri ilə kifayətlənin. Bu davranış zülm və haqsızlığın qarşısını yaxşı alır".**

"Nisa" surəsinin 36-cı ayəsində buyrulur:

وَاعْبُدُواْ اللّهَ وَلاَ تُشْرِكُواْ بِهِ شَيْئاً وَبِالْوَالِدَيْنِ إِحْسَاناً وَبِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَالْجَارِ ذِي الْقُرْبَى وَالْجَارِ الْجُنُبِ وَالصَّاحِبِ بِالجَنبِ وَابْنِ السَّبِيلِ وَمَا مَلَكَتْ أَيْمَانُكُمْ إِنَّ اللّهَ لاَ يُحِبُّ مَن كَانَ مُخْتَالاً فَخُوراً.

**"Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın (yoldaş və) dosta, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), əlinizin altında olana (sahib olduğunuz qul və kənizlərə) yaxşılıq edin! Çünki Allah özünü bəyənənləri, lovğalıq edənləri (başqalarının hüquqlarını tapdalayanları) sevməz!"**

"Nisa" surəsinin 127-ci ayəsində buyrulur:

وَيَسْتَفْتُونَكَ فِي النِّسَاء قُلِ اللّهُ يُفْتِيكُمْ فِيهِنَّ وَمَا يُتْلَى عَلَيْكُمْ فِي الْكِتَابِ فِي يَتَامَى النِّسَاء اللاَّتِي لاَ تُؤْتُونَهُنَّ مَا كُتِبَ لَهُنَّ وَتَرْغَبُونَ أَن تَنكِحُوهُنَّ وَالْمُسْتَضْعَفِينَ مِنَ الْوِلْدَانِ وَأَن تَقُومُواْ لِلْيَتَامَى بِالْقِسْطِ وَمَا تَفْعَلُواْ مِنْ خَيْرٍ فَإِنَّ اللّهَ كَانَ بِهِ عَلِيماً.

**"Səndən qadınlar barəsində hökm verməyini istəyirlər. De: "Sizin onlarla bağlı sualınıza Allah cavab verir. Verilməsi vacib olanı (mirası) özlərinə verməyərək evlənmək istədiyiniz yetim qızlar (qadınlar) və aciz uşaqlar haqqında, həmçinin yetimlərlə ədalətlə rəftar etməniz barədə Kitabda məlumat verilmişdir". Sizin etdiyiniz bütün xeyirli işlərdən Allah xəbərdardır!"**

"Ənfal" surəsinin 41-ci ayəsində buyrulur:

وَاعْلَمُواْ أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلّهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ إِن كُنتُمْ آمَنتُمْ بِاللّهِ وَمَا أَنزَلْنَا عَلَى عَبْدِنَا يَوْمَ الْفُرْقَانِ يَوْمَ الْتَقَى الْجَمْعَانِ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ.

**"Əgər siz Allaha və haqla batilin ayırd edildiyi – iki dəstənin bir-birilə qarşılaşdığı gün (möminlərlə qeyri-möminlərin bir-birindən ayrıldığı Bədr günü) bəndəmizə nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, əldə etdiyiniz hər cür qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və (pulu qurtarıb) yolda qalan müsafirlərindir. Allah hər şeyə qadirdir!"**

"Həşr" surəsinin 7-ci ayəsində buyrulur:

مَّا أَفَاء اللَّهُ عَلَى رَسُولِهِ مِنْ أَهْلِ الْقُرَى فَلِلَّهِ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ كَيْ لَا يَكُونَ دُولَةً بَيْنَ الْأَغْنِيَاء مِنكُمْ وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ.

**"Allahın Öz peyğəmbərinə bu kəndlərin əhalisindən qaytardıqları Allaha, Peyğəmbərə, onun qohum-əqrəbasına, yetimlərə, yoxsullara və yolda qalmış müsafirlərə məxsus edilmişdir ki, aranızdakı varlılar arasında əldən-ələ dolaşmasın. Peyğəmbər sizə nəyi gətiribsə, onu götürün, nəyi də qadağan edibsə, ondan çəkinin. Allahdan qorxun ki, Allahın cəzası şiddətlidir".**

İmam Əli (ə) hədislərin birində buyurur:

"Əgər bir şəxs əlini mərhəmət göstərməklə yetimin başına çəkərsə, Allah-taala onun saçının tükünün sayı qədər ona savab verər".[1]

---

[1] "Biharul-ənvar", c. 75, s. 9.

Əmirəl-möminin Əli (ə) "Nəhcül-bəlağə"nin 47-ci məktubunda belə buyurur:

"Allahdan qorxun, Allahdan qorxun! Məbada, yetimlər bəzən ac və bəzən də tox olalar! Məbada, sizin aranızda olduqları halda, onlarla maraqlanmamağınız səbəbilə tələf olalar!"

Peyğəmbər (s) buyurur: ***"Yetim uaşqlar üçün mehriban ata kimi olun!"***[1]

İmam Baqir (ə) buyurur: "Yetim və onu himayə edən insanın (qəyyumun) özünəməxsus hüquqları vardır".[2]

Qeyd edilənlərdən dinin uşaqlara, ümumiyyətlə, bütövlükdə insanlara, elmə nə qədər dəyər verdiyi və onlar üçün xüsusi hüquqlar nəzərdə tutduğu və onlara nə qədər də dəyər verməsi anlaşılır.

## 35. İRAD

**"Tanrı böyük deyildir" kitabında K.Hitçens dinlə bağlı danışdıqdan sonra belə bir iradı irəli sürür: "din və kilsə insanlar tərəfindən icad edilmiş və bu açıq-aşkar şəkildə ortada olan həqiqət gözardı edilə bilməz. "**

O sonra yazır: **"Etika və əxlaqın Allaha imanla əlaqəsi yoxdur və ona əsaslana bilməz. Quran yəhudi və xristian (məsihi) əfsanələrinin təqlididir. Burada işin başında Cəbrayıl adlı mələk var. O, surələri, ayələri az təhsilli və ya tamamilə təhsilsiz şəxsə çatdırır. Burada ilk vəhyin yəhudilərə gəlməsi və onu ilk inkar edənlərin də yəhudilər olması yazılıb".**

---

1 "Biharul-ənvar", c. 77, səh. 171.

2 "Səvabul-əmal", s. 4.

**Cavab**

Ateistlərin birinci əsas iddiası dinin və kilsənin insanlar tərəfindən meydana çıxarılmasıdır. Əgər onlar "din" dedikdə məsihiliyi nəzərdə tutursa, bu təbiidir və orada insanaların öz qayda-qanunları əks edilib və hədsiz təhriflər var. Allahın buyurduqları ilə onun heç bir əlaqəsi yoxdur və həmin səbəbdən də tarix boyu çoxsaylı problemlərlə qarşılaşmışlar ki, onları təhlil etmək hazırda bir müsəlman kimi bizim vəzifəmiz deyil. Yəni bu məsələ onların problemidir. Əgər "din" dedikdə bütün dinlərdən danışırlarsa, hansı insanların: müasir dövrdə, yoxsa keçmişdə yaşamış insanların dini yaratdığını iddia edirlər?

Əgər biz dinin, məsələn, İslam dininin ümumi möhtəvasını nəzərə alsaq, istər bu gün, istərsə də keçmişdə yaşayan insanlar onun ali məzmunlu maarifini və dini məsələləri, elmin inkişafına baxmayaraq, hələ də tamamilə izah edə bilməmişlər.

Digər bir tərəfdən, bəşər həmişə azadlıq axtarışında olmuşdur. Dində isə bəzi məhdudiyyətlər vardır ki, insanın nəfsi istəklərini və azadlığını məhdudlaşdırır. Əgər iddia doğru olsaydı, insanlar özlərinin əleyhinə olan belə bir dini formalaşdırmazdılar. Dinin mənşəyi və kökü barədə bir neçə nəzəriyyə var və deyilir ki, bunun bir səbəbi də qorxudur. Məsələn, təbiətdəki hadisələr insanların qorxmasına səbəb olmuş və onlar hadisələri izah edə bilmədiklərindən fövqəltəbii bir varlığı qəbul etmiş və beləliklə din yaranmışdır.

Əgər qorxu Allaha etiqadlı olmaqda əsaslı səbəbdirsə, onda nə üçün bütün qorxan insanlar Allahı qəbul etmir? Qorxu Allaha diqqət yetirməkdə bir səbəbdir, Ona iman gətirməkdə yox. Sanki bir şəxs yatıb və hansısa səsdən qorxub yuxudan ayılır və hər şeydən əlini üzüb Allaha üz tutur. Əgər bu məntiqli bir dəlildirsə, onda biz bir misal çəkək. Kimsə deyə

bilərmi ki, yolda baş verən hadisələr yol hərəkət qaydalarının meydana çıxması üçün səbəbdir. Yəni hadisələr baş verdiyinə görə bu qaydalar meydana çıxmışdır. Bunlara inanmaqla insan da polisin varlığına inanır. Halbuki bunun əksinədir, həmin qaydalar əvvəlcədən yaradılmışdır. Din də belədir. Qorxunun Allaha inamla heç bir əlaqəsi yoxdur. Bəli, bir-iki nəfərdə bu cür olması mümkündür, amma dindar insanların əksəriyyətində bu cür deyil. İnsanlar qorxu ilə, sanki ayılır və öz fitrətinə qayıdırlar. Əgər onların fitrətinin üzərinə bir pərdə çəkilmişdirsə, qorxu sayəsində həmin pərdə aradan qalxır və insanın fitrəti oyanır. Bu eyniylə paltarın üzərinə qonaraq rəngini dəyişmiş toz kimidir ki, paltar sirkələnəndə onun əsl rəngi üzə çıxır. Qorxu və bu kimi hadisələr də belədir. Allaha olan etiqadı üzə çıxarır.

Digər bir tərəfdən, Allaha etiqadın qorxu ilə əlaqələndirməsi dəlilsiz bir iddia və nəzəriyyədir ki, bu da qəbul olunmur. Ortaya belə bir sual qoyuruq: Əgər dediyiniz doğrudursa, onda nə üçün insanlar başqa bir varlığa deyil, elə məhz Allaha iman gətirirlər? Bu da onu göstərir ki, Allaha iman insanın fitrətindədir.

Din və Allaha etiqadın mənşəyini bəziləri cəhalət və nadanlıq hesab edirlər. Məsələn, yağış yağanda onun səbəbini bilmədiklərindən, deyirdilər yağış allahı və s. Sual veririk: Əgər belədirsə, müasir dünyada hadisələrin səbəbi bilindiyi halda, nə üçün çoxları dindandır və dini kənara qoymurlar? Halbuki nadan olmaq dindarlığa səbəbdirsə, bunun əksi yəni elm və inkişaf və tərəqqi də dindarlığa səbəb olur. Dünyada bu qədər ağıllı insanlar var, onlar nə üçün dini bir kənara qoymur, əksinə, Allaha daha çox bağlıdırlar? Yəni ateistlər deyir ki, insan savadsız olduqda dinə bağlı olursa, elmli olduğu halda

dini tərk etməlidir. Halbuki heç də belə deyil və bunun əksi baş verir.

Ateistlərin nəzərincə, dünyadakı dindarların əksəriyyəti cahil və nadandır. Əslində isə belə deyildir. Əgər dinlə, Allaha etiqadla nadanlıq arasında hanssıa bir rabitə və nisbət varsa, gəlin onun mütənasibliyini araşdıraq.

Fərz edək ki, din nadanlığa bərabərdir. Yəni din məlumatsızlıq və nadanlıqdır. Bu, tamamilə zidd bir şeydir. Allaha və dinə etiqad bir sıra məlumata malik olmaq deməkdir. Məlumatlı olmaq nadanlıqla (heç nəyi bilməməklə) bərabər ola bilərmi? Xeyr, əsla! Bu halda ziddiyyət təşkil edəcəkdir.

İkinci fərzimiz budur ki, din və Allaha etiqad arasındakı nisbət yüz faiz bir-birini rədd etməkdən ibarətdir. Belə olduğu halda nəticə budur ki, dinlə ziddiyyətə malik olan nadanlıq elə bir şeyin yaranmasına səbəb olub ki, bunun tamamilə əksinədir. Məsələn, alov yandırmaq xüsusiyyətinə malikdir. Qeyd edilən fərzə əsasən, alov yandırıcı olduğu halda, toxunduğu şey buz bağlayıb. Yəni alov yandırıb kül etməli olduğu halda, tamamilə alovun əksinə olan bir şey – buz bağlamaq meydana çıxıb. Diqqət etdiyiniz kimi, bu, qeyri-mümkündür. Çünki səbəb və nəticə qanununa ziddir.

Əgər nadanlıq səbəbdirsə, səbəb əsla Allaha etiqada ola bilməz. Çünki səbəblə nəticə arasında uyğunluq yoxdur. Əgər onların vasitəsilə bəzi azsaylı kəslərdə Allaha etiqad yaranmışdırsa da belə, onu ümumiləşdirmək olmaz.

Allah-taala Quranda Allaha etiqadın səbəbini fitrət olaraq qeyd etmişdir.

“Rum” surəsinin 30-cu ayəsində buyrulur:

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفاً فِطْرَةَ اللهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا لَا تَبْدِيلَ لِخَلْقِ اللهِ ذَلِكَ الدِّينُ الْقَيِّمُ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ.

**“Üzünü Allahın xalis dininə tut! Bu, bir fitrətdir ki, Allah insanı bu fitrət üzərində yaratmışdır. Allahın yaratdığında heç bir dəyişiklik yoxdur. Möhkəm din budur, lakin insanların çoxu bilmir”.**

Allah bütün insanları İlahi fitrət əsasında yaratmışdır və onda heç bir dəyişiklik yoxdur. Allaha inam fitrəti hamıda var, eyni növdəndir. Əlbəttə, imanın dərəcəsinə görə fərqlilik vardır. Amma fitrət hamıda həmin fitrətdir. Ona görə də nə qorxunun və nə də nadanlığın Allaha etiqadla heç bir əlaqəsi yoxdur.

**36. İRAD**

> **“Tanrı böyük deyildir” kitabında yazılıb: “Bəzən də vəhyin Peyğəmbərə camaat içində açıq bir şəkildə nazil olunduğu zaman ağrı və qulaqlarında güclü uğultu eşitdiyi də deyilir. Hətta ən soyuq hava şəraitində belə, onun bədəni tərlə örtülürdü... Allahla birbaşa ünsiyyətin rahatlıq, gözəllik və aydınlıq hissi ilə müşayiət olunmamasından sadəcə təəssüflənmək etmək olar”.**

**Cavab**

Hitçens həzrət Peyğəmbərə (s) vəhy nazil olunan zaman baş verən hadisələrə irad tutur və soyuq havada Peyğəmbərin (s) tərləməsini, ağrı hiss etməsini və digər məsələləri şübhə altına alır; bildirir ki, vəhy nazil olan zaman rahatlıq və s.-nin yerinə Peyğəmbər (s) başqa hisslər keçirirmiş.

Bunun cavabında, əvvəla, bu məsələnin Allahla bəndəsi olan Peyğəmbər (s) arasındakı münasibəti göstərdiyini bildirmək istərdik. Belə ki, vəhyi nazil edənin əzəmət sahibi,

uca məqamlı Allah, onu qəbul edənin isə Allahın bəndəsi olan bir Peyğəmbər olmasına işarədir.

Digər tərəfdən, Allahın Rəsulu (s) hər vəhy nazil olanda bu cür hisslər keçirmirdi. Nə zaman böyük bir hadisə haqqında xəbər verilsəydi, həmin hadisədən və ya xəbərdən, əzab ayələri nazil olduqda və Allah-taala birbaşa Peyğəmbərlə (s) danışdıqda, həzrət narahatlıq keçirərdi. Yəni bəzi hallarda belə idi.

Bundan başqa, burada nə problem var axı, guya məsələ ateistlərin söylədiyinin əksinə olsaydı, onlar vəhyi qəbul edəcək və ona irad tutmayacaqlardı?

**Onlar belə bir irad da tuta bilərlər: Nəyə görə möminlər namaz qılır və onlarda belə bir hal baş vermir? Yəni namaz halında Allahla rabitədə belə bir şey olmursa, onda nə üçün Peyğəmbərdə (s) bunun əksinə idi?**

Cavabında deyirik ki, insanların Allahla namaz halındakı rabitəsi birtərəfli rabitədir və insan Allahla rabitə yaratmağa və Ona yaxın olmağa, Allahın rəhmətini qazanmağa çalışır. Amma Allahla Peyğəmbər (s) arasındakı rabitə ikitərəfli rabitədir. Böyük və məsuliyyətli işlər həmişə zəhmət istəyir. Qurani-Kərimdə rəhmət, sevindirici ayələr də vardır. Həmin ayələr nazil olduqda həm Peyğəmbər (s), həm də onun ətrafındakılar sevinər və şad olar, həmçinin İlahi rəhməti hiss edərdilər.

Tövsiyə edirik ki, ateistlər din haqqında daha çox məlumat əldə etsinlər. Allaha irad tutan kəslər, təbii ki, vəhyə də irad tutacaqlar.

## 37. İRAD

> **"Tanrı böyük deyildir" kitabında yazılıb: "Məhəmmədin Qüdsə gecə uçuşu haqqında danışdıqlarında, atların uça bilmədikləri kimi açıq-aydın bir faktı qeyd etmək amansızlıq olardı..."**

**Cavab**

Burada Allah Rəsulunun (s) Merac məsələsinə irad tutulur. Hədislərdə qeyd olunduğuna əsasən, həzrət Peyğəmbər "Büraq" adlı qanadlı bir atla Qüdsə, oradan da Meraca gedir.

Hitçens atların uça bilmədiyini dəlil gətirərək Merac məsələsini şübhə altına qoymağa çalışır.

Qeyd etməliyik ki, səmavi bir at idi. Şübhəsiz ki, dünyəvi atlar belə xüsusiyyətə malik deyil və onlar uçmur. Bunu biz də qəbul edirik, bu məsələdə mübahisəyə yer yoxdur. Hədislərdə də gəlmişdir ki, həmin at səmavi bir at idi, onun yaradılışı digər atların yaradılışından fərqli idi. Əgər yüz il bundan öncə kimsə desəydi ki, dəmir parçası sürətli şəkildə uçacaq və kosmosa və aya enəcək, hələ üstəlik özü ilə insanları da aparıb gətirəcək, ona hamı irad tutar və ağlını əldən verdiyini düşünərdi. Deyərdilər ki, dəmir parçası necə uça bilər axı?! Halbuki müasir dövrdə və elmin, texnikanın inkişaf edtdiyi bir zamanda həmin məsələ hamıya bəllidir və uçan təyyarələrdə insanlar bir yerdən başqa bir yerə daşınır, aya, kosmosa və Marsa uçuşlar edilir və araşdırmalar aparılır. Bu gün bizim Peyğəmbəri (s) Meraca aparan qanadlı atın mahiyyətini dərk edə bilməməyimiz heç də təəccüblü deyil. Əsrlər öncə kimsə kompüterlə bağlı hər hansı bir nəzəriyyəni irəli sürsəydi, onun insandan da sürətli şəkildə hesab-kitab aparacağını desəydi, kimsə buna inanmaz və qəbul edə bilməzdi və o dövrdə dərk edə bilməməsi təəccüblü deyildi. Amma müasir dövrümüzdə bunları öz gözümüzlə

görür və dərk edirik. Ona görə də o səmavı ata da irad tutmaq yersizdir.

### 38. İRAD

> **K.Hitçens: "Bir möcüzə ilə sizin aranızda onlarla nəsil varsa və hər hansı bir müstəqil sübut yoxdursa, onun ola bilmə ehtimalı radikal şəkildə dəyişir".**

**Cavab**

Kim deyir ki, İslamda göstərilən möcüzələrin açıq-aşkar bir dəlili yoxdur və hansısa bir möcüzə arasında onlarla nəsil fasilə varsa, onu isbat etmək mümkün deyil? Kim bununla bağlı bir dəlil irəli sürmüşdür? Bu, sadəcə, ateistlərin arqumentsiz söylədikləri iddialarıdır.

Qurani-Kərim Peyğəmbərin (s) daimi möcüzəsidir. Necə olur ki, arxeoloqlar qazıntılar nəticəsində hansısa bir qövmün, cəmiyyətin varlığını və mədəniyyətini sübut edir, lakin əsrlərlə qorunub saxlanılan və əzəməti sübuta yetirilən Qurani-Kərimin möcüzə olması sübuta yetirilə bilmir!? Quranı kimsə aradan aparmağa çalışmamış və bunu etməyə qadir belə olmamışdır. Quranda heç bir təhrif və dəyişikliklər də olmamışdır. Arxeoloqlar qazıntılarla nəyisə sübut edə bildiyi halda, Quranın Peyğəmbərin (s) şəriət və möcüzəsini sübut edə bilməməsi mümkündürmü? Əlbəttə ki, xeyr. Bəli, təhrif edilmiş dinlərdə belə bir şey varsa, bunu İslamın adına yazmaq olmaz.

**39. İRAD**

> **K.Hitçens: "Hər halda, möcüzələr heç cür onları təcrübə edən dinin həqiqətlərini təsdiq etmir".**

**Cavab**

Birincisi, din özünün haqlı olmasını sübut etmək üçün möcüzəyə ehtiyac duymur. Yəni dinin yeri gəldi-gəlmədi möcüzə göstərməyə ehtiyacı yoxdur.

İkincisi, din azad dəvət, məntiqi dəvətlə başlayır. Sağlam düşüncəli insanlar dinin məntiq və dəlili ilə onu qəbul etmişlər. Sadəcə şəkkə düşən kəslər üçün bəzən dəlil olaraq möcüzə gətirmişdir. Ona görə də, ateistlərin bu iddiası da batil və yanlışdır.

**40. İRAD**

> **K.Hitçens: "Güya Harun Fironun sehrbazlarına açıq mübarizədə qalib gəlir, amma eyni zamanda, onların da sehr gücünü inkar etmir. Bu arada ölülərin dirildilməsi haqda söhbət uzun zamandır edilmir. Yəni özümüzə sual verməliyik: Doğurdanmı diriltmə sənəti yox olub, yoxsa biz sadəcə əsassız mənbələrə inanırıq".**

**Cavab**

Burada Harunun (ə) Fironun sehrbazlarına qalib gəlməsi, lakin onların da sehr gücünün inkar edilməməsi bildirilir. Quranda həzrət Musa (ə) ilə Harunun (ə) sehrbazlara qalib gəlməsindən söhbət açılır. "Əraf" surəsinin 116-cı ayəsində belə buyurulur:

قَالَ أَلْقُوا۟ فَلَمَّآ أَلْقَوْا۟ سَحَرُوٓا۟ أَعْيُنَ ٱلنَّاسِ وَٱسْتَرْهَبُوهُمْ وَجَآءُو بِسِحْرٍ عَظِيمٍ.

**"Siz atın" – dedi. Onlar (sehr alətlərini) atdıqda, adamların gözlərini bağlayıb onları qorxutdular və böyük bir sehr göstərdilər".**

Hitçens buna irad tutur, axı burada irad tutulası məsələ nədir?

Digər bir tərəfdən, bu cümlə məntiqli bir cümlədir, Allah-taala buyurur ki, onlar, bu qədər əzəmətli sehr göstərmələrinə baxmayaraq, Bizim qüdrətimiz qarşısında aciz qaldı və məğlubiyyətə uğradılar.

Bundan əlavə, əgər bunun kiçik bir sehr olduğu deyilsəydi belə, ateistlər yenə də irad tutacaq və deyəcəkdilər ki, bu o qədər də böyük və önəmli bir möcüzə deyil, çünki sehr də çox kiçik bir sehr idi. Həmin qələbənin də mənası yox idi, Harunla (ə) Musanın (ə) qələbəsi önəmli deyildi.

Dirilmə məsələsini ateistlər diriltmə sənəti hesab edir. Ölüləri diriltmək Allahın işidir və bu, bir sənət deyil. Ölünü diriltmək, insanın dünyaya gəlməsi kimi deyildir ki, iki nəfər evlənsin və bir nəfərin dünyaya gəlməsində vasitəçilik etsinlər. Bu, yalnız Allaha məxsus olan bir işdir. Həzrət İsa (ə) Allahın iznilə ölüləri dirildirdi və bunun nümunəsi bəşəriyyət tarixində çox nadir halalrda nəzərə çarpmışdır. Ölülərin dirilməsinin özü də bir möcüzədir. Lakin möcüzə hər zaman baş vermir, yalnız Allahın höccəti və nümayəndəsinin vasitəsilə həyata keçir. Bizim ateistlərə belə bir sualımız var: Əgər kimsə gəlib dini iddialarla yanaşı ölüləri diriltsəydi, siz onun haqlı olduğunu qəbul edəcəkdiniz, yoxsa deyəcəkdiniz ki, 21-ci əsrdir və bu, elmi nailiyyətlər sayəsində baş vermişdir? Əlbəttə, siz ikinci cavabı seçəcək və həmin məsələni dinlə əlaqələndirmə-yəcəkdiniz.

Beləliklə, biz hamını İslama və dinə dəvət edir, onları azad düşüncəyə səsləyirik. Əgər kimsə dindən qaçıb ateistliyi qəbul edirsə, başa düşməlidir ki, heç də azad şəkildə düşünmür, əksinə, ateizmin təsiri altına düşür və azad düşüncəsi əlindən alınmış olur.

## 41. İRAD

> **K.Hitçens: "...Bu adamın doqquz yaşlı qızla nikaha girmək istəyini ağız büzmədən oxumaq mümkün deyildir".**

**Cavab**

Hitçens, Allah Rəsulunun (s) Ayişə ilə evliliyi məsələsinə irad tutur və demək istəyir ki, onun doqquz yaşı var idi. Halbuki tarixi dəlil və şahidlərin sözlərinə əsasən, Ayişənin doqquz yox, on yeddi yaşı var idi. Allah Rəsulunun (s) evləndiyi ən azyaşlı xanım elə Ayişə olmuşdur. Bunu dəqiq tarixi məlumatlar sübuta yetirmişdir.

İkincisi, xanım Ayişədən başqa, Peyğəmbərin (s) evləndiyi qadınların hamısı yaşlı olmuşlar. Bu da həzrətin (s) heç də şəhvətpərəst insan olmadığını göstərir. Onun Ayişə ilə ailə qurması da müəyyən məsələlər səbəbi ilədir. Peyğəmbər (s) hansı qəbilədən qız alsaydı, həmin qəbiləni İslama dəvət edər və onlar da müsəlmanlığı qəbul edərdi ki, bu da İslamın qələbəsi idi.

Digər tərəfdən, Peyğəmbərin (s) 17 yaşlı xanımla ailə qurmasında nə qəbahətli bir şey vardı?

**42. İRAD**

> **K.Hitçens: "İslam doğulduğu gündən bəri Peyğəmbərin (s) qan damlasına iddia edən şahzadələr və fırıldaqçılar arasında mübarizə ilə sarsıdılmışdır".**

**Cavab**

İslam dininin şahzadələr və fırıldaqçılar tərəfindən təziqə məruz qalması onun haqlı olduğunu və həmin şeylərin əleyhinə olduğunu sübuta yetirmirmi?

Buradan İslamın ədalətə dəvət etdiyini və pis xüsusiyyətlərə qadağa qoymasını anlamaq o qədər də çətin deyil.Burada anlaşılmayan məsələ nədir?

**43. İRAD**

> **K.Hitçens: "Dünyanın yaranması ilə bağlı bütün əfsanələrin həqiqətdən uzaq olması çoxdan məlumdur. Dinlər, sadəcə, öz tövbə siyahısına daha bir üzrü əlavə etməlidir. Çünki heç nədən şübhələnməyən insanlara perqament üzərində yazılmış nağıllar və fantaziyalar yüklədi və bunu uzun müddət qəbul etmək istəmədi".**

**Cavab**

Ateistlərin nəzərincə, dünyanı yaranması ilə bağlı bütün əfsanələrin həqiqətdən uzaq olması çoxdan məlumdur. Güya, dinin bu haqdakı nəzəri və bildirdiyi şeylər yalandır. Beləsə, biz də sual veririk: Bəs sizin dünyanın yaranması haqda nəzərinizin mənbəyi nədir?

Digər bir tərəfdən, bəlkə siz dünya yarananda var olmuş və onu öz gözlərinizlə görmüsünüz? Bu düşüncə və nəzəriyyələr kimin nəzəridir? Sizin bu iddialara dəliliniz nədir?

Allaha şükürlər olsun ki, bura qədər etdiyiniz iddiaların dəlil-sübutsuz olduğunu isbat etmişik. Sizin iddialarınız həqiqətdən uzaq düşən əfsanələr kimidir. İddia edirsiniz ki, "Dünyanın yaranması ilə bağlı bütün əfsanələrin həqiqətdən uzaq olması çoxdan məlumdur". Kim üçün məlumdur? Əgər bütün bəşəriyyəti nəzərdə tutursunuzsa, bu, yalandır. Əgər insanların əksəriyyəti üçün məlum olduğunu deyirsinizsə, bu da yalandır. Əgər yalnız sizə məlumdursa, bu da fərdi şəxsə aid olan nəzəriyyədir və onu bütün bəşəriyyətə şamil etmək olmaz. Hər üç halda sizin dəliliniz yoxdur. İslam dini məntiqli və ağıla əsaslanan bir dindir. Öz məntiq və dəlilləri ilə dünyanın yaranışı ilə əlaqədar olan həqiqi məlumatları vermişdir. Əgər məsihilik və yəhudilikdə bu haqda yanlış və təhrif olunmuş məlumatlar varsa, bunun İslama aidiyyatı yoxdur. Dinin bu haqda verdiyi xəbərlərdə heç bir anlaşılmazlıq və yalan yoxdur. İslami mətnlərdə, bu haqda kifayət qədər məlumat verilmiş, Məsum İmamların (ə) kəlamlarında tutarlı dəlillər qeyd olunmuşdur.

**44. İRAD**

> **K.Hitçens: "İman, həmişə olduğu kimi, həm elmi axtarışları, həm də onun gətirə biləcəyi azadlığı boğmağa vasitəçilik edir".**

**Cavab**

Bunun cavabında, ilk öncə, soruşmaq istərdik: Quranda belə bir şey bildirilibmi? Və ya Məsumların (ə) hədislərində belə bir məsələ yer alırmı? Bu haqda ayə və ya hədis varmı? İmanın özü tamamilə tədqiqata və elmə əsaslanan bir məsələdir. Quranın "Ər-Rəhman" surəsinin 33-cü ayəsində buyrulur:

يَا مَعْشَرَ الْجِنِّ وَالْإِنسِ إِنِ اسْتَطَعْتُمْ أَن تَنفُذُوا مِنْ أَقْطَارِ السَّمَاوَاتِ وَالْأَرْضِ فَانفُذُوا لَا تَنفُذُونَ إِلَّا بِسُلْطَانٍ.

**"(Qiyamət günü belə xitab olunacaq ki:) "Ey insan və cin tayfaları! Əgər (əməllərinizin cəzasından qaçmaq üçün) göylərin və yerin (əhatə) dairəsindən (başqa bir yerə) keçə bilsəniz, keçin. (Lakin qeyri-adi) bir qüdrət olmadan keçə bilməyəcəksiniz (ona da ki, malik deyilsiniz)!"**

Yəni bacarırsınızsa, araşdırma aparın və hətta göyə də çıxın. Bilin ki, Allahın qüdrətindən kənara çıxa bilməzsiniz və onun əhatə dairəsindəsiniz. Bəlkə dinin "Muhərrəmat" (qadağalar) bölməsində olan bir şeyi nəzərdə tutursunuz? Bəlkə həmin məsələ haram edilmiş şeylərin siyahısındadır? Əgər digər dinləri, məsihilik və yəhudiliyi nəzərdə tutursunuzsa, bəli, onlarda bu cür çatışmazlıqlar olmuşdur. Amma İslam dini əsla elmin və araşdırmanın yolunu bağlamır, əksinə, onlara təkid edir və iman araşdırmaya əsaslanır.

## 45. İRAD

> **K.Hitçens: "Ölüm kultu hələ də güclüdür, baxmayaraq ki əlimizdə məhv olan dünyadan başqa heç nə yoxdur və heç vaxt da olmayacağına inanmaq üçün hər bir səbəbimiz var".**

**Cavab**

Onların nəzərincə, bu dünyadan başqa digər bir dünya yoxdur və olmayacaq. Sizin bu haqdakı dəliliniz nədir?

Siz bundan başqa bir dünyanın olmamasını sübut edə bilmədiyiniz halda, onun olmayacağını da sübut edə bilməzsiniz. Yəni başqa dünyanın olmadığını isbat edə bilmirsiniz, bu

haqda dəliliniz yoxdur və dedikləriniz sırf iddiadır. Axirətin olmadığını əsla isbat edə bilməzsiniz.

**46. İRAD**

> **K.Hitçens: "Hələ monoteizmin yaranmasından öncə ibtidai cəmiyyətlərin qurbangahları ən çox insan, bəzən hətta körpə uşaq qanına bulaşmışdılar. Qurbanlıq qan yanğısı, ən azından heyvan qanına olan yanğı, hələ də bu günə qədər bizimlədir".**

**Cavab**

Hitçens əvvəlki cəmiyyətlərdə insan qanına olan yanğı və körpələrin qurban edilməsini misal çəkir, bir sözlə, qan axıdılmasından narazı olduğunu bildirir. Bu günlərdə heyvanların qurban kəsilməsini ateistlər qədim cəmiyyətlərdəki insanların qurban verilməsi ilə müqayisə edir. Xatırladaq ki, İslam dini qəti şəkildə insanların və körpələrin qurban kəsilməsinə qarşıdır və insan hüquqlarını daima qorumuşdur.

Digər bir tərəfdən, heyvanların qurban kəsilməsi məsələsinin bir hikmət və məsləhəti vardır. Həmçinin hər zaman deyil, ayda və ya ildə bir dəfə həyata keçirilir. İnsanların ət yeməyə ehtiyacı vardır, bu yolla da insanların ehtiyacları təmin olunur. Bundan əlavə, qurban kəsildikdə onu müəyyən hissələrə ayırır və fəqirlərə paylayırlar ki, bu da fəqir və ehtiyaclıların ehtiyacının təmin edilməsinə xidmət edir. Bəziləri heyvanların kəsilmə qaydasına irad tuta bilər. Lakin İslam dini heyvanlara əziyyət etmədən onların kəsilməsinə göstəriş vermişdir.

## 47. İRAD

> **"Tanrı böyük deyildir" kitabında yazılır: "Lakin bu bir faktdır: hər zaman Allahın qeyri-mümkünlüyünü, insan mənşəli olma ehtimalını, onun adından edilən pislikləri və nisbətən az həlakedici inancların və izahların mümkünlüyünü görən insanlar olmuşdur..."**

**Cavab**

Hitçens demək istəyir ki, hər zamanda Allahın olmadığını görən və bilən insanlar olmuşdur və onlar bu əqidədə yaşamışlar. Bu iddia çox yanlış və səhv iddiadır. Əvvəlki iddialarda olduğu kimi, arqumentsiz və dəlilsiz irəli sürülən bir iraddır. Bu məntiq və iddia ilə ateistlər nə demək istəyirlər? Yəni bu məntiq və nəticə ilə ateistlər nə əldə etmək istəyirlər? Belə ki, hər bir zamanda belə qrupların olması mümkündür və onlar həmişə cəmiyyətdə azlıq təşkil etmişlər. Bu ona bənzəyir ki, məsələn, hər bir zamanda dəli adamlar olmuşdur və həmin səbəbdən, bu məntiqlə, həmin cəmiyyətin hamısı dəlidir. Belə bir şeyi ağıllı insanlar qəbul edə bilərmi? Əlbəttə ki, xeyr və bu məntiqsiz və dəlilsiz bir iddiadır. Hər bir zamanda hər zamanda Allahın olmadığını görən və bilən insanların olub-olmamasının Allahla heç bir əlaqəsi yoxdur və bu, din mövzusundan xaricdir.

## 48. İRAD

> **Növbəti iradda oxuyuruq: "Təbiət, arxeologiya, fizika və molekulyar biologiya dini əfsanələrin sadəcə saxtakarlıq olduğunu və insan tərəfindən yazıldığını deyil, həm də**

> **dünya anlayışının daha dəqiq və daha aydın olduğunu sübut etdi".**

**Cavab**

Bir neçə iddia irəli sürülür və birinci iddia budur ki, sadalanan elmlər dinin saxtakar olduğunu sübuta yetirib.

İkinci iddiaları budur ki, həmin elmlər dünyanı daha da aydın şəkildə təsvir edir. Sual vermək lazımdır ki, bu ateistlər hansı dindən danışır? İslam dinindən danışırlar, yoxsa məsihilikdən? Əgər məsihilikdən danışırlarsa, həmin din və İncil təhrif olduğunudan, orada əfsanə və nağıllar çoxdur və biz də bunları inkar etmirik. Onlar həmin əfsanələr üzərində hansısa elmi bir nəticə əldə etmək istəyirlərsə, bu da yanlışdır, çünki məsihilərin özləri də dinlərindəki təhrifi və insan tərəfindən ona əlavə edildiyini qəbul edir və təsdiqləyirlər.

Həmin əfsanələrə istinad etmək qəbuledilməzdir. Əgər İslam dinindən danışırsa, həzrət Nuh (ə), İbrahim (ə), Lut (ə) və digər peyğəmbərlərin hekayəsi Quranda bildirilib və hətta onlar bilmir ki, həzrət Nuhun (ə) zamanındakı su basma hadisəsində həmin məntəqə su altında qalmışdır, yoxsa bütün dünya?

Onların bu haqda cavabları olmadığı halda, bu qədər yersiz iddialar irəli sürürlər. Yəni sadalanan elmlər bu məsələləri necə aydın şəkildə izah etmişdir?

Coğrafiya, fizika, təbiət və s. elmlər bunları dəqiq şəkildə aydınlaşdıra bilmədiyi halda, ateistlər həmin məsələləri aydınlaşdırdığını iddia edir.

Arxeoloqlar uzun-uzadı arxeoloji qazıntılar, araşdırmalardan sonra kitablar yazır, müəyyən məlumat verir və onları qəbul edirlər. Arxeoloqların arxeoloji qazıntılar, araşdırmalarından sonra əldə etdikləri nəticələr, dəyərli hesab edilirsə, onda necə olur ki, din haqqında bəşər tərəfindən verilən

məlumatlar və insanlar vasitəsilə qorunub saxlanaraq günümüzə qədər gələn dini informasiya qəbul olunmur?!

Əgər digər məsələlərdə insanın əldə etdikləri dəyərlidirsə, onda bu, dini məsələlərdə də keçərlidir, əgər dəyəri yoxdursa, onda sizin dediyiniz hər iki məsələdə keçərlidir. Sadalanan elmlər qeyb elmi və İlahi mənbəyə əsaslanmır. Amma din İlahi elmə əsaslanır. Belə olduğu halda biz dini inkar edə bilmərik. Fizika, arxeologiya və s. elmlərin dünyanı aydın şəkildə izah etdiyini deyirlər. Dünyadakı məsələlərdən biri də dindir. Amma həmin elmlər dini izah edə bilmir. Bu da göstərir ki, din və sadalanan elmlər iki ayrıca sahəni təşkil edir. Bəli, elmlər dinə təhlili olaraq yanaşa bilər, amma dini izah edə bilməz. Ateistlərin iddialarının bir daha batil olması nəzərə çarpır. Çünki həmin elmlər dini izah edə bilmir və bu məsələdə yetərsizdirlər.

## 49. İRAD

**K.Hitçens: "Bütün dinlər ya şübhələrin ağzını bağlamağa, ya da onları ciddi şəkildə məşğul etməyə çalışır".**

**Cavab**

Bütün dinlərin maarifinin təfərrüatından xəbəriniz varmı? Əlbəttə ki, yoxdur. Belə olduğu halda, necə iddia edirsiniz ki, bütün dinlər buna çalışır? Müqəddəs İslam dini öz ardıcıllarını elmə, maarifə və düşüncəyə dəvət edir. Quranın "Ali İmran" surəsinin 137-ci ayəsində buyrulur:

قَدْ خَلَتْ مِن قَبْلِكُمْ سُنَنٌ فَسِيرُواْ فِي الأَرْضِ فَانْظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ.

**"Sizdən əvvəl ənənələr olmuşdur. (Hər bir xalqın taleyi onun gördüyü işlərə və adət-ənənələrinə uyğun olmuşdur. Siz də onlar kimisiniz.) İndi yer üzünü gəzin və (Allahın ayələrini) təkzib edənlərin aqibətinin necə olduğunu görün!"**

Quran insanları şəkk-şübhədən uzaq tutmağa çalışır. "Ənbiya" surəsinin 7-ci ayəsində buyrulur:

وَمَا أَرْسَلْنَا قَبْلَكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِمْ فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ.

**"Biz səndən əvvəl də yalnız vəhy nazil etdiyimiz kişilər göndərmişdik. Əgər bilmirsinizsə, bilənlərdən soruşun".**

"Duxan" surəsinin 8 və 9-cu ayəsində buyurulur:

لَا إِلَهَ إِلَّا هُوَ يُحْيِي وَيُمِيتُ رَبُّكُمْ وَرَبُّ آبَائِكُمُ الْأَوَّلِينَ بَلْ هُمْ فِي شَكٍّ يَلْعَبُونَ.

**"Ondan başqa, heç bir məbud yoxdur, dirildir və öldürür, sizin və əcdadlarınızın Rəbbidir. Lakin onlar şəkk-şübhə içindədirlər, (həqiqətlərlə) əylənirlər".**

Allahın Rəsulu (s) buyurur:

قَالَ رَسُولُ اللهِ (ص): حُسْنُ السُّؤَالِ نِصْفُ الْعِلْم

"Gözəl şəkildə sual vermək, öyrənmək elmin yarısıdır".[1]

Başqa bir hədisdə buyurur:

وَ مَنْ خَرَجَ مِنْ بَيْتِهِ لِيَلْتَمِسَ بَاباً مِنَ الْعِلْمِ كَتَبَ اللهُ عَزَّ وَ جَلَّ لَهُ بِكُلِّ قَدَمٍ ثَوَابَ نَبِيٍّ مِنَ الْأَنْبِيَاء

"Kim elm tələb edərək öz evindən çıxarsa, Allah-taala onun hər addımına bir peyğəmbərin savabını verər".[2]

Bütün bunlar onu göstərir ki, İslam dini daima elmə və təfəkkürə dəvət edir, şübhəyə düşənlərin şübhəsini aradan qaldırmaq üçün soruşub öyrənməsinə təkid edir. Buradan belə nəticə əldə olunur ki, İslam dini, ateistlərin iddiasının əksinə olaraq, elm qapısını bağlamır. Yalnız Quranın bir yerində insana, bildiyi zaman onu kədərləndirəcək və narahat edəcək şeyləri soruşması qadağan edilir.

---

[1] "Bihavul-Ənvar", c.101, s.73

[2] "Camiul-əxbar", s.38

Quranın "Maidə" surəsinin 101-ci ayəsində buyrulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَسْأَلُواْ عَنْ أَشْيَاء إِن تُبْدَ لَكُمْ تَسُؤْكُمْ وَإِن تَسْأَلُواْ عَنْهَا حِينَ يُنَزَّلُ الْقُرْآنُ تُبْدَ لَكُمْ عَفَا اللّهُ عَنْهَا وَاللّهُ غَفُورٌ حَلِيمٌ.

**"Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın. Əgər onlar haqqında Quran nazil edildikdə soruşsanız, onlar sizə aydın olar. Allah onları bağışlamış (və göz yummuşdur). Allah bağışlayandır, həlimdir!"**

Bu ayədə də Allah-taala buyurmur ki, ümumiyyətlə, soruşub öyrənməyin, buyurur ki, qabağa qaçmayın, Quran nazil olduqda həmin məsələlər sizə aydın olacaq.

Ateistlərin bu iddiasının dəlili yoxdur. Dəliliniz varsa, onu dinlə bağlı gətirin, dindən kənar dəlillərin heç bir önəmi yoxdur.

**50. İRAD**

> **K.Hitçens: "Bütün İslam tarixi boyu onun ehkamlarını sual altına qoymaq və ya ən azından tədqiq etmək cəhdi dərhal amansız repressiyalara səbəb olurdu... Qanlı münaqişələr hər zaman İslamın müxtəlif cərəyanları arasında baş qaldırırdı və bu, İslamdaxili bidət və küfr ittihamlarına, həmçinin dəhşətli zorakılığa gətirib çıxarırdı".**

**Cavab**

Ümumiyyətlə, İslamda hansısa bir məsələ ilə maraqlanmağa, etiqadi, tarixi və digər məsələləri araşdırmağa qadağa qoyulmamışdır. Əksinə, İslam dini təfriqə və münaqişələri qadağan edir. Ona görə ki, tarixdə baş vermiş bəzi hadisələr təfriqə və qan tökülməsinə səbəb olmuşdur və onları cəmiyyət

içərisinə gətirib ondan təfriqə kimi istifadə etmək qadağandır. Çünki İslam dini vəhdətə dəvət edir və qan tökülməsinin əleyhinədir. “Ali İmran” surəsinin 105-ci ayəsində buyrulur:

وَلاَ تَكُونُواْ كَالَّذِينَ تَفَرَّقُواْ وَاخْتَلَفُواْ مِن بَعْدِ مَا جَاءهُمُ الْبَيِّنَاتُ وَأُوْلَـئِكَ لَهُمْ عَذَابٌ عَظِيمٌ.

**“(Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar”.**

İslam dini əsla insanların qanının tökülməsinə razı deyil. Allah-taala yəhudilərə “Bəqərə” surəsinin 85-ci ayəsində buyurur:

ثُمَّ أَنتُمْ هَـؤُلاء تَقْتُلُونَ أَنفُسَكُمْ وَتُخْرِجُونَ فَرِيقاً مِّنكُم مِّن دِيَارِهِمْ تَظَاهَرُونَ عَلَيْهِم بِالإِثْمِ وَالْعُدْوَانِ وَإِن يَأتُوكُمْ أُسَارَى تُفَادُوهُمْ وَهُوَ مُحَرَّمٌ عَلَيْكُمْ إِخْرَاجُهُمْ أَفَتُؤْمِنُونَ بِبَعْضِ الْكِتَابِ وَتَكْفُرُونَ بِبَعْضٍ فَمَا جَزَاء مَن يَفْعَلُ ذَلِكَ مِنكُمْ إِلاَّ خِزْيٌ فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ الْقِيَامَةِ يُرَدُّونَ إِلَى أَشَدِّ الْعَذَابِ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ.

**“Amma yenə bir-birinizi öldürən, özünüzdən olan bir dəstəni öz yurdundan çıxaran, onlara qarşı bu günah və təcavüzdə köməkləşən sizsiniz. (Bunlar hamısı Allahla bağladığınız əhdi pozmaqdır.) Onlar əsir düşüb yanınıza gəlsələr, fidyə verib azad edirsiniz. Halbuki onları (öz yurdlarından) çıxartmaq sizə haram edilmişdi. Məgər, siz səmavi kitabın bir hissəsinə inanıb digər qismini inkar edirsiniz? Sizlərdən bu cür işlər görənlərin (ilahi hökmlər və qanunlar arasında fərq qoyanların) cəzası dünyada yalnız rüsvayçılıq, Qiyamətdə isə ən şiddətli əzaba düçar olmaqdır. Allah gördüyünüz işlərdən qafil deyil”.**

Hətta sadalanan şeylərə və qan tökülməsinə səbəb olan suallar verilərsə, bəli, bu zaman İslam dini onu qadağan edir və pisləyir. İslam insanları daima sülh və əmin-amanlığa, vəhdətə dəvət etmişdir.

## 51. İRAD

**K.Hitçens: "Bizə məlumdur ki, Məhəmməd adlı şəxs bildirilən zaman və məkanda, çox ehtimal ki, mövcud olub. Buna baxmayaraq, qalan məsələlərdə, öncəki hallarda olduğu kimi, eyni problemlə üzləşirik. Məhəmmədin əməlləri və sözləri barədə olan rəvayətlər bir çox il keçdikdən sonra toplanmışdır ki, həmin zaman şəxsi maraqlar, şayiələr və yazılı dəlillərin olmaması hər şeyi qarşısıalınmaz şəkildə qarışdırmışdı".**

**Cavab**

Ateistlər həzrət Məhəmməd (s) kimi bir şəxsin olduğunu etiraf edir və demək istəyir ki, bu toplanan sözlər, hədislər şəxsi maraqlarını güdən insanlar tərəfindən toplandığından, bunlar düzgün deyil və heç bir dəyəri yoxdur.

Birincisi, belə sual vermək istərdik: Siz Peyğəmbərin (s) tarixini necə sübut edirsiniz? Əgər bunu etiraf edirsinizsə, deməli, tarixi faktlar və metodlarla olması sübuta yetirilə bilirsə, onda onun sözlərini də sübuta yetirmək mümkündür. Allah Rəsulunun (s) sözlərinin şəxsi mənafelərini güdən insanlar tərəfindən və müxtəlif maraqlarla yazıldığını iddia edirlər. Əgər bütün sözlərinin belə olduğunu deyirsinizsə, bu, yalandır və iddianız dəlilə əsaslanmalıdır. Əgər sözlərindən bəzisinin yalan və yalançı insanların uydurması olduğunu bildirirsinizsə, bəli, Peyğəmbər (s) doğru danışan bir kəs olmuş, lakin zamanla yalançı insanların özlərindən hədislər uyduraraq həzrətə nisbət verməsi yer almışdır. Burada heç bir qəbahət yoxdur və hazırda Peyğəmbərin (s) sözlərini yalançı kəslərin sözlərindən ayırd edən mütəxəssis şəxslər və ekspertlər vardır

ki, bu da Peyğəmbərin (s) canişinləri olan Əhli-beytdir (ə). Həzrət Məhəmmədin (s) doğru danışan səhabələri olmuş, buna dair şahidlər də mövcuddur. Şübhəsiz, ateistlər və Hitçens kimiləri bunu ayırd edə bilməz. Lakin mütəxəssislər bunu edə bilər və edirlər də. On dörd əsr sonra Peyğəmbərin (s) özünün varlığını sübut etməyin mümkün olduğu kimi, sözlərini də sübut etmək olar.

## 52. İRAD

**K.Hitçens: "İslam monoteist dinlər arasında həm ən maraqlısı, həm də ən maraqsızıdır. O, ibtidai yəhudi, məsihi sələflərinin parçalarından toplanıb. Ona görə onlara qarşı hər hansı bir dəlil, İslam əleyhinə də dəlil hesab olunur. Onun əsas mətni son dərəcə darıxdırıcı didişmələrlə qələmə alınmış kiçik dünyadan bəhs edir".**

**Cavab**

Hitçens bu iradının əvvəlində ziddiyyətli bir ifadə işlədir, deyir: **"İslam monoteist dinlər arasında həm ən maraqlısı, həm də ən maraqsızıdır".** Hitçensin cümləsi məchuldur. Əgər bir cəhətdən maraqsız, digər cəhətdən maraqlı olduğunu bildirirsə, yenə də ifadə naməlumdur.

Bundan başqa, İslamın yəhudi və məsihi sələflərindən toplandığını iddia edir. Əgər belədirsə, nə üçün indiyə qədər məsihi və yəhudilər əllərinə bayraq edərək deməyiblər ki, ey müsəlmanlar, siz Quranı bizdən götürmüsünüz?! Nə üçün onlar Quranı mənimsəməyiblər. Əgər onlardan götürülübsə, deyərdilər ki, bu bizimdir, çünki ayələri də eynilə Tövrat və İncilin ifadələri kimidir. Əgər eyniliyini iddia edirsinizsə, bu, yalandır. Quran tamamilə İncil və Tövratdan fərqlənir. Quran

fəsahət və bəlağətli kitabdır. Əgər onun fərqli bir şey olduğunu desəniz, bu da onun Tövrat və İncildən fərqli olduğunu göstərəcək və iddianız yenə də batil olacaq. Quran özü ilə bağlı mübarizə tələb edərək digər dinlərə meydan oxuyur və onun çağırışına hələ də cavab verilməmişdir.

"Bəqərə " surəsinin 24-cü ayəsində buyrulur:

وَإِن كُنتُمْ فِي رَيْبٍ مِّمَّا نَزَّلْنَا عَلَى عَبْدِنَا فَأْتُواْ بِسُورَةٍ مِّن مِّثْلِهِ وَادْعُواْ شُهَدَاءكُم مِّن دُونِ اللّهِ إِنْ كُنْتُمْ صَادِقِينَ.

**"Əgər bəndəmizə (Peyğəmbərə) nazil etdiyimizə şəkkiniz varsa, ona bənzər (ən azı) bir surə gətirin və əgər doğru deyirsinizsə, onda Allahdan savayı (bütün) şahidlərinizi (bu işdə köməyə) çağırın".**

İraddakı "Əsas mətn" ifadəsi hədisləri nəzərdə tutursa, onda bu, bütün hədislərə şamil olunur, yoxsa bir qisminə?

Əgər hamısına şamil olduğunu desəniz, bu, yalandır, çünki belə bir şey yoxdur, bu, dəlilə əsaslanmayan bir iddiadır.

Əgər onların bir qisminə şamil olduğunu desəniz, bəli, onların arasında uydurma hədislər vardır və belə bir şey mümkündür, düşmənlər belə hədisləri İslama daxil etmişlər. **"Onun əsas mətni son dərəcə darıxdırıcı didişmələrlə qələmə alınmış kiçik dünyadan bəhs edir"** ifadəsi Hitçensin şəxsi nəzəridir, bu məsələyə dair dəlillər ortaya qoyulmalıdır ki, ateistlərin də heç bir sübutu yoxdur.

Biz oxuculara Hitçens kimi bir ateistin qələmə aldığı "Tanrı böyük deyildir" kitabını oxumamağı tövsiyə edirik. Orada yer alan iradlar müəllifin subyektiv fikirləridir. Hitçens bu fikirlərinə görə təzyiqlərə məruz qaldığını özü də etiraf edir. Hətta o, yazır: **"İyirmi beş il sürən müzakirələr ərzində Vaşinqtonda sadəcə bir dəfə fiziki zorakılığa məruz qalmağıma təhlükə yarandı. Bu, Klinton administrasiyasının**

**üzvləri ilə nahar zamanı baş vermişdi. Onların arasında ictimai rəy və seçki kampaniyalarının maliyyələşdirilməsi üzrə məşhur ekspert var idi. O, Yaxın Şərqə son səfərim barədə məni sorğu-suala tutdu və müsəlmanların niyə "şüursuz fundamentalistlər" olduqları sualına cavabımı öyrənmək istədi. Mən standart izahat üsulumu seçdim, lakin əlavə etdim ki, İslamın nisbətən gənc din olduğunu və öz doğruluğunu "gənclik coşğusuyla" sübut etdiyini çoxları unudur. Qərb xristianlığını bürüyən böhran və şübhə İslam dininə aid deyil. Həmçinin dedim ki, haqqında, demək olar ki, heç bir tarixi dəlil olmayan İsadan fərqli olaraq, Məhəmməd tam tarixi bir fiqurdur. Həmsöhbətimin siması bir anda dəyişdi. O, yüksək səslə bağırdı ki, İsa Məsih bəşəriyyət üçün təsəvvür edə biləcəyimdən daha çox şeylər edib və mənim çərənləməyim son dərəcə çirkindir. Sonra ayağı ilə mənə zərbə vurmağa cəhd etdi...".**

Bu, Hitçensin həzrət Peyğəmbər (s) və İslam dini haqqında söylədiyi etirafı olmaqla yanaşı, həm də onun öz şəxsi fikirlərinə görə zorakılığa məruz qaldığını göstərir..

## 53. İRAD

**K.Hitçens: "Dinin bəzi aspektlərinin nəinki mənəviyyatla heç bir əlaqəsi yoxdu, onların mənəviyyatsız olduğu açıq-aydındır. Söhbət ayrı-ayrı dindarların pis əməlləri və cinayətlərindən deyil, dinin əsas prinsiplərindən gedir. O cümlədən:**

1. **Dinin sadəlövh insanlara yeritdiyi dünyanın saxta görüntüsü.**
2. **Qurbanlıq qan barədə təlim.**
3. **Günahların təmizlənməsi barədə təlim.**

**4. Əbədi cəza və əbədi mükafat barədə təlim.**
**5. İcraolunmaz hökmlər və qaydaların yeridilməsi".**

**Cavab**

Ateistlər dinin əsas prinsiplərinin yuxarıdakı amillərin olduğunu və bunun mənəviyyatla heç bir əlaqəsinin olmadığını güman edirlər. **"Dinin sadəlövh insanlara yeritdiyi dünyanın saxta görüntüsü"** dedikdə, dinin hansı bölməsini nəzərdə tutursunuz? Etiqad, əxlaq, hökmlər bölməsini? Dindarları sadəcə savadsızlar təşkil etmir, bunun ziyalısı, elmlisi var və onlar dinə əməl edirlər. Onların hamısını sadəlövh hesab etmək olmaz axı! Nə saxta görüntü var, nə də dindarların təsviri belədir. Bəli, bəzi dinsiz və din pərdəsi altında gizlənən kəslər özlərini dindar kimi göstərə bilər, amma bunu ümumi kütləyə şamil etmək olmaz.

Din saflığa dəvət edir, hər bir işin başında Allaha yaxın olmaq, "qurbətan iləllah" niyyəti olmalıdır. Quranda, hədislərdə münafiq və ikiüzlü insanların məzəmmət edilərək pisləndiyi nəzərə çarpmaqdadır. Hətta münafiqlərin kafirlərdən də şiddətli şəkildə cəzalandırılacağı bildirilmişdir. Əgər biz dinin əxlaq və əqidəvi bölmədəki dəvətini nəzərə alsaq, görərik ki, din insanlara mənəviyyatı, düzlüyü, yaxşı işləri əmr edir.

Bundan əlavə, sadalanan prinsiplər heç də dinin əsas prinsiplərini özündə əks etdirmir. Bu, sadəcə ateist Hitçensin şəxsi nəzəridir və o, dinin əsas prinsiplərini belə ayırd edə bilmir.

Görəsən, **"qurbanlıq qan"** dedikdə, nəyi nəzərdə tuturlar? Yəhudilik və məsihilikdə yanlış olan qurbanlıq qanı varsa, bunun İslama nə aidiyyatı var? İslamdakı qurbanlıqları

nəzərdə tuturlarsa, burada Həcc mərasimində heyvanlar kəsilir və qan axıdılırsa, bunun məntiqi və fəlsəfi səbəbləri vardır. Heyvan üç hissəyə bölünür: bir hissəsini insan özünə götürür, bir hissəsi fəqirlərə verilir, digər hissəsi də möminlər üçün paylanılır.

Əgər kəsilən qurbanlar bu cür bölüşdürülürsə, burada pis və mənəviyyatsızlıq olan məsələ nədir? Mənəviyyatsızlıq kimi günahların bağışlanmasını da qeyd etmişlər.

Əvvəla, deyin görək, günahların bağışlanmasın yaxşı işdir, yoxsa pis? Bunu Allah-taala həyata keçirir, peşman olan insanların günahları bağışlanır və bu, tövbə qapısıdır. İnsanlar səhvlərini düzəldərək Allah yoluna qayıdırlar.

**Əgər Allah bu qapını qoymasaydı, siz deyəcəkdiniz ki, Allah-taala nə üçün belə bir qapı qoymayıb?**

Əgər məsihilikdə keşişlərə pul verib günahların bağışlanmasını nəzərdə tuturlarsa, bunun İslama aidiyyatı yoxdur. İslamda orucunu qəsdən pozan kəslərə cəza olaraq altmış bir gün oruc tutmaq və ya **altmış fəqirə təam vermək** nəzərdə tutulursa, deməliyik ki, burada həmin pullar imkansızlara çatdırılır və bu, heç də məsihilikdəki məsələ ilə eyni deyil. Allah istəyir ki, qəsdən bu işi görənlər peşman olsun və bir daha bu əmələ qayıtmasınlar. Bu hökm və qayda-qanunlar Allah üçün deyil, fəqir insanlara verilməsi və günahların kəffarəsi üçündür.

Əbədi cəza və əbədi mükafat məsələsinə, icraolunmaz hökmlər və qaydaların yeridilməsinə irad tutulur. Əbədi cəza kafirlər üçündür, bunun mənəviyyatsızlıqla nə əlaqəsi var?

Digər tərəfdən, dində bütövlüklə icra olunmaz bir hökm, qayda yoxdur.

## 54. İRAD

> **K.Hitçens: "Allaha inanırsınızsa belə, onun sizin qarşınızda özünə haqq qazandırmalı olduğunu təsəvvür etmək ağlasığmazdı. Buna baxmayaraq, inanclı insan naməlumun iradəsini şərh etmək kimi icraolunmaz bir vəzifəni öz boynuna götürür, bununla da özünü absurd suallar qarşısına atır".**

**Cavab**

Belə çıxır ki, bir kəsə inanırsınızsa, o sizin qarşınızda özünü haqlı hesab etməməlidir. Yəni bu məntiqə əsasən, inandığın kəs sənin qarşında özünün haqlı olduğunu təsəvvür etməməlidir. Bu cüzi bir məsələdir, yoxsa, külli?

Əgər insan bir şəxsə inansa və həmin şəxs özünü yalançı hesab etsə, ona inanmaq olarmı? Əlbəttə ki, xeyr.

Desələr ki, bu məsələ yalnız Allahla bağlıdır, onda sizin dəliliniz nədir? Heç bir ağıl sahibi bunu qəbul etmir. Mömin hansı naməlumun iradəsini şərh etməyi öz öhdəsinə götürmüşdür?

Ateistlər demək istəyir ki, Allah naməlum varlıqdır. Halbuki məsələ heç də belə deyil. Allah mömin üçün məlum varlıqdır, dini məsələlər tamamilə şəffafdır və hər bir dini məsələdəki sualla bağlı mömin özünə cavablar tapır, ağlının yol göstərməsi əsasında hərəkət edir. Şübhəsiz, ateistlərlə möminlər arasında ciddi fərqlər var və siz bunu dərk edə bilmirsiniz, özünüzü ağıllı, digərlərini isə ağılsız hesab edirsiniz, halbuki məsələ bunun əksinədir.

## 55. İRAD

> **K.Hitçens: "Gözlənildiyi kimi, İslam bir çox daxili ziddiyyətlər içindədir".**

**Cavab**

Xatırladırıq ki, müqəddəs İslam dini üç hissədən ibarətdir: Əqidə, Əməli hökmlər (halal-haram və s.) və Əxlaq bölməsi. İndi bu ateistlər ziddiyyəti nədə görür?

Əqaidlə Əhkam (hökmlər) bir-birilə ziddir, yoxsa şəriət hökmləri ilə Əxlaq ziddiyyətə malikdir? Əslində, bunların heç biri digəri ilə ziddiyyətdə deyil, çünki ayrıca bir bölməni təşkil edirlər.

Onlar deyə bilər ki, məsələn, Əqidə bölməsinin öz daxilində ziddiyyətlər vardır. Elə götürək Tövhid məsələsini; tövhid dedikdə, yenə də ziddiyyət təsəvvür olunmur. İstər Nübuvvət məsələsi olsun və s., burada arqumentlər bir-birinin kənarında düzülərək əqidəni formalaşdırır. Məsələn, Allah-taala gözlə görünməzdir, peyğəmbərlər məsumdur, bu məsələdə ziddiyyət nədir? Və yaxud Əxlaqa nəzər salaq. Əxlaqda deyilir ki, səbir gözəldir; indi gözəl olduğu halda həm də pisdir? Aydın məsələdir ki, belə bir şey yoxdur. Hitçens kimi insanlar məsələləri həzm edə bilmədiyindən belə iddialar irəli sürmüşlər.

## 56. İRAD

> **K.Hitçens:**
> ***"Şəhidliyin üstünlüyünü bilən bir şəhid bu dünyaya qayıdıb yenidən ölmək istəyər".***
> ***"Şübhəsiz, Allah-taala Ondan başqa tanrılara ibadət edənləri bağışlamır. Bundan başqa, istədiyini də bağışlayar. Allahla birlikdə***

*digər tanrılara ibadət edən böyük bir günah işlədir".*[1]

**...Seçdiyim bu barbar hissələrdən birincisi Sokratın Platonun "Apologiya"sında dediklərinin tam tərsidir. İkincisi isə "On əmr"in açıq təqlidini nümayiş etdirir".**

**Cavab**

Əvvəldə də qeyd etdik ki, İslam dini  Əqaid, Əhkam və Əxlaqdan bölmələrindən ibarətdir. Bunların əsli bir mənbəyə, İlahi vəhyə qayıdır. Ola bilər ki, əvvəlki ümmətlərdən bizdə fitrətlə bağlı hansısa xüsusiyyətlər olmuş olsun. Burada qabahətli bir məsələ yoxdur. Yəni Tövrat, İncil və Quranda müştərək xüsusiyyətlər ola bilər və bu onun sahibi olan Allahın təliminə əsaslanır. Məsələn, gözəllik hər üç səmavi kitabda tərənnüm edilə bilər. Burada anlaşılmazlıq nədədir?

Onlar demək istəyir ki, İslam dini bunu öncəki dinlərdən götürüb? Halbuki belə bir şey yoxdur. Əgər belə olsaydı, məsihilik və yəhudiliyin tərəfdarları həmin məsələlərin onlardan əxz edildiyini iddia edərdilər.

Digər bir tərəfdən onların islamla mübarizəsi də onu göstərir ki, İslam dininin gətirdikləri ilə onların dediklərində fərq çoxdur.

**57.İRAD**

**K.Hitçens: "İnsanlar dini məsələlərdə hər cür namussuzluğa və intellektual saxtakarlığa əl atır".**

---

[1] "Nisa" surəsi, ayə 48.

**Cavab**

Bu hansı insanlardır? Söhbət kimdən gedir? Söhbət mömin və dindarlar ya qeyri-mömin və qeyri-dindarlardan gedir?

Əgər dinsiz insanlardan söhbət gedirsə, onların dinlə heç bir əlaqəsi yoxdur. Bu, sanki bir oğrunun oğurluq etməsinə görə kiminsə İslam dinini pisləməsinə bənzəyir. Bu nə dərəcədə düzdür? Əgər dinsiz biri dini məsələlərdən sui-istifadə edir və namussuzluq edirsə, bunu dinlə əlaqələndirmək olmaz. Əgər dindar insanlar dini göstərişlərə əməl etməklə namussuzluğa əl atırlarsa, Əxlaq və Əqaid bölməsində ədalət, zülm etməmək və s. kimi məsələlərə göstəriş verilir ki, burada saxtakarlıq və namussuzluq yoxdur. Dindarlar dini göstərişlərə əməl etməklə yanaşı saxtakarlıqla məşğuldurlarsa, burada da deməliyik ki, bütün dindarlar belə deyil və onların çox az bir qismi günaha mürtəkəb ola bilər. Buna baxmayaraq, yenə də bu, dinin nöqsanı hesab olunmur, şəxslərin nöqsanıdır. İnsanların dini məsələlərdə hər cür saxtakarlıq və namussuzluğa əl atdığını iddia etmək əsassızdır.

**58. İRAD**

> **K.Hitçens: "Peyğəmbərlər, həqiqətən, inanclıdırlarmı? Bəlkə onlar insanları şüurlu şəkildə aldadırlar?"**

**Cavab**

Siz ki peyğəmbərləri görməmisiniz! Özü də bütün peyğəmbərləri nəzərdə tutursunuz. Bütün iddialarınızda olduğu kimi, bir dəlil ortaya qoymursuz. Sonuncu Peyğəmbərin (s) gətirdiyi kitab Qurandır, əvvəlkilərin də gətirdiyi kitablar məlumdur. Heç bir peyğəmbər yalandan nəyisə demir, doğru danışırlar. Hitçens kimi ateistlər dəlilsiz-sübutsuz belə iradları

qəbul edir, lakin varlığı haqqında bir çox dəlilləri olan Allahı qəbul etmirlər.

Peyğəmbərlər kitablar gətirmişlər, o cümlədən İslam Peyğəmbəri (s) də. Onun sözündə yalan yox idi, hətta kafirlər, İslama iman gətirməyənlər belə həzrətin əmanətdar və doğrudanışan olduğunu qəbul etmişlər. Biz ateistlərdən bu məsələylə bağlı dəlil tələb etsək, əlbəttə, gətirə bilməyəcəklər.

**59. İRAD**

> **K.Hitçens: "Bir çox şiə ritual və mərasimlərinin şahidi olmuşam. Bu səbəbdən, onların ayinlərinin qismən katoliklərdən mənimsələndiyini öyrənəndə çox da təəccüblənmədim".**

**Cavab**

Maraqlıdır, Hitçens bu ritual və mərasimləri harada görüb? Məsələn, həmin mərasimlərdən biri əzadarlıqdır, görəsən, məsihilər əzadarlıq edir və sinə vururlarmı?

Əgər belə olsaydı, nə üçün indiyə qədər məsihilər həmin adət-ənənələri müsəlmanların və xüsusilə şiələrin üzünə vurmayıb və deməyiblər ki, bunu bizdən götürmüsünüz? Bəzi işlər var ki, bunda Allahın razılığı var və bütün dinlərdə müştərəkdir. Məsələn, ölən bir şəxs üçün göz yaşı tökmək və əzadarlıq etmək kimi. Bunlar insanlıqdan, fitrətdən irəli gəlir və bütün dinlərdə yer alması mümkündür.

**60. İRAD**

> **K.Hitçens: "Susuz Kərbəla çölündə tərk edilmiş və ya aldadılmış imam Hüseynin dəhşətli ölümü ilə bağlı vəhşi şəhidlik kultu, öz qurbanlıq liderlərinin darda qal-**

> **masından kədərlik hissinə qapılıb özünü döyənlər və işgəncə verənlər mərasimi..."**

**Cavab**

Əzadarlıq mərasiminə irad tutulur. Cavab olaraq bildiririk ki, İmam Hüseynin (ə) nə nöqsanı, nə də eybi var. İnsanlar həzrəti dəvət etdi, İmam Hüseyn (ə) də öz hədəflərinə çatmaq və insani, islami dəyərləri qorumaq naminə bu addımı atıb canından keçdi; bu elə bir yol idi ki, əməvilərin zülmünü aradan aparmaq üçün nəzərdə tutulmuşdur. Bu gün qeyri-müsəlman alimlər belə müsəlmanlar və İslamın, İmam Hüseynin (ə) qələbəsini görür və bunu daha yaxşı başa düşürlər. Burada hansısa bir nöqsan və çatışmazlıq yoxdur. Ateistlər şiələrin keçirdiyi mərasimləri **"özünü döyənlər və işgəncə verənlər mərasimi"** adlandırır. Fərz edin, ateist Hitçensi azad fikirləri, ateistlik üçün göstərdiyi xidmətlərinə görə öldürsəydilər və İmam Hüseynin (ə) başına gələnlər onun başına gətirilsəydi, ateistlər bu hadisəyə nə deyəcəkdilər? Üç ehtimal vermək olar: **birincisi,** ateistlər bu hadisəyə gülər və sevinclə qarşılayardılar; **ikincisi,** bu hadisəyə sükut edər, heç nə deməz və bitərəf qalardılar. Təbii ki, hər iki halda ağıl sahibləri onları tənqid edəcəkdilər. **Üçüncüsü,** bir ateist olaraq nahaq yerə öldürülən bu həmfikirlərini müdafiə edəcəkdilər; ya sözdə, ya ağlamaqla və yaxud da digər vasitələrlə ona dəstək olmağa və digərlərinə çatdırmağa çalışacaqdılar. İmam Hüseyn (ə) də şiə və İslam dünyası üçün önəmli şəxslərdən biridir, Allah yolunda şəhid olmuşdur, şiələr də həzrətin məzlumluğuna göz yaşı axıdır, ona edilən bu dəhşətli zülmü bütün dünyaya bəyan etməyə çalışır.

**61. İRAD**

**Ateistlərin qənaətinə görə, Quranda bir çox ayələr bir-birini inkar edir. Belə ki, bəziləri həzrət Musanın (ə), bəziləri Məhəmməd peyğəmbərin (s), digərləri isə həzrət İbrahimin (ə) ilk müsəlman olduğunu bəyan edir. Hitçens bu haqda ayrı-ayrı ayələrin yer aldığını və bir-birilə ziddiyyət təşkil etdiyini iddia edir.**

**Cavab**

Cavabımızda öncə Qurani-Kərimin ayələrinə nəzər salaq. Allah-taala "Əraf" surəsinin 143-cü ayəsində buyurur:

قَالَ سُبْحَانَكَ تُبْتُ إِلَيْكَ وَأَنَاْ أَوَّلُ الْمُؤْمِنِينَ.

**"(Musa): "Sən paksan, müqəddəssən! (Sən gözə görünməzsən!) Sənə doğru qayıtdım. Mən iman gətirənlərin birincisiyəm!" – dedi".**

"Zumər" surəsinin 12-ci ayəsində Allah-taala buyurur:

وَأُمِرْتُ لِأَنْ أَكُونَ أَوَّلَ الْمُسْلِمِينَ.

**"Mənə həm də müsəlmanların birincisi olmaq əmr olunmuşdur".**

Bu ayə Məhəmməd Peyğəmbər (s) barəsindədir.

"Ənam" surəsinin 14-cü ayəsində buyrulur:

قُلْ إِنِّيَ أُمِرْتُ أَنْ أَكُونَ أَوَّلَ مَنْ أَسْلَمَ وَلاَ تَكُونَنَّ مِنَ الْمُشْرِكَينَ

**"De: "Mənə ilk müsəlman olmaq əmr edildi və (Allah mənə) müşriklərdən olma!" (deyə əmr etdi)".**

"Ənam" surəsinin 163-cü ayəsində isə belə buyurur:

وَبِذَلِكَ أُمِرْتُ وَأَنَاْ أَوَّلُ الْمُسْلِمِينَ.

**"Mənə belə əmr edilmişdir və mən ilk müsəlmanam!"**

Həmçinin, "Şuəra" surəsinin 51-ci ayəsində və Quranın digər ayələrində də bu məzmunlu ifadələr vardır. Ayələrin həzrət Musa (ə), İbrahim (ə) və İslam peyğəmbəri (s) haqqında olmasında heç bir ziddiyyət yoxdur. Ona görə ki, həmin peyğəmbərlər eyni zamanda yaşamamışlar. Hər bir peyğəmbər yaşadığı dövrdə insanları tövhidə dəvət edir və onların özləri həmin əhali arasında Allaha iman gətirən ilk şəxslərdir. Yəni Allah qarşısında təslim olan (müsəlman olan) ilk şəxs elə onların özləridir. Məsələn, həzrət Musanın (ə) "Mən iman gətirənlərin birincisiyəm!" deməsi bir həqiqətdir, çünki onun zamanında iman gətirməyənlərin arasında o, ilk iman gətirən şəxs idi. Yaxud peyğəmbərimiz olan həzrət Məhəmməd (s) buyurur ki, "Mənə ilk müsəlman olmaq əmr edilmişdir". Yəni həzrət İslam dininə dəvət etdiyi müşrik və kafirlərə deyirdi ki, mən sizin aranızda Allaha iman gətirən ilk şəxsəm və sizi azğınlığa deyil, nicat və səadətə səsləyirəm, mən bu yolda sizdən öndəyəm və Allaha təslim olanlardanam. Beləliklə, hər bir peyğəmbərin öz zəmanəsində Allaha təslim və müsəlman olan birinci şəxs olması aydın olur. Bu məsələdə heç bir ziddiyyət yoxdur, ayələr də bir-birinin əksinə olan mənaları ifadə etmir.

Quran İlahi elm və maarifdən ibarətdir, sadəcə onu düzgün şəkildə anlayıb dərk etmək lazımdır. Şübhəsiz, Quranı daha yaxşı anlamaq üçün Quran elmlərindən xəbərdar olmaq və ona yiyələnmək zəruridir.

## 62. İRAD

**"Biz Quranı qəbul etmirik, çünki bir ayədə qeyri-müsəlmanların cənnətə girəcəyi bildirildiyi halda, digər ayədə bu, inkar olunur".**

**Cavab**

Ümumiyyətlə Quran ayələrində cənnətə daxil olub olmamaqla bağlı bir neçə dəstə ayə var:

**Bir dəstə** ayələrdə bir qrup insanların qətiyyən cənnətə daxil olmaması bildirilir. Allah-taala "Əraf" surəsinin 40-cı ayəsində buyurur:

إِنَّ الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا وَاسْتَكْبَرُواْ عَنْهَا لاَ تُفَتَّحُ لَهُمْ أَبْوَابُ السَّمَاء وَلاَ يَدْخُلُونَ الْجَنَّةَ حَتَّى يَلِجَ الْجَمَلُ فِي سَمِّ الْخِيَاطِ وَكَذَلِكَ نَجْزِي الْمُجْرِمِينَ.

**"Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz və dəvə iynənin gözündən keçməyənə qədər onlar da Cənnətə daxil olmayacaqlar. Biz günahkarlara belə cəza veririk!"**

Yəni ayələri yalan hesab edənlər, təkəbbürlük göstərənlər cənnətə daxil ola bilməzlər; dəvə iynənin dəliyindən keçsə, onlar da cənnətə daxil olacaq. Beləliklə, əsla cənnətə daxil olmayacaqlar və yerləri cəhənnəmdir.

**İkinci qism** ayələrdə isə bir qrup insanların mütləq cənnətə daxil olması bilidirlir və onlar möminlərdir. "Bəqərə" surəsinin 25-ci ayəsində buyrulur:

وَبَشِّرِ الَّذِين آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ أَنَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ كُلَّمَا رُزِقُواْ مِنْهَا مِن ثَمَرَةٍ رِّزْقاً قَالُواْ هَـذَا الَّذِي رُزِقْنَا مِن قَبْلُ وَأُتُواْ بِهِ مُتَشَابِهاً وَلَهُمْ فِيهَا أَزْوَاجٌ مُّطَهَّرَةٌ وَهُمْ فِيهَا خَالِدُونَ.

**"İman gətirən və yaxşı işlər görənlərə müjdə ver ki, onlar üçün ağacları altından çaylar axan Cənnət bağları vardır. (Onun) meyvəsindən onlara verildiyi zaman: "Bu ki bizə əvvəlcə verilən ruzidir" - deyəcəklər (Amma bunlar onlardan daha yaxşı və daha dadlıdır). Onlar üçün gətirilən meyvələrin hamısı (gözəllik və təravət baxımından) bir-birinə**

**bənzərdir. Onlar üçün orada pak zövcələr də var və onlar orada əbədi qalacaqlar".**

**Üçüncü qism** ayələrdə, ayələri inkar etməyən, lakin möminlərdən də olmayan bir qrupdan söhbət açılır ki, onlar sanki bitərəf qalmışlar.

"Nisa" surəsinin 97-88-ci ayələrində buyrulur:

إِنَّ الَّذِينَ تَوَفَّاهُمُ الْمَلآئِكَةُ ظَالِمِي أَنْفُسِهِمْ قَالُواْ فِيمَ كُنتُمْ قَالُواْ كُنَّا مُسْتَضْعَفِينَ فِي الأَرْضِ قَالْوَاْ أَلَمْ تَكُنْ أَرْضُ اللّهِ وَاسِعَةً فَتُهَاجِرُواْ فِيهَا فَأُوْلَـئِكَ مَأْوَاهُمْ جَهَنَّمُ وَسَاءتْ مَصِيراً إِلاَّ الْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ لاَ يَسْتَطِيعُونَ حِيلَةً وَلاَ يَهْتَدُونَ سَبِيلاً.

**"Mələklər öz nəfslərinə zülm edənlərin canlarını alarkən (onlara) dedilər: "Siz nə iş görürdünüz? (Nə üçün müsəlman olduğunuz halda, kafir sıralarında yer almışdınız?)" Onlar söylədilər: "Biz öz ölkəmizdə təzyiq altında olan və zəif hala salınmış şəxslər idik". (Mələklər də onlara) dedilər: "Hicrət etməyiniz üçün Allahın yeri geniş deyildimi?" Onların yeri Cəhənnəmdir. O, necə də pis sonluqdur! Yalnız, həqiqətən, təzyiq altında olan (aciz hala salınmış), heç bir çarəsi və (bu mühitdən xilas olmaq üçün) çıxış yolu olmayan aciz kişi, qadın və uşaqlar müstəsnadır".**

Ayədə müstəzəf (zəiflədilmiş) kəslərdən söhbət açılmışdır ki, bu qrupa qadın və uşaqlar daxildir və onların da bağışlanmasına ümid vardır. Həqiqət yolu onların üzünə bağlanmış olduğundan, onlar düz yolu tapa bilməmişlər və onların bağışlanacağına ümid vardır. Qeyri-müsəlmanlardan hidayət yolunu tapa bilməyənlərin, əlbəttə, qəsdən deyil, müxtəlif səbəblərdən buna nail ola bilməyən kəslərin cənnətə daxil olma ümidi vardır.

Ona görə də, Quranda elə bir ayə yoxdur ki, bir yerdə qeyri-müsəlmanların cənnətə daxil ola biləcəyini, digər bir yerdə isə cənnətə daxil olmağın mümkünsüzlüyün bildirsin.

## 63. İRAD

> **"Elmdə bəzi məsələlər var ki, onlar dinlə ziddiyyət təşkil edir..."**

**Cavab**

Elmin inkişaf etdiyi, elmi nailiyyətlərin əldə olunduği dövrlərdə elmi düşüncələrin məsihilik və İncil kitabı ilə uyğun gəlmədiyi və ziddiyyətə malik olduğu söylənilirdi. Hətta o dövrlərdə elmin İncil və məsihilikdən üstün olduğu anlaşılırdı, bəzi keşişlər və rahiblər də insan ağlının kəşf etdiyi şeylərin din çərçivəsindən xaric olduğunu iddia edirdilər, çünki təhrif olunmuş məsihilik və İncildə elmi məsələlər cavablandırıla bilmirdi. Həmin səbəbdən elm xadimləri elmlə din arasında ziddiyyətin olduğunu bildirirdilər. Ateistlər də bu məsələdən sui-istifadə edərək elmlə din arasında ziddiyyətin olmasını iddia edirlər. Məsələn, bu, yalnız həzrət Adəmin (ə) və dünyanın yaşı ilə bağlı olan elmi kəşflərlə, təhrif olunmuş İncil və məsihilikdə bildirilən məsələlərin ziddiyyət təşkil etməsi ilə əlaqədar deyil. Ümumiyyətlə, təhrif olunmuş İncilin möhtəvası ilə elmi kəşflər üst-üstə düşmədiyindən, onlar bu qənaətə gəlmiş və demişlər ki, əqlin səmərəsi olan elmi kəşflər dinlə ziddiyyətə malikdir və ağıla zidd olan məsələlər, təbii olaraq, kənara qoyulmalıdır. Eynilə ateistlər də həmin məsələyə təkid edirlər.

Vurğulamaq istərdik ki, bu məsələ sadəcə təhrif olunmuş məsihilik və İncillə bağlı bir irad idi və bu məsələni əsla təhrif edilməyən, Allah tərəfindən qorunan Quran kitabı və İslam dininə tətbiq etmək olmaz. Məsələn, bir şəxs xəstələnsə və həkim ona nüsxə yazsa, biz həmin nüsxəni bütün xəstələrə tətbiq edə bilmərik. Bunu sağlam düşüncə sahibi dərk edir.

İslam dini bütün elmi nailiyyətləri qəbul edir və onun elmlə heç bir ziddiyyəti yoxdur. Hətta İslam Peyğəmbəri həzrət Məhəmməd (s) buyurur ki,

اطلبوا العلم من المهد إلى اللّحد.

"Beşikdən qəbir evinə qədər elm öyrənin!"[1] Din elmi, elmi dəlillər və nailiyyətləri inkar etmir, əksinə, buna təşviq edir.

Digər tərəfdən, əgər dinlə elm arasında hansısa bir ziddiyyət qarşıya çıxsa, bu, bəşər əqlinin məhdudluğu və dini məfhumların geniş və əhatəli olması səbəbilədir. Yəni biz elmin tərəqqi etməsinə baxmayaraq hələ də kəşf edilməmiş məsələlərin olduğunu görürük. Biz burada demirik ki, elmlə din arasında ziddiyyət var. Əksinə, kəşf edilməyən məsələlərin üzə çıxmasını gözləməliyik. Bir sözlə, burada məhdud həddə dərk edən ağılın olması ilə Allah tərəfindən bildirilən ali məsələlərin varlığı meydana çıxır. Bir tərəfdə insanın məhdud ağlı, digər tərəfdə isa Uca Yaradan tərəfindən peyğəmbərlərə öyrədilən elm və biliklər durur. Belə ki, buradan ağıl və elmin məhdud, nöqsanlı olması anlaşılır, yəni müəyyən həddə qədər olan elmlə sonsuz elmə malik olan İlahi elmin varlığı məsələsi nəzərə çarpır.

## 64. İRAD

> **"...Məsələn, Adəm peyğəmbərin dövründən bugünədək 9 min il ötdüyü bildirilir, halbuki elm insan nəslinin yüz min illər öncəyə gedib çıxdığını göstərir. Bunu necə başa düşək?"**

[1] "Nəhcül-fəsahə", hədis, 327.

**Cavab**

Dünyanın yaranmasından 7 min il keçdiyinin və ya müxtəlif rəqəmlərin göstərilməsinə dair demək istərdik ki, əvvəla, hədis elmində onların sənədini araşdırmaq lazımdır; hansının sənədinin doğru, hansının zəif olaması məlum olmalıdır. Bu kimi hədislər bəzi hallarda hətta Quranla da ziddiyyət təşkil edir, buna görə araşdırmaq lazımdır. Arxeologiya elmində müəyyən qayda-qanun, araşdırmalar olduğu kimi, hədis elminin də özünəməxsus qanunları vardır və bu elmin əsasında həmin hədislərin, ya sənədinin zəifliyi aşkarlanmış və nəql olunan hədislərin tam başqa bir mənaya malik oluğu üzə çıxmış olur. Allah buyurur ki, "Qiyamətin nə vaxt baş verəcəyini yalnız Allah bilir". Sözügedən hədisin səhih olduğunu fərz etsək belə, 7 min ildəki məqsədin nə olduğunu bilməliyik: görəsən, burada həzrət Adəmin (ə) yaşadığı zamandan indiyə qədərki zaman nəzərdə tutulur, yoxsa ümumilikdə yaradılışın yaşı? Bunun özü ayrı-ayrılıqda iki mövzunu təşkil edir. İmam Sadiqə (ə) bu barədə sual verildikdə, həzrət buyurur ki, xeyr, heç də belə deyildir, onlar dünya ömrünün 7 min il olmasını düşünməklə səhvə yol verirlər.

Başqa bir hədisdə İmam Sadiq (ə) öz səhabəsi Cabir ibn Yezidin sualının cavabında belə buyurur: "Cabir, sən elə fikirləşirsən ki, Allah-taala yalnız sizi yaratmış və başqalarını yaratmamışdır? And olsun Allaha, O, milyonlarla aləm və milyonlarla Adəm yaratmışdır. Sən bu aləmlərin sonuncusundasan və bu Adəmdən də qabaq milyonlarla Adəm yaradılmışdır." [1] Həzrət buyurur ki, hazırkı insan onların sonuncusudur. Arxeoloqlar dünya və insanın yaşının, keçmişinin milyonlarla il təşkil etdiyini bildirirsə, din bunu

[1] "Əl-Xisal", c. 2, səh. 252; Səduq, "Tövhid", səh. 277.

inkar etmir, əksinə, din də bunu bəyan edir. Bu səbəbdən, biz yalnız bir hədisə deyil, çoxsaylı hədislərə müraciət etməliyik.

**65. İRAD**

> **"...Öncəki dövrlərdə yaşayan insanlar yalnız 50-100 yaşadək ömür sürmüşlər, halbuki Quranda insanların uzunömürlü olmasına işarə edilmişdir. Məsələn, Nuh peyğəmbərin doqquz yüz əlli il yaşadığı bildirilmişdir".**

**Cavab**

Görəsən, bütün insanların ömrünü araşdırıb iddia edirlər ki, "yalnız 50-100 yaşadək ömür sürüblər"? Əslində, bunu etmək qeyri-mümkündür, bu, məhdud bir məsələdir və bunu bütün insanlara şamil etmək olmaz. Bir insanın dəli olması bütün insanların dəli olması anlamına gəlmir, yəni bir insan fərdi olaraq belədirsə, qalanlarını da o cür təsəvvür etmək olmaz, məntiqsizdir.

Digər tərəfdən, Quranda bildirilir ki, Lut (ə) və Nuh (ə) qövmü kütləvi şəkildə həlak edilmişdir. Əgər bir əhaliyə bəla gəlsə və hamı məhv olsa, demək olmaz ki, onlar yalnız 50-100 il yaşamışlar və insanların ömrü yalnız bu qədərdir. Tarix də uzun və qısa ömürlü insanların var olmasına şahidlik etmişdir. Qeyd edilən irad çox zəif, əsassız bir iddiadır.

**66. İRAD**

> **"Necə ola bilər ki, hansısa bir ateist cürbəcür ixtiralar etsin, xəstəxana, usaq evləri tikdirsin və cəmiyyətə bu kimi digər faydalı olan xeyriyyə işləri görsün, nəticədə cəhənnəmə getsin, lakin evin bir küncünə çəkilib ibadət edən və sadalanan işlərdən**

**xəbərsiz olan möminlər isə cənnətə getsin? Yəni cəmiyyətə xeyir verən insanların sonu cəhənnəm, ibadətlə məşğul olan möminlərin sonu isə cənnət olsun?!"**

**Cavab**

Dindən uzaq düşən, Allahı qəbul etməyən, bütpərəst, ateist və s. bu kimi insanlar iki qrupa bölünür. Birincisinə, ümumiyyətlə, haqqı tapa bilməyən, xəbərdar olmayan və dinə qarşı heç bir düşmənçiliyi olmayan şəxslər daxildir.

Cənnətə daxil olmamalarına baxmayaraq, belə insanların etdiyi bütün yaxşı iş və əməllər qiymətləndiriləcək, onların əvəzi veriləcəkdir. Belələri İslamdan əvvəlki dövrlərdə də var idi və onlar haqqı tapa bilməmişdilər. Allah-taala "Tövbə" surəsinin 120-ci ayəsində buyurur:

إِنَّ اللّهَ لاَ يُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ.

**"Şübhəsiz, Allah yaxşı işlər görənlərin mükafatını zay etməz!"**

"Yusif" surəsinin 90-cı və "Hud" surəsinin 115-ci ayəsində də həmin məsələyə toxunulur:

فَإِنَّ اللّهَ لاَ يُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ.

**"Həqiqətən, Allah yaxşı işlər görənlərin mükafatını zay etməz!"**

"Yusif" surəsinin 56-cı ayəsində də belə buyrulur:

وَلاَ نُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ.

**"Biz yaxşı iş görənlərin mükafatını puç etmərik".**

Ayədə söhbət yalnız möminlərdən getmir, ümumilikdə yaxşı iş görənlər nəzərdə tutulur, onların mükafatının və əməllərinin əvəzinin veriləcəyi bildirilir. Kafir və onlar kimi kəslərin əməllərinin minimum mükafat və əvəzi əzablarının

azaldılmasından ibarət olacaq. Allahın Rəsulu (s) tarixdə həddən artıq səxavətli bir şəxs olan və buna görə misal çəkilən Hatəm Tayinin oğlu, Ədi ibn Hatəmə belə buyurur: “Atan səxavətli olduğundan, Allah ondan şiddətli əzabını azaltdı”. Yəni söhbət məqsədli şəkildə deyil, qərəzsiz şəkildə dindən xəbərsiz olan və dini qəsdən inkar etməyən (kafir) insanlardan gedir, onların vəziyyəti bu cür olacaq.[1]

“Nisa” surəsinin 97-98-ci ayəsində buyrulur:

إِنَّ الَّذِينَ تَوَفَّاهُمُ الْمَلآئِكَةُ ظَالِمِي أَنْفُسِهِمْ قَالُواْ فِيمَ كُنتُمْ قَالُواْ كُنَّا مُسْتَضْعَفِينَ فِي الأَرْضِ قَالْوَاْ أَلَمْ تَكُنْ أَرْضُ اللّهِ وَاسِعَةً فَتُهَاجِرُواْ فِيهَا فَأُوْلَـئِكَ مَأْوَاهُمْ جَهَنَّمُ وَسَاءتْ مَصِيراً إِلاَّ الْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ لاَ يَسْتَطِيعُونَ حِيلَةً وَلاَ يَهْتَدُونَ سَبِيلاً.

**“Mələklər öz nəfslərinə zülm edənlərin canlarını alarkən (onlara) dedilər: “Siz nə iş görürdünüz? (Nə üçün müsəlman olduğunuz halda, kafir sıralarında yer almışdınız?)” Onlar söylədilər: “Biz öz ölkəmizdə təzyiq altında olan və zəif hala salınmış şəxslər idik”. (Mələklər də onlara) dedilər: “Hicrət etməyiniz üçün Allahın yeri geniş deyildimi?” Onların yeri Cəhənnəmdir. O, necə də pis sonluqdur! Yalnız, həqiqətən, təzyiq altında olan (aciz hala salınmış), heç bir çarəsi və (bu mühitdən xilas olmaq üçün) çıxış yolu olmayan aciz kişi, qadın və uşaqlar istisnadır”.**

Ayədə bir dəstə insanın yerinin cəhənnəm olduğu bildirilir, digər dəstəsi isə istisna olunur. Beləliklə, onlar istəmədən bu cür (dindən və Allahdan xəbərsiz) olmuşlar. Bəli, bir dəstə insan bu cürdür, küfr içərisində yaşayırlar. Onların hidayəti üçün heç bir fürsət olmamışdırsa, onda, belə insanlar istisna ediləcək və yaxşı əməllərinə əvəz veriləcək. Əvəz və mükafatın dəqiqiliklə nə olduğu isə Allahın Özünə məlumdur.

[1] “Səfinətul-bihar”, c. 4, səh. 101.

Hətta möminlər özü hər bir əməllərinin mükafatının dəqiqliklə nə olacağını bilmirlər və bu, yalnız Allaha məlumdur. Yuxarıda qeyd olunan irad bu cür insanlarla bağlıdırsa, yəni cahil və nadan olduqları halda bu vəziyyətə düşmüşdürlərsə, onda onlara yaxşı əməllərin əvəzi veriləcək. Ən azından onların cəhənnəm əzabı azaldılacaq.

İnadkarlıq səbəbilə bu işləri görən kafir xeyriyyəçilərə gəldikdə, qeyd etməliyik ki, niyyətin təsiri çox önəmlidir və görülən işlərin hansı məqsədlə edildiyi anlaşılmalıdır. Məsələn, bir şəxs əlinə bıçaq alıb kiminsə boynuna ilişmiş ipi kəsmək üçün bıçağı ona doğru uzatsa, burada hamı onu mədh edib tərifləyəcək, onun işi təqdirəlayiq hesab olunacaq. Halbuki kimsə bıçağı qarşısındakının başını kəsmək üçün ona tərəf uzatsa, bu dəfə onun işi pislənəcək və hamı onu danlayacaq, cəzalandıracaqlar. Niyyətə görə işin nəticəsi dəyişir.

Ateistlərlə bağlı da bu məsələ keçərlidir. Belə ki, bu işləri heç bir hədəf olmadan həyata keçirmişlərsə, Allahdan heç bir mükafat tələb edə bilməzlər, çünki görülən iş mükafat almaq məqsədilə icra olunmamışdır və Allaha görə etmədiyi bir işin əvəzini kimsə Allahdan istəyə bilməz. Məsələn, kimsə bir nəfərə borc pul verir və sabah da ondan verdiyi pulu və haqqını tələb edir. Burada həmin şəxsin pulu tələb etmək haqqı vardır. Amma həmin şəxs pulunu aparıb dənizə atsa və gəlib bu şəxsdən yapışsa ki, mənim pulumu qaytar, onda o, əbəs və mənasız bir iş görmüş olar. Yəni şəxsin məqsədsiz olaraq gördüyü şeylə bağlı Allahdan bir şey istəməsi yersizdir. Əgər ateist bu xeyriyyə işlərini dünyəvi məqsədlər, şan-şöhrət və canının sağlığı kimi müəyyən məsələlər üçün etmiş olsa, Allah bunu əvəzsiz qoymayacaq. Allah-taala "Hud" surəsinin 15-16-cı ayələrində buyurur:

مَن كَانَ يُرِيدُ الْحَيَاةَ الدُّنْيَا وَزِينَتَهَا نُوَفِّ إِلَيْهِمْ أَعْمَالَهُمْ فِيهَا وَهُمْ فِيهَا لاَ يُبْخَسُونَ أُوْلَـئِكَ الَّذِينَ لَيْسَ لَهُمْ فِي الآخِرَةِ إِلاَّ النَّارُ وَحَبِطَ مَا صَنَعُواْ فِيهَا وَبَاطِلٌ مَّا كَانُواْ يَعْمَلُونَ.

**"Dünyanı və onun bərbəzəyini istəyənlərə əməllərinin əvəzini elə həmin dünyada verərik. Onların dünyadakı mükafatları əsla azaldılmaz. Axirətdə onların oddan başqa heç bir payı olmayacaq. Onların dünyada (Allahdan qeyrisi üçün) gördükləri işlər puç olar və bütün əməlləri boşa çıxar!"**

Bu ayə bütün insanlara şamildir. Kim bu cür əməl etsə, onun əməli mükafatsız qalmayacaq. Amma axirətdə cəhənnəmdən başqa heç bir mükafatı olmayacaq, çünki axirət üçün bu işləri görməmişlər. Ateistlər əməllərinin qarşılığı olaraq cənnəti istəyə bilməzlər. Niyyətləri bu dünya olsa, dünyanın mükafatları veriləcək, lakin axirət mükafatı olmayacaq. Xülasə, Allaha etiqadı olmayan ateist axirətdə Allahdan necə mükafat istəyə bilər?! Bir tərəfdən Allaha etiqadlı olmadığını söyləyirlər, Allahı inkar edirlər, digər tərəfdən isə deyirlər ki, inanmadığım Allah axirətdə mənə mükafat versin. Bir sözlə, onların bu ideologiyası batil və bir-birinə ziddir. Ateistlər iddia edir ki, ümumiyyətlə, ateistlərin yaxşı əməlləri müqabilində cəhənnəmə getməsi ədalətsizlikdir. Biz də sual veririk: Siz kimin ədalətindən danışırsız? Əgər Allahın ədalətindən, onda nə üçün Allahı inkar edirsiz? Yenə soruşuruq: Bir şəxs öz dostlarına həm xeyir verir, həm də onlara xəyanət edir. Bu xəyanəti ilə yanaşı onun gördüyü işlərə mükafat verərsiniz, yoxsa xəyanətinə görə cəzalandırarsınız? Siz bu iki yoldan hansını seçərsiniz? İnsan nə qədər xeyir iş görmüş olsa belə, etdiyi cinayətlər onların üstünə pərdə çəkir və onun zəhmətini aradan aparır. Bu məsələ, eynilə, bir ateistin yaradılış sahibinə inanmaması, Ona qarşı çıxması və bununla yanaşı cəmiyyətdə yaxşılıqlar etməsi kimidir.

**67. İRAD**

> **“Nə üçün Allah-taala bir sıra insanları kafir yaradır və onları cəhənnəm odunda yandırır? Başqa sözlə desək, Allah-taala əvvəlcədən bir sıra insanların kafir olacağını bildiyi halda, nə üçün onları yaradırdı?”**

**Cavab**

İnsanların kafir yaradılması haradan məlumdur, siz bunu haradan bilirsiniz? Onların kafir olması alınlarınamı yazılıb?

İkincisi, Allahın onları sırf cəhənnəm üçün yaratmasını iddia etməyinizin dəlil-sübutu nədir? İnsan dünyaya gəldiyi zaman kafir olmasının nişanəsi nədir, belə bir şey ümumiyyətlə varmı? Bunları haradan çıxarırsınız? Həmin ateistə desən ki, sən kafirsən və axirətdə cəhənnəmlik olacaqsan, cavab verər ki, xeyr, mənim axırım yaxşı olacaq, dünyam da gözəldir. Halbuki onun Allaha etiqadı yoxdur, özünü isə bədbəxt yox, xoşbəxt hesab edir. Sizin iddianızın bir dini mənşəyi olmalıdır. Quran və hədislərə, hətta təhrif olunmuş Tövrat və İncil kimi səmavi kitablara belə müraciət etsək, bu iddianıza dəlil-sübut gətirə bilərsinizmi?

Harada yazılıb ki, Allah kafirləri sırf cəhənnəm üçün yaradıb? Bu kafirlər dini etiqadlara əsasən öz həyatında dəyişiklik edə bilərmi? Əgər “yox” cavabını versəz, yalan danışmış olarsız, çünki biz çoxlarının İslamı qəbul edib doğru yola yönəldiyini müşahidə etmişik. Əgər “hə” cavabını versəz, onda bu, əvvəlki sözünüzlə düz gəlmir, onda bu kafir olaraq cəhənnəm üçün yaradılmışdı, yoxsa cənnət üçün? Əgər cəhənnəm üçün yaradılmışdırsa, necə cənnətlik oldu? Belə xüsusiyyətləri müşahidə etməklə onların sırf cəhənnəmlik

olduğunu söyləmək olmaz. Əgər həm cəhənnəm, həm cənnət üçün yaradıldığını iddia etsəz, bu sözlərinizdə ziddiyyət meydana çıxar. İnsanın halındakı dəyişikliklər onun ixtiyara malik olduğunu sübuta yetirir. Məsələn, Allah-taala "Rum" surəsinin 30-cu ayəsində buyurur:

لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ.

**"Allahın yaratdığında heç bir dəyişiklik yoxdur".**

Yəni Allah bir kəsi insan kimi yaratmışdırsa, onu yaradılış baxımında heç kəs dəyişə bilməz. Əlbəttə, yalnız Allahın Özü bunu edə bilər və Quranda da bildirildiyi kimi, bəzi qövmlər etdikləri günah səbəbilə İlahi qəzəbə düçar olaraq məsx edilmiş, onların fitrəti dəyişdirilmiş və müxtəlif heyvanlar şəklinə salınmışlar. Şübhəsiz, bu məsələ istisnadır, yerdə qalan hallarda insanın zatının dəyişməsi mümkün deyil. Onun zahirində dəyişiklik ola bilər, lakin fitrəti insan olaraq qalır. Ateistlərin nəzərincə, kafir yaradılan bir şəxs müsəlman ola bilməz. Əgər müsəlman olursa, bu məsələ onların heç də əvvəldə kafir olaraq yaradılmadığını göstərir. Allah-taala "Tövbə" surəsinin 3-cü ayəsində buyurur:

أَنَّ اللَّهَ بَرِيءٌ مِّنَ الْمُشْرِكِينَ وَرَسُولُهُ.

**"Allah və Onun Peyğəmbəri müşriklərdən uzaqdır".**

Yəni Allah-taala və Onun Peyğəmbəri (s) müşrikləri sevmirlər. Bu, onların müşriklərə sahib çıxmaması, onları rədd etməsi mənasındadırmı? Müşriklər Qiyamətdə Allaha etiraz edib deyə bilərlərmi ki, Sənin bizi cəzalandırmağa haqqın yoxdur, çünki Sən bizi müşrik olaraq yaratmısan?!

Diqqət yetirmək lazımdır ki, Allah-taala və Onun Peyğəmbəri (s) müşriklərin etdikləri əməllərdən uzaqdır, onları qəbul etmirlər. Həmin şəxslər müşrik və ya kafir olaraq yaradılmamışlar, sadəcə doğru yoldan azmış və uzaq düş-

müşlər. Əgər Allah-tala onları müşrik və kafir olaraq yaratmış olsaydı, onlar haqlı olaraq Allaha etiraz edə bilərdilər. "Əraf" surəsinin 53-cü ayəsində buyrulur:

هَلْ يَنظُرُونَ إِلاَّ تَأْوِيلَهُ يَوْمَ يَأْتِي تَأْوِيلُهُ يَقُولُ الَّذِينَ نَسُوهُ مِن قَبْلُ قَدْ جَاءتْ رُسُلُ رَبِّنَا بِالْحَقِّ فَهَل لَّنَا مِن شُفَعَاء فَيَشْفَعُواْ لَنَا أَوْ نُرَدُّ فَنَعْمَلَ غَيْرَ الَّذِي كُنَّا نَعْمَلُ قَدْ خَسِرُواْ أَنفُسَهُمْ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ.

**"Onlar yalnız ayələrin yozumunu gözləyirlər? Onların yozumunun çatdığı gün daha öncə onu unutmuş olan şəxslər deyəcəklər: "Rəbbimizin elçiləri haqqı gətirmişdilər. Bizə şəfaət edəcək bir şəfaətçi varmı? Yoxsa etdiyimiz əməllərdən başqasını etmək üçün geri qayıdaqmı?" Onlar ömür sərmayələrini tükədiblər. Uydurduqları tanrılar gözlərindən itəcək".**

Müşrik və kafirlər dünyaya qayıtmaq, yaxşı əməllər etməklə axirətə geri dönmək arzusunda olar, amma onların arzusu həyata keçməz. "Fatir" surəsinin 37-ci ayəsində buyrulur:

وَهُمْ يَصْطَرِخُونَ فِيهَا رَبَّنَا أَخْرِجْنَا نَعْمَلْ صَالِحاً غَيْرَ الَّذِي كُنَّا نَعْمَلُ أَوَلَمْ نُعَمِّرْكُم مَّا يَتَذَكَّرُ فِيهِ مَن تَذَكَّرَ وَجَاءكُمُ النَّذِيرُ فَذُوقُوا فَمَا لِلظَّالِمِينَ مِن نَّصِيرٍ.

**"Onlar cəhənnəmdə fəryad qoparıb deyəcəklər: "Ey Rəbbimiz! Bizi çıxart ki, etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək". (Cavablarında onlara deyiləcək:) "Sizə xatırlaya bilənlərin xatırlaya biləcəyi qədər ömür vermədikmi? Sizə qorxudan da gəlmişdi. Elə isə dadın (əzabı!)" Zalımlara heç bir kömək edən olmaz".**

Halbuki kafir olduqları müddətdə əməllərinin yaxşı olduğunu, aqibətlərinin gözəl sonluqla bitəcəyini düşünürdülər. Qiyamətdə bunun əksini görəcək, saleh əməllər etmək

üçün dünyaya qayıtmaq arzusunda olacaqlar. "Muminun" surəsinin 99-100-cü ayələrində buyrulur:

حَتَّى إِذَا جَاء أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ لَعَلِّي أَعْمَلُ صَالِحاً فِيمَا تَرَكْتُ كَلَّا إِنَّهَا كَلِمَةٌ هُوَ قَائِلُهَا وَمِن وَرَائِهِم بَرْزَخٌ إِلَى يَوْمِ يُبْعَثُونَ.

**"(Onlar öz yanlış həyatlarını sürdürməyə davam edərlər). Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri edəm". Xeyr! Onun bu dedikləri ancaq dildə deyilmiş bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bərzəx (maneə) vardır".**

Kafir şəxslərdən heç biri deməyəcək: "İlahi, nə üçün məni kafir yaratmısan?!" Əksinə, hamısı deyəcək: "İlahi, saleh əməllər etməyim üçün məni dünyaya qaytar!" Heç bir dini mənbədə onların kafir yardılmasından söhbət açılmamışdır və bu, ateistlərin batil iddiasından başqa bir şey deyildir. "Ər-Rəhman" surəsinin 3-cü ayəsində buyrulur:

خَلَقَ الْإِنسَانَ.

**"Rəhman Allah insanı yaratdı".**

Digər bir ayədə buyurulur ki, **"Biz onu doğru yöla yönəltdik, istər şükür edənlərdən olsun, istərsə də kafir olanlardan!"** "Muddəssir" surəsinin 42-46-cı ayələrində belə buyrulur:

قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ وَلَمْ نَكُ نُطْعِمُ الْمِسْكِينَ وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَ وَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ.

**"Sizi cəhənnəmə salan nədir? Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik. Kasıbları da yedizdirməzdik. Batil yolda olanlarla oturub-durar, həmsöhbət olardıq və**

**(ölümümüz yetişənə qədər) haqq-hesab gününü inkar edərdik".**

Kafirlərlə müşriklər cəhənnəmə düşmək səbəbini bu ayələrdə aydın şəkildə açıqlayaraq 4 cür cavab verirlər:

لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ

**"Namaz qılanlardan deyildik".**

وَلَمْ نَكُ نُطْعِمُ الْمِسْكِينَ.

**"Kasıblara yemək vermədik".**

وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَ.

**"Batil yolda olanlarla ünsiyyətdə olduq".**

وَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ.

**"Ömrümüzün sonuna qədər də Qiyamət gününü inkar etdik".**

Bu ayələrin heç birində onların ixtiyarlarının əllərindən alındığı və bunları məcburi olaraq etdikləri bildirilmir. Əksinə, etdikləri bütün əməllər onların öz iradə və istəkləri ilə olmuşdur.

Burada ateistlər belə irad bildirə bilər: **"Nə üçün Allah-taala onların (kafir və müşriklərin) cəhənnəmə getməsinin qarşısını almayıb?"** Kim deyir ki, Allah onların cəhənnəmə getməsinin qarşısını almayıb?!

Allah-taala "İsra" surəsinin 15-ci ayəsində buyurur:

مَّنِ اهْتَدَى فَإِنَّمَا يَهْتَدي لِنَفْسِهِ وَمَن ضَلَّ فَإِنَّمَا يَضِلُّ عَلَيْهَا وَلاَ تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَى وَمَا كُنَّا مُعَذِّبِينَ حَتَّى نَبْعَثَ رَسُولاً.

**"Kim doğru yola yönəlirsə, özü üçün yönəlir, kim azğınlığa düşürsə, öz zərərinə azğın olur. Heç bir günahkar**

**başqasının günah yükünü daşımaz. Biz peyğəmbər göndərmədən əzab verməri̇k".**

Beləliklə, Allah-taala insanlara doğru yolu göstərmədən, yaxşını-pisi onlara izah etmədən və seçim etmək ixtiyarı qoymadan insanları cəhənnəmlik etmir, insanlar öz ixtiyar və iradələri ilə etdikləri əməllərin axirətdə cəzasını və ya mükafatını alırlar. İnsanlar öz ixtiyarlarılə Allahın göstərişinə əməl etmirlərsə, bunun məsuliyyəti Allahın öhdəsində deyil. Biz ateistlərdən soruşuruq: "Siz deyirsiniz ki, Allah-taala cəhənəmə getməyin qarşısını almalı idi. Bunu necə etməli idi, insanları məcburi şəkildə cəhənnəmdən çəkindirməli idimi?".

"Yunis" surəsinin 99-cu ayəsində buyrulur:

وَلَوْ شَاء رَبُّكَ لآمَنَ مَن فِي الأَرْضِ كُلُّهُمْ جَمِيعاً أَفَأَنتَ تُكْرِهُ النَّاسَ حَتَّى يَكُونُواْ مُؤْمِنِينَ.

**"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. Sən insanları iman gətirməyə məcburmu etmək istəyirsən?! (Məcburi imanın nə faydası var?)"**

Allah-taala məcburi şəkildə gətirilən imanı istəmir, çünki məcburiyyət səbəbilə olan hansısa bir işdə heç bir fayda yoxdur. İnsanın öz ixtiyarından kənar olan şeyləri məcburi yerinə yetirməsi qəbul edilməzdir və ağıl sahibi olan bir kəs bunu təqdir etməz. İnsanın dünyəvi həyatındakı məsələlər də bu cürdür. Məsələn, insan var, cəmiyyətə öz ixtiyarı ilə xeyir verir, biri də var kimsə onu bu işə məcbur edir. Əgər ateistlərin məqsədi bu cür məcburi çəkindirmədirsə, bu heç də bəyənilən bir iş deyil. Əgər bunun ixtiyari olaraq, yəni Allahın insanın ixtiyarını əlindən almadan onların cəhənnəmə getməsinin qarşısını almasını deyirsinizsə, bəli, burada heç bir irad yoxdur. Allah-taala 124 min peyğəmbər, səmavi kitablar göndərmək və hətta bəlalar nazil etməklə insanları ayıldır və cəhənnəmdən çəkindirir, beləcə Öz varlığını, qüdrət və əzəmətini göstərir.

Ateistlər deyə bilər: **“Allah əvvəlcədən onların cəhənnəm əhli olduğunu bildiyi halda gərək onları yaratmazdı”.**

Beləysə, biz də belə sual veririk: Onların cəhənnəmə getməyinin səbəbi onların yaradılmasıdır, yoxsa onların öz əməlləridir?

Əgər desələr ki, əsas səbəb yaradılışdır, onda axı Allah başqalarını və möminləri də yaratmışdır, onlar cənnətə gedir axı? Məsələn, od yandırandırsa, o həm sağ əli, həm də sol əli yandırır, onun birini yandırıb digərini yandırmaması mümkün deyil. Yəni, yaradılış cəhənnəmə getmək səbəbi olsa, onda bütün yaradılanlara şamil olmalıdır. Bu, sizin dediyinizlə düz gəlmir. Əgər desəniz ki, xeyr, onların əməlləri buna səbəb olub, onda bu məsələ düzgündür və biz də bunu qəbul edirik, burada heç bir ixtilaf yoxdur. Alınan nəticəyə görə, Allah heç kəsi kafir olaraq yaratmamışdır. Allah bunları yaratdı, onlar isə kafir oldular deyə Allahın əzəmət və qüdrətinə heç bir irad tutulmamalıdır, insanların öz əməlləri onların cəhənnəmə getməsinə səbəb olur. Fərz edək, bir kafir valideynin kafir övladı var və o, cavan vaxtında dünyadan gedir. Belə olsa, kafir ata deyərmi ki, yaxşı oldu oğlum öldü, onsuz da kafir idi, öldü, cəhənnəmə getdi?!

Allah bir dəstənin kafir olacağını bilirdi və onları yaratdı. Allahın elmi onların iradəsinin aradan getməsinə səbəb deyil və kafirlərin kafir olmasının məsuliyyəti də Allahın öhdəsində deyil, çünki onlara ağıl və iradə vermişdir. Yəni, burada Allaha heç bir irad şamil etmək olmaz. Məsələni sadə bir misalla izah edək: Avtomobil istehsal edən bir zavodu düşünün; orada istehsal olunan maşınların ucbatından çoxlu sayda qəzalar baş verir və insanlar həlak olur. Bu məsələ hamıya məlum olan bir məsələdir. Belə olduğu halda, nə üçün heç kəs maşın istehsal edən zavod sahibini məhkəməyə vermir?! Yəni, maşınların

insan cəmiyyətinə faydası var, zərəri də onun istifadə qaydasına düzgün riayət edilmədiyində meydana çıxır. Düzgün şəkildə istifadə olunduqda, heç bir problem qarşıya çıxmır. Bunu da insan öz ağlı ilə dərk edir. Avtomobillərin istehsalının cəmiyyətə təqdim edilməsində bir fayda və mənfəət vardır. Məsələn, silah istehsal edən zavodların misalı da eynilə belədir və həmin silahlarla insan ölümlərinin baş verəcəyi məlumdur. Onda, nə üçün silah istehsalının qarşısı alınmır?

**Başqa bir misal:** Müəllim bilir ki, şagirdlərdən bir neçəsi dərsi oxumadığından sinifdə qalacaq və imtahanlardan kəsiləcək. Nəticə belə olduğu halda, valideynlər müəllimə şikayət edə bilərmi ki, nə üçün bizim uşaqlarımız sinifdə qaldı və imtahanlardan kəsildi? Şübhəsiz, bunu heç kəs edə bilməz. Əgər bir dəstə insan öz əməlləri nəticəsində cəhənnəmlik olacaqsa, burada məsuliyyəti Allahın öhdəsinə yıxmaq olmaz və bunun səbəbkarı elə onların özləri olacaq.

Allah-taala "Əraf" surəsinin 44-cü ayəsində buyurur:

وَنَادَى أَصْحَابُ الْجَنَّةِ أَصْحَابَ النَّارِ أَن قَدْ وَجَدْنَا مَا وَعَدَنَا رَبُّنَا حَقّاً فَهَلْ وَجَدتُّم مَّا وَعَدَ رَبُّكُمْ حَقّاً قَالُواْ نَعَمْ فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ أَن لَّعْنَةُ اللّهِ عَلَى الظَّالِمِينَ.

**"Cənnət əhli Cəhənnəm əhlinə səslənib: "Biz Rəbbimizin bizə vəd etdiyini haqq olaraq gördük. Siz də Rəbbinizin sizə verdiyi vədin gerçək olduğunu gördünüzmü?" – deyə soruşacaq. Onlar: "Bəli!" – deyə cavab verəcəklər. Elə bu zaman onların arasında bir carçı belə car çəkəcək: "Allah zalımlara lənət eləsin!"**

Hətta cənnət əhli iddia etmir ki, Allah bizi yalnız cənnət üçün yaratmışdı və biz həmin səbəbdən cənnətə getdik. Onlar cəhənnəm əhlinə deyər ki, Allah bizə vədə verdiyi şeyə, yəni Öz vədəsinə əməl etdi. Sizə necə? Sizə verdiyi vədəsinə də əməl etdimi? Burada kafirlər etiraz edib demir ki, siz əvvəldən

cənnət əhli idiniz və biz də cəhənnəm əhli, Allah bizim cənnətə getməyimizə mane oldu, cəhənnəmdən çəkindirmədi. "Zumər" surəsinin 71-ci ayəsində buyrulur:

وَسِيقَ الَّذِينَ كَفَرُوا إِلَى جَهَنَّمَ زُمَراً حَتَّى إِذَا جَاؤُوهَا فُتِحَتْ أَبْوَابُهَا وَقَالَ لَهُمْ خَزَنَتُهَا أَلَمْ يَأْتِكُمْ رُسُلٌ مِّنكُمْ يَتْلُونَ عَلَيْكُمْ آيَاتِ رَبِّكُمْ وَيُنذِرُونَكُمْ لِقَاء يَوْمِكُمْ هَذَا قَالُوا بَلَى وَلَكِنْ حَقَّتْ كَلِمَةُ الْعَذَابِ عَلَى الْكَافِرِينَ.

**"Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Cəhənnəmə çatdıqda onun qapıları açılacaq və oranın gözətçiləri onlara deyəcəklər: "İçərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzlə qarşılaşacağınızla təhdid edən elçilər gəlmədimi?" Onlar: "Əlbəttə (gəlmişdi!)", – deyəcəklər. Lakin əzab əmri kafirlər barəsində qətiləşib".**

Cəhənnəmin gözətçiləri onlara deyər: "İçərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzlə qarşılaşacağınızla təhdid edən elçilər gəlmədimi?" Onlar: "Əlbəttə (gəlmişdi!)", – deyəcəklər. Yəni, onlar özləri də bunu bilirlər və demirlər ki, Allah bizi cəhənnəm üçün yaratmışdı və nəticədə biz də cəhənnəm əhli olduq; onlar başa düşür ki, canlılar arasında insan ağıl və şüur sahibidir, iradə və ixtiyara malikdir. Qeyd olunanlardan aydın olur ki, Allah-taala heç kəsi kafir və cəhənnəm əhli olaraq yaratmır və insanlar özləri öz əməlləri ilə cəhənnəmi qazanr. Allah-taala "Zariyat" surəsinin 56-cı ayəsində buyurur:

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنسَ إِلَّا لِيَعْبُدُونِ.

**"Mən cinləri və insanları yalnız Mənə ibadət etmələri üçün yaratdım".**

Allah-taala buyurmur ki, Mən insan və cinləri cəhənnəm üçün yaratmışam, əksinə, onları yalnız Allaha ibadət etmələri üçün yaratdığını bildirir.

## 68. İRAD

**Ateistlər Quranı qəbul etməmələrinin bir səbəbi kimi, Quranda miras bölgüsündə ədalətsizliyə yol verilməsini göstərirlər. Bunu qızın apardığı irsin iki bərabərini oğlanın aparması ilə əsaslandırırlar.**

**Cavab**

Əvvəla, bu iradı cavablandırmaq üçün "ədalət" sözünün mənasını anlamalı və ateistlərin "ədalət" dedikdə nəyi nəzərdə tutduğunu dərk etməliyik. "Ədalət" məfhumu bir neçə cür mənalandırılıb:

1. Bir şeyin tamamilə bərabər bölünməsi;
2. Bir şeyin qeyri-bərabər bölgüsü;
3. İslamın nəzərində "ədalət" hər kəsin haqqının özünə verilməsidir.

Ateistlərin nəzərində "ədalət" hər bir şeyin tamamilə bərabər şəkildə bölünməsidir. İslam isə bunu bəyan etmir, yəni hər kəsə zəhmətinin haqqını vermək lazımdır. Hətta ağıl da bərabər bölgünü qəbul etmir. Bəli, bəzən bərabər bölgü yer ala bilər, amma bu, həmişə belə olmur. Yəni hər bir kəsin zəhmətinin haqqı və layiq olduğu şey ona verilməlidir. "Nisa" surəsinin 11-ci ayəsində buyrulur:

يُوصِيكُمُ اللهُ فِي أَوْلاَدِكُمْ لِلذَّكَرِ مِثْلُ حَظِّ الأُنثَيَيْنِ.

**"Allah övladlarınız haqqında sizə tövsiyə verir, oğula iki qız hissəsi qədər pay düşür".**

Yəni kişinin irs haqqı qadının irsinin iki bərabəridir. Bu məsələdə ədalətsizlik yoxdur, əksinə, bunun belə olmasında müəyyən səbəblər vardır. Bunun izahını aşağıda nəzərinizə çatdırırıq:

Hicri-qəməri 1-ci əsrin məşhur ateistlərindən olan İbn Əbul Əvcah İmam Sadiqin (ə) yanına gəlib belə sual verir: ″Niyə Allah Quranda kişi ilə qadının miras məsələsində onların arasında fərq yoymuş və ədalətsizlik etmişdir?″

İmam Sadiq (ə) buyurur: "Ona görə ki, Allah-taala qadına başqa məsələlərdə üstünlük vermiş, kişini isə bundan məhrum etmişdir. Məsələn, cihad məsələsini qadına vacib etməmiş, ona mehriyyə vermiş və nəfəqəni kişinin öhdəsinə qoymuşdur. Yəni ailənin xərcləri kişinin öhdəsinədir, bu baxımdan kişinin irsi iki bərabərdir".[1]

Qadına çatan miras sırf qadının özünə şamildir, o bunu ailəsi və övladlarına xərcləməyə bilər. Amma kişiyə çatan mirası o, öz ailəsinə sərf edir. Bu məsələdə Allah irsi ona artıq hesablamışdır ki, kişi öz haqqını ala bilsin. Məişət xərcləri kişinin öhdəsində olduğu və qadının bu məsuliyyətdən kənar qaldığı halda, onların bərabər olduğunu düşünürsünüzmü? Bu şəraitdə kişi ilə qadının irsi eyni olmalıdır və bu, ədalətdirmi? Əgər qeyd edilənlərlə yanaşı, siz iqtisadi baxımdan irsi eyni şəkildə bölməyi düşünürsünüzsə, bu yanlışdır.

**69. İRAD**

**Ateistlər Quranı qəbul etməmələrinin bir səbəbi kimi Quranın: "Biz Quranı ərəbcə nazil etdik" buyuruğunu göstərirlər. Onların qənaətinə görə, "deməli, Quran yalnız ərəblər və ərəbdilli xalqlar üçündür və bütün bəşəriyyətə nazil edilməmişdir".**

**Cavab**

"Yusif" surəsinin 2-ci ayəsində buyrulur:

[1] "Biharul-ənvar", c.101, s.327/

إِنَّا أَنزَلْنَاهُ قُرْآناً عَرَبِيّاً لَّعَلَّكُمْ تَعْقِلُونَ.

**“Biz onu ərəbcə bir Quran olaraq nazil etdik ki, bəlkə dərk edəsiniz”.**

“Təqilun” - “tufhimun”, “təfhumun”, yaxud “tələmun”, yəni “başa düşəsiniz” mənasında deyil. “Başa düşmək” belədir ki, bir şəxs ərəbcə danışır və həmin dili bilir, amma Quranda buyrulur ki, sizin düşünməyiniz üçün Biz onu ərəbcə nazil etmişik. “Təqilun” sözü “başa düşmək” mənasında deyil, “düşünmək” mənasındadır. Ərəb dili zəngin, bəlağətli və fəsahətli dil olduğundan Quran ərəbcə nazil olunmuşdur. Yəni ayə bildirmir ki, ey ərəb dilli xalqlar, yalnız sizin bilməyiniz üçün bu Quranı ərəbcə nazil etmişik. Əgər ateistlər belə düşünürsə, bu, onların nadanlıq və Qurandan xəbərsizliyinin göstəricisidir. “Şura” surəsinin 7-ci ayəsində buyrulur:

وَكَذَلِكَ أَوْحَيْنَا إِلَيْكَ قُرْآناً عَرَبِيّاً لِّتُنذِرَ أُمَّ الْقُرَى وَمَنْ حَوْلَهَا وَتُنذِرَ يَوْمَ الْجَمْعِ لَا رَيْبَ فِيهِ فَرِيقٌ فِي الْجَنَّةِ وَفَرِيقٌ فِي السَّعِيرِ.

**“Beləliklə, biz sənə ərəbcə olan (fəsahətli və açıq-aydın) bir Quran vəhy etdik ki, şəhərlər anası (Məkkə) və onun ətrafındakıları xəbərdar edəsən, barəsində heç bir şübhə olmayan, bütün yaranmışların toplanacağı günlə qorxudasan”.**

Ayədə bildirilir ki, Məkkə və onun ətrafındakı yerlər nəzərdə tutulur və ayədən Quranın bütün bəşəriyyətə nazil olduğu anlaşılır. “Əhqaf” surəsinin 12-ci ayəsində buyrulur:

وَمِن قَبْلِهِ كِتَابُ مُوسَى إِمَاماً وَرَحْمَةً وَهَذَا كِتَابٌ مُّصَدِّقٌ لِّسَاناً عَرَبِيّاً لِّيُنذِرَ الَّذِينَ ظَلَمُوا وَبُشْرَى لِلْمُحْسِنِينَ.

**“Ondan əvvəl Musanın rəhbər və rəhmət olan kitabı var idi. Bu (Quran) isə (Musanın kitabını) ərəbcə təsdiqləyən və**

**zalımları qorxutmaq və yaxşı iş görənlərə müjdə vermək üçün ərəb dilində, fəsih və aydın şəkildə nazil edilmiş, Tövratın əlamətləri ilə uyğunluq təşkil edən bir kitabdır".**

Bu ayə də onu göstərir ki, Quran bütün bəşəriyyətə nazil edilmiş və zalımları qorxudan, saleh əməl sahiblərinə isə müjdə verən bir kitabdır. Ateistlərin Quranın ərəbcə nazil edilməsilə bağlı iradı əsassızdır. Əgər onların iradı tutarlı olsaydı, onda belə çıxır ki, bütün beynəlxalq qanunlar yalnız bir dildə olmalı və hamı da ona tabe olmalıdır. Halbuki biz bunun əksini görürük və beynəlxalq qayda-qanunların müxtəlif dillərdə olduğunu müşahidə edirik, bu, danılmaz bir faktdır. Şübhəsiz ki, Quran hansısa bir dildə nazil olmalı idi və ərəb dili fəsahətli və bəlağətli bir dil olduğu, həmçinin İslam Peyğəmbəri (s) də ərəb olduğu üçün, Allah-taala da onu ərəbcə nazil etdi.

## 70. İRAD

> **"Quranda təhqirə yol verilir. Belə ki, Peyğəmbərin əmisi olan Əbu Ləhəb təhqir və tənqid olunur".**

**Cavab**

Ateistlərə sual vermək istərdik: Siz həzrət Peyğəmbərə (s) görə narahatsınız, yoxsa Əbu Ləhəbə görə? Qurandakı bu təhqir sizi hansı baxımdan narahat edir? Əbu Ləhəb müşrik və kafir idi deyə narahatsınız, yoxsa sevimli Peyğəmbərimizə (s) görə? Düşünürük, sizinlə yolu və əqidəsi bir olan, küfrü özünə məslək seçən və Allah Rəsulunu (s) qəbul etməyən Əbu Ləhəbə görə narahatsınız. Çünki sizin onunla müştərək cəhətləriniz var, belə ki, Peyğəmbəri (s) qəbul etmir, Allahı qəbul etmir, kafir və müşrikdir.

Quran ədalət kitabıdır, hidayət, səadət kitabıdır. Ədalət olmayan yerdə zülm, səadət olmayan yerdə bədbəxtlik vardır.

Quran ədalət prinsipinə əsaslanır və ədalət olduğu yerdə hansısa bir qohum-əqrəbadan söhbət gedə bilməz. Ədalətin qarşısında hamı birdir və ayrı-seçkilik yoxdur. Əbu Ləhəb ömrünün sonuna qədər Peyğəmbərə (s) çoxlu zülm etmiş, həzrəti incitmiş, İlahi qayda-qanunlara qarşı çıxmışdır. Məsələn, siz bir ateist olaraq ateistliklə bağlı hansısa bir qanun kitabını əlinizə aldıqda, qohumlarınızdan biri ona və onun tərəfdarlarına qarşı çıxsa və haqsızlıq etsə, ona qarşı necə rəftar edərsiz? Ya burada sükut etməli və heç bir şey deməməlisiniz, ya da bu işdə onu dəstəkləməlisiniz. Belə olduqda, ağlı olan kəs sizin bu hərəkətinizi qəbul edərmi?! Yaxud da siz onu tənqid, təhqir etməli və ona qarşı çıxmalı, onunla mübarizə aparmalısınız.

Quranda da bu cür rəftar edilir, Allahın ədaləti ilə düz gəlmədiyindən, Allah Əbu Ləhəbi lənətləyir, onu tənqid edir və onun əməllərinə qarşı etirazını bildirir.

**Əgər Əbuləhəb sırf peyğəmbərin əmisidir deyə, onun cinayətlərinə göz yumulsaydı, onda da Allah taalanın ədalətniə irad tutacaq və deyəcəkdiniz ki, Əbuləhəb peyğəmbərin qohumu olduğu üçün haq-nahaq tərəfi saxlanılaraq cinayətlərinə göz yumulmuşdur.**

Bu məsələ heç də anlaşılmaz bir məsələ deyil. Əlbəttə, bu təhqir heç də ədəbsizlik sayılmır. Ateistlər də qarşılarına belə məsələ çıxsa, bu cür rəftarı seçərdilər. Allaha, Onun Rəsuluna (s), dini qayda-qanunlara qarşı çıxan bir kəslə Allah bu cür rəftar etməli, onu tənqid və təhqir etməli idi. Bu məsələdə heç bir anlaşılmazlıq yoxdur.

## 71. İRAD

> **"Quranda belə qeyd olunub: "Siz Quranı anlayasınız deyə, biz onu ərəbcə nazil etmişik". Ərəb dili beynəlxalq dil olmadığından, Quranda problemlər mövcuddur və bu, düzgün hesab olunmur".**

**Cavab**

Ateistlər bu sualımıza cavab versinlər: "Sizin fikrinizcə, Quran hansı dildə nazil olsaydı, yaxşı olardı? Siz hansı dilə üstünlük verərdiniz?" Məsələn, ingilis, rus, fars və s. dillərdən hansı birini seçdiyinizi desəniz, həmin irad onlarla da bağlı keçərli olardı. Ona görə ki, dünyada elə bir dil yoxdur ki, bütün dünya xalqları onu başa düşsün. Təkcə lalların dili var ki, o da işarə dilidir və onu başa düşmək olur. Həmin dil də yazılı dil deyil, şifahi dildir. Tutaq ki, bu gün beynəlxalq dil ingilis dilidir və hamı həmin dildən istifadə edir. Quran 14 əsr əvvəl nazil olub və həmin dövrdə ingilis dilindən xəbər də yox idi. İngilis dili hansı zamandan beynəlxalq dilə çevrilib? Hətta beynəlxalq dilə çevrilən ingilis dilini belə hamı başa düşmür. Bunu da nəzərə almaq lazımdır.

Quranın ərəbcə nazil olmasının əsas səbəbi həmin dilin fəsahət və bəlağət baxımdan ən üstün səviyyədə olması və digər əcnəbi sözlərə ehtiyac duyulmaması idi. Quranın nazil olması və İlahi maarifi çatdırmaqda ərəb dili ən üstün dil idi və Allah-taala da həmin dildə Quranı nazil etmişdir. Ateistlərin Qurana irad tutması və ərəb dilinin beynəlxalq dil olmadığını vurğulamasına cavab olaraq deməliyik ki, digər dillərdən də heç biri bu xüsusiyyətə malik deyil.

## 72. İRAD

**Ateistlər deyir: "Quranda qadınları döymək əmr edilir. Bu səbəbdən biz Quranı qəbul etmirik".**

**Cavab**

Bu iradla bağlı bir neçə cavabımız var.

Birincisi, Quranda bu məzmunlu nə qədər ayə qeyd olunmuşdur? Əlbəttə, bu suala onların cavabı çox qısa olacaq. Bu haqda cəmi bir ayə var və biz onun mənasını və ondakı məqsədi izah edəcəyik. Cahiliyyət dövründə əsla qadınlara dəyər verilmirdi və qadına Quran qədər dəyər verən hansısa bir kitab nazil olmamışdır.

Allah-taala "Şura" surəsinin 49-cu ayəsində buyurur:

لِلهِ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ يَخْلُقُ مَا يَشَاءُ يَهَبُ لِمَنْ يَشَاءُ إِنَاثاً وَيَهَبُ لِمَن يَشَاءُ الذُّكُورَ.

**"Göylərin və yerin hökmranlığı Allaha məxsusdur. O, istədiyini yaradır; istədiyinə qız uşağı, istədiyinə oğlan uşağı bəxş edir".**

Oğlan və ya qız uşağı Allahın hədiyyəsi kimi qeyd olunur. "Əhzab" surəsinin 35-ci ayəsində buyrulur:

إِنَّ الْمُسْلِمِينَ وَالْمُسْلِمَاتِ وَالْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَالْقَانِتِينَ وَالْقَانِتَاتِ وَالصَّادِقِينَ وَالصَّادِقَاتِ وَالصَّابِرِينَ وَالصَّابِرَاتِ وَالْخَاشِعِينَ وَالْخَاشِعَاتِ وَالْمُتَصَدِّقِينَ وَالْمُتَصَدِّقَاتِ وَالصَّائِمِينَ وَالصَّائِمَاتِ وَالْحَافِظِينَ فُرُوجَهُمْ وَالْحَافِظَاتِ وَالذَّاكِرِينَ اللهَ كَثِيرًا وَالذَّاكِرَاتِ أَعَدَّ اللهُ لَهُم مَّغْفِرَةً وَأَجْرًا عَظِيمًا.

**"Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, Allahın fərmanına itaət edən kişilər və qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar, təvazökar kişilər və təvazökar qadınlar, sədəqə verən kişilər və sədəqə**

**verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və ismətlərini qoruyan qadınlar, Allahı çox yad edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır".**

"Təhrim" surəsinin 11-ci ayəsində isə belə buyrulur:

وَضَرَبَ اللهُ مَثَلاً لِّلَّذِينَ آمَنُوا اِمْرَأَةَ فِرْعَوْنَ إِذْ قَالَتْ رَبِّ ابْنِ لِي عِندَكَ بَيْتاً فِي الْجَنَّةِ وَنَجِّنِي مِن فِرْعَوْنَ وَعَمَلِهِ وَنَجِّنِي مِنَ الْقَوْمِ الظَّالِمِينَ.

"**Allah iman gətirənlərə isə Fironun zövcəsini misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!" – demişdi**".

Allah-taala bu ayədə Fironun həyat yoldaşını misal çəkmiş və onu nümunə göstərmişdir. Bir daha qeyd etmək istərdik ki, Qurandakı qədər heç bir səmavi kitabda qadınlara üstünlük və dəyər verilməmişdir. İndi isə sözügedən ayə haqqında danışaq. Allah-taala "Nisa" surəsinin 34-cü ayəsində buyurur:

وَاللاَّتِي تَخَافُونَ نُشُوزَهُنَّ فَعِظُوهُنَّ وَاهْجُرُوهُنَّ فِي الْمَضَاجِعِ وَاضْرِبُوهُنَّ فَإِنْ أَطَعْنَكُمْ فَلاَ تَبْغُواْ عَلَيْهِنَّ سَبِيلاً إِنَّ اللهَ كَانَ عَلِيّاً كَبِيراً.

**"Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara öyüd-nəsihət verin, (əgər nəticə hasil olmazsa) yataqda onlardan uzaq durun və (əgər öz vəzifələrinə əməl etmələri üçün onları məcbur etməkdən başqa heç bir çıxış yolu qalmazsa) onları tənbeh edin (vurun)!"**

Ayədə bildirilir ki, özbaşınalıq edən qadınlara əvvəlcə öyüd-nəsihət verin, fayda verməsə, yataqlarınızı ayırın və onlardan ayrı yatın, əgər bu da fayda verməsə, onda onları vurun. Burada söhbət bütün qadınlardan deyil, özbaşınalıq və itaətsizlik edən qadınlardan gedir. Əlbəttə, Allah-taala məntiqli

şəkildə onlarla danışmağı, sonra ayədə qeyd edilən mərhələləri nəzərə çatdırmışdır. İslamın nəzərində qadın öz ərinə tabe olmalı və ona üsyün etməməlidir. Ayə ərinə itaətsizlik edən qadınlar barəsində nazil olmuşdur. Ayənin davamında isə bildirilir:

فَإِنْ أَطَعْنَكُمْ فَلاَ تَبْغُواْ عَلَيْهِنَّ سَبِيلاً إِنَّ اللهّ كَانَ عَلِيّاً كَبِيراً.

**"Əgər sizə itaət göstərsələr, onları incitmək üçün heç bir yola əl atmayın. Əlbəttə, Allah ucadır, böyükdür!"**

Yəni itaət etdikləri təqdirdə onları vurmaq və ya onlara hər hansı bir təzyiq göstərmək olmaz, bu iş qadağandır. Allah Quranda buyurmur ki, qadınları döyün. Ateistlərə sual veririk: Əgər qadın özbaşınalıq etsə, siz necə rəftar edərsiniz? Ateistlər üç cür rəftar edə bilər: ya sükut etməlidir, ya təşəkkür etməlidir, ya da mübarizə aparıb onu islah etməlidir. İlk iki rəftar qəbulolunmazdır və yalnız sonuncu çıxış yolu qalır, bu da islah etmək və ədəbləndirməkdən ibarətdir.

### 73. İRAD

> **"Nə üçün Quranda ən çox kişilərə vədələr verilir. Məsələn, buyrulur ki, kişilərə cənnətdə hurilər veriləcək. Nə üçün deyilmir ki, məsələn, qadınlara heç bir qadın görməmiş kişilər veriləcək? Kişilərə verilən vədələr nə üçün qadınlara verilmir?"**

**Cavab**

Bu irada cavab vermək üçün İslamın əsas mənbəyi olan Qurana nəzər salaq. "Əhzab" surəsinin 35-ci ayəsində buyrulur:

إِنَّ الْمُسْلِمِينَ وَالْمُسْلِمَاتِ وَالْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَالْقَانِتِينَ وَالْقَانِتَاتِ وَالصَّادِقِينَ وَالصَّادِقَاتِ وَالصَّابِرِينَ وَالصَّابِرَاتِ وَالْخَاشِعِينَ وَالْخَاشِعَاتِ وَالْمُتَصَدِّقِينَ وَالْمُتَصَدِّقَاتِ وَالصَّائِمِينَ

وَالصَّائِمَاتِ وَالْحَافِظِينَ فُرُوجَهُمْ وَالْحَافِظَاتِ وَالذَّاكِرِينَ اللَّهَ كَثِيراً وَالذَّاكِرَاتِ أَعَدَّ اللَّهُ لَهُم مَّغْفِرَةً وَأَجْراً عَظِيماً.

**"Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, Allahın fərmanına itaət edən kişilər və qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar, təvazökar kişilər və təvazökar qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və ismətlərini qoruyan qadınlar, Allahı çox yad edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır".**

Allah-taala bu ayədə təkcə kişilərdən söhbət açmır, əksinə, qadınlardan da danışır və sadalanan xüsusiyyətlərə malik olan qadınlara da bağışlanma və böyük mükafat nəsib olacağını nəzərə çatdırır. Yəni kişilərə veriləcək mükafatlar qadınlara da şamil edilir. Allah-taala hər ikisinə bu vədələri vermişdir.

"Nisa" surəsinin 124-cü ayəsində buyrulur:

وَمَن يَعْمَلْ مِنَ الصَّالِحَاتَ مِن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَأُوْلَـئِكَ يَدْخُلُونَ الْجَنَّةَ وَلاَ يُظْلَمُونَ نَقِيراً.

**"Kişi və qadın olmasından asılı olmayaraq yaxşı işlər görən insanlar mömin olacaqları təqdirdə cənnətə daxil olarlar. Onlara azacıq da olsa, haqsızlıq edilməz!"**

Deməli, Allah-taala cənnətlə bağlı həm kişilər, həm də qadınlara vədə verir. Bu məsələ yalnız kişilərə aid deyildir. "Rəd" surəsinin 23-cü ayəsində buyrulur:

جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا وَمَنْ صَلَحَ مِنْ آبَائِهِمْ وَأَزْوَاجِهِمْ وَذُرِّيَّاتِهِمْ وَالمَلاَئِكَةُ يَدْخُلُونَ عَلَيْهِم مِّن كُلِّ بَابٍ.

**“Daxil olacaqları cənnət bağları onlarındır. Əməlisaleh ataları, zövcələri, övladları və mələklər bütün qapılardan onların yanına daxil olacaq (və onlara deyəcəklər:) “Səbir etdiyinizə görə sizə salam olsun! Axirət evinin sonu necə də gözəldir!”**

Bu ayədə də qadınlar kişilərlə bərabər tutulur. Quranın vədələri həm kişilərə, həm də qadınlara şamildir. Ümumiyyətlə, Quran bir qanun kitabı olaraq iman əhlinə vədə verir. Cənnət iman və təqva əhli üçündür və bu, həm kişilərə, həm də qadınlara aiddir. Ateistlər sual verir ki, nə üçün kişilərə veriləcək bəzi şeylər qadınlara verilmir? Məsələn, kişilərə hurilər veriləcəyi halda, nə üçün qadınlara da cavan kişilər veriləcəyindən söhbət açılmır? Cavabında deyirik ki, elə bu dünyada da məsələ bu cürdür. Kişinin yaradılışı və onların ehtiyacı ilə qadınların yaradılışı və ehtiyacları arasında fərqlər var.

Digər tərəfdən, bəziləri deyə bilər ki, kişilərə hurilər verildiyi kimi, qadınlara da qılmanlar, cavan kişilər veriləcək. Lakin Quran ayələrinə və hədislərə nəzər saldıqda, bununla bağlı heç bir ayə və hədislər nəzərə çarpmır və heç bir dəlil yoxdur.

Cənnətdə insandan başqa üç cür varlıq olacaq.

Birincisi, mələklərdir; onlar, ayədə də bildirildiyi kimi, cənnət əhlini salamlayacaq və onların cənnətə daxil olmalarında onlara yol göstərəcək.

İkincisi, hurilərdir; onlar da cənnətdə olacaq, kişilər üçün nəzərdə tutulmuş və onlardan “pak zövcələr” və “pak qadınlar” deyə söhbət açılmışdır.

Üçüncüsü, qılmanlardır. “Tur” surəsinin 24-cü ayəsində buyrulur:

وَيَطُوفُ عَلَيْهِمْ غِلْمَانٌ لَّهُمْ كَأَنَّهُمْ لُؤْلُؤٌ مَّكْنُونٌ.

**“Ətraflarında onlara xidmət etmək üçün sədəf içindəki mirvarilər kimi yeniyetmə oğlanlar (qılmanlar) fırlanacaq”.**

Bu ayədə qılmanların onlara xidmət etməsindən söhbət açılır. “İnsan” surəsinin 19-cu ayəsində buyrulur:

وَيَطُوفُ عَلَيْهِمْ وِلْدَانٌ مُّخَلَّدُونَ إِذَا رَأَيْتَهُمْ حَسِبْتَهُمْ لُؤْلُؤاً مَّنثُوراً.

**“Onların ətrafında həmişə gənc olan xidmətçi gənclər dolanacaq. Onları gördükdə səpələnmiş mirvari dənələri olduqlarını sanarsan”.**

“Vaqiə” surəsinin 17-18-ci ayəsində isə belə buyrulur:

يَطُوفُ عَلَيْهِمْ وِلْدَانٌ مُّخَلَّدُونَ بِأَكْوَابٍ وَأَبَارِيقَ وَكَأْسٍ مِّن مَّعِينٍ.

**“Əbədi təravət və əzəmətə malik (xidmətçi) yeniyetmələr onların ətrafında fırlanacaqlar; Cənnətdə axan bulaqlardan (pak şərab) doldurulmuş badələr, bardaqlar və qədəhlərlə”.**

Bu ayələrin heç birində qılmanların qadınlar üçün olduğu və qadınların onlardan həzz alacağı bildirilmir. Əksinə, qılmanların bir xidmətçi ünvanında cənnət əhlinə xidmət edəcəklərindən danışılır.

Hədislərə də nəzər salsaq, eyni mənanı müşahidə edə bilərik. Əgər ərlə arvadın hər ikisi iman əhli olsa, kişiyə belə xitab ediləcək: “Sən və həyat yoldaşın cənnətə daxil olun və öz zövcəndən ləzzət al”. Ərli qadınlar ərləri ilə birlikdə cənnətə daxil olarlar. “Yasin” surəsinin 56-cı ayəsində buyrulur:

هُمْ وَأَزْوَاجُهُمْ فِي ظِلَالٍ عَلَى الْأَرَائِكِ مُتَّكِؤُونَ.

**“Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər”.**

Bu ayələr əri və özü mömin olan qadınlarla bağlıdır. Ərləri kafir olan qadınlara gəldikdə, məsələ fərqlidir. Məsələn, Fironun arvadı Asiyə ilə bağlı belə buyrulur. İmam Sadiqin (ə)

Peyğəmbərdən (s) belə nəql etdiyi qeyd olunur: "Cənnət dörd qadının intizarındadır. Muzahimin qızı Asiyə də onlardan biridir və o, cənnətdə Peyğəmbərin (s) zövcəsi olacaq".[1]

Cənnətin ali dərəcəsində olan bir qadın əgər Peyğəmbərin (s) həyat yoldaşı olacaqsa, onun başqa kişilərə də sahib olacağını dilə gətirmək düzgündürmü? Xeyr, əsla belə deyil! Əlbəttə, qadınlar öz seçimi ilə bir ərə sahib olacaq, lakin onların eyni anda bir neçə əri ola bilməz. Kişilərə hurilərin verilməsi, qadınlara isə qılmanların deyil, yalnız öz ərlərinin verilməsinə irad nədir, burada hansı çatışmazlıq var?

Cənnətin müxtəlif dərəcələri var, hətta kişilər də iman dərəcəsinə görə bir-birindən fərqlənir və onlara veriləcək hurilər də fərqli dərəcələrə malikdir. Bu dünyada da kişilərlə qadınlar heç də tam bərabər hüquqlara malik deyillər. Beləliklə, ateistlərin bu iradına ayələrlə cavab verdik, bildirdik ki, kişilərə hurilər veriləcək, qadınların da ərləri olacaq. Nəticədə, İlahi vədələrin yalnız kişilərə aid olmadığı anlaşıldı. Cənnətdə də hər kəsə layiq olduğu savab və mükafatlar veriləcək.

Elə fərz edin ki, ateist cənnətə düşdü (əlbəttə, bu, qeyri-mümkündür!), siz özünüz qadınınızın başqa kişilərlə olmasına razı olarsınızmı? Əlbəttə, qadının öz seçimi ilə bir qılmanla və ya cənnətdə bir kişini ər seçməklə yalnız onunla yaşaya bilməsi mümkün olacaq və bu məsələni biz inkar etmirik, lakin eyni zamanda çox sayda ərə və ya qılmana sahib olması qeyri-mümkündür.

---

[1] "Biharul-ənvar", c.43, s.53.

## 74. İRAD

> **"İradımız Allahın ədaləti ilə bağlıdır: "Nə üçün körpə uşaqlar elə doğulan kimi, yaxud ana bətnində ölür? Nəyə görə Allah bunun qarşısını almır?"**

**Cavab**

Usaqların ana bətnində və ya doğularkən ölməsinin Allahın ədaləti ilə əlaqəsi yoxdur. Hətta həkimlər belə bu ölümlərin səbəbini bilir. Məsələn, qadının bətnində uşaq xəstəliyə tutulur, virusa yoluxur və ya hansısa bir hadisədən tələf olur. Bunun ədalətlə nə əlaqəsi var?

Ədalət nəyinsə mütləq baş verməsini tələb etmir ki! Ədalət bir uşağın dünyaya gələn kimi ölməməsini və yaşamasını tələb etmir.

Ateistlər bildirirlər ki, uşağın yaşamaq haqqı var; onlar elə düşünürlər ki, uşağın yaşaması üçün maneənin olmasına baxmayaraq, mütləq yaşamalıdır. Əslində isə belə deyil. Məsələn, uşaqda hansısa bir xəstəlik varsa və müalicəsi yoxdursa, onun yaşaması qeyri-mümkündür. Bu halda da ədalətlə ziddiyyəti yoxdur.

## 75. İRAD

> **"Nə üçün bəzi uşaqlar şikəst və qüsurlu olaraq dünyaya gəlir? Hansı səbəbdən Allah onları bu şəkildə yaradır?"**

**Cavab**

Ümumiyyətlə, səbəb olmadan hansısa bir nəticə baş vermir. Valideynlərdə olan xəstəliklər və ya çatışmazlıqlar uşaqların qüsurlu və əlil olaraq dünyaya gəlməsinə səbəb olur və Allah qəsdən onları şikəst yaratmır. Aləmdəki hər bir şeyin səbəbi və təsiri vardır, eynilə odun yandırması, bıçağın kəsməsi

və s. kimi. Biz deyə bilərik ki, bəzən belə xəstələr müalicə nəticəsində sağalır, belə olduqda ateistlər deyirmi ki, onu Allah sağaltdı? Xeyr, onlar deyir ki, müalicə aldı və sağaldı. Bəzən baş verən hadisələrin səbəbi insanların özüdür. Məsələn, təzyiq xəstəliyi olan bir şəxs pəhriz saxlamasa, nəticədə şikəst ola bilər. Burada onun şikəst olmasının səbəbkarı Allahdırmı?

Bir insan şikəst olaraq dünyaya gəlmişdirsə də, bunun da bir səbəbi və hikməti vardır. Ola bilər biz onun şikəstliyinin səbəbini tapa bilmirik. Amma səbəbini tapmadıqda, bu işdə digərini yəni Allahı günahkar bilmək dəlilsiz və ağılla ziddir. Çünki sağlam ağıl və düşüncə demir ki, bir şeyin səbəbini tapmadıqda, onun səbəbkarı Allahdır. Heç məntiq və fəlsəfədə də belə bir qanun yoxdur ki, hikməti bilinməyən hər bir hadisənin səbəbi Allahdır.

Məsələn, bir şagirdin universitetə qəbul olması o qədər də asan deyil; o, on bir il məktəb oxuyub müəyyən imtahanlardan keçdikdən sonra ali məktəbə qəbul ola bilər. Yəni, müvəffəqiyyət əldə etmək çətinliklərdən keçir. Insanın həyatda qarşılaşdığı çətinliklər də belədir. Onun tərəqqi amilləridir.

Bəzən də bu cür məsələlər Allah tərəfindən bir məsləhət olaraq baş verir. Bəzilərinin dərmanı fəqirlikdir: əgər zəngin olsa, yoldan azar. Bəziləri varlı olmalıdır, əgər fəqir olsa, azğınlığa düşər. Bəzi insanlar da xəstəliklə imtahan olunmalı və daim Allahı xatırlamalıdır. Yəni baş verənlər İlahi məsləhət səbəbi ilə baş verir. İmam Sadiq (ə) buyurur: “İnsanın Allah yanında müəyyən bir dərəcəsi vardır və ona yalnız əməli ilə çata bilər. Bu zaman Allah onu ya malında, övladında, yaxud öz canında müəyyən bir bəlaya mübtəla etməklə imtahan edər və əgər səbir etsə, nəticədə həmin məqama nail olar”.[1]

[1] Şeyx Səuq, “Tövhid”, s.400

Allah buyurur ki, Mən bəndələrimin işlərini Öz elmimlə idarə edir və tədbir tökürəm. Allah hər kəsin məsləhət və xeyrini bildiyindən, onlarla bu cür rəftar edir. Biz də elə bu cür rəftar edirik. Məsələn, azyaşlı uşağın əlinə kəsiçi alətləri vermirik, yeni maşın sürməyi öyrənən gəncə hər maşını sürməyə vermirik və s. Digər bir məsələ isə günahların nəticəsində insanların şikəst olmasıdır. Allah-taala "Səcdə" surəsinin 21-ci ayəsində buyurur:

وَلَنُذِيقَنَّهُمْ مِنَ الْعَذَابِ الْأَدْنَى دُونَ الْعَذَابِ الْأَكْبَرِ لَعَلَّهُمْ يَرْجِعُونَ.

**"Biz ən böyük əzabdan (axirət əzabından) öncə onlara mütləq ən yaxın əzabı (dünya əzabını – qıtlıq, xəstəlik, məğlubiyyət və sairə) daddıracağıq, bəlkə (düz yola) qayıdalar!"**

İmam Rza (ə) buyurur: "Xəstəliklər mömin üçün paklanma və rəhmət, kafir üçün isə əzab və lənətdir".[1]

### 76. İRAD

**"Quranı qəbul etmirik, ona görə ki, Quranda müharibə və döyüşə təşviq edən ayələr vardır. Yəni sülh və əmin-amanlıq qalıb bir kənarda, müharibəyə əmr olunub".**

**Cavab**

Qeyd edək ki, Quranda müharibə ilə bağlı **"cihad"** və **"qital"** kimi iki ifadədən istifadə edilib. "Cihad" sözünün oxşarı olan "yucahidunə", "cahidu" və s. kəlmələr işlədilir. "Cihad edin", "cihad etdilər" və digər mənaları verir. "Cihad" sözü hər yerdə "müharibə etmək" mənasında deyil, əksər yerdə "təlaş göstərmək", "çalışmaq" mənasındadır.

Allah-taala Quranda buyurur:

---

[1] "Biharul-ənvar", c.78, s.183.

وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا

"Bizim yolumuzda çalışanları öz yolumuza hidayət edərik".[1]

Ateistlər burada səhvə yol verərək "cihad" sözünü hər yerdə "müharibə" mənasında anlamışlar.

"Qital" sözü "müharibə" mənasındadır və "qılınc çəkib döyüşməyə" deyilir. Allah-taala o zaman müharibə əmrini verir ki, haqq, dəyərlər, Peyğəmbər (s) və müsəlmanlar müdafiə edilsin. Peyğəmbər (s) zamanında bütün müharibələr yalnız müdafiə xarakteri daşıyırdı. Ümumiyyətlə, Peyğəmbər (s) zamanında əsla qarət, soyğunçuluq, kütləvi qətl törətmək xarakterli müharibələrə yol verilməmişdir və buna əmr edilməmişdi; hətta həzrət müharibə etdikdə, qoşunun önündə dayanaraq onlara nəsihət edər və uşaqları, qadın və qocaları öldürməməyi, ağacları kəsməməyi əmr edər və yalnız qılınc çəkib döyüşən kəslərlə döyüşməyi tövsiyə edər, silahını yerə qoyan şəxsə aman vermələrini bildirərdi.

İslamda müharibələrlə bağlı yalnız bir qeyd var və bu da "fi səbilillah", yəni "Allah yolunda" qeydidir. Bu məsələdə dörd məqsəd izlənilir:

1. Müharibələr bütün çirkinlik və pisliklərin aradan qaldırılması üçün aparılır;

2. Zülmün aradan qaldırılması və məzlumların müdafiə olunması məqsədilə baş verir;

3. İslami və bəşəri dəyərlərin qorunması naminə həyata keçirilir;

4. Məzlumların haqqının müdafiə olunması ilə bağlı müharibələr aparılır.

---

[1] "Ənkəbut" surəsi, ayə 69.

Biz ateistlərə belə bir sual veririk: Əgər siz, ateistlər olan cəmiyyətdə bir nəfərin zülmə uğradığını görsəniz, buna necə reaksiya verərsiniz? Onlarla razılaşacaqsız? Yoxsa müdafiə edəcəksiz? Ya zülmə uğrayan məzluma bir zərbəni də siz vuracaqsız? İslam dini zülmün aradan qalxması, məzlumun haqqının müdafiəsi və İslami, bəşəri dəyərlərin qorunması üçün bu əmri vermişdir.

## 77. İRAD

**"Quranda milyonlarla il əvvəl yaşamış dinozavrlar, həmçinin mühüm tarixi kataklizm və s. önəmli hadisələr haqqında heç bir məlumat verilməmişdir..."**

**Cavab**

Soruşmaq lazımdır: Ümumiyyətlə, Quran nə üçün nazil edilmişdir, onun missiyası nədən ibarətdir? Gəlin bunu elə Quranın "Bəqərə" surəsinin 185-ci ayəsi ilə cavablandıraq:

أُنزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِّلنَّاسِ.

**"O ayda (Ramazan ayında) Quran insanları doğru yola yönəltmək üçün nazil edilmişdir".**

Quran insanların hidayət olunması üçün nazil edilmişdir və onun əsas missiyası da bundan ibarətdir. Təsəvvür edin, bir ateist əlinə riyaziyyat kitabını götürüb oradakı riyazi qayda-düsturlara nəzər salır, sonra deyir ki, mən bunları qəbul etmirəm. Səbəbini soruşduqda, cavab verir ki, orada uzun illər öncə yaşamış canlılar haqqında məlumat yoxdur. İndi bu adama zoologiya kitabı oxumadığını başa salan bir nəfər lazımdır ki, onu qandırsın. Quran da belədir. Quran zoologiya, tarix kitabı deyil ki, orada müxtəlif heyvanlar və s. barədə məlumatlar verilsin!

Digər tərəfdən, Quranda dinozavrlar haqqında məlumatın olmasının insanın doğru yola hidayət olması ilə nə əlaqəsi var? Sanki bir nəfər sizdən yolu və adresi soruşur, siz isə ona həmin yerdə neçə əsr bundan qabaq yaşamış heyvanlar haqqında məlumat verirsiniz. Belə olan halda həmin şəxs sizə nə deyər? Sizi tənqid etməzmi ki, mən yolu soruşuram, siz isə nədən danışırsız! Bir sözlə, bu, ağlasığmazdı.

Bəli, Quran tarix kitabı olmasa da, burada tarixi həqiqətlər, öncəki qövm və tayfaların yaşayışı, başlarına gələn real hadisələr haqqında məlumatlar verilmişdir. "Yusif" surəsinin 109-cu ayəsində buyrulur:

وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِم مِّنْ أَهْلِ الْقُرَى أَفَلَمْ يَسِيرُواْ فِي الأَرْضِ
فَيَنظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الَّذِينَ مِن قَبْلِهِمْ وَلَدَارُ الآخِرَةِ خَيْرٌ لِّلَّذِينَ اتَّقَواْ أَفَلاَ تَعْقِلُونَ.

**"Biz səndən əvvəl məmləkətlərin sakinlərindən yalnız vəhy etdiyimiz kişiləri elçi göndərdik. (Sənin çağırışına qarşı çıxanlar) özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmək üçün yer üzünü gəzmədilərmi? Axirət yurdu təqvalılar üçün daha xeyirlidir. Məgər düşünmürsünüz?"**

Ayədə əvvəlki qövmlərin aqibətindən söhbət açılsa da, bu, hazırkı insanların ondan ibrət dərsi alması üçündür. Bundan başqa, Quranda dinozavrlar haqqında məlumat verilsəydi belə, bu zaman ateistlər yenə də Qurana irad tutacaq və deyəcəkdilər ki, nə üçün Quranda dinozavrlar haqqında məlumat var və başqa heyvanlar haqqında yoxdur? Bir daha qeyd edirik ki, Quran insanların doğru yola yönəldilməsi üçün nazil edilən bir kitabdır və onun əsas məqsədi insanların hidayətidir. Quran zoologiya, tarix və ya hansısa bir klassik əsərlər kitabı deyil.

## 78. İRAD

> **“Quranda ziddiyyətlər mövcuddur. Belə ki, bir ayədə bildirilir ki, “Biz Quranı Məkkə və onun ətrafındakılar üçün nazil etmişik”, digər ayədə isə onun “bütün bəşəriyyətə nazil edildiyi” buyrulur”.**

**Cavab**

Bu irada Quran ayələrinə müraciət edib aydınlıq gətirmək istərdik:

“Ənam” surəsinin 92-ci ayəsində buyrulur:

وَهَـذَا كِتَابٌ أَنزَلْنَاهُ مُبَارَكٌ مُّصَدِّقُ الَّذِي بَيْنَ يَدَيْهِ وَلِتُنذِرَ أُمَّ الْقُرَى وَمَنْ حَوْلَهَا وَالَّذِينَ يُؤْمِنُونَ بِالآخِرَةِ يُؤْمِنُونَ بِهِ وَهُمْ عَلَى صَلاَتِهِمْ يُحَافِظُونَ.

**“Bu (Quran) da mübarək (xeyir-bərəkəti daim, faydası çox), özündən əvvəlkiləri təsdiq edən bir kitabdır ki, onu sənə Məkkə əhlini və ətrafındakı insanları (Allahın əzabı ilə) qorxutmaq üçün nazil etmişik. Axirətə iman gətirənlər ona da iman gətirər, namazlarını da qoruyub saxlayarlar (vaxtlı-vaxtında qılarlar).**

“Şura” surəsinin 7-ci ayəsində buyrulur:

وَكَذَلِكَ أَوْحَيْنَا إِلَيْكَ قُرْآناً عَرَبِيّاً لِّتُنذِرَ أُمَّ الْقُرَى وَمَنْ حَوْلَهَا وَتُنذِرَ يَوْمَ الْجَمْعِ لَا رَيْبَ فِيهِ فَرِيقٌ فِي الْجَنَّةِ وَفَرِيقٌ فِي السَّعِيرِ.

**“Beləliklə, biz sənə ərəbcə olan (fəsahətli və açıq-aydın) bir Quran vəhy etdik ki, şəhərlər anası (Məkkə) və onun ətrafındakıları xəbərdar edəsən, barəsində heç bir şübhə olmayan, bütün yaranmışların toplanacağı günlə qorxudasan. Bir qisim cənnətdə, digər qisim isə yanar oddadır”.**

“Səba” surəsinin 28-ci ayəsində buyrulur:

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِّلنَّاسِ بَشِيراً وَنَذِيراً وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ.

**"Biz səni bütün insanlara yalnız müjdə vermək və qorxutmaq üçün göndərdik. Lakin insanların çoxu bilmir".**

İndi gəlin baxaq, ayədə Quranın yalnız Məkkə üçün nazil olduğu buyrulurmu? Xeyr, buyrulur ki, Məkkə və Məkkənin ətrafında olanlar üçün nazil etdik, yəni Məkkənin bütün cəhətlərində, şərqində, cənubunda, şimalında və qərbində yerləşən kəslər üçün nazil etdik. Digər ayədə isə Allah-taala Peyğəmbəri (s) bütün insanlar üçün qorxudan və müjdə verən olaraq göndərdiyini bildirir. Qeyd olunanlardan Quran ayələrində heç bir ziddiyyətin olmadığı anlaşılır.

### 79. İRAD

> **"Əgər Allah-taala hər şeyə qadirdirsə,
> qaldıra bilməyəcəyi bir daş yarada bilərmi?"**

**Cavab**

Əslində, bu, məntiqsiz, batil bir sualdır. Ona görə ki, bir tərəfdən, Allah-taalanın qüdrətli olduğu, digər tərəfdən də belə bir daşı yarada bilməməsi vurğulanmağa çalışılır. Heç Allah-taala qadir olduğu halda, aciz ola bilərmi?! Allah ya qadirdir, ya da acizdir. Eyni halda həm qadir, həm də aciz olması mümkün deyil.

Şübhəsiz, Allah-taala hər bir şeyə qadirdir və acizlik Ondan uzaqdır. Ateistlərin bu sualı məntiqi baxımdan səhv və yanlışdır. Ateistlərin özünə demək lazımdır ki, siz məsələn, hansısa bir sözü deməyə qadir olduğunuz halda, onu deməməyiniz mümkündürmü? Yəni həm deyə bilirsiniz, həm də deyə bilmirsiniz? Bu mümkündürmü? Eyni zamanda iki xüsusiyyətə sahib olmaq mümkündürmü?

Elə bir rəssam təsəvvür edin ki, o, ev şəkli çəkməyə qadir olduğu halda, bir ev şəklini çəkə bilməsin. Belə bir şey mümkündürmü, şəkli çəkə bildiyi halda onu çəkə bilməməsi nə

dərəcədə düzgündür?! Demək istəyirik ki, belə bir sual və təsəvvür özü mümkünsüzdür.

### 80. İRAD

> **“Nə üçün Allah-taala Quranda qadınla kişini şahid qismində eyni səviyyədə tutmur? Bu məsələdə kişi ilə qadın arasında fərq qoyulur”.**

**Cavab**

Biz də soruşuruq: Nə üçün kişi ilə qadın şahidlik baxımından eyni tutulmalıdır? Əgər eyni tutulmursa, hansı problem qarşıya çıxır və burada nə baş verir? Burada qadının məqamı alçalır, yoxsa kişinin məqamı ucalır?

Digər tərəfdən, şəriətdə əksər halda kişilər arasında da fərq qoyulur. Əslində bu məsələdə kişilər belə bərabər şəkildə tutulmur. Təqvalı və ədalətli, imanlı və əxlaqlı kişilərə üstünlük verilir və bu xüsusiyyətlərdən kənar kişilər hansısa bir üstünlük və dəyərə malik deyillər. Qeyd edək ki, şahidlik məsələsində qadınlarla kişilər arasında fərq qoyulmasının müəyyən səbəbləri vardır. Yaradılış baxımından incə, nikbin və həssas olduğu üçün qadınların şahidliyi kişinin şahidliyindən fərqli olaraq nəzərdə tutulur və bu, onlar üçün nöqsan sayılmır; həssas olması baxımından qadınların tez təsir altına düşməsi, səhvə yol verməsi mümkün olduğundan, onların şahidliyi ilə kişilərin şahidliyi fərqlənir.

Bu məsələ qadının nöqsanlı, kişilərin isə üstün olması baxımından deyil. Hətta kişilər belə bu məsələdə bir-birindən fərqlənir. Bundan əvvəl də qeyd etdiyimiz kimi, digər məsələlərdə kişi ilə qadın bərabərdir və ayələrdə onların hər ikisi bərabər tutulmuş və onlardan “imanlı kişilər və imanlı qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, pak

kişilər və pak qadınlar" deyə söz açılmışdır. Yəni kamillik baxımından qadınlar heç də nöqsana malik deyil və onlar kişilərlə bərabərdir.

### 81. İRAD

> **"Məlumdur ki, ərəb dilinə dəstəmazsız toxunmaq olmaz, Peyğəmbər onu bütün dillərdən üstün edib".**

**Cavab**

Birincisi, heç bir hədis və ya ayədə qeyd edilməyib ki, ərəb dilinə dəstəmazsız toxunmaq olmaz. Bu məsələ Allah-taalanın sözlərinə və bir sıra müəqddəs adlara, sözlərə aiddir, müqəddəs olduğu üçün Allahın kəlamına dəstəmazsız toxunmaq olmaz.

İkincisi, ərəb dilinin üstünlüyünə gəlincə, həqiqətən, ərəb dili ən zəngin, üstün dillərdən biridir. Bunu dilçilər də təsdiq edə bilər, bunda şəkk-şübhə yoxdur.

### 82. İRAD

> **Ateistlər həzrət Məryəmin (ə) İsa peyğəmbəri (ə) əri (kişi) olmadan dünyaya gətirməsini qəbul etmir və bu məsələnin mümkünlüyünə irad tuturlar.**

**Cavab**

Allah-taala Quranda müsəlmanlara deyil, məsihilərə bir cavab olaraq həzrət İsanın (ə) yaranışından söhbət açmışdır. "Ali-İmran" surəsinin 59-cu ayəsində belə buyrulur:

إِنَّ مَثَلَ عِيسَى عِندَ اللّهِ كَمَثَلِ آدَمَ خَلَقَهُ مِن تُرَابٍ ثِمَّ قَالَ لَهُ كُن فَيَكُونُ.

**"Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: "Var ol!" –**

**dedi, o da oldu. (Buna görə də İsanın atasız dünyaya gəlməsi onun Allah olmasına əsla dəlil ola bilməz)".**

Allah-taala həzrət Adəmi (ə) ata-anasız torpaqdan yaratdığı kimi, həzrət İsanı (ə) da atasız yarada bilər. Allah bu ayədə Öz qüdrətini nümayiş etdirir. Ateistlər Allahı, Quranı qəbul etmədiyindən bu ayəni də qəbul etmirlər. Sual vermək lazımdır: Müsəlman, ateist, qeyri-müsəlman və s., kimliyindən asılı olmayaraq, butün dünyadakı insanların ilki necə yaranıb? Sizin fikrinizcə, ilk insan kimdir?

Bunun cavabında deyə bilərlər ki, elə insanlar əvvəldən var idi. Əlbəttə ki, bu cavab əsassız, məntiqsiz, qeyri-məqbuldur. Bəşərin daim olması və onun başlanğıcının sübut olunmaması əsassız bir iddiadır. Deyə bilərlər ki, insan özü-özünü yaradıb. Bu da qeyri-mümkündür, əvvəldə olmayan bir şey özünü necə yarada bilər? Gərək var olsun ki, nəsə yarada bilsin.

Digər cavabları bu ola bilər ki, insanı təbiət yaradıb. Söhbət ilk bəşərdən gedirsə, o, əvvəlcədən vardımı? Təbiət dedikdə nəyi nəzərdə tutursunuz? Necə olur ki, heç bir qabiliyyəti olmayan bu təbiət ilk insanı yaradır?

Deyirsiniz ki, bir insanın yaranması üçün ata-ana olmalıdır, biz də sual veririk: "Onda ilk insan necə yarandı?" Desəniz ki, "insanın başlanğıcı yoxdur", onda bunu sübut edin. Hətta həzrət Məryəmin (ə) özü də elə təsəvvür edirdi ki, kişi olmadan qadın uşaq dünyaya gətirə bilməz. "Ali-İmran" surəsinin 47-ci ayəsində buyrulur:

قَالَتْ رَبِّ أَنَّى يَكُونُ لِي وَلَدٌ وَلَمْ يَمْسَسْنِي بَشَرٌ قَالَ كَذَلِكِ اللهُ يَخْلُقُ مَا يَشَاءُ إِذَا قَضَى أَمْراً فَإِنَّمَا يَقُولُ لَهُ كُن فَيَكُونُ.

**"(Məryəm:) "Ey Rəbbim! Mənə heç bir insan toxunmadığı halda, necə uşağım ola bilər?" – dedikdə, (Allah)**

**buyurdu: "Belədir, Allah hər istədiyini yaradır. O, bir işin əmələ gəlməsini qərara aldıqda, ona ancaq "Ol!" deyər, o da dərhal olar".**

Allah-taala həzrət Məryəmə (ə) bildirir ki, övladın dünyaya gəlməsində əsas səbəb qadın və kişi deyil, onlar sadəcə bir vasitədi. Əgər Allah onlara övlad vermək istəməsə, kişi ilə qadın əsla övlad dünyaya gətirə bilməz.

**Ateistlər deyir: "Əgər bir qadını on beş yaşından tənha şəkildə ömrünün sonuna qədər bir yerdə saxlasaq, ondan əsla uşaq dünyaya gəlməz".**

Bunun cavabında, öncə, onu qeyd etmək istərdik ki, dünyada əri olan, lakin əsla uşağı olmayan qadınlar da var, bu, danılmaz bir faktdır. Yəni valideyn uşaq dünyaya gətirməkdə əsas amil deyildir və Allahın izni də şərtdir. Əlbəttə, bunu dedikdə sağlam qadınları, səhhətində heç bir nöqsanı olmayan xanımları nəzərdə tuturuq. Əgər uşağın dünyaya gəlməsi kişi və qadından asılıdırsa, onda nə üçün bu insanların övladı dünyaya gəlmir? Açıq-aşkar dəlillər olduğu halda Allahı və Quranı qəbul etməyən kəslər, şübhəsiz, bu məsələni də qəbul etməyəcək. Bu məsələlərin qəbul edilə bilməsi üçün sadəcə sağlam əql və vicdana ehtiyac vardır. İnsan sağlam düşüncəyə malik olsa, Allah kəlamının həqiqətini anlaya bilər və həmin mövzuda çətinlik çəkməz.

## 83. İRAD

> **"Quranda tarixi bir məsələ izah edilərkən Məryəmlər qarışdırılır".**

**Cavab**

Qurani-Kərimdə müxtəlif məsələlər, şəri hökmlər, etiqadlar, İslam maarifi, o cümlədən, tarixdən də bir sıra hadisələr qeyd olunmuş və insanlara bu haqda məlumatlar

verilmişdir. Quranda həzrət Məryəmdən (ə) də söhbət açılır, onun adı burada düz 21 dəfə çəkilir. Ateistlərin irad tutduğu ayə "Məryəm" surəsinin 28-ci ayəsidir. Ayədə buyrulur:

يَا أُخْتَ هَارُونَ مَا كَانَ أَبُوكِ امْرَأَ سَوْءٍ وَمَا كَانَتْ أُمُّكِ بَغِيّاً.

**"Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun qadın olmamışdır".**

Bu, yəhudilərin həzrət Məryəmə (ə) tutduğu irad idi. Ateistlər burada irad tutur ki, həzrət İsanın (ə) anası həzrət Zəkəriyyanın qızı Məryəm idi, bu ayədə isə Harunun bacısı Məryəmdən danışılır. Yəni Quranda Məryəmlər qarışdırılıb. Onların bu səhvi Quran elmlərindən məlumatsız olduqlarından qaynaqlanır.

Ümumiyyətlə, belə sual veririk: "Harunun Məryəm adlı bacısı olmuşdurmu ki, siz onunla həzrət İsanın (ə) anası arasında fərq qoyursunuz? Sizin belə bir dəliliniz varmı?" Ayənin təfsirində qeyd edilir ki, Harun tarixdə çox pak və əməlisaleh bir mömin insan kimi tanınmış şəxs idi və əməlində düz olan, pak olan şəxsləri onun qardaşı və ya bacısı kimi tanıyardılar. Yəni onlara bu cür nisbət verilərdi. Bir kişi çox təmiz insan olanda deyilərdi ki bu Harunun qardaşıdır. Bir xanım da çox imanlı olanda deyilərdi ki, bu Harunun bacısıdır. Qeyd etməliyəm ki, bu Harun həzrət Musanın (ə) dövründəki Harun deyil. Həzrət Məryəm də (ə) iman və paklıq baxımından elə bir məqama yüksəlmişdi ki, ona da bu nisbəti vermiş və demişdilər: "Ey Harunun bacısı!" Ayədə də Allah-taala həmin məsələyə işarə edir. Ateistlər isə elə düşünür ki, Quran məryəmlər arasında qarışdırmşdır.

## 84. İRAD

> **“Quranda bütpərəstlərin sitayiş etdiyi “Lat”, “Mənat” və “Üzza” adlı bütlər tərriflənir”.**

**Cavab**

Güya, Quranda həmin bütlər təriflənmişdir. Onların dəlili də “Nəcm” surəsinin 19-22-ci ayələridir. Ayələrdə belə buyrulur:

أَفَرَأَيْتُمُ اللَّاتَ وَالْعُزَّى وَمَنَاةَ الثَّالِثَةَ الْأُخْرَى أَلَكُمُ الذَّكَرُ وَلَهُ الْأُنثَى تِلْكَ إِذاً قِسْمَةٌ ضِيزَى.

**“Siz mənə deyin görüm, Lat və Uzza, habelə üçüncüləri olan Mənat (Allahın qızlarıdır)? Məgər oğlanlar sizin, qızlar onundur? Elə isə, bu, ədalətsiz bölgüdür!”**

Bu ayənin harasında Allah-taala həmin bütləri tərifləyir?! Ayə onlardan bəhs edir, amma onlar təriflənmir. Hətta bu ayələrin davamı olan 23-cü ayədə belə buyrulur:

إِنْ هِيَ إِلَّا أَسْمَاء سَمَّيْتُمُوهَا أَنتُمْ وَآبَاؤُكُم مَّا أَنزَلَ اللهُ بِهَا مِن سُلْطَانٍ إِن يَتَّبِعُونَ إِلَّا الظَّنَّ وَمَا تَهْوَى الْأَنفُسُ وَلَقَدْ جَاءهُم مِّن رَّبِّهِمُ الْهُدَى.

**“Onlar sizin və atalarınızın qoyduqları adlardan başqa bir şey deyildir. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Onlar yalnız əsası olmayan zənlərinə və nəfslərinin istəklərinə uyarlar. Halbuki Rəbblərindən onlara doğru yolu göstərən rəhbər artıq gəlmişdir”.**

Əvvəldən axıra qədər tövhid və təkallahlılıqdan söhbət açan Allah-taala bütləri tərifləyə bilərmi?! Əksinə, Allah yeganə məbud olduğunu bildirir. “Ali İmran” surəsinin 6-cı ayəsində buyrulur:

لاَ إِلَـهَ إِلاَّ هُوَ الْعَزِيزُ الْحَكِيمُ.

**“Qüdrətli və hikmət sahibi olan Allahdan başqa, məbud yoxdur”.**

“Nəhl” surəsinin 36-cı ayəsində isə belə buyrulur:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ فَمِنْهُم مَّنْ هَدَى اللّهُ وَمِنْهُم مَّنْ حَقَّتْ عَلَيْهِ الضَّلالَةُ فَسِيرُواْ فِي الأَرْضِ فَانظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ.

**“Biz hər ümmətə: “Tək olan Allaha ibadət edin, həddi aşanlardan (müşriklik və bütpərəstlikdən) uzaq durun”– deyə, elçi göndərdik. Allah kimisini doğru yola yönəltdi, kimisinə də azmaq nəsib etdi. Yer üzündə gəzib dolaşın və görün yalan sayanların aqibəti necə oldu!”**

Bütpərəstlik və müşrikliklə mübarizə aparan Quranda bütlərin tərifi ilə bağlı hansı cümlə var? Ümumiyyətlə, orada bir tərifləmə varmı? Müşriklər bu bütlərin yer üzündə (nəuzubillah) Allahın qızları olduğunu deyirdilər, ayədə də Allah onların cavabını sözügedən ayədə verir. Müşriklər Allahın adına Lat, Mənnan adına Mənat və Əziz adına Üzza adlı bütlər seçmişdilər. Əgər Allah-taala bütləri tərifləyibsə, nə üçün Məkkənin fəthi zamanı oradakı bütlər dağıdıldı və Quranın heç bir yerində onların yaxşı olması haqda heç bir şey qeyd edilməyib? Bu məsələlərə diqqət yetirməyi və dərindən tədqiq etmənizi tövsiyə edirik.

## 85. İRAD

**“Sizin Quranınız bizə nə vəd edir?”**

**Cavab**

Qurani-Kərimdə cənnət və cəhənnəm barədə verilən vədələr çoxdur. Cənnət pak və əxlaqlı insanlar üçün bir mükafatdır, cəhənnəm isə pis, əxlaqsız və tərbiyəsiz, çirkin əməllərə bulaşan insanların cəza yeri kimi qeyd olunur. “Bəqərə” surəsinin 82-ci ayəsində buyrulur:

**"İman gətirənlər və yaxşı işlər görənlər isə cənnət əhlidirlər və onlar orada əbədi olacaqlar".**

İman gətirmək, yaxşı iş görmək cənnətə getməyin səbəbidir, onlar orada əbədi olaraq qalacaqlar, onların mükafatı əbədilikdir. İnsanın ağlı da bu məsələni inkar etmir, bəyənilən olduğunu təsdiqləyir. "Ali İmran" surəsinin 185-ci ayəsində buyrulur:

كُلُّ نَفْسٍ ذَآئِقَةُ الْمَوْتِ وَإِنَّمَا تُوَفَّوْنَ أُجُورَكُمْ يَوْمَ الْقِيَامَةِ فَمَن زُحْزِحَ عَنِ النَّارِ وَأُدْخِلَ الْجَنَّةَ فَقَدْ فَازَ وَما الْحَيَاةُ الدُّنْيَا إِلاَّ مَتَاعُ الْغُرُورِ

**"Hər bir kəs ölümü dadacaqdır. Siz Qiyamət günü öz mükafatınızı tam şəkildə alacaqsınız. Oddan uzaqlaşdırılıb cənnətə daxil edilən şəxslər xilas olacaqlar. Dünya həyatı isə aldadıcı sərmayədən başqa, bir şey deyildir".**

Əbədi yer, əbədi yerdə məskunlaşmaq və böyük qələbəyə nail olmaq, cənnətdə nemətlərə malik olmaq və s. haqqında Quranda ayələr çoxdur. "Bəqərə" surəsinin 25-ci ayəsində buyrulur:

وَبَشِّرِ الَّذِين آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ أَنَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ كُلَّمَا رُزِقُواْ مِنْهَا مِن ثَمَرَةٍ رِّزْقاً قَالُواْ هَـذَا الَّذِي رُزِقْنَا مِن قَبْلُ وَأُتُواْ بِهِ مُتَشَابِهاً وَلَهُمْ فِيهَا أَزْوَاجٌ مُّطَهَّرَةٌ وَهُمْ فِيهَا خَالِدُونَ.

**"İman gətirən və yaxşı işlər görənlərə müjdə ver ki, onlar üçün ağacları altından çaylar axan Cənnət bağları vardır. (Onun) meyvəsindən onlara verildiyi zaman: "Bu ki bizə əvvəlcə verilən ruzidir", - deyəcəklər. (Amma bunlar onlardan daha yaxşı və daha dadlıdır). Onlar üçün gətirilən meyvələrin hamısı (gözəllik və təravət baxımından) bənzərdir. Onlar üçün orada pak zövcələr də var və onlar orada əbədi qalacaqlar".**

Başqa ayələrdə də Allahın razılığından söhbət açılır ki, bunlar da Allahın bizlərə vədəsidir.

**86. İRAD**

> **“Ərəblərə uyğun olan, onlara vədə verilən bu cənnət bağları və cənnət bizim nəyimizə lazımdır?!”**

**Cavab**

Quranın hansı ayəsində bunun yalnız ərəblərə məxsus olduğu bildirilmişdir? Əksinə, cahil ərəblər Quranda tənqid olunmuş və pislənmiş, onlar təqvalı olmağa dəvət olunmuşlar. Əbədi cənnət və axirətin əbədi olmasının ərəblərə nə aidiyyatı var? Allah bu vədələri bütün insanlara vermişdir və söhbət yalnız ərəblərdən getmir. Cənnət yaxşı, tərbiyəli, düşüncəli və əməli saleh, pak insanların yeridir. Kafirlər üçün cənnət vədəsi yoxdur, əksinə, Allah-taala Quranın “Əraf” surəsinin 40-cı ayəsində belə buyurur:

إِنَّ الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا وَاسْتَكْبَرُواْ عَنْهَا لاَ تُفَتَّحُ لَهُمْ أَبْوَابُ السَّمَاء وَلاَ يَدْخُلُونَ الْجَنَّةَ حَتَّى يَلِجَ الْجَمَلُ فِي سَمِّ الْخِيَاطِ وَكَذَلِكَ نَجْزِي الْمُجْرِمِينَ.

**“Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz və dəvə iynənin gözündən keçməyənə qədər (keçmədiyi kimi) onlar da Cənnətə daxil olmayacaqlar. Biz günahkarlara belə cəza veririk!”**

Ayələri inkar edən, Allaha boyun əyməyən kəslərə cənnət yoxdur və dəvə iynənin gözündən keçmədiyi kimi, onlara da cənnət nəsib olmaz. Belə kəslərə cəhənnəm vədəsi vardır. Ateistlik yolunu tutanlardan soruşmaq istərdik: sizə bu məslək ictimai və fərdi həyatınızda nə vədələr vermişdir?

Əxlaq, dünya görüşü, rəftar qaydalarında sizə hansı vədələr vermişdir? Yəni, bir insan fərdi olaraq nəyə əsaslanırsınız və bir qanun kitabı kimi ateistlik sizə nə vermişdir, hansı üstünlüklərə maliksiniz?

Bu xüsusiyyətləriniz və suallarınızdan ateistlik məktəbinin sizə psixoloji gərginlik, depressiyadan başqa, heç bir şey vermədiyi anlaşılır.

Bizim Quranımız var, bizə əxlaqı, elmi, səadəti aşılayır və siz bizim kitabımıza hücum edirsiniz. Sizin nəyiniz var?! Bir ateist kimi nəyi əsas göstərirsiniz? Ərəbcə nazil olan bu müqəddəs Quranın səmavi kitab olduğunu hətta qeyri-müsəlmanlar da qəbul edir və onunla mübarizəyə qalxmışlar. Siz Quranla ayaqlaşan bir kitab göstərə bilərsinizmi? Siz Quran zamanında, 6-cı əsrdə var olan hansısa bir kitab göstərə bilərsinizmi? Öz mövqe və kimliyini, mahiyyətini Quran kimi qoruyub saxlayan bir kitabınız varmı? Əlbəttə ki, xeyr! "Ənam" surəsinin 125-ci ayəsini nəzərinizə çatdırmaq istərdik:

فَمَن يُرِدِ اللّهُ أَن يَهْدِيَهُ يَشْرَحْ صَدْرَهُ لِلإِسْلاَمِ وَمَن يُرِدْ أَن يُضِلَّهُ يَجْعَلْ صَدْرَهُ ضَيِّقاً حَرَجاً كَأَنَّمَا يَصَّعَّدُ فِي السَّمَاء كَذَلِكَ يَجْعَلُ اللّهُ الرِّجْسَ عَلَى الَّذِينَ لاَ يُؤْمِنُونَ.

**"Allah düz yola yönəltmək istədiyi şəxsin köksünü İslam üçün açıb genişləndirər, azdırmaq istədiyi şəxsin köksünü, sanki, o, göyə qalxırmış kimi daraldar. Allah iman gətirməyənlərə pisliyi belə edər!"**

Ayədə Allah-taalanın iman gətirməyən kəsləri sanki göyə qalxan və havasızlıqdan ürəyi sıxılan və çabalayan insanalra bənzətdiyi bildirilir. Belə insanların heç bir dözümü yoxdur, öz yerlərində çabalayırlar; tamamilə çirkaba bulaşan insanın özü çirkabı hiss etmir, eyni ətirdən istifadə edən onun qoxusuna alışdığı kimi, çirkaba bulaşan insanlar da ona öyrəşmiş və öz

pisliklərindən xəbərsizdirlər. Beləliklə, Allah-taala başdan-ayağa pisliklərə bulaşan insanlarla bu cür rəftar edər.

**87. İRAD**

**Ateist bir qadının etirafı: "Mən bir ateist qadın olaraq nə üçün İslamı seçməliyəm? Halbuki İslamda kişi ilə qadın hüquqları eyni deyildir və onların arasında fərq qoyulur. Mən özüm üçün heç bir hədd qoymuram, necə istəyirəm elə də yaşayıram, heç kəs də məni məhdudlaşdıra bilmir. İslamda isə örtünmək məcburiyyətindəyəm, doqquz yaşından ərə verilirsən, həmişə ərinə itaət etmək məcburiyyətindəsən, heç bir boşanmaq haqqın da yoxdur, istədiyin kimi yaşaya bilmirsən, bir sözlə, İslamda məhdudiyyət çoxdur. Buna görə də qeyri-İslami yaşayış tərzi daha münasibdir".**

**Cavab**

Maraqlıdır, İslamı seçsəniz, hansı problemlərlə qarşılaşarsınız? Əlbəttə, bu qadının irəli sürdüyü iradların heç bir əsası yoxdur. İslamı məhdud bir din olaraq təsəvvür edir və elə düşünür ki, azadlığını əldən verəcək. Tamamilə azadlıq istəyirsənsə, onda nə üçün ateist olmusan? Onda heç ateist də olmamalısan, çünki kiminsə düşüncəsinin təsiri altındasan.

Əgər tam azadlıq istəyirsənsə, onda ateistlikdən də kənar olmalısan. İslamda kişi-ilə qadınının hüquqlarının eyni olduğunu deyir, halbuki belə deyil. Bu xanım İslamda bəyan olunanların tam əksini söyləyir. Bu da onların İslamla tanış olmadığını göstərir. Bu qadın deyir ki, "mənim heç bir məhdudiyyətim yoxdur". Biz də, öz növbəmizdə, deyirik ki,

insanlardan fərqli olaraq, hətta heyvanlar arasında belə məhdudiyyətlər var. Məsələn, istənilən zaman süd vermirlər, bala vermirlər və s. Biz sizin özünüzə məhdudiyyət qoymanığızı tövsiyə edirik. Sizin qarşılaşdığınız məsələlər üç qrupa daxildir:

1. İctimai məsələlər. Əgər burada məhdudiyyətiniz yoxdursa, bu sizin mədəniyyətsizliyinizi göstərir.
2. Ailəvi məsələlər. Əgər burada da müəyyən məsələlər nəzərə alınmırsa, bu, əxlaqsızlığın göstəricisidir.
3. Şəxsi məsələlərdə heç bir məhdudiyyət yoxdursa, bu, dəlilikdən başqa bir şey deyil.

Məgər müsəlmanlar normal həyat sürmür? Xeyr, müsəlmanlar Allahın buyurduğu çərçivədə azaddır və halal hesab edilən bütün nemətlərdən istifadə edir, normal şəkildə də yaşayırlar. İslamda da Allah buyurur ki, seçdiyin, getdiyin yol halaldırsa, orada istədiyin kimi, nizam-intizamla, başqalarının haqqını tapdalamadan azadsan, istədiyin kimi yaşaya bilərsən.

İradda bildirilir ki, "mən İslamda örtünmək məcburiyyətindəyəm". Siz açıq-saçıq gəzmək istəyirsiniz? İslam dininin qadına hansı həddə örtünməyi vacib buyurduğunu hələ öyrənmək lazımdır. Quran, naməhrəm və yad kişilər qarşısında örtünməyi əmr edir, amma öz qohum-əqrəbası və məhrəmləri yanında, evində örtünməyi göstəriş vermir.

İslam dini qadına dəyər vermiş və onu üstün tutmuşdur. İslamda qız uşağının doqquz yaşında ərə verildiyini iddia edirsiniz, halbuki İslamda belə bir məcburiyyət yoxdur. Qadının həmişə ərinin itaətində olması və boşanma hüququnun olmaması ilə bağlı irada gəldikdə deməliyik ki, qadının da hüquqları var və hüquqları pozulduqda talaq haqqının ərin ixtiyarında olmasına baxmayaraq, o özü də boşanma tələb edə bilər və haqqını istəyə bilər. Bu məsələdə maneə yoxdur.

Qadının boşanma hüququnun olmamasını iddia etmək düzgün deyil.

Ərə itaət məsələsinə gəldikdə, itaətin də həddi-hüdudu var. Yəni kişi qadının namusunu, canını, malını qoruyub saxladığından, qadın ərinə itaət etməlidir. Fərz edin, elə bir vəziyyətə düşmüsünüz ki, mənliyiniz, namusunuz təhlükədədi və sizi qoruya biləcək bir kişi var, lakin həmin şəxs sizin əriniz deyil. Onun da bir şərti var: gərək dediyinə əməl edəsiniz. Belə olsa, siz həmin şəxsə tabe olmayacaqsınız? İtaət etməyib məhv olmağı seçmək ağlasığmazdı. Əksinə əməl etsəniz, bu vəziyyət sizin xeyrinizə tamamlanacaq. İslam dini də qadının mənafeyi təhlükə altına düşmədiyi təqdirdə həyat yoldaşına itaət etməyi vacib sayır, qadın itaət etməklə zərərə uğrayacaqsa, ona mütləq itaəti əmr etmir.

İslam dinində məhdudiyyətin çox olduğunu iddia edirlər. Bu din qanun dinidir və qanun olan yerdə də məhdudiyyətin olması qaçılmazdır. İslam dini insanları əbədi səadətə aparır və halal şeyləri əsla insanlara qadağan etmir. Çox maraqlıdır, İslam dininə bu qədər irad tutursunuz, siz hələ onu bizə təsvir edin, görək, onu başa düşərək belə iddialar ortalığa atırsız, yoxsa İslamla tanış olmadan bu cür mənasız ittihamlar irəli sürürsünüz? Hər kəsə hidayət və doğru yola yönəlməyi arzulayırıq.

## 88. İRAD

> **"Allah bilirdi ki, şeytan Adəm peyğəmbəri aldadacaq. Bəs onda nə üçün onu (şeytanı) cənnətdə saxladı? Nə üçün Adəmə bildirmədi ki, şeytan səni aldadacaq?"**

**Cavab**

Allah-taala Qurani-Kərimin bir neçə yerində Adəmlə (ə) Həvvaya (ə): "Siz cənnətə daxil olun  və orada məskunlaşın" – deyərək buyurur. "Bəqərə" surəsinin 35-ci ayəsində buyrulur:

وَقُلْنَا يَا آدَمُ اسْكُنْ أَنتَ وَزَوْجُكَ الْجَنَّةَ وَكُلاَ مِنْهَا رَغَداً حَيْثُ شِئْتُمَا وَلاَ تَقْرَبَا هَـذِهِ الشَّجَرَةَ فَتَكُونَا مِنَ الْظَّالِمِينَ.

**"Və (Adəmə) dedik: "Ey Adəm, sən zövcənlə cənnətdə məskunlaş və hər ikiniz oradakı (nemətlərdən) istədiyiniz kimi, bol-bol yeyin, yalnız bu ağaca yaxın düşməyin! Yoxsa zülm edənlərdən olarsınız".**

Allah-taala heç vaxt İblisə cənnətdə məskunlaşmağı əmr etmir, Quranda onun cənnətdə olması bildirilməyib. O, Allaha ibadət edənlərdən idi, sonra yolundan azır və Allahın qəzəbinə düçar olur. "Əraf" surəsinin 20-ci ayəsində buyrulur:

فَوَسْوَسَ لَهُمَا الشَّيْطَانُ لِيُبْدِيَ لَهُمَا مَا وُورِيَ عَنْهُمَا مِن سَوْءَاتِهِمَا وَقَالَ مَا نَهَاكُمَا رَبُّكُمَا عَنْ هَـذِهِ الشَّجَرَةِ إِلاَّ أَن تَكُونَا مَلَكَيْنِ أَوْ تَكُونَا مِنَ الْخَالِدِينَ.

**"Şeytan o ikisinin bədənindəki gizli yerləri aşkara çıxarmaq məqsədilə onlara vəsvəsə edib dedi: "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya (Cənnətdə) əbədi qalmamağınız üçün qadağan etmişdir!"**

Şeytan cənnətdə olmadan da vəsvəsə edə bilərdi.

Digər tərəfdən, sözügedən cənnət Axirətdə nəzərdə tutulan cənnət deyil və İblis kimi mənfur biri orada ola bilməzdi.

Bu, sadəcə bir bağ idi, əbədi olan cənnət deyildi. "Taha" surəsinin 117-ci ayəsində buyrulur:

فَقُلْنَا يَا آدَمُ إِنَّ هَذَا عَدُوٌّ لَّكَ وَلِزَوْجِكَ فَلَا يُخْرِجَنَّكُمَا مِنَ الْجَنَّةِ فَتَشْقَى.

**"Dedik: "Ey Adəm! Bu, həm sənin, həm də zövcənin düşmənidir. O, sizi Cənnətdən çıxartmasın, yoxsa çətinliyə düşəcəksiniz".**

Allah-taala İblisin həzrət Adəmin (ə) düşməni olduğunu ona bildirmiş və xəbərdarlıq etmişdi. Sual verilə bilər: "Nə üçün Allah-taala İblisi Öz dərgahında saxladı? İblisin pis olduğunu bilə-bilə, nə üçün onu Öz dərgahında saxladı?" Bu sualın cavabında deyə bilərik ki, İblis ibadət əhli, mələklərin sırasında idi; o, uca məqama nail olmuşdu, hələ hansısa bir xəta etməmişdi.

Onlar deyə bilər ki, onda nə üçün Allah İblisi yaratmışdı? İblisin gələcəkdə yoldan azacağını və başqalarını da azdıracağını bilə-bilə, nə üçün onu yaratdı? Biz bu sualın cavabını "Allah nə üçün kafirləri yaratmışdır" sualının cavabında vermişik.

**89. İRAD**

**"Quranda vədə verilən bir sıra meyvələr Ərəbistanda yoxdur. Peyğəmbər müsəlmanlara və möminlərə deyirdi ki, narahat olmayın, burada həmin meyvələrdən dadmasanız da, Axirətdə onlardan yeyəcəksiniz".**

**Cavab**

Qurani-Kərimin "Ər-Rəhman" surəsinin 68-ci ayəsində Allah-taala buyurur:

فِيهِمَا فَاكِهَةٌ وَنَخْلٌ وَرُمَّانٌ.

**“Onlarda çoxlu meyvələr, alma, xurma və nar ağacları vardır”.**

“Nəbə” surəsinin 32-ci ayəsində Allah-taala buyurur:

حَدَائِقَ وَأَعْنَاباً.

**“(Cənnətdə) Yamyaşıl bağlar və növbənöv üzümlər (olacaq)”.**

Başqa ayələrdə də Allah-taala meyvələrdən söhbət açmışdır. Bu vədələrin hansında deyilib ki, həmin meyvələrin Ərəbistanda olmadığına görə, Peyğəmbər (s) bu vədələri vermişdir?

Bu, əsassız bir iddiadır. Ərəbistanda həmin meyvələr var idi, digər məntəqələrdən karvanlarla oraya gətirilirdi. Axı Quranda Ərəbistanda olan xurma və s. meyvələrindən danışılır.

Digər tərəfdən, bu iddiada Ərəbistanda olmayan meyvələr haqqında Peyğəmbərin (s) möminlərə vədələr verdiyi bildirilir. Bu iddiaya dəlil-sübütünüz nədir? Allah-taala möminlər barədə Quranda müxtəlif vədələr vermişdir. Məkanla bağlı “Tövbə” surəsində buyrulur:

مَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ

“Ədn cənnətlərində Onlar (möminlər) üçün pak məskənlər vardır”.[1]

Qurani-Kərimdə Ədn, Firdovs və s. cənnətlərdən söz açılır. Zaman baxımından bildirilir ki, onlar əbədi olaraq cənnətdə qalacaqlar. İnsanın qəmgin, qorxu və şadlıq halı ilə bağlı bildirilir ki, onlar üçün heç bir qəm-kədər yoxdur.

Yemək və içmək haqqında “Muhəmməd” surəsinin 15-ci ayəsində belə bildirilir:

---

[1] “Tövbə surəsi”, ayə 72.

مَثَلُ الْجَنَّةِ الَّتِي وُعِدَ الْمُتَّقُونَ فِيهَا أَنْهَارٌ مِّن مَّاء غَيْرِ آسِنٍ وَأَنْهَارٌ مِن لَّبَنٍ لَّمْ يَتَغَيَّرْ طَعْمُهُ وَأَنْهَارٌ مِّنْ خَمْرٍ لَّذَّةٍ لِّلشَّارِبِينَ وَأَنْهَارٌ مِّنْ عَسَلٍ مُّصَفًّى وَلَهُمْ فِيهَا مِن كُلِّ الثَّمَرَاتِ وَمَغْفِرَةٌ مِّن رَّبِّهِمْ كَمَنْ هُوَ خَالِدٌ فِي النَّارِ وَسُقُوا مَاء حَمِيمًا فَقَطَّعَ أَمْعَاءهُمْ.

**"Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir; orada qoxumayan saf və xalis sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən (pak) şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Rəbbləri tərəfindən bağışlanma gözləyir. Məgər onlar od içində həmişəlik qalan və içlərini parça-parça edən qaynar su içirdiləcək şəxslər kimi ola bilərlərmi?"**

Yoldaş və dost barədə "Nisa" surəsinin 69-cu ayəsində buyrulur:

وَمَن يُطِعِ اللّهَ وَالرَّسُولَ فَأُوْلَـئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاء وَالصَّالِحِينَ وَحَسُنَ أُولَـئِكَ رَفِيقًا.

**"Allaha və Peyğəmbərə itaət edənlər (Qiyamət günü) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (doğru danışanlar, sədaqətli olanlar, etiqadı düzgün olanlar), şəhidlər və salehlərlə (yaxşı əməl sahibləri ilə) bir yerdə olacaqlar. Onlar gözəl yoldaşlardır!"**

Allah-taala müxtəlif vədələr vermiş və bir sıra məsələlərə toxunmuşdur. Əgər Allah bu vədələri verməsəydi, onda ateistlər də bu dəfə meyvələr və s. məsələlərdən nə üçün danışılmadığına irad tutacaqdılar.

## 90. İRAD

> **"Biz Quranı qəbul etmirik, çünki orada köləlik qadağan edilməmişdir, qadınlara da cariyə (kəniz) olmağa icazə verilmişdir. Nə üçün Quran bu quldarlıq və köləliyi qadağan etməmişdir?"**

**Cavab**

Məlum olduğu kimi, tarixdə quldarlıq dövrü olmuş və insanlar qul kimi bazarlarda alınıb satılırmış. Quran nazil olan zaman ərəb cəmiyyətinin əksər hissəsini qullar təşkil edirdi. Cəmiyyətin çox hissəsi bu işə düçar olduğundan, İslam dini Quran vasitəsilə quldarlıqla tədrici olaraq mübarizəyə başladı. Məsələn, şərabla bağlı məsələdə Quran tədrici vasitələrdən istifadə etmiş və şərabı tədrici olaraq haram edərək qadağan etmişdir. Yəni həddən artıq ciddi problemlər olan mərhələlərdə qəti hökmlər verilmirdi.

Digər tərəfdən, bir şeyin aradan qaldırılması üçün təkcə onun qadağan olunmasından istifadə olunmur, əksinə, tərbiyəvi məsələlərdən də yararlanılır. İslam dini insan azadlığına üstünlük verən bir dindir. Bu baxımdan köləlik və quldarlıqla da mübarizə aparmışdır.

Allah-taala Quranın "Maidə" surəsinin 89-cu ayəsində buyurur:

لَا يُؤَاخِذُكُمُ اللهُ بِاللَّغْوِ فِي أَيْمَانِكُمْ وَلَكِن يُؤَاخِذُكُم بِمَا عَقَّدتُّمُ الأَيْمَانَ فَكَفَّارَتُهُ إِطْعَامُ عَشَرَةِ
مَسَاكِينَ مِنْ أَوْسَطِ مَا تُطْعِمُونَ أَهْلِيكُمْ أَوْ كِسْوَتُهُمْ أَوْ تَحْرِيرُ رَقَبَةٍ فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ ثَلاَثَةِ أَيَّامٍ
ذَلِكَ كَفَّارَةُ أَيْمَانِكُمْ إِذَا حَلَفْتُمْ وَاحْفَظُواْ أَيْمَانَكُمْ كَذَلِكَ يُبَيِّنُ اللهُ لَكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَشْكُرُونَ.

**"Allah sizi qeyri-ixtiyari içdiyiniz andlarınıza görə cəzalandırmaz, lakin (ixtiyari) içdiyiniz andları (pozmağa) görə cəzalandırar. Bu cür andları pozmağın kəffarəsi ailənizə**

**verdiyiniz normal qidalardan on yoxsula yedirdib doyurmaq, yaxud geyindirmək, yaxud da bir kölə azad etməkdir. Bunları etməyə imkanı olmayan şəxs üç gün (dalbadal) oruc tutmalıdır. Bu, içdiyiniz andların kəffarəsidir. Andlarınızı qoruyun (onları pozmaqdan çəkinin). Allah ayələrini sizə belə izah edir ki, bəlkə, şükür edəsiniz!"**

Allah bildirir ki, kim öz andını pozsa, ya on yoxsulu doyurmalı, ya geyindirməli, ya da bir qulu azad etməlidir. Bu şəkildə quldarlıq və köləliklə mübarizə aparılmışdır ki, quldarlıq aradan qaldırılsın.

"Nisa" surəsinin 92-ci ayəsində buyrulur:

وَمَا كَانَ لِمُؤْمِنٍ أَن يَقْتُلَ مُؤْمِناً إِلاَّ خَطَئاً وَمَن قَتَلَ مُؤْمِناً خَطَئاً فَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ وَدِيَةٌ مُّسَلَّمَةٌ إِلَى أَهْلِهِ إِلاَّ أَن يَصَّدَّقُواْ فَإِن كَانَ مِن قَوْمٍ عَدُوٍّ لَّكُمْ وَهُوَ مْؤْمِنٌ فَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ وَإِن كَانَ مِن قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُمْ مِّيثَاقٌ فَدِيَةٌ مُّسَلَّمَةٌ إِلَى أَهْلِهِ وَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةً

**"Heç bir mömin başqa bir mömini öldürə bilməz. Bu işin səhvən baş verdiyi hal müstəsnadır. Hər kəs bir mömini səhvən öldürərsə, bir qul azad etməli və öldürülmüş şəxsin ailəsi qanbahasını bağışlamadıqda onlara qanbahası ödəməlidir. Öldürülən şəxs (özü) mömin olduğu halda, sizə düşmən olan bir tayfadandırsa (mənsub olduğu tayfa kafirdirsə), o zaman (öldürən şəxs) mömin bir qul azad etməlidir (qanbahası ödəmək lazım deyil). Əgər (öldürülən şəxs) sizinlə əhd (müqavilə) bağlamış bir tayfadan olarsa, o zaman onun ailəsinə qanbahası verməklə yanaşı mömin bir qul da azad etmək lazımdır."**

"Mucadələ" surəsinin 3-cü ayəsində buyrulur:

وَالَّذِينَ يُظَاهِرُونَ مِن نِّسَائِهِمْ ثُمَّ يَعُودُونَ لِمَا قَالُوا فَتَحْرِيرُ رَقَبَةٍ مِّن قَبْلِ أَن يَتَمَاسَّا

**“Qadınlarını (analarına bənzədərək) özlərinə haram edib sonra sözlərini geri götürənlər onlarla yaxınlıq etməzdən əvvəl bir kölə azad etməlidirlər.”**

İslam dini cəmiyyətin böyük qisminin düçar olduğu bu pis xüsusiyyəti aradan qaldırmaq üçün müxtəlif metodlardan istifadə etmişdir. Digər ayələrdə bildirilir ki, “Qul aldıqda onlarla müqavilə bağlayın və müqavilənin vaxtı bitdikdə onları azad edin”.

Digər mühüm məsələ budur ki, ərəb cəmiyyətində insanların çoxu qul-kənizlərdən ibarət idi, onların müstəqil işi və evi yox idi. Əgər İslam dini birbaşa quldarlığın qadağan olunmasını bildirsəydi və bütün qullar, kənizlər o dəqiqə azad olunsaydı, onar evsiz-eşiksiz və işsiz qalacaqdı. Ona görə ki, onlar öz sahiblərinin evində yaşayırdı və müstəqil şəkildə öz məişət ehtiyaclarını təmin etmək qabiliyyətinə malik deyildilər.

Biz ateistlərə cavab veririk ki, Quranda quldarlıq qadağan olunmuşdur. Siz hansısa bir ayədə quldarlığın əmr edildiyini deyə bilərsinizmi? Heç bir ayədə bu işə əmr olunmamışdır! Quranda əsaslı səbəblərə görə bir müddət quldarlığa icazə verilmiş və onunla tədrici şəkildə mübarizə aparılmışdır.

“Nisa” surəsinin 25-ci ayəsində buyrulur:

وَمَن لَّمْ يَسْتَطِعْ مِنكُمْ طَوْلاً أَن يَنكِحَ الْمُحْصَنَاتِ الْمُؤْمِنَاتِ فَمِن مِّا مَلَكَتْ أَيْمَانُكُم مِّن فَتَيَاتِكُمُ الْمُؤْمِنَاتِ

**“Azad, iffətli, mömin qadınlarla evlənməyə maddi imkanı olmayanlar sahib olduqları iffətli mömin cariyələrdən (kənizlərdən) ala bilərlər.**

“Bəqərə” surəsinin 178-ci ayəsində buyrulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الْقِصَاصُ فِي الْقَتْلَى الْحُرُّ بِالْحُرِّ وَالْعَبْدُ بِالْعَبْدِ

**"Ey iman gətirənlər! Öldürülənlər haqqında sizin üçün qisas hökmü qərara alınmışdır: azada qarşılıq azad, qula qarşılıq qul".**

"Nur" surəsinin 33-cü ayəsində buyrulur:

وَالَّذِينَ يَبْتَغُونَ الْكِتَابَ مِمَّا مَلَكَتْ أَيْمَانُكُمْ فَكَاتِبُوهُمْ إِنْ عَلِمْتُمْ فِيهِمْ خَيْراً وَآتُوهُم مِّن مَّالِ اللَّهِ الَّذِي آتَاكُمْ وَلَا تُكْرِهُوا فَتَيَاتِكُمْ عَلَى الْبِغَاء إِنْ أَرَدْنَ تَحَصُّناً لِّتَبْتَغُوا عَرَضَ الْحَيَاةِ الدُّنْيَا وَمَن يُكْرِههُّنَّ فَإِنَّ اللَّهَ مِن بَعْدِ إِكْرَاهِهِنَّ غَفُورٌ رَّحِيمٌ.

**(Azad olmaq üçün) yazılı məktub istəyən kölələrinizdə bir xeyir görürsünüzsə, onlarla müqavilə bağlayın. Allahın sizə verdiyi maldan onlara verin. Əgər kənizləriniz pak və ismətli qalmaq istəsələr, dünya həyatının keçici malından ötrü onları öz bədənlərini satmağa məcbur etməyin. Kim onları (bu işə) məcbur etsə, (sonra peşman olsa), Allah onların bu məcburiyyətindən sonra bağışlayan və rəhm edəndir".**

Qeyd edilən ayələr bir daha onu göstərir ki, Allah-taala onlar üçün də, evlilik və s. kimi xüsusi haqlar nəzərdə tutmuşdur. Lakin bu heç də quldarlığa əmr etmək hesab edilmir. Bir daha nəzərinizə çatdırırıq ki, Allah-taala quldarlıq və kənizliyi qadağan etmiş, onun aradan qaldırılmasında müxtəlif metod və vasitələrdən istifadə etmişdir.

**91. İRAD**

> **"Quranda Peyğəmbərin mənafeyi qorunur və ona deyilir ki, evinə gələn qonaqları evdən qova bilər. Bu haqda ayələr nazil olmuşdur".**

**Cavab**

Quranın hansı ayəsində bildirilib ki, həzrət Peyğəmbər (s) qonaqları evdən qova bilər? Peyğəmbərin (s) evinə gələn

qonaqlar haqqında "Əhzab" surəsində bir ayə nazil olmuşdur. Həmin ayə isə Allah Rəsulunun (s) evinə gələn qonaqlara ədəb-ərkan qaydalarını öyrədir. "Əhzab" surəsinin 53-cü ayəsində buyrulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَدْخُلُوا بُيُوتَ النَّبِيِّ إِلَّا أَن يُؤْذَنَ لَكُمْ إِلَى طَعَامٍ غَيْرَ نَاظِرِينَ إِنَاهُ وَلَكِنْ إِذَا دُعِيتُمْ فَادْخُلُوا فَإِذَا طَعِمْتُمْ فَانتَشِرُوا وَلَا مُسْتَأْنِسِينَ لِحَدِيثٍ إِنَّ ذَلِكُمْ كَانَ يُؤْذِي النَّبِيَّ فَيَسْتَحْيِي مِنكُمْ وَاللَّهُ لَا يَسْتَحْيِي مِنَ الْحَقِّ وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْأَلُوهُنَّ مِن وَرَاء حِجَابٍ ذَلِكُمْ أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ وَمَا كَانَ لَكُمْ أَن تُؤْذُوا رَسُولَ اللَّهِ وَلَا أَن تَنكِحُوا أَزْوَاجَهُ مِن بَعْدِهِ أَبَدًا إِنَّ ذَلِكُمْ كَانَ عِندَ اللَّهِ عَظِيمًا.

**"Ey iman gətirənlər! Sizə yemək yeməyə icazə verilməyincə Peyğəmbərin evlərinə girməyin və (təyin edilmiş vaxtdan əvvəl gəlib) yeməyin hazırlanmasını da gözləməyin. Amma dəvət olunduğunuzda girin və yemək yedikdən sonra dağılışın, söz-söhbətə oturmayın. Çünki bu hərəkətiniz Peyğəmbəri narahat edir, amma o, sizdən utanır (və heç bir söz demir). Allah isə həqiqət(i söyləmək)dən utanmır. (Peyğəmbərin) zövcələrindən (məişət əşyalarından) bir şey istədikdə, pərdə arxasından istəyin. Bu, həm sizin qəlbinizin, həm də onların qəlbinin təmiz qalması üçün daha yaxşıdır. Allahın elçisini incitməyə haqqınız yoxdur. Ondan sonra həyat yoldaşları ilə də əsla evlənməyin ki, bu, Allah yanında böyük (günahdır)".**

Qonaqlara bildirilir ki, icazəsiz Peyğəmbərin (s) evinə daxil olmayın və o qədər oturmayın ki, yemək gətirilsin. Əgər sizə icazə verilsə, daxil olun, yemək verilsə, yeyin və sonra oradan ayrılın ki, Peyğəmbəri (s) incitməyəsəniz. Yəni sizin artıq oturmağınız Peyğəmbərin (s) əziyyətinə səbəb olur. Ateistlərin söylədiklərinin əksinə, Peyğəmbərə (s) qonaqları qovmaqla bağlı icazə verilməyib, sadəcə qonaqlara ədəb

qaydaları öyrədilib ki, onlar həddən artıq müddətdə qonaq olmaqla Peyğəmbəri (s) incitməsin və həzrəti əziyyətə salmasınlar. Hətta hədislərdə bildirilir ki, qonaq kafir belə olsa, onunla yaxşı davranın və ona ehtiram edin. Belə olduğu halda, əxlaq və üstün şəxsiyyət nümunəsi olan, İslam Peyğəmbərinin (s) qonağı evindən qovması mümkündürmü? Xeyr, əsla!

**92. İRAD**

> **“Quranda ayələri sorğulamayın deyə ayə nazil olmuşdur. Yəni biz Quranın ayələri haqda sorğu-sual apara bilmərik”.**

**Cavab**

İrad tutulan ayə “Maidə” surəsinin 101-ci ayəsidir. Ayədə buyrulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَسْأَلُواْ عَنْ أَشْيَاء إِن تُبْدَ لَكُمْ تَسُؤْكُمْ وَإِن تَسْأَلُواْ عَنْهَا حِينَ يُنَزَّلُ الْقُرْآنُ تُبْدَ لَكُمْ عَفَا اللهُ عَنْهَا وَاللهُ غَفُورٌ حَلِيمٌ.

**“Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın. Əgər onlar haqqında Quran nazil edildikdə soruşsanız, onlar sizə aydın olar. Allah onları bağışlamış (və göz yummuşdur). Allah bağışlayandır, həlimdir!”**

Ayədə bildirilir ki, cavabını öyrəndikdə sizi narahat edəcəyiniz məsələləri soruşmayın. Ayədə deyilmir ki, siz ayələr haqqında heç nə soruşmayın. Quranın bəzi ayələri nazil olduqda, bir sıra insanlar önə keçərək hələ bildirilməyən məsələlər barədə soruşurdular. Ona görə də Allah-taala onlara bildirir ki, vaxtı gəlib çatmayan şeylər haqqında yersiz suallar verməyin ki, narahatçılığınıza səbəb olar. Ayə sual verməyi qadağan etmir, bildirir ki, Allah-taala vaxtı gəldikdə müəyyən məsələləri bildirəcək.

“Ənbiya” surəsinin 7-ci ayəsində buyrulur:

وَمَا أَرْسَلْنَا قَبْلَكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِمْ فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ

**“Biz səndən əvvəl də yalnız vəhy nazil etdiyimiz kişilər göndərmişdik. Əgər bilmirsinizsə, bilənlərdən (zikr əhlindən) soruşun”.**

Peyğəmbər (s) özü elə zikr əhli (bilən şəxs) idi və onun özündən bilmədiklərimizi soruşmaq əmr edilmişdir. Ateistlərin fikirləşdiyi kimi, nəyinsə soruşulması qadağan edilmir.

**93. İRAD**

**“Quranda Peyğəmbərin, oğulluğu Zeydin arvadı ilə evlənə bilməsi üçün ayə var və bu bəyənilən bir iş deyil, bunu qəbul etmirik”.**

**Cavab**

Söhbət “Əhzab” surəsindəki 37-ci ayədən gedir və ayədə Allah-taala Peyğəmbərin (s) oğulluğu Zeydin boşadığı qadınla evlilik məsələsini önə çəkir. Ateistlər də həmin ayəyə irad tutaraq bunun Peyğəmbərə (s) yaraşan bir iş olmadığını bildirirlər. “Əhzab” surəsinin 37-ci ayəsində buyrulur:

وَإِذْ تَقُولُ لِلَّذِي أَنْعَمَ اللهُ عَلَيْهِ وَأَنْعَمْتَ عَلَيْهِ أَمْسِكْ عَلَيْكَ زَوْجَكَ وَاتَّقِ اللهَ وَتُخْفِي فِي نَفْسِكَ مَا اللهُ مُبْدِيهِ وَتَخْشَى النَّاسَ وَاللهُ أَحَقُّ أَن تَخْشَاهُ فَلَمَّا قَضَى زَيْدٌ مِّنْهَا وَطَراً زَوَّجْنَاكَهَا لِكَيْ لَا يَكُونَ عَلَى الْمُؤْمِنِينَ حَرَجٌ فِي أَزْوَاجِ أَدْعِيَائِهِمْ إِذَا قَضَوْا مِنْهُنَّ وَطَراً وَكَانَ أَمْرُ اللهِ مَفْعُولاً.

**“Bir zaman Allahın nemət verdiyi və sənin özünün nemət verdiyin kəsə (oğul çağırdığın Zeydə): “Zövcəni saxla, Allahdan qorx!” – deyirdin (və bunu dəfələrlə təkrar edirdin). Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki əslində qorxmalı olduğun**

**məhz Allahdır. Zeyd zövcəsini boşadıqda səni onunla evləndirdik ki, oğulluqları arvadlarını boşadıqları zaman möminlərin onları almasında heç bir sıxıntı olmasın. Allahın əmri, mütləq, yerinə yetəcəkdir".**

Nəzərinizə çatdırırıq ki, Zeyd Allah Rəsulunun (s) doğma oğlu deyildi, oğulluğu idi. Əslində şəri hökmlərə əsasən, insanın gəlini ona məhrəmdir və insan öz məhrəmləri ilə evlənə bilməz. Zeyd isə Peyğəmbərin (s) oğulluğu idi və onun arvadı Peyğəmərə (s) məhrəm deyildi. Cahil ərəblər arasında belə bir ənənə vardı ki, onlar oğulluğa götürdükləri kəsləri özlərinin doğma övladı hesab edirdi, bununla da nəsil qarışırdı. Onların arvadları ilə (övladları boşandıqları halda) evlənmək olmazdı. Allah-taala cahiliyyət hökmləri və qaydalarını aradan qaldırmaq, onlarla mübarizə aparmaq məqsədilə ayələr nazil etmişdi. Sözügedən ayə həmin məsələ ilə bağlıdır, ayə cahiliyyət ənənəsini aradan qaldırmaq üçün nazil olmuşdur. Ateistləri bu məsələdə narahat edən şey nədir? Əgər özünüzü qeyrətli hesab edib deyirsiniz ki, oğulluğu da olsa, Peyğəmbər (s) bu işi görməməlidir, biz belə cavab veririk:

**Birincisi,** Zeyd Peyğəmbərin (s) həqiqi övladı deyildi, oğulluğu idi və gəlin də həzrətə naməhrəm idi.

**İkincisi,** Zeyd ölsəydi, arvadı başqası ilə evlənə bilərdi və bu halda siz ona irad tutmayacaqdınız, çünki həmin şəxs naməhrəm və yad bir şəxs olacaqdı. Bu halda Peyğəmbər (s) də o qadına yad və naməhrəm idi və həzrətin həmin qadınla evlənməsində heç bir qəbahətli iş yoxdur.

**Üçüncüsü,** axı siz ateistlər İslam dini, kəbin məsələlərinə etiqadınız yoxdur və evlilik məsələlərində əqdi əsas saymırsınız. Belə olduğu halda necə İslam Peyğəmbərinə (s) evlilik məsələsində irad tutmağa cürət edirsiniz? Yəni sizin özünüz Allahın insanlar üçün təyin etdiyi əqd və kəbin məsələsindən

uzaq və xəbərsiz olduğunuz halda, necə belə sözlər deyə bilirsiniz? Əslində, burada irad tutulmalı kəslər var, o da siz özünüzsüz. Ona görə ki, sizdə bəyənilən və Allahın insanlar üçün təyin etdiyi qanunlarla uyğunlaşan heç bir şeyiniz yoxdur. Düşünürük, qeyd olunanlar mətləbin aydınlaşmasına kifayət edər.

### 94. İRAD

**"Dünyada haram və qadağan edilən zina, spirtli içkilərin Axirətdə Allah tərəfindən möminlərlə mükafat kimi veriləcəyi Quranda qeyd olunmuşdur. Bunu necə başa düşmək lazımdır?"**

**Cavab**

Bu iradda söhbət dünyadakı zina və spirtli içkilərdən, onların Axirətdə mükafat kimi möminlərə veriləcəyindən gedir. Nə bu kimi haram işləri görən şəxslər, əsla, cənnətə gedə bilməz, nə də həmin çirkin əməllər cənnətdə olmayacaq. Quran ayələrində qeyd edilən içkilər haram və spirtli, məstedici, insan ağlını əlindən alan içkilər deyil. Bu, təmiz və pak içkilər olacaq və Allah-taala möminlərə onu mükafat olaraq təqdim edəcəkdir.

Digər tərəfdən, Allah-taala həmin çirkin əməllərə görə cənnətdə mükafat verəcəyini hansısa bir ayədə qeyd etmişdirmi? Siz buna dair bir dəlil göstərə bilərsinizmi? Belə bir məsələ Quranın heç bir ayəsində yoxdur. Əksinə, qadağan edilən əməllərdən çəkinməyin əvəzində Allahın möminlərə halal və pak qadınlar, pak içkilər verəcəyi bildirilmişdir. Yəni bu pis əməllərdən çəkinənlərə mükafat olaraq cənnətdə hurilərlə evlənmək, pak və halal içkilər vəd olunmuşdur.

Quranın əksər ayələrində “əzvacun mutəhhərə” (paklanmış qadınlar) ifadəsi ilə halal və pak qadınların veriləcəyi bildirilir. Qeyd edilən içkilər, dünyadakı içkilərindən fərqli olaraq, spirtli və məstedici deyil, pak və halal içkilərdir ki, cənnət əhlinə veriləcək.

### 95. İRAD

**“Quranı qəbul etmirik, çünki Quranda namazın qılınma qaydası göstərilmir”.**

**Cavab**

Əgər Quranda namazın qılınma qaydası bütün təfərrüatı ilə bildirilsəydi, siz Quranı qəbul edəcəkdinizmi? Cavabınız “bəli” olsa, yalan danışmış olarsınız. Çünki iradlarınız bunlarla bitmir və açıq-aşkar cavablar verilməsinə baxmayaraq qəbul etmirsiniz. Desəz ki, namazın qılınma qaydası bəyan olunsaydı belə, qəbul etməyəcəkdik, cavabımız belədir: Siz ateistsiniz axı, bunların sizə heç bir aidiyyatı yoxdur, namaz müsəlmanlar və Allaha inanclı insanlar üçündür. Siz isə Allaha inanmırsınız. Quran müsəlmanların kitabıdır və onlar onun hökm və təfsirindən xəbərdardırlar.

“Nəhl” surəsinin 44-cü ayəsində buyrulur:

بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ.

**“Aydın dəlillər və (əvvəlki peyğəmbərlərə göndərilən) kitabları (bilənlərdən soruşun). Biz bu zikri (Quranı) sənə nazil etdik ki, insanlara göndəriləni onlara izah edəsən və bəlkə düşünələr”.**

Nəzərinizə çatdırmaq istərdik ki, Quran vəhy olaraq İslam peyğəmbərinə (s) nazil olub və ümumi qanunlardan bəhs edir. Onun cüzi məsələlərinin izahı Peyğəmbər (s) və onun pak olan Əhli-beytinin (ə) öhdəsindədir. Peyğəmbər (s) də öhdəsinə

düşənləri insanlara çatdırmış və namazın qəlınma qaydasını müsəlmanlara öyrətmişdir. Qeyd edilən ayə də deyilənləri təsdiqləyir və Allah-taala bildirir ki, "Biz Quranı insanlara izah edəsən deyə sənə nazil etdik". Yəni Quranda külliyyat qeyd olunsa da, onun cüzi məsələləri Peyğəmbər (s) tərəfindən izah edilmişdir. Bu məsələ ateistlərdən fərqli olaraq müsəlmanlar üçün qaranlıq deyil.

### 96. İRAD

**"Biz Quranı qəbul etmirik, çünki orada bildirilir ki, "harada görsəniz, öldürün". Bir sözlə, Quran öldürməyə əmr edir".**

**Cavab**

Quran kimi öldürməyi əmr edir? Quran bildirir ki, bir-birinizi öldürün? Əlbəttə, bu, yalandır və Quranda belə bir şeyə əmr olunmur. Və ya möminləri, yaxşı insanları öldürməyi bəyan edir? Bu, yalan və əsassız bir iddiadır. "Nisa" surəsinin 93-cü ayəsində buyrulur:

وَمَن يَقْتُلْ مُؤْمِناً مُّتَعَمِّداً فَجَزَآؤُهُ جَهَنَّمُ خَالِداً فِيهَا وَغَضِبَ اللّهُ عَلَيْهِ وَلَعَنَهُ وَأَعَدَّ لَهُ عَذَاباً عَظِيماً.

**"Mömin bir şəxsi qəsdən öldürən adamın cəzası əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəb və lənət edər, (axirətdə) onun üçün böyük bir əzab hazırlayar!"**

Bəlkə qeyri-müsəlmanları öldürmək əmr olunur? "Ali İmran" surəsinin 64-cü ayəsində buyrulur:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئاً وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَاباً مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ.

**"De: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan "Allahdan başqasına ibadət etməyək, heç nəyi ona tay**

**tutmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" kəlməsinə tərəf gəlin! Əgər onlar (bu çağırışdan da) üz döndərsələr, o zaman deyin: "Şahid olun ki, biz müsəlmanıq!"**

Allah-taala müsəlmanları deyil, hətta qeyri-müsəlmanları da vəhdətə və onlar arasında müştərək olan bir məsələyə dəvət edir; onlar arasında ixtilaf, müharibə və s.-nin baş verməsini istəmir və onları sülhə dəvət edir. Yəni Quranda radikallıq yoxdur. Beləysə, ateistlər nəyə istinadən belə bir iddianı ortaya atırlar? Həmçinin onu qeyd etmək istərdik ki, Qurani-Kərimdə ateistlərin sui-istifadə edərək istinad etdiyi bir sıra ayələr yer alır. Aşağıda həmin ayələri nəzərinizə çatdırmaq istərdik:

"Bəqərə" surəsinin 190-cı ayəsində buyrulur:

وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبِّ الْمُعْتَدِينَ.

**"Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddi aşmayın. Allah həddi aşanları sevmir".**

Bu ayədə Allah-taala möminlərlə vuruşan və onları öldürməyə çalışanları öldürmək, yəni müdafiə olunmaq əmri verir. "Bəqərə" surəsinin 191-ci ayəsində buyrulur:

وَاقْتُلُوهُمْ حَيْثُ ثَقِفْتُمُوهُمْ وَأَخْرِجُوهُم مِّنْ حَيْثُ أَخْرَجُوكُمْ وَالْفِتْنَةُ أَشَدُّ مِنَ الْقَتْلِ وَلاَ تُقَاتِلُوهُمْ عِندَ الْمَسْجِدِ الْحَرَامِ حَتَّى يُقَاتِلُوكُمْ فِيهِ فَإِن قَاتَلُوكُمْ فَاقْتُلُوهُمْ كَذَلِكَ جَزَاء الْكَافِرِينَ.

**"Onları (heç bir cinayətdən çəkinməyən bütpərəstləri) harada tapsanız, öldürün. Sizi çıxartdıqları yerdən (Məkkədən) siz də onları çıxardın. Fitnə (və bütpərəstlik) qətldən daha pisdir. Onlar sizinlə Məscidül-həram yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Əgər sizinlə (orada) vuruşsalar, siz də onları öldürün. Kafirlərin cəzası belədir".**

"Bəqərə" surəsinin 193-cü ayəsində buyrulur:

وَقَاتِلُوهُمْ حَتَّى لاَ تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ لِلّهِ فَإِنِ انتَهَواْ فَلاَ عُدْوَانَ إِلاَّ عَلَى الظَّالِمِينَ.

**"Fitnə (bütpərəstlik və əsarət) aradan qalxana qədər və din yalnız Allaha məxsus olanadək onlarla vuruşun. Əgər onlar (yanlış hərəkətlərə) son qoysalar, (onları sıxışdırmayın, çünki) düşmənçilik yalnız zülm edənlərə qarşı olur".**

Allahın nəzərində insanın həyatı dəyərlidir və onları öldürmək olmaz. Amma qeyd edilən ayələrdən Allah-taalanın təcavüzkarlarla, müharibə törədənlərlə bu cür rəftar etməyi, yəni fəsadın qarşısının alınması üçün onları öldürməyi əmr etdiyi başa düşülür. Allah-taala möminlərə müdafiə olunmağı əmr edir.

"Nisa" surəsinin 90-cı ayəsində buyrulur:

إِلاَّ الَّذِينَ يَصِلُونَ إِلَىَ قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَاقٌ أَوْ جَآؤُوكُمْ حَصِرَتْ صُدُورُهُمْ أَن يُقَاتِلُوكُمْ أَوْ يُقَاتِلُواْ قَوْمَهُمْ وَلَوْ شَاء اللّهُ لَسَلَّطَهُمْ عَلَيْكُمْ فَلَقَاتَلُوكُمْ فَإِنِ اعْتَزَلُوكُمْ فَلَمْ يُقَاتِلُوكُمْ وَأَلْقَوْاْ إِلَيْكُمُ السَّلَمَ فَمَا جَعَلَ اللّهُ لَكُمْ عَلَيْهِمْ سَبِيلاً.

**"Ancaq sizinlə müqaviləsi olanlarla müqaviləsi olan, yaxud sizinlə və ya öz qövmlərilə vuruşmaqdan təngə gələrək yanınıza gələn şəxslər müstəsnadır. Əgər Allah istəsəydi, onları sizin üstünüzə qaldırardı və onlar da sizinlə vuruşardılar. Əgər onlar sizdən aralanıb bir tərəfə çəkilsələr və sizinlə vuruşmayıb sülh təklif etsələr, o zaman Allah sizə onların əleyhinə çıxmağa icazə verməz".**

"Nisa" surəsinin 91-ci ayəsində buyrulur:

سَتَجِدُونَ آخَرِينَ يُرِيدُونَ أَن يَأْمَنُوكُمْ وَيَأْمَنُواْ قَوْمَهُمْ كُلَّ مَا رُدُّوَاْ إِلَى الْفِتْنِةِ أُرْكِسُواْ فِيِهَا فَإِن لَّمْ يَعْتَزِلُوكُمْ وَيُلْقُواْ إِلَيْكُمُ السَّلَمَ وَيَكُفُّوَاْ أَيْدِيَهُمْ فَخُذُوهُمْ وَاقْتُلُوهُمْ حَيْثُ ثِقِفْتُمُوهُمْ وَأُوْلَـئِكُمْ جَعَلْنَا لَكُمْ عَلَيْهِمْ سُلْطَاناً مُّبِيناً.

**"Tezliklə siz elə kəslərə də rast gələcəksiniz ki, onlar həm sizdən, həm də öz camaatından arxayın olmaq istərlər. (Sizin yanınızda özlərini müsəlman kimi, qəbilələrinə qayıtdıqda isə kafir kimi aparırlar). Hər dəfə fitnə-fəsad törətməyə sövq edildikdə cani-dildən bu işə qoşularlar. Əgər onlar sizi tərk edib getməsələr, sülh təklif etməsələr və sizdən əl çəkməsələr, onda onlara harada rast gəlsəniz, əsir alın və (ya) öldürün. Biz sizi onlara açıq-aşkar qalib etdik".**

"Nisa" surəsinin 89-cu ayəsində buyrulur:

وَدُّواْ لَوْ تَكْفُرُونَ كَمَا كَفَرُواْ فَتَكُونُونَ سَوَاء فَلاَ تَتَّخِذُواْ مِنْهُمْ أَوْلِيَاء حَتَّى يُهَاجِرُواْ فِي سَبِيلِ اللهِّ فَإِن تَوَلَّوْاْ فَخُذُوهُمْ وَاقْتُلُوهُمْ حَيْثُ وَجَدتَّمُوهُمْ وَلاَ تَتَّخِذُواْ مِنْهُمْ وَلِيّاً وَلاَ نَصِيراً.

**"Onlar sizin də onlar kimi kafir və bir-birinizə bərabər olmanızı istərlər. Buna görə də onlar (tövbə edib) Allah yolunda hicrət etməyənə qədər onlardan (özünüzə) dost seçməyin! Əgər bundan imtina etsələr (və sizə qarşı fəaliyyətlərindən əl çəkməsələr), onları harada görsəniz, tutun, (təhlükə hiss etdikdə) öldürün. Onların arasından özünüzə nə bir dost, nə də bir köməkçi seçin!"**

"Tövbə" surəsinin 5-ci ayəsində buyrulur:

فَإِذَا انسَلَخَ الأَشْهُرُ الْحُرُمُ فَاقْتُلُواْ الْمُشْرِكِينَ حَيْثُ وَجَدتُّمُوهُمْ وَخُذُوهُمْ وَاحْصُرُوهُمْ وَاقْعُدُواْ لَهُمْ كُلَّ مَرْصَدٍ فَإِن تَابُواْ وَأَقَامُواْ الصَّلاَةَ وَآتَوُاْ الزَّكَاةَ فَخَلُّواْ سَبِيلَهُمْ إِنَّ اللهَّ غَفُورٌ رَّحِيمٌ.

**"Haram aylar çıxdıqdan sonra müşrikləri harada görsəniz, öldürün, əsir götürün, mühasirəyə alın və bütün yollarını – keçidlərini tutun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah bağışlayandır, rəhm edəndir!"**

Müşriklər cinayətlər törədir, qız övladlarını diri-diri basdırırdılar. Onların törətdiyi cinayətlərin cəzası öldürülmək idi. Bu işlərdən əl çəkib tövbə etsəydilər, onları öldürmək qadağan idi və Allah-taala da, bütün müşrikləri öldürməyə deyil, məhz buna əmr edir.

Ateistlərə sual veririk: Sizin yanınızda bu işləri törədən kəslərə qarşı hansısa bir tədbir görməyəcəksiniz? Məlum məsələdir ki, onlar da istənilən vasitəylə cinayətlərin qarşısını almağa çalışacaq. Belə isə Quranın həmin ayələrindən sui-istifadə edərək irad tutmaq məntiqsizdir.

**97. İRAD**

**“Quran ayın bölündüyünü bildirir”.**

**Cavab**

Müşkirlər İslam peyğəmbərindən (s) möcuzə olaraq aya işarə etməsini və nəticədə onun bölünməsini istədilər. Allah Rəsulu (s) da möcüzə göstərdi və ayə işarə etdikdə, ay ikiyə parçalandı. Quranın “Qəmər” surəsinin 1-ci ayəsində buyrulur:

اقْتَرَبَتِ السَّاعَةُ وَانشَقَّ الْقَمَرُ.

**“Qiyamət yaxınlaşdı və ay bölündü”.**

İndi soruşmaq lazımdır: Axı burada ayın bölünməsində problem nədir? Ayın bölünməsi sizi nə üçün bu qədər narahat edir? Baş verən və möcüzə olan bir hadisənin Quranda bildirilməsi sizi nə üçün bu qədər narahat edir?

Onlar cavab verə bilər ki, bu məsələ kitablarda qeyd olunmamış, alimlər bildirməmişlər və tarixdə belə bir hadisə yer almır. Soruşuruq: Siz hansı kitabları nəzərdə tutursunuz, müsəlmanların yazdığı kitabları, yoxsa keçmiş insanların şahidliyindən danışırsınız? İslami kitablarda həmin məsələ qeyd olunmuşdur. “Məfatihul-ğəyb”, “Məalimut-tənzil”, “Əl-

Muhərrərul-vəciz", "Lubabut-təvil", "Əl-Kəşfu vəl-bəyan", "Əl-Kəşşaf", "Məcməul-bəyan", "Ruhul-məani", "Nurus-səqələyn", "Əl-Bəyan", "Əl-Mizan" və s. təfsir kitablarında həmin məsələ qeyd edilmişdir.

"Əl-Mizan"da ayənin təfsirində belə qeyd edilib:

واتفق اهل الحديث والمفسرون على قبولها

Yəni Əhli-hədis və təfsirçilər bu hadisənin baş verdiyi məsələsində həmfikirdirlər. İbn Kəsirin "Sireyi nəbəvi" kitabında da həmin məsələ qeyd edilmişdir. Müsəlmanların kitablarında ayın parçalanması qələmə alınmışdır.

Digər tərəfdən, qeyri-müsəlmanların kitablarında bu qeyd olunmayıbsa, o demək deyil ki, həmin hadisə baş verməyib. Həmçinin, onlar İslamı qəbul etmirdilər ki, onun lehinə öz kitablarında dəlil olaraq bu möcüzəni qeyd etmiş olsunlar. Mötəbər kitablarda bu, qeyd edilib və elm əhli onu nəzərə çatdırmışdır.

**Ateistlər deyə bilər ki, necə oldu ki, digər məntəqələrdəki insanlar bunu müşahidə etmədilər?**

Nəzərinizə çatdırırıq ki, müxtəlif məntəqələrdə nəinki belə bir möcüzənin, hətta ayın özünün belə görünməməsi mümkündür. Yəni bir məntəqədə ay görsənə, digərində isə görsənməyə bilər və elm bunu sübuta yetirmişdir. Peyğəmbər (s) zamanında da möcüzə istəyən kəslərə möcüzə göstərilirdi və bu demək deyildi ki, hamı onu görməlidir.

Biz digər bir sualla ateistlərə müraciət etmək istərdik: Bu hadisənin baş verməməsinə dair sizin hansı dəliliniz var? Heç bir dəliliniz yoxdur.

**98. İRAD**

> **“Biz Quranı qəbul etmirik, çünki Quranda yerin düz olması bildirilmişdir. Yəni Yer dairəvi şəkildədir, Quranda isə bunun əksi bəyan olunur”.**

**Cavab**

Qurandakı həmin ayəni bizə göstərməyi və Quranda bəşəriyyətə belə bir məsələnin bildirdiyinə dair dəlil gətirmələrini ateistlərdən tələb edirik. Hər hansı bir ayəni yanlış anlayıb nəyisə iddia etmək bizim deyil, onların nöqsanıdır. Yəni onlar səhvən dünyanın düz formada olduğunu anlayırsa, bunun bizə nə aidiyyatı var?

Digər tərəfdən, Quranda yerin dairəvi olması və digər planetlərlə bağlı məsələlər işarə ilə bildirilmişdir. Çünki, bu elə də önəmli bir məsələ deyildir və insanların etiqadında təsirli rol oynamır. Bir sözlə, onun düz və ya dairəvi olub-olmaması insanın etiqadına təsir etmir. “Məaric” surəsinin 40-cı ayəsində Allah-taala buyurur:

فَلَا أُقْسِمُ بِرَبِّ الْمَشَارِقِ وَالْمَغَارِبِ إِنَّا لَقَادِرُونَ.

**“And olsun gündoğanların və günbatanların Rəbbinə! Biz qadirik”.**

Əgər dünya düz olsaydı, bir gündoğan (məşriq) və bir günbatan (məğrib) olacaq və günəş bir anda doğacaq, bir anda da batacaqdı. Halbuki məsələ bunun əksinədir, yəni Yer kürəsi düz yox, dairəvi formadadır. Həmin səbəbdən günəşin doğması və batması kimi hadisələr bir anda deyil, tədrici olaraq baş verir və həyata keçir. Allah-taala Ali İmran surəsinin 27-ci ayəsində buyurur:

تُولِجُ اللَّيْلَ فِي الْنَّهَارِ وَتُولِجُ النَّهَارَ فِي اللَّيْلِ وَتُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ وَتُخْرِجُ الَمَيَّتَ مِنَ الْحَيِّ وَتَرْزُقُ مَن تَشَاء بِغَيْرِ حِسَابٍ.

**"Sən gecəni gündüzə, gündüzü isə gecəyə daxil edirsən; ölüdən diri, diridən isə ölü çıxarırsan. Sən istədiyin kəsə hesabsız ruzi verirsən".**

Ayədəki "tulicu" sözü "tədrici" mənanı ifadə edir. Yəni gecə və gündüz bir-birini tədrici olaraq əvəz edir. Bu məsələ də Yer kürəsinin dairəvi olmasını sübuta yetirir.

## 99. İRAD

**"Quran ayələrində kimin danışdığı məlum deyil. Bəzi yerlərdə "mən", bəzi yerdə "o", bəzi yerdə isə "biz" deyə bildirilib. Burada danışanın Allah, Peyğəmbər və ya başqa bir şəxs olduğu anlaşılmır".**

**Cavab**

Maraqlıdır, siz Quranı ərəbcə oxuya bilirsinizmi və ya onun azərbaycanca tərcüməsini sonuna qədər oxumusunuzmu? Bütün dillərdə şəxs əvəzlikləri var və bütün düşüncələr yalnız bir şəxs əvəzliyi ilə ifadə olunmur. Həmin qayda Quranda da tətbiq olunur.

Bəzən Allah Özü xitab edir, məsələn "Mənə ibadət edin", bəzən Peyğəmbərin (s), bəzən də mələklərin dilindən danışılır. Ateistlərin dediyinin əksinə, Quranda heç də məchul və naməlum bir cümlə yoxdur. Əlbəttə, Əlif Lam Mim, Sad və s. bu kimi "müqəttəə" hərfləri istisnadır, onların sirri Peyğəmbər (s) və imamlara (ə) məlumdur. Yəni, əslində, məchul bir məsələ və ya cümlə yoxdur. Tamamilə qaranlıq qalan bir şey varsa, o da ateistlər üçün qaranlıq qalan bir məsələdir.

Əgər nəsə iradları varsa, həmin ayələri misal çəksinlər və biz onların izahını verək, onların düşüncələrindəki məchulluq aradan qalxsın.

Allahın köməyi ilə kitabın ikinci cildində ateistlərin digər iradlarına cavab verəcəyik. Allah taaladan hamınız üçün uğurlar diləyirik.

**Vəs-Səlamu əla mən ittəbəl huda!**

# MÜNDƏRİCAT


**Ön söz........................................................................................................3**

**1.İRAD ........................................................................................................8**

**2. İRAD........................................................................................................10**

**3. İRAD........................................................................................................12**

**4. İRAD........................................................................................................13**

**6. İRAD........................................................................................................22**

**7.İRAD........................................................................................................25**

**8. İRAD........................................................................................................26**

**9. İRAD........................................................................................................26**

**11. İRAD......................................................................................................28**

**12. İRAD......................................................................................................32**

**13. İRAD......................................................................................................34**

**14. İRAD......................................................................................................37**

**15. İRAD......................................................................................................39**

**16. İRAD......................................................................................................40**

**17. İRAD......................................................................................................41**

**19. İRAD......................................................................................................45**

**20. İRAD......................................................................................................47**

**22. İRAD......................................................................................................49**

**23. İRAD......................................................................................................50**

**24. İRAD......................................................................................................54**

**25. İRAD......................................................................................................55**

**27. İRAD......................................................................................................61**

**28. İRAD......................................................................................................70**

**29.İRAD......................................................................................................72**

**30. İRAD......................................................................................................76**

**31. İRAD......................................................................................................78**

**34. İRAD......................................................................................................86**
**36. İRAD......................................................................................................95**
**39. İRAD......................................................................................................99**
**42. İRAD......................................................................................................102**
**43. İRAD......................................................................................................102**
**44. İRAD......................................................................................................103**
**46. İRAD......................................................................................................105**
**47. İRAD......................................................................................................106**
**48. İRAD......................................................................................................106**
**49. İRAD......................................................................................................108**
**50. İRAD......................................................................................................110**
**51. İRAD......................................................................................................112**
**52. İRAD......................................................................................................113**
**53. İRAD......................................................................................................115**
**54. İRAD......................................................................................................118**
**55. İRAD......................................................................................................119**
**56. İRAD......................................................................................................119**
**57.İRAD......................................................................................................120**
**58. İRAD......................................................................................................121**
**59. İRAD......................................................................................................122**
**60. İRAD......................................................................................................122**
**62. İRAD......................................................................................................125**
**63. İRAD......................................................................................................128**
**64. İRAD......................................................................................................129**
**65. İRAD......................................................................................................131**
**67. İRAD......................................................................................................136**
**68. İRAD......................................................................................................145**
**69. İRAD......................................................................................................146**
**70. İRAD......................................................................................................148**

**71. İRAD......................................................................................................... 150**
**72. İRAD......................................................................................................... 151**
**75. İRAD......................................................................................................... 158**
**76. İRAD......................................................................................................... 160**
**77. İRAD......................................................................................................... 162**
**78. İRAD......................................................................................................... 164**
**79. İRAD......................................................................................................... 165**
**80. İRAD......................................................................................................... 166**
**81. İRAD......................................................................................................... 167**
**82. İRAD......................................................................................................... 167**
**83. İRAD......................................................................................................... 169**
**84. İRAD......................................................................................................... 171**
**85. İRAD......................................................................................................... 172**
**86. İRAD......................................................................................................... 174**
**87. İRAD......................................................................................................... 176**
**88. İRAD......................................................................................................... 179**
**89. İRAD......................................................................................................... 180**
**91. İRAD......................................................................................................... 186**
**92. İRAD......................................................................................................... 188**
**93. İRAD......................................................................................................... 189**
**94. İRAD......................................................................................................... 191**
**95. İRAD......................................................................................................... 192**
**96. İRAD......................................................................................................... 193**
**97. İRAD......................................................................................................... 197**
**98. İRAD......................................................................................................... 199**
**99. İRAD......................................................................................................... 200**